AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ




## ELMİ ƏSƏRLƏR TOPLUSU

### XÜSUSİ BURAXILIŞ

Bakı – 2024

ISSN 2409-0859

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

**MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ – 140**

**ELMİ ƏSƏRLƏR TOPLUSU**

**XÜSUSİ BURAXILIŞ**

**Bakı – 2024**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Məhəmməd Emin Rəsulzadə-140. Xüsusi buraxılış, 2024, 118 s.

**Elmi redaktor:** **Rafail Əhmədli**
Fəlsəfə elmləri doktoru, professor

**Rəyçilər:** **Səməd Bayramzadə**
Tarix üzrə fəlsəfə doktoru, dosent

**Vaqif Sultanlı**
Filologiya elmləri doktoru, professor

# ÖN SÖZ

Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılığından və qurucularından sayılan görkəmli ictimai-siyasi, dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə bütün mənalı və eləcə də şüurlu həyatını milli dövlətçiliyimizin, müstəqilliyimizin yaradılmasına və qorunmasına həsr etmiş, millət, dövlət naminə apardığı son dərəcə məşəqqətli mübarizədə qarşısına çıxan bütün çətinliklərə sinə gəlmiş, özünün təbirincə desək, "heç nədən bir şey yaradaraq" müstəqil Azərbaycan, millət və Vətən, azad insan və azad cəmiyyət sevgisini, amalını daima uca tutmuşdur. Siyasi baxışlarında dövlətçilik maraqları ilə şəxsi maraqları mahiyyət və məzmunca tarazlaşdırmağı və tənzimləməyi, zəruri məqamda isə milli dövlət maraqlarının fərdi maraqlardan üstünlüyünü yaddaşlarda həkk etdirməyi bacarmaq məharətinə malik olan böyük azərbaycanlı M.Ə. Rəsulzadənin ictimai-siyasi fəaliyyəti Azərbaycanın müstəqillik tarixi uğrunda apardığı mübarizənin mühüm mərhələsini (XX əsrin əvvəllərindən ortalarınadək) təşkil edir.

Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 30 dekabr 2023-cü il tarixli sərəncamında deyildiyi kimi "Məhəmmd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai tarixində xüsusi yer tutur".

Uzun illər ərzində də o, müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır. Ən önəmlisi isə o dövlətçilik ənənələrinin bərqərar olmasında türkçülük, azərbaycançılıq məfkurəsinə söykənərək geriyə dönməzliyin prinsiplərini təmin etmiş, işıqlı sabaha doğru ünvanlanan müstəqil Azərbaycanın dövlətçilik tarixinin sütunlarına söykənən mükəmməl siyasət fəlsəfəsinin əsasını qoymuşdur. Və bu mənada M.Ə.Rəsulzadə ana Vətənə, millətə olan ülvi məhəbbətini gendən, ulu əcdadlarımızdan, tarixi yaddaşımızdan gələn, başqa sözlə, Azərbaycan adlanan məmləkətin sosial təbiətini və insanlarını ülvi duyğularla sevmək məfkurəsi – bütün dövrlər, qərinələr, zamanlar üçün əbədiyaşar məşəltək alovlanan, tükənməz bir milli-mənəvi, əxlaqi tərbiyəyə, milliliyi müstəqil dövlətçiliklə özündə təcəssüm etdirən mükəmməl bir təbliğat vasitəsidir.

M.Ə.Rəsulzadə öz məsləkdaşları ilə birlikdə insan ağlına sığmayan möhtəşəm əməlləri sayəsində Azərbaycanı dünyaya tanıtdırmış, cəmiyyət üzvlərini bir araya gətirərək, onları kimliyindən, mənliyindən, dini və milli mənsubiyyətindən asılı olmayaraq, qərinələr və əsrlər boyu yaşayacaq bir xalq, bir gerb və bir himn, bir bayraq və bir dövət halında birləşdirmişdir.

Görkəmli mütəfəkkir həmçinin öz siyasi əqidəsində və siyasi mübarizəsində daima varislik və müasirlik prinsiplərini rəhbər tutaraq, zaman və məkan hadisələrinə böyük həssaslıqla yanaşmış, mədəni-tarixi irslə bağlı çılpaq inkara deyil, inkarın inkarına üstünlük verirdi.

Eyni zamanda bəzi ictimai dairələr, həmçinin M.Ə.Rəsulzadə irsi, yaradıcılığı ilə dərindən tanış olmayan bəzi tədqiqatçılar onu daha çox publisist yazıların və silsilə məqalələrin müəllifi kimi tanıyırlar. Əslində isə o, ədəbi-ictimai, sosial-siyasi, milli-mədəni problemlərin fundamental aspektlərinin həm nəzəri, həm də praktiki əsaslarının dərin elmi, konseptual təhlilini vermiş, bir çox iri həcmli əsərləri ərsəyə gətirmiş görkəmli bir tarixi şəxsiyyət olmuşdur. M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti", "Əsrimizin Siyavuşu", "Qafqaz türkləri", "Azərbaycan şairi Nizami", eləcə də "Qaranlıqlarda işıqlar" və "Nagəhan bəla" adlı pyesləri onun yaradıcılığı ilə bağlı dediklərimizi əyani şəkildə sübut edir. Öz unikallığı və universallığı ilə seçilən M.Ə. Rəsulzadə tərcümə sahəsində də önəmli işlər görmüşdür. O, Üzeyir Hacıbəyovun 1907-ci ildə hazırladığı "Türk-rus və rus-türk lüğəti"nin nasiri olmuş, həmin ildə

professor A.Blyumin "Fəhlə sinifinə hansı azadlıq lazımdır" kitabını Azərbaycan-türk dilinə tərcümə etmişdir. Təsadüfi deyildir ki, o öz doğma türk-azərbaycan dilləri ilə yanaşı, eyni zamanda xarici dillərin öyrənilməsinə böyük əhəmiyyət vermiş, bu səbəbdən də rus, alman, fransız, polyak, rumın, fars dillərinin öyrənilməsində də böyük uğurlar qazanmışdı. M.Ə.Rəsulzadənin millət və dövlət qarşısında göstərdiyi əvəzsiz xidmətlər sırasında xüsusi önəm kəsb edən bir neçə məqamı qeyd etməyi özümüzə borc bilərik.

- 1918-ci il may ayının 28-də müsəlman Şərqində ilk dəfə Demokratik Respublika qurmuş M.Ə.Rəsulzadə və onun məsləkdaşları qadın hüquqlarının və azadlıqlarının qarantı kimi çıxış edərək, parlamentdə onların təmsil olunması ideyasını bir çox dünyanın inkişaf etmiş ölkələrindən də əvvəl irəli sürmüşlər.

- Yeni seçilmiş parlamentdə aparıcı xalq sayılan türk-azərbaycan milləti ilə yanaşı, Azərbaycanda yaşayan bütün xalqların, o cümlədən milli azlıqların və azsaylı etnosların təmsil olunmasının təşəbbüskarlarından biri də M.Ə.Rəsulzadə olmuşdur.

- Ölkə daxilində və xaricində mövcud çətinliklərə baxmayaraq, elm və təhsil sistemində, ana dilinin tədrisində və təbliğində peşəkar kadrların azlığı, maliyyə qıtlığı, dövlət siyasəti ilə bağlı bəzi tədbirlərin keçirilməsində cəmiyyət üzvlərinin bir çoxunun taleyüklü məsələlərə biganə qalmaması, ordunun yaradılmasında və ictimai həyatın digər sahələrində yaşanan problemlər dövlət quruculuğu istiqamətində atılan və atılacaq addımları ləngidirdi. Lakin yaranan bütün bu çətinliklərə baxmayaraq, onların aradan qaldırılması ilə bağlı bir sıra uğurlu tədbirlər də həyata keçirilirdi. Buna misal olaraq 1919-cu il sentyabr ayının 1-də məhz M.Ə.Rəsulzadənin təşəbbüsü ilə elm və təhsilin gələcək inkişafına təkan verəcək Bakı Dövlət Universitetinin açılışını göstərmək olar.

Bir sözlə, müasir və müstəqil Azərbaycan dövlətinin varisi Azərbaycan Xalq Cümhuriyyəti öndə M.Ə.Rəsulzadə olmaqla, onun qurucuları cəmi iki ilə yaxın fəaliyyət göstərməklərinə baxmayaraq, obyektiv və subyektiv səbəblər üzündən dövlət quruculuğu istiqamətində yaranmış çətinliklərə sinə gəlmiş, ilk növbədə müstəqilliyimizin və azadlığımızın simvolu sayılan tarixlərə bəzək bir millət, bir dövlət və bir cəmiyyət quraraq, varislik prinsipi müstəvisində gələcək milli dövlətçiliklə bağlı müasirliyin, başqa sözlə, çağdaş Azərbaycan dövlətinin əsaslarının bərqərar olmasına zəmin yaratmışlar.

Beləliklə, öz zəmanəsinin bayraqdarı, böyük azərbaycanlı Məhəmməd Əmin Rəsulzadə qısa zaman kəsiyində çətin, məşəqqətli bir ömür yaşasa da, o qərinələrə, əsrlərə bərabər qələmi ilə kağızda, əməli ilə həyata ilk və müstəqil Azərbaycanın adını əbədiləşdirərək tarixə yazmış, Vətən, torpaq, millət naminə gördüyü işlərlə əbədiyaşarlıq haqqı qazanmışdır. Bu mənada M.Ə. Rəsulzadənin Azərbaycan milləti və dövləti qarşısında gördüyü işlər və göstərdiyi xidmətlər yaddaşlarda əbədi həkk olunaraq, qədir bilən xalqımız və gələcək nəsillər tərəfindən heç vaxt və heç zaman unudulmayacaq.

Adı çəkilən və oxuculara təqdim olunan toplu Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi əməkdaşları, Türkiyədən olan alimlər, eləcə də Respublikamızın müxtəlif təhsil sistemlərində çalışan professor-müəllim heyəti tərəfindən hazırlanmışdır. M.Ə. Rəsulzadənin 140 illiyinə həsr olunmuş adı çəkilən məqalələr toplusunun digər işıq üzü görmüş əsərlərdən fərqləndirən başlıca cəhət – burada olan məqalə müəlliflərinin böyük əksəriyyətinin Azərbaycan Xalq Cümhuriyyətinin və onun yaradıcılarının fəaliyyəti ilə bağlı uzun illər apardıqları elmi-tədqiqat işləri, yaradıcılıq uğurları baxımından yüksək peşəkarlıq və zəngin təcrübəyə malik olmasıdır.

Fikrimizcə, topluda maraq doğuran məqamlardan biri də M.Ə. Rəsulzadəyə həsr olunmuş məqalələr görkəmli mütəfəkkirin yaradıcılığının təkcə bir hissəsini deyil, onun müxtəlif istiqamətlərini, hətta az işlənən, indiyə qədər tədqiq olunmamış sahələrini də əhatə edir. Sonda qeyd etmək istərdik ki, təqdim olunan məqalələr toplusunun elmi dəyəri və nə dərəcədə maraq doğurması oxucular tərəfindən düzgün qiymətləndiriləcək.

**P.S.** Müəlliflər heyəti təəssüf hissi ilə də olsa, bir məsələyə də münasibət bildirməyi özünə borc bilir. Söhbət adı çəkilən topluda məqaləsi və imzası olan tanınmış alim, BDU-nun professoru, tarix elmləri doktoru, Azərbaycan Xalq Cümhuriyyətinin, o cümlədən M.Ə.Rəsulzadə yaradıcılığının məşhur tədqiqatçılarından sayılan Nəsiman Yaqublunun vaxtsız vəfatından gedir. Müəlliflər mərhumun ailəsinə, onu yaxından tanıyanlara dərin hüznlə baş sağlığı verir və Allahdan rəhmət diləyir. Tarixçi alim, BDU professoru Nəsiman Yaqublunun əziz xatirəsi daima qəlbimizdə yaşayacaqdır.

**fəlsəfə elmləri doktoru,**
**professor Azər Mustafayev**

# M.Ə.RƏSULZADƏNİN TÜRKLÜYÜ VƏ TÜRKÇÜLÜYÜ

***Prof. Nəsib Nəsibli***
*nasibnasibli@gmail.com*

***Açar sözlər:*** Rəsulzadə, milli mənsubiyyət, milli kimlik, türkçülük, turançılıq
***Keywords:*** Rasulzadeh, national affiliation, national identity, turkism, turanism

M.Ə. Rəsulzadəni (1884-1955) yenidən kəşf etməyimizdən 30 ildən artıq vaxt keçır. Rəhmətlik Mövsüm Əliyevin Rəsulzadə mövzusunda yazdığı (bildiyim qədərincə ilk yazı) məqalədən aşağı-yuxarı 35 il keçir. Bizim də Rəsulzadənin xatirəsinə həsr etdiyimiz kitabın yayımından tam 34 il keçir. Uzun illər keçməsinə, bu böyük şəxsiyyət haqqında irili-xırdalı minlərlə yazının çıxmasına baxmayaraq, hələ də Rəsulzadə irsinə sahib olmaq sahəsində problemlər qalmaqdadır.

Müxtəlif cərəyanları və dünyagörüşlərini təmsil edən yazarlar bu mövzuya müxtəlif yanaşma sərgiləmişlər. Adından, etnik mənsubiyətindən tutmuş siyasi fəaliyyətinə və ideoloji irsinə qədər fərqli yanaşmaların şahidi olmuşuq. Görünən o ki yaxın gələcəkdə də fərqli, hətta bir-birini rədd edən yanaşmaların şahidi olacağıq.

Ən asan və mübahisəsiz saydığımız məsələdən başlayaq. Rəsulzadənin adi nədir? Rusca anketlərdə və başqa qaynaqlarda "Мамед Эмин" yazılmışdı. Türkiyədə Məmməd Əminin qarşılığı təbii olaraq "Mehmed Emin"dir. Ömrünün sonunadək bu adla tanınmış, bu adla yazılarını imzalamışdır. Məzarının üstündə də bu ad həkk olunmuşdur. Günlük həyatda "Emin Bey" müraciəti yayğın idi. 1990'larda vətəni Azərbaycanda kitablarda, məqalələrdə adı "Məmməd Əmin" olaraq keçmişdir. Bir sıra tarixçi və publisist dostların yazılarında bu şəkildə də davam etməkdədir. Amma son illərdə bu şəxsiyyətin iradəsinə zidd olaraq "Məhəmməd Əmin" (ya da "Məhəmmədəmin") yazmaq dəb olmuşdur.

Bizcə, yanlış, keçici bir haldır. Zira İslamçı və İslamçı olmayan fikir sahiblərinin bu "düzəlişini" qəbul etmək mümkün deyildir. Rəsulzadənin adının Rus/Sovet standartına uyğun olaraq bitişik yazılması ("Məhəmmədəmin", "Məmmədəmin") yersiz mühafizəkarlıq nümunəsidir. Ərəb orijinalındakı "Muhəmməd" adı hər xalqın dil, mədəniyyət xüsusiyyətlərinə uyğun olaraq yazılır və tələffüz edilir. Hətta Ərəb xalqlarının bu adın tələffüzündə də fərqlər vardır. Burada dəyişik şəkillərin (Muhamməd, Mühəmməd, Mohəmməd, Muxammed, Maqomed, Mehmed, Moe və s.) ortaya çıxması təbiidir. Bizcə, düşünməyə dəyər: Azərbaycan vətəndaşlarının əksəriyyətinin adı Ərəb orijinalından və tələffüzündən fərqlidir. "Məhəmməd" adında israr edənlər, öz adlarının da Ərəb orijinalına uyğun olub-olmadığına baxsınlar.

Doğum tarixi ilə bağlı başqa bir "düzəlişin" də anlamı yoxdur. Sağlığında da, vəfatından sonra da doğum tarixi olaraq "31 yanvar" göstərilir. Bu gün durub, yox, Məhəmməd Əmin Bəy, Siz səhv edibsiniz, Sizin doğum tarixiniz filandır demək ciddi iş deyildir. Adınızı da ərəbləşdirdik, çünki adınızın ərəbcə yazılışı bu (مُحمّد) imiş.

Etnik mənsubiyəti ilə bağlı təhriflər də var idi, indi də var. Rəsulzadənin milliyəti nədir? Özü "Türk" deyir. Son əsərlərindən birinin də başlığını özünü nəzərdə tutaraq *Bir Türk Milliyətçisinin Stalinlə İxtilal Xatirələri* qoymuşdur. Mübahisə yeri qoymayan bu hal belə gərəksiz şəkildə, daha önəmlisi qəsdən təhrif edilir. Bəzi çağdaşlarımız inadla onu "Türk" deyil, "azərbaycanlı" sayır. Burada sonuncunun "a"sına da diqqət buyurmanızı təklif edirik. 1990'ların başında qocaman tarixçi Ə. Sumbatzadə ən son məqaləsinin mövzusunu bu məsələyə həsr etdi. *M.Ə. Rəsulzadə Xalqımızın Adı Haqqında* başlıqlı yazıda mərhum akademik inadla Rəsulzadənin coğrafi mənsubiyyət bildirən "Azərbaycanlı" sözünün etnonim olduğunu ("azərbaycanlı") iddia etdi.[4] Bu yanlış yanaşma başqa Türkofobların yazılarında da davam etməkdədir. Azərbaycanda (hər ikisində də) at oynadan Türk düşmənçiliyinin Rəsulzadə

şəxsiyyətinə də aid edilməsi və onu Türklüyündən qopartmaq cəhdi düşündürücüdür. Əcaba, Türk düşmənləri, ya Stalinçi konformistlər bu milli dəyərin (Rəsulzadə şəxsiyyətinin) üstünə getməklə bu Türk ölkəsində/dövlətində Türklüyü yoxmu sayırlar?

Rəsulzadə siyasət və dövlət adamı olmaqla yanaşı, həm də bir alimdir. Əsərlərində üzvü olduğu millətin tarixi, etnik özəllikləri və davranış biçimləri haqqında önəmli fikirlər irəli sürür. Bir sıra məsələlərə yanaşması elmi fikir tariximizdə bir ilk sayılır.

*Rəsulzadəyə görə Türk kimliyi*

Rəsulzadə məşhur *Azərbaycan Cümhuriyyəti* kitabında Azərbaycandakı Türklərin kimliyinə ümumiləşdirici bir baxışı ortaya qoyur: “Azərbaycanlılar milliyət etibarilə Türk, din etibarilə İslam, mədəniyyət-i əsasiyə etibarilə şərqlidirlər.” [5, s. 7] Burada və başqa əsərlərində “Azərbaycanlı” (“İranlı”, “Bakılı”, “Naxçıvanlı”... kimi) sözü coğrafi mənsubiyyəti bildirən “Azərbaycan əhalisi” anlamında işlədilmişdir. “Azərbaycan xalqı” ifadəsi də eyni anlam daşıyır. Əsərlərində tez-tez rast gəldiyimiz “Azəri”, “Azəri Türkü” etnonimlərinin də kəsrəviçiliklə heç bir əlaqəsi yoxdur. Osmanlı/Türkiyədə ‘hansı Türklər?’ sualını cavablandırmaq üçün işlədilmişdir.

Bu əsərdə Azərbaycandakı Türklüyün etnoqrafik tərifi verilir: “Kəndi ləhce-yi məxsusəsi ilə Anadolu Türkcəsinə yaxın bir şivə ilə qonuşan Azərbaycan Türkü, müxtəlif şivələrə malik və olduğu yerlərə nisbətlə müxtəlif isimlər daşıyan böyük Türk ağacının bir dalıdır [budağıdır]. Azəri Türkləri’nin hal-i hazırda oturduqları yerlər minə’l-qədim Türk xalqı ilə məskun idi. Gərək Bakı, Gəncə, Şamaxı, İrəvan ilə Təbriz, Marağa, Ərdəbil və sairə kimi vilayətlər və gərək Muğan, Aran, Qarabağ kimi məmləkətlər daima Türk elinin oturağı və Türk xanlarının ovlağı olmuşdur. Bu yerlər kəndilərində, bir çox Türk sülalələrinin irili ufaklı hökumətlər qurduqları və illərlə səltənət sürdüklərini görmüşlərdir.” [5, s. 7].

Türklərin bu coğrafiyada “ta qədimdən” (*minə’l-qədim*) yerləşməsindən bəhs edən Rəsulzadə, Xəzərlər, Çingiz və Teymur dönəmləri ilə bu sürəcin davam etdiyini vurğulayır və “Səlçukilər zamanında buralar, artıq qəti bir suretde Türk məmləkəti halına qoyulmuşdur.” [5, s. 8] *Əsrimizin Səyavuşu* və *Qafqaz Türkləri* başlıqlı əsərlərində Azərbaycanın qədim dövr ta rixi mövzusundan bəhs edilir. Rəsulzadəyə görə, Midiyalıların “kim olduğu indiyə kimi şübhəlidir.” Bununla belə Bisütun kitabələrindəki üçüncü lövhənin “Turani cinsdə [böyük ehtimalla bu dilin aqlütinativ- əkləməli olduğuna işarədir] bir dildə olması şübhə yaratmır.” İskitlərin/Skiflərin, Xəzərlərin bu bölgələrdə yerləşməsi bilinən tarixi faktdır. Turanlı Tomris Hanım da İranlı Keyxosrovun başını Kür çayının kənarında kəsmişdir. Buradakı Ariyalılar “yerlilər deyildir. Onlar buraya doğudan gəldilər” [8, s.30].

Diqqət çəkən özəlliklərdən biri də 21. yüzil soydaşlarından fərqli olaraq Rəsulzadənin yerli-gəlmə, oturaq-köçəri məsələsinə görə qətiyyən kompleksə düşməməsidir. Orta çağlarda hərbi gücün yarım-köçərilərdə olması və onların yeni dövlətlərin qurulması, eləcə də rəqib dövlətlərin yıxılmasındakı rolu vurğulanır. Rəsulzadəyə görə, bu coğrafiyaya tarixin dəyişik dönəmlərində dalğa-dalğa köç etmiş Türklər, onlardan əvvəl buralara köçmüş “yerlilərin” yerini dar etməmişlər, onları zorla assimilyasiyaya heç qalxmamışlar [7, s. 8].

Milli tariximizin ən həssas və acılı məsələlərindən biri – orta çağlarda Türk sülalələrinin dil və mədəniyyət sahəsində siyasəti haqqında Rəsulzadənin fikirləri çox maraqlıdır. *Azərbaycan Şairi Nizami* başlıqlı məşhur əsəri bu mövzuda qiymətli fikirlər daşımaqdadır. Səlçuklularda və onlardan sonra gələn sülalələrdə hakimiyyətin Türklərdə olmasına, sarayda və orduda danışıq dilinin Türkçə olmasına baxmayaraq, Farscanın nədən ədəbiyyat, elm və idarəçilik (dövlət) dili olması izahat tələb edən məsələdir. Rəsulzadənin diqqət mərkəzində Səlçuklu, dolayısı ilə Nizami dönəmidir. “Bağdad xəlifələrini dini bir simvol halına gətirərək, siyasi iktidarı kəndi əllərinə alan Türk sultanlarının, idarədə Ərəbcədən başqa bir dil qullandırmaları anlaşılabilən bir olaydır; fəqət bu dil, nədən Türkcə deyil də, Farsca oluyor?” [9, s. 8]. Bu önəmli suala Rəsulzadənin cavabı budur: 1) Hakim sülalələr köcəri idilər; köçərilərin yeni gəldikləri ölkələrdə yerli mədəniyyətə uymaları bilinən bir haldır. 2) Bu coğrafiyanın

şəhər həyatı "İranın əski mədəni gələnəklərinin etkisini [təsirini] daşıyırdı". 3) "Yerli münəvvərlərin bilgi və təcrübələrinə ehtiyac vardı." 4) Uzun zaman təmasda olduqlarından Türk sülalələri üçün Ərəb dilinə nisbətən Farsca daha asan gəlirdi. 5) Ərəb mərkəziyyətçiliyi ilə mübarizə və rəqabət halında olan Türk sultanları "güvəndikləri yerli ayan zümrəsinin yaşadığı və yaşatdığı şəhərli Əcəmin dilini nəinki qəbul edir, həm də onun yayılmasında rol oynayırlar".

Burada ən azı üç əlavəyə gərək olduğunu düşünürük. 1) Səlçukluların və başqa Türk sülalələrinin hərbi gücünün yarım-köçəri tayfalara dayalı olmasını təyid etməklə yanaşı, digər bir faktı da göstərməliyik. Səlçuklulardan çox əvvəl (ən azı Göytürk, Xəzər, Qaraxanlı, Qəznəlilər dönəmində) böyük bir coğrafiyaya hökm edən Türk sülalələri və elitləri şəhər mədəniyyətinə sahib idilər, Türkcə ədəbiyyat doğmaqda idi (Balasaqunlu Yusuf, Kaşqarlı Mahmud, Yüqnəkli Əhməd). 2) Səlçuklular indiki İran coğrafiyasına yazı dili olaraq gətirdikləri Dəri ləhcəsini (*dərbar*-saray sözündən) sıradan insanların başa düşmədikləri üçün daha uyğun vasitə sayırdılar; bu ləhcəni Samanilər dönəmindən qalan mirzələr təbəqəsi bilirdi; bu ləhcə xüsusi olaraq mədrəsələrdə öyrədilirdi. 3) Səlçuqlular və digərlərinin qurduğu dövlətlər ərazi baxımından son dərəcə geniş idi; bu dövləti təkbaşına idarə etmək Türk elitinin imkanları xaricində idi. İş bölgüsü yaranmışdı; Türklər siyasi və hərbi sahələri kontrolu altında saxlayırdılar; Ərəb ünsürü dini və elmi sahədə üstün mövqelərə sahib idi. Farsların boynuna düşən isə kargüzarlıq-vergi işləri və ədəbiyyat-təbliğat sahələri idi [9, s. 21]. Bu durum əsrlər boyu dəyişməz qalmış, hakim Türk eliti ilə məzlum Türk kütləsi arasındakı qopuqluq millətləşmə sürəcinin başlanmasına qədər, hətta ondan sonra da davam etmişdir.

Rəsulzadə, *Azərbaycan Cümhuriyyəti* kitabında başqa bir önəmli məsələnin üstündə durur. Oxumuş elitin (*havass'*ın) özünü "İranlı" saymasına baxmayaraq, buradakı Türklərin dili, mədəniyyəti ilə Türk qaldığını yazır: "Rahləsi üstündən enməyən Fuzulisi, Koroğlu ilə bağrı yanıq Kərəmə ağlayan aşıqları, bu aşıqların ürək dağlayan sazları ilə çobanların ruha sinən türküləri, çocukların sevə sevə oxuduqları maniləri, anaların yavrularını uyuturkən çağırdıqları ninniləri – havassın düşüncəsiylə – kəndisini İranlı bilən bu xalqın müthiş bir dəlalətdə olduğunu göstərməkdədir: -Hayır, deyil, sən Türksən! deyirdi" [5, s.9].

*Azərbaycan Cümhuriyyəti* əsərinin sonrakı bölümündə müəllif, bu ayrışmanın yaranma səbəbləri üzərinə gəlir, məktəbin və idarənin rəsmi dili olan Farscanın oxumuş kəsimin farslaşmasındakı rolundan bəhs edir. Belə bir durum Rəsulzadəyə görə, tuhafdır, dramatikdir: "Türkcə, avam ve köylü lisanı addolunmuş [sayılmış], lisan rəsmi və ədəbi olmak üzrə Farsca taammüm eyləmiş [sayılmış], nəticədə tuhaf bir millət meydana gəlmişdi: Dili başqa, yazısı başqa bir millət!" [5, s. 10]. Rusiyanın Quzey Azərbaycanı işğalından sonra hələ kimlik problemini çözə bilməyən xalqın bu dəfə ruslaşdırma siyasətinə hədəf gəldiyi bildirilir. *Açıq Söz* qəzetinin qurulduğu 1915'də "özəlliklə Türk kəlməsi ilə türkçülük məsləyinə [fikrinə] qarşı hasmane [düşmanca] bir əlaqə göstərilirdi" [5, s. 27-28].

Dönəmin başqa fikir adamları kimi Məhəmməd Əmin Rəsulzadənin də düşüncəsində tarixi qəhrəmanlar mövzusunun önəmli yeri vardır. Türk tarixinə yön vermiş dövlətqurucu böyük şəxsiyyətlər Əmir Teymur, Çingiz Xan, Şeyx Şamilin adı hörmətlə çəkilir. Gəncəli Cavad Xanın işğala qəhrəmanca dirənməsi örnək göstərilir. Sovet rejiminin sırıdığı qəhrəmanlardan Babək haqqında Rəsulzadənin aşağıdakı fikri diqqət çəkir. 19. yüzildə belə "babəki" sözü Azərbaycanda söyüş kimi işlədildiyi halda birdən-birə Sovet hakimiyyəti Babəki vətənpərvərliyin simvolu halına gətirdi. Sovetlərin "islamiyyət əleyhdarı olan bu simanı idealizə etməsi"nin əsas səbəbi düşmənçilik hislərini güneyə (İrana, Türkiyəyə, İslam aləminə), vətənsevərlik duyğularını isə şimala (Rusiyaya) yönəltmək məqsədi daşımışdır [12, s. 108].

Rəsulzadənin İrandakı Türklərlə Farsları qarşılaşdırması onun bu ölkədəki müşahidələrinə dayanır. Onun təsbitlərinə görə, "İran Türkü, başqa Türk qardaşı kimi biraz mühafizəkardır. Azərbaycanlı bir Türk, Şirazlı bir Farsdan daha mütəəsibdir. Türk, Fars qədər hürəndiş [azad fıkirli] deyil, fəqət onun qədər əzimsiz və laubali deyildir: Türk daha mətin və

daha sebatkardır." [6, s. 21] Rəsulzadəyə görə, Türklərin bu cəngavərlik xüsusiyyəti indiki İran coğrafiyasındakı dövlətləri əsrlər boyu ayaqda saxlayan əsas amillərdən biri olmuşdur.

Rəsulzadənin milli kimlik məsələlərinə yanaşmasında milli rəmzlər də mühüm yer tutur. Milli bayrağımızdakı göy rəngin (Türklük rəmzinin) Elxanlılar dönəminin bayrağından aldığını bildirir. Ən çox yayılmış milli rəmzlərdən mifik Bozqurd da Rəsulzadənin diqqətini çəkmişdir. *Qurtuluş* sözünün qədim Qurd oluş (qurtulmaq, azadlığa çıxmaq) sözündən törədiyi ehtimalı da onu məxsusdur.

Rəsulzadə üçün milli kimliyin önəmli komponentlərindən biri də qonşu dövlətlərin timsalında dostunu-düşmənini tanımaq bacarığıdır. Vətəni Azərbaycanı o "kiçik Türkiyə" sayır, ["Türk etnosunun ən böyük dəyəri - "Azerbaycan Cumhuriyeti, alem-i İslam"da teşekkül eden ilk cumhuriyettir. Bu cumhuriyet aynı zamanda bir Türk hükumetidir; tabir-i diğerle küçük Türkiye'dir" [5, s. 5]. Osmanlı/Türkiyə ilə hər cür əlaqənin genişlənməsinin tərəfdarıdır, "Türkiyə, Azerbaycan'ın sığınacak yeridir" deyir. Osmanlı ilə 4 iyun 1918 tarixli müttəfiqlik müqaviləsinin altında onun da imzası vardır. Həyatının xeyli hissəsi Türkiyədə keçmiş, məzarı da Ankaradadır.

Qacar İranına münasibəti qarışıqdır. Hakimiyyətin xalqa zidd siyasətini kəskin tənqid etməklə yanaşı, ozamankı İran dövlətini Türklüyün önəmli məskənlərindən biri sayır. Pəhləvi İranına münasibətində yerli məzlum Türklər mövzusu müəyyənedici yerə sahibdir.

Rusiyaya münasibətini özətləyən bu fikri məşhurdur: "Tarixi ənənəsi Türk və İslam dünyası ilə mücadilədən ibarət olan Rusiya." Bununla belə Rusiya müstəmləkəçiliyi müəyyən müsbət izlər də buraxmışdır. "Rus istilasının iyiliyi bu oldu ki, Azərbaycanlılar özlərini ictimai bir vücut, xüsusi kültür toxumlarını daşıyan bir cəmiyyət, yəni Ruslardan ayrı bir millət olduqlarını hiss etməyə başladılar." [8, s. 34]

Məhəmməd Əmin Rəsulzadə milli şüurun səviyyəsinə, ümumiyyətlə milli kimlik məsələlərinə həssaslıqla yanaşan düşüncə adamlarımızdan biridir. *Əsrimizin Səyavuşu* əsərindəki bu təsbit məşhurdur: "Bir çox zaman Azərbaycanlılar kəndi Türklüklərini və Türk soyundan gəldiklərini bilməyərək xalis İranlı kimi yaşadılar. Bu, o zaman idi ki, bütün Türk aləmi az çok İran təsirində bulunuyordu; o zaman idi ki Sultan Səlim Farsca şeirlər yazıb oxuyor, az qalsın bunu rəsmi lisan elan ediyordu" [8, s.33]. Türklər arasında milli şüurun yaranmasına mane olan birinci amil Fars dili və ədəbiyyatına bağlılıq idisə, ikinci amil Şiiliyə aşırı sarılmaq idi.

Rəsulzadə həyatı boyu üzvü olduğu millətin ehtiyaclarını arayıb-araşdırmış, onun problemlərini çözərək yüksəlməsini arzu etmişdir. Siyasətçi və dövlət adamı olaraq vətəni Azərbaycan üçün fədakarlıq etmişdir. İlk qurduğu gizli dərnəyin qarşısında "dərnək mənsublarının milli hislərini təhrik etmək, Rus məktəblərində oxudulmayan Türkcəni öz-özünə ilərlətmək" kimi məqsədlər qoyanda [11, s. 20-21]. ilk mətbu yazısında Bakı küçələrində yad dilin hakim olmasını protesto edəndə də, Ankarada gözlərini həyata yumanda da millətini (Türklüyünü) və vətənini (Azərbaycanı) düşünmüşdür.

*Rəsulzadəyə görə Türkçülük və Turançılıq*

Gənc Rəsulzadə millətinə, milli dəyərlərə bağlı olmaqla yanaşı, "özümüzün geridə qalmasını, işlərimizin pərişan olmasını" görmüş, amma çağdaşlarının "müsəlmandan adam olmaz" düşüncəsini və deyinməsini qəbul etməmişdir. O daim milli problemlərin, geriliyin üstünə getmiş, milli problemlərin həlli üçün yollar təklif etmişdir. [3; alıntı 1, s. 480]Bu mənada onun *Milli Dirilik* (1914) başlıqlı silsilə məqalələri diqqət çəkir. Rəsulzadəyə görə milli gücü (*diriliyi*) artırmağın birinci şərti özünə, öz adına sahib çıxmaqdır. Ümmətçi yanaşmanın qalığı olan "müsəlmanam" kimliyindən qurtulmanın çoxdan zamanı gəldiyini deyir. Millətin yaranmasında din birliyinin həssas rolu vardır, amma "biz Rusiya müsəlmanları [milliyətdən əvvəl din cəhətinə əhəmiyyət verdik." Bu üzdən də milli kimlik məsələlərində yanlış yoldayıq: "Müsəlmanlığın ibtidai təsirindən gələrək biz özümüzü müsəlman adlandırdığımızdan əsil mahiyyətimizin ünvanını təşkil edən Türklüyə əhəmiyyət verməmiş, həman "müsəlman"

adına qənaət eləmiş idik. Hələ də etməktəyiz. Hələ bu qənaətlə də qalmamışıq, başqaları bizə "tatar" və "persiyan" demişlər, ona da etiraz etməmişik. Bu tamamilə ondan [irəli] gəlmiş ki, biz özümüzü necə ki lazımdır tanımamışıq" [1, s. 494].

Məqalələr silsiləsinin elə birincisində Rəsulzadə mübahisəli bir mövzuda çox cürət tələb edən müzakirə açır. Dostlarından birinin inkişaf etmiş millətlərin (Rus, məsələn) ağalığı nəticəsində insanlıq parlaq nəticələrə nail olub; belə bir şəraitdə "milliyətpərvərlik naminə inad edib də İslam millətlərinin müstəqil qalmalarını arzu etməkdən nə kimi bir fayda görürsünüz?" sualı ortaya çıxır. Bu formal məntiqə qarşı gənc Rəsulzadənin (30 yaşındadır) cavabı belədir: Alman, Fransız, İtalyan millətləri bağımsız olmasaydılar bugünkü dünya mədəniyyətlərinə töhfələri (örnəklər verir) bu qədər böyük olmazdı. Bağımsızlıq əleyhdarları, eləcə də senzuranı tərk-silah etmək üçün Rusiyanı misal çəkir: "Bir kərə təsəvvür ediniz ki, Rusiyanın istiqlalı olmasa, Rusca da məhkum, məğlub bir lisan olsa, başqa bir millət tərəfindən, məsələn, Alman milləti tərəfindən kamilən təmsil (assimilə) edilsəydi, əcəba, biz Puşkin, Lermontov, Dostoyevski, Tolstoy, Şalyapin, Meçnikov və sairəyə malik olacakmı idik? Məlum ki, yox!" Adı çəkilən Rus iftixarları sırasını doldurmaq başqaları üçün mümkün deyildir. Çünki "...ruslaşmış bir müsəlman balası, yaxud təmsil olunmuş bir Erməni dığası, yaxud döndərilmiş bir Yəhudi övladı nə qədər özlüyündən uzaqlaşmış olsa da böylə bir Rus ola bilməz." Millətlərin gəlişməsi və bəşər mədəniyyətinə xidmət etməsi üçün onun müstəqil olması haqqında başqa gərəkcələr də verən müəllif məqalənin sonuna doğru metodoloji önəm daşıyan bir fikir irəli sürür: "Əcələ bir surətdə maddətən tərəqqi edib mənəviyyatca məhrum qalmaqdansa, maddətən gec tərəqqi edib, mənəviyyatca müstəqil qalmağı tərcih edirəm" [1, s. 490-491].

Rəsulzadəyə görə, milli gücü artırmağın digər yolu milli idealı (*millli vicdan* və *milli iman*) kütlələr arasında yaymaqdır. Millət xadimləri tərəfindən irəli sürülən və formulə edilən hər ideya milli ideala/doktrinə çevrilməz. Bunun üçün də milli ideoloqların irəli sürduyü "milli əməllər layihəsi xalqın əsil düşünüb də hiss və arzu etdiyilə təvafüq edirsə, məzkur əməl səri bir surətdə xalq arasında intişar edər və bollu tərəfdarlar qazanar" [1, s. 496]. Müəllif növbəti dördüncü məqalədə yenidən bu məsələyə qayıdır, 1905-1906'lardakı kimi duruma (*...biz bir təlatümə düçar olan gəmiyə bənzəyirdik ki, haraya gedəcəyini və sahili-nicatı nə tərəfdə gördüyünü bilmiyorduk.*) düşməmək üçün gəlişmələrə hazır olmaq zərurətindən bəhs edir. Rusiyanın yenidən siyasi böhrana düşəcəyi və bu perspektivə hazır olmaq üçün milli idealın, milli kadronun və milli mətbuatın yetişməsi gərəkliyi fikrini irəli sürür. Sonrakı məqalələr əsasən milli qurumlar təsis etmək, dilinə sahib çıxmaq, dini ortamı milliləşdirmək, doğru-dürüst tarix şüuru yaratmaq və yaymaq, adət və ənənəyi qorumaq haqqındadır.

*Milli Dirilik* silsiləsinin çapından az sonra Rəsulzadə *Açıq Söz* qəzetini təsis etdi (1915). Bu, ilk dəfə başında *Bir Türk qəzetəsidir* yazan mətbuat orqanı oldu. Bu qəzet başqa bir yenilik də gətirdi: Milli doktrinin Ziya Gökalp versiyası (*Türk millətindənəm, İslam ümmətindən, Qərb mədəniyyətindənəm*) qəzetin başına yazıldı. Mirzə Bala Məmmədzadə bu hadisənin həssas rəmzi məna daşıdığını yazır: "Bu surətlə Rəsulzadə Məmməd [Əmin] bəy 'ümmət' və 'ümmətçilik' dövrünü rəsmən qapatmış, 'milliyət', 'Türk milliyətçiliyi' dövrünün başlandığını elan etmişdir" [15, s. 76].

Məhəmməd Əmin Rəsulzadənin Türklük və Türkçülük haqqında fikirləri sədri olduğu Türk Ədəmi-Mərkəziyyət Partiyası Müsavatın[1] ilk məramnaməsində (1917) [2; 15, s. 84-86] də öz əksini tapdı. Sənədin giriş qismində millətin tərifi verilmiş, Rusiya imperiyasındakı Türklərin bir millət olduğu təsbit edilmişdi: "Millət – dili, dini, ənənatı, mədəniyyəti, ədəbiyyatı,, tarix və adatı bir olan cameyi-bəşəriyyəyə deyilir... Bu nöqteyi-nəzərlə bütün Türklər bir millətdir." Federativ xalq respublikası şəklində yenidən qurulması istənilən Rusiyada "Türk millətinin cümlə qövmlərinə aid ümumi məsələləri həll və təsviyə etmək üçün milli və

[1] İndiki Müsavat Partiyası ilə qarışdırılmamalı; ideoloji və siyasi baxımdan fərqli siyasi qurumlardır.

mədəni ittifaq təşkil olunmalıdır" (17. maddə). Təhsilin dili sahəsində konkret müddəalar müəyyən edildi: İbtidai və ədadi [orta] məktəblərdə tədris dili, hər bir muxtariyətli əyalətin əksəriyyət əhalisinin söylədiyi dil və şivədə olmalıdır (71. maddə); Ədadi məktəblərdə Rus dili ilə Osmanlı şivəsinin lisan olaraq tədris edilməsi məcburi olmalıdır (72. maddə); Ali məktəblərdə Osmanlı şivəsi ilə tədris edilməlidir (73. maddə). Növbəti ikinci qurultay (dekabr 1919) ideoloji əsasları təsdiq etdi. Müsavat Partiyasının 1936-cı ilin avqust ayında qəbul etdiyi Yeni Proqram Əsasları Türklük və Türkçülüyə münasibətini daha da dəqiqləşdirdi: "Müsavatçılıq böyük Türk kültürünə bağlı, milli, mədəni və insani dəyərləri mənimsəyən, hürriyyət, cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyidir" [14, s. 9].

Yeni Proqram Əsasları (1936) Azərbaycanın və bölgənin dəyişmış geopolitik şərtlərini nəzərə alması ilə diqqəti çəkir. Birinci və ikinci qurultaydan sonra köklü siyasi dəyişikliklər olmuş, Azərbaycan yenidən Rusiyanın (bu dəfə Sovet-kommunist qiyafəsində) sömürgəsinə çevrilmiş, Türkiyə Cümhuriyyəti ilə Sovetlərdəki Türk xalqları arasında dəmir pərdə çəkilmiş, buradakı Türklərin milli kimliyi Moskvanın istəkləri istiqamətində dəyişməyə başlamışdı. Güney Qafqazın siyasi mühacirəti Qafqaz Konfederasiyası Paktını imzalamış, mübarizəni birlikdə davam etmək qərarı vermişdi. Yeni Proqram Əsaslarındakı dəyişiklik haqqında partiya rəhbərliyi izahat verməyi lazım bilmişdi: "Müsavat, Azərbaycanın təkbaşına qurtulamayacağını və yalnız Kafkasya Konfederasyonu bayrağı altında hürriyyət və istiqlalına qovuşa biləcəyi prinsipindən hərəkət edərək Rus istilasına qarşı bütün savaşlarda Kafkasya millətləri ilə bərabər və müttəhid olaraq hərəkət etmək şüarını müdaiə edir" [13, s. 9]. Elə buradaca yeni şərtlərdə Türk birliyi fikrinin gərəkdirdiyi vəzifələr qeyd edilir: "Müsavat, məhkum Türk elləri arasındakı kültürəl bağlılığı daha ziyadə təqviyəyə [gücləndirməyə] çalışaraq ilk sırada bütün Türk elləri üçün ortaq alfabe və ortaq ədəbi dil qəbulu yolunda mücadilə edir və eyni zamanda düşmanın ortaq olduğunu gözə alaraq Moskovaya qarşı savaşda işbirliyi yapılmasına çalışır".

Bu, yeni şərtlərin diqtə etdiyi gerçəkçi bir yanaşma idi. Rəsulzadə (və başqa mühacirət liderləri) 1930'larda artıq Yeni Turan məfhumu işlədir. Yeni Turan konseptinə görə Türk xalqları öz dövlətlərini qurmalı, bu dövlətlər və xalqlar arasında sıx əlaqələr yaranmalıdır. Coğrafi mövqeyi və başqa keyfiyyətləri baxımından Azərbaycanın, Yeni Turanın qurulmasında açar rolu oynayacağı da önəmli öncəgörümlərdən biridir [16].

Rus imperializminin nümayəndələri rəngindən asılı olmadan (qırmızı, ya ağ) hamılıqla Türk birliyi fikrindən daim narahat olmuş, müxtəlif yollarla onu gözdən salmağa çalışmışlar. Bu kampaniyada Rəsulzadənin "*Rusiyanın kölələri*" adlandırdığı Rus olmayan şəxslər də fəal rol almağa çalışmışlar. Avropadakı siyasi mühacirət arasında Müvəqqəti hökumətin keçmiş başçısı Kerenskinin yazdığı *Rus Xalqı Üzərində Diktatura* başlıqlı məqalə geniş yayılmışdı. Özünü demokrat, radikal, sosialist sayan müəllif, məqaləsində Rusiyadakı məzlum xalqlar faktına belə ironiya ilə yanaşmış, Rusiyanın dağılacağı və onun üzərində yadların diktaturasının qurulacağı fikrindən dəhşətə gəldiyini ifadə edirdi. Rəsulzadə, Kerenskinin bu isterik fikirlərinə etiraz etmiş, məqalənin daşıdığı məqsədi ortaya qoymuşdur. Rəsulzadəyə görə, məqalə müəllifinin hədəfində Türk xalqlarının milli hərəkatları, özəlliklə Türklər arasında birlik fikrinin (Turançılığın, pan-Turanizmin) olmasıdır. Bununla Kerenski Qafqazdakı qeyri-Türk xalqlarını qorxutmaq, Rus xalqında şovinist ruh yaratmaq istəmişdir [17, s. 13-19].

Rusiyadakı Türk milli hərəkatının Çex milli hərəkatı ilə müqayisəsi maraqlıdır. Palatskinin Rusiyanın yardımına aşırı güvənməsi yerinə Qavliçek adlı Çex ideoloqu Slav birliyi fikrinə "sadiq qalmaqla bərabər, bir realitə olmaq üzrə Çexlərin bizzat kəndi qüvvətlərilə xilas olacaqları prinsipini ortaya qoydu" [10, s. 37].

Erməni ideoloqlarının Rusiya mühacirlərini Türklərə qarşı düşmənçiliyə təhrik etmələri ilə bərabər, Farslar, Kürdlər, Bəluclar, Giləklər, Ermənilər, Əfqan və Hindliləri "aryan birliyində" birləşdirib, Turanlılara qarşı yönəltməsi də Rəsulzadənin gözündən qaçmır. Qafqazdakı xalqların əməkdaşlığına ziyan vuracaq bu məkirli siyasətin dönüb-dolaşıb Ermənilərin

özünə zərbə vuracağını böyük mütəfəkkir illər öncə görmüşdür. Xondkaryanın iftiralarına cavab olaraq yazdığı məqalədə Rəsulzadə uzaqgörənliklə təsbit edir: "Fəqət bu yolun Erməni millətinə çox bahalıya mal olduğu artıq bütün cahana məlumdur. Yanlış yolun neresindən dönülürsə kārdır!" [10, s.39].

Məhəmməd Əmin Rəsulzadənin bütün yazılarında olduğu kimi, Türkçülük və Turançılıq mövzusundakı yazılarında da bir kübarlıq, tolerantlıq vardır, mütləq yanaşma, baltalama yoxdur. Və bu tolerantlıq süni xarakter daşımır, təbii şəkildə məsələlər bir-birini tamamlayır. Rəsulzadəyə görə, Azərbaycanda Türkçülüyü, Turançılığı müdafiə edənlərin Qafqaz Konfederasiyası fikrinə mənfi münasibəti yoxdur. "Slavyan birliyi fikri Çexoslovak dövlətinin təşəkkülünə mane olmadığı kimi, Türk birliyi fikri də, Azərbaycanın Qafqaz Konfederasyonuna girməsinə mane olamaz!... Azərbaycan istiqlalçılığının Türk birliyi fikrindən əzəmi surətdə mülhəm olduğunu [doğduğunu] inkar etməməklə bərabər, siyasətdə realizm mutakidi [təqibçisi] olan Azərbaycan milliyətçiləri üçün bu fikrin sadə hars [kültür, milli mədəniyyət] sahəsində qəbuli-tətbiq olacağı āşikardır. Buna görə də biz müstəqil Qafqaz Konfederasyonu fikrini zamanın ən aktual bir tezi olaraq müdafiə ediyoruz." [10, s. 37]

*Sonuc*

Məhəmməd Əmin Rəsulzadə üçün "mən kiməm, millətim nədir" sualına ikili cavab olmamışdır. Taleyinə yazılan Türklüyü ilə yeniyetmə yaşından ömrünün sonunadək barış halında olmuş, bu millətə güvənməsi ona güc vermişdir. Bu gün durub onun milli kimliyini (Türklüyünü) sorğulamaq, yerinə coğrafi kimliyini ("azərbaycanlı") pərçimləmək cəhdini bu Türk ölkəsində Türkofobiyanın bir təzahürü kimi dəyərləndirmək gərəkdir.

Bütün ömrü boyu mənsub olduğu millətə bağlı qalmış, onun problemlərini çözməsi, yüksəlməsi üçün çalışmışdır. Ən çətin şərtlərdə belə aşağılıq kompleksi yaşamamışdır. Onun millətləşmə, milli yüksəliş konsepti bu gün də aktualdır. Bu baxımdan Rəsulzadə Türkçülüyün görkəmli nümayəndələrindən biri sayılır.

Rəsulzadə vətən Azərbaycanı Türk Dünyasından heç zaman ayırmamış, haqlı olaraq onu Turan coğrafiyasının ən həssas bölgəsi saymışdır. Eyni zamanda ümum-Türk bütünləşməsi sürəcində Azərbaycanın mühüm rol oynayacağını da illər öncə yazıb, soydaşlarına miras qoymuşdur. Dəyişən şərtlərdə Turançılıq fikrinin yeni təqdimatı - Yeni Turan konsepti Rəsulzadənin Turançılığın görkəmli ideoloqu olduğunun sübutudur.

## ƏDƏBİYYAT


1. *Azərbaycan publisistikası antologyası*, Bakı: Şərq-Qərb, 2007.
2. Azərbaycan Respublikası Dövlət Arxivi, fond 894, siyahı 10, iş 60, vərəq 1-21;
3. *Bəsirət,* 12 aprel 1914, N 1.
4. Ə. Sumbatzadə, M.Ə. Rəsulzadə xalqımızın adı haqqında, *Xalq qəzeti,* 31.01.1992.
5. Mehmed Emin Resulzade, *Azerbaycan Cumhuriyeti*, İstanbul: Azerbaycan Türkleri Kültür ve Dayanışma Derneği, 1990.
6. Mehmed Emin Resulzade, *İran Türkleri,* İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1993.
7. Mehmed Emin Resulzade, *Kafkasya Türkleri,* İstanbul: Türk Dünyası Araştırmaları Vakı, 1993.
8. Mehmet Emin Resulzade, *Asrimizin Siyavuşu,* Ankara: Azerbaycan Kültür Derneği, 1989.
9. Mehmet Emin Resulzade, *Azerbaycan Şairi Nizami*, Ankara: Milli Eğitim Basımevi, 1951.
10. Mehmet Emin Resulzade, *Milli Tesanüd,* Ankara: Azerbaycan Kültür Derneği Yayınları, 1978.

11. Məhəmməd Əmin Rəsulzadə, *Bir Türk Milliyyətçisinin Stalinlə İxtilal Xatirələri*, Bakı: Qanun, 2010.

12. Məhəmməd Əmin Rəsulzadə, *Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi,* Bakı: Gənclik, 1991.

13. *Milli Azerbaycan Müsavat Halk Fırkası Bülteni,* sayı 4, 1962.

14. *Milli Azerbaycan Müsavat Halk Fırkası Bülteni*, yıl 1, Eylül 1936, Nr 1.

15. Mirza Bala Mehmetzade, *Milli Azerbaycan Hareketi*, [yersiz], 1938.

16. Nəsib Nəsibzadə, Yeni Turanın təşəkkülü və Azərbaycanın missiyası, *Dünya,* 1993, sayı 1, s. 20-21.

17. M.Э. Расул-заде, *О пантуранизме в связи с кавказкой проблемой*, Париж: Издание КНК, 1930.

## M.Ə.RƏSULZADƏNİN TÜRKLÜYÜ VƏ TÜRKÇÜLÜYÜ

***Nəsib Nəsibli***

**Xülasə**

M.Əmin Rəsulzadənin adından, etnik mənsubiyyətindən tutmuş siyasi fəaliyyətinə və ideoloji irsinə qədər fərqli yanaşmaların şahidiyik. Halbuki qərəzsiz yanaşma Rəsulzadənin şəxsi və milli kimliyi ilə bağlı müzakirələrin olmasına yer qoymur. O, türk milli kimliyinin ən görkəmli araşdırmaçısı və nəzəriyyəçısıdir. Rəsulzadə eyni zamanda türkçülük və turançılıq düşüncəsinin nadir nümayəndələrindən biri sayılır.

## TURKISHNESS AND TURKISM OF M.A. RASULZADEH

***Nasib Nasibli***

**Summary**

We have witnessed different approaches in the case of M. Emin Rasulzade’s name, his ethnicity also in his political activity and ideological heritage. However, the impartial approach leaves no room for discussions about Rasulzade's personal and national identity. He is the most outstanding researcher and theorist of Turkish national identity. Rasulzade is also considered one of the rare figures in Turkism and Turanism.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN MƏTBUAT YAZILARI

***Nəsiman Yaqublu***
***tarix elmləri doktoru,***
***Bakı Dövlət Universitetinin professoru,***
*nasiman_yaqublu@mail.ru*

***Açar sözlər:*** M.Ə.Rəsulzadə, mətbuat, məqalə, millət, milliyyət, türkçülük, mühacirat, mühacirat mətbuatı
***Keywords:*** M.A.Rasulzadeh, press, article, nation, nationality, turkism, emigration, emigration press

M.Ə.Rəsulzadənin ilk mətbu yazısı 1903-cü ildə mayın 2-də Tiflisdə çıxan “Şərqi Rus” qəzetində çap olunub. "Öz müxbirlərimizdən. Bakı" başlıqlı ilk yazıda M.Ə.Rəsulzadə "Şərqi-Rus" qəzetinin nəşrini alqışlayır və qeyd edir: "Şükr və min dəfə şükr! Ki biz Qafqaz müsəlmanları da bir qəzet sahibi olduq”.

**1903-cü ilin 14 mayında isə qəzetin 19-cu sayında** “Şərqi-Rus” qəzetində əmisi oğlu və yaxın mücadilə dostu M.Ə.Rəsuloğlu ilə birlikdə “Hümmət və qeyrət vaxtıdır” məqaləsi çap edilir. Bu yazıda elm öyrənməyin vacibliyi xüsusi olaraq belə vurğulanır: “Bu vaxta bizə lazım və vacibdir ki, hümmət edib, elm öyrənməyə və öyrətməyə və öyrətdirməyə səy və kişiş qılaq. Elmsiz heç bir nöqsanımız götürülməyəcəkdir”.

Məqalədə M.Ə.Rəsulzadə elmin, təhsilin, məktəbin vacibliyinə toxunaraq yazırdı: “Qafqaz Müsəlman əhalisindən ümumi və Bakı əhlindən xüsusi təvəqqe edirəm ki, öz uşaqlarından balaca olan vaxtda elm və tərbiyə kəsb etməkdən başqa bir şey mənzur (məqsəd, niyyət) tutmasınlar. Məsələn, hər kəsin ki, qüvvəsi çatır uşağını məktəbə qoymağa, məbada-məbada palçıxçı, dükan şagirdi və qeyrə və qeyrəyə razı olsun” (1).

M.Ə.Rəsulzadə “Hümmət və qeyrət vaxtıdır” məqaləsində yazırdı: “Pəs hümmət və qeyrət vaxtıdır. İttifaq edib bir məktəbxanə bina eləyin ki, ona da ümumi ruhani deyilə. Hansı ki, o məktəbdən çıxan üləmadan molla və axundlar təyini lazım olacaqdır” (2).

M.Ə.Rəsulzadə qəzetin 1903-cü ildəki 20-ci sayında çap olunan digər mətbu yazısında, “Müxəmməs” şerində isə elmin, savadlanmanın vacibliyi probleminə toxunurdu. M. Ə. Rəsulzadənin bu dövrdə mətbu fəaliyyətinə aid olan 1903-cü ildəki yazıları diqqətə layiqdir. Bu yazıları ilə o, gələcəkdə ciddi mübarizə edəcəyi rus istibdadı rejiminə qarşı barışmazlığının əsasını qoyurdu.

Mövcud mühitə, rus istibdad rejimin qarşı mübarizəsi baxımından M. Ə. Rəsulzadənin ilkin dövr fəaliyyətini və mətbu yazılarını öyrənmək əhəmiyyətlidir. “Şərqi- Rus”, “Hümmət”, “Dəvət Qoç”, “Təkamül”, “İrşad” və digər mətbuat orqanlarında M.Ə.Rəsulzadənin mövcud rejim əleyhinə onlarla yazısı çap olunub.

M.Ə.Rəsulzadənin o zaman yaratdığı “Müsəlman Gənclik Təşkilatı”nın təşviqat-təbliğat işində “Hümmət” məcmuəsi*(bəzi mənbələrdə qəzet olaraq qeyd olunur-N.Y)* mühüm rol oynamışdı. 1904-cü ilin axırlarından 1905-ci ilin fevralınadək bir neçə yüz nüsxə tirajla nəşr edilən qəzetin 5-6 sayı çıxmışdı.

M.Ə.Rəsulzadə “Hümmət”in Qafqazda türk (Azərbaycan) mətbuatı arasında ilk partiya orqanı olduğunu göstərmişdir. “Hümmət”in həmin illərdə nəşr olunmuş nüsxələrindən yalnız birində - 3-cü sayında (1905-ci il) M. Ə. Rəsulzadənin bir məqaləsi hələlik tapılmışdır. Həmin məqalə 1917-ci ildə “Açıq söz” qəzetinin 5 iyul tarixli tarixli sayında (№513) çap edilmişdir (3).

Qeyd edək ki, Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadə mətbuata böyük önəm verirdi. Onun mətbuat haqqında olan yazılarına 1906-cı ildən rast gəlirik. M.Ə.Rəsulzadənin birbaşa mətbautla bağlı olan yazısı belə adlanır: **"Movcibi heyrət"** *("Heyrətə səbəb").*

M.Ə.Rəsulzadə bu yazısında qəzetlər arasında olan "mübahisəni, "mücadiləni" əslində bir mübarizə yolu adlandıraraq yazırdı:

"Doğrudur, qəzetlər arasında hər bir vaxt, hər bir zaman mübahisə, mücadilə, mübarizə olur. Lakin bu bəhs, bu cidal, xəncər və tapança davası olmayıb müsadimeyi-əfkar *(ictimai fikir),* mübarizeyi-təsəvvürdən ibarətdir və bu toqquşma və vuruşma qəbih(pis) olmayıb, bəlkə ən gözəl və ən müstəhsən*(bəyənilən)* mübarizə təriqidir *(yoludur).*

..Şəhərimizdə bir qəzetə nəşr edilərkən millətimizə "həyat" bağışlandı. Həyat olandan sonra irşad lazımeyi-mədəniyyət olduğundan "İrşad"ın zühuru mətlubi-təbii olmazmı?" (5).

M.Ə.Rəsulzadə mətbuat haqqında olan ikinci yazısını belə adlandırır: **"Yeni qəzetə".** Qeyd edir ki, qəzetin başlıca məsləki – hürriyyətsevərlikdir, yəni azadlıqsevər olmalıdır. Məqalədə belə maraqlı fikirlər var: "Qəzetin məsləki – hürriyyətpərvərlikdir... Doğruya – doğru, əyriyə – əyri demək "Vətən xadimi"nin borcu olduğu kimi aləmi – islamiyyətdə cərəyan edən əhval və vəqayedə zaman, məkanın müdafiəsinə görə acı-acı tənqid etmək məsləkimiz müqtəziyyatındadır *(vacibdir)"* (6).

M.Ə.Rəsulzadənin mətbuat haqqında yazıları yalnız Azərbaycanda nəşr edilən qəzet və jurnallarla bağlı deyil, eyni zamanda Çar Rusiyasının digər bölgələrində çap olunan nəşr orqanları haqqında da bilgilər verir.

Bu mənada onun Kazan şəhərində çıxan **"Tan Yuldızı"** ***("Dan Ulduzu")*****qəzeti haqqında** fikirləri maraqlıdır. O, yazırdı: "Kazan şəhərində çıxan "Tan Yuldızı" qəzetəsinin əvvəlinci və ikinci nömrələrini aldıq. Qəzetənin şiyveyi – təhririyyəsi qafqaziyalılar anlayacaq bir dildə deyilsə də, mündəricartı o qədər maraqlı, məsləki o qədər müstəqimdir*(doğru,sağlam)* ki, hər bir sahibi-zövq hıqqana-hıqqana olsa da onu oxuyub məzmunundan xəbərdar olacaqdır. Arzu edilirdi ki, ədəbiyyatımızın üfüqündə bu tövr yulduzlar çoxlaşıb "Tan Yuldızı"nın məsləki aramızda bərqərar olaydı" (7).

M.Ə.Rəsulzadənin 1906-cı ildə nəşr edilən, sayca dördüncü məqaləsinin adı **"Yeni inqilab xadimidir".** O, yazır: "inqilab ilə əksinqilab" arasında olan ziddiyyətlər, "vuruşub çəkilmələr" daha çox mətbuatda müşahidə edilir. M.Ə.Rəsulzadə bu haqda olan fikirlərini belə təqdim edir:

"İnqilab ilə əksinqilab həmişə vuruşub çəkilməkdədir. Bu vuruşmanın, bu çəkişmənin asari aləmi-mətbuatda pək yaxşı müşahidə olunur. Bu gün bir qəzetə nəşr olunur. İnqilab tərəfdən isə həqiqətsevər, ədalət tələb edər isə, sabah bağlanar. Əvəzində surətini dəyişib, özgə bir surətdə nəşr edər. O da bağlanar, təbid *(uzaqlaşdırma)* edilər. Nəhayət, olduğu şəhərdə çap olunmağa qoyulmaz, özgə şəhərdə çap olunar. Çap olunar da dediyini deyər, yazdığını yazar, nəhayət, şiddətli də yazar. Xülasə, heç bir mümaniət *(mane olmaq)* və işğaldan çəkinməyib, kəlami-hümmət və qeyrət ilə inqilab əksinqilab ilə boğuşar, savaşar"(8).

Sonrakı məqaləsini M.Ə.Rəsulzadə belə ümumiləşmiş adla təqdim edir: **"İslam mətbuatı".** Bu yazısında o, vətəndə qəzet və jurnalların tez-tez bağlanmasından şikayətlənir: "Elə bir gün yoxdur ki, zülm və istibdad altında qalmış vətənimizdə bir qəzetə və ya bir jurnal bağlanmasın. Bunlara ümdə səbəb ya idareyi-ürfiyyeyi-əsgəriyyələrdi (voyennoye polojeniye-hərbi vəziyyət) ki, həqqaniyyəti *(ədaləti)* izhar edici mətbuata nəfəs vermirlər və yaxud həqqaniyyəti *(ədaləti)* icra etmək niyyətində olan mücahidlərin bacardıqları dərəcə özlərinin tavakası *(xahişi)* olmayıb müştərilər tərəfindən kömək və ianə görmədikləridir" (9).

M.Ə.Rəsulzadənin **"Tərəqqi" qəzetindəki** yazısı belə adlanır: **"Mətbuat xüsusunda".** Müəllif maraqlı faktlar təqdim edir:"Rusiya mətbuatı olmazın təvyiqatı*(yubandırma,gecikdirmə)* çəkmiş 17 oktyabr manifestindən bəri bir hürriyyəti-mətbuat xülyasına göz tikmiş olan Rusiya qəzetələri budur 3 ildir hələ sıxıntıdadırlar! Mətbuat bu qədər bir təzyiqi, bu

qədər bir sıxıntını çəkiyor, olmazın cərimələr veriyor, mühərrirlərinin mənfu *(sürgün olunmuş)* və məbus olduğuna qatlanıyor, bunların hamısına davam ediyordu!...Vüzarət komissiyası tərəfindən Dumaya həll olunmaq üçün verilmək üzrə mətbuat barəsində olan qanun layihəsi hazırlanmışdır. Bu xüsusda Peterburq qəzetələri layihənin üzünü dərc etməklə bərabər müxtəlif yollu tənqidatda bulunmuşlar" (10).

1909-cu ildə Tehranda nəşr etdirdiyi **"İrani-nov" qəzetində** M.Ə.Rəsulzadə "qəzeti millətin danışan dili" adlandırır, "Vətən dərdlərinə mətbuat dərman olur" – deyir. Onun "Bizim məqamımız" başlıqlı yazısındakı hər fikir mənalıdır: "...Qəzet millətin danışan dilidir. Bir millətin ki, qəzeti yoxdur, elə bil ki, o millətin dili yoxdur...Vətən dərdlərinə mətbuat dərman olur. İstibdadın yurd-yuvasını qəzetlər dağıdıb və dağıdır. Qəzet həmişəlik qaravuldadır*(gözətçilikdədir),* qoymur ki, ölkənin inkişaf yolu bağlansın...Qəzet inanılmış bir qoruyucudur ki, hökumətin iş və hərəkətlərini görür, onların səhv və xətalarını açıb göstərir, milləti hökumətin səhv və xəyanətlərindən xəbərdar edir...Qəzet camaata və tək-tək adamlara öz vəzifəsini göstərib başa salır, vətəni sevməyi onlara öyrədir, lazım olanda parlaman və hökumətə kömək edər.Qəzet bir çıraqdır ki, əyri və düz yolu millətə göstərir, onu sərvət və sahman yoluna yönəldir" (11).

**"İrani-nov" qəzetindəki "Biçarə mətbuat"** məqaləsində çox təsirli bir cümlə var: "Məzlum millətin mətbuatı da məzlum olur..." Sonra O, İranda mətbuatın mövcud durumunu açıqlayır:

"Məzlum millətin mətbuatı da məzlum olur. Bizim əzəmətli vətənimiz İran düşdüyü bu biçarə vəziyyətdə hər tərəfdən xarici və daxili tamahlara düçar olub, uzun müddətdir ki, ağır xəstələnib və indi də qansızlıq və gücsüzlükdən iztirablı, zəif haldadır. Şübhə yoxdur ki, biz – millətin dili adlanan jurnalistlər də zəif və aciz olacağıq. ...15 milyon əhalisi olan bir ölkə bir neçə gündəlik milli qəzetini saxlaya bilmirsə, öz yeniləşməsi barədə hansı yaxşı fikirlər yarada bilər?.. Bu elə bir sualdır ki, onun cavabını səhv iş görən fəsad əhli verməlidir" (12).

M.Ə.Rəsulzadə mətbuat haqqında yazılarında Türkiyədə nəşr edilən qəzetlərə də diqqət göstərir. Bu mənada onun **"Şəms" qəzeti"** yazısı maraqlıdır. Müəllif yazır:

"İstanbulda bir yarımvərəq qəzet çıxır. Ona "Şəms" deyirlər. İranlı oxucuların az bir qisminin fikrinə görə o prins Ərbəüddövlənin məddahı olan miskin bir qəzetdir. Az qismi ona görə deyirik ki, müştərisi yoxdur..."Şəms" qəzeti də bu cür şöhrətpərəstlərdəndir. Bu yarımvərəq istədi ki, məşhur olsun və eyni zamanda xidmət göstərsin: bir neçə nəfər Milli Məclisin vətənpərəst möhtərəm millət vəkillərinə qarşı yazılar verdi.Təbiidir ki, şöhrətpərəstlik vaxtında millət vəkillərini alçaldan bu məktub meydana çıxdı. Çünki bunlar öz alçaq məntiqlərinə əsasən təsəvvür edirdilər ki, nə qədər çox məşhur adamla tərəfi-müqabil olsalar, o qədər də şöhrətləri və oxucularının sayı artacaq.Qələmin hörməti və izzəti-nəfsilə tanış olmayan bu yazıçı (hörmətli yazıçılar inciməsinlər) təsəvvür edir ki, məsələn, əgər tərəfdarı çox olan ağayi Tağızadəyə qarşı bir şey yazsa, yəqin ki, onun tərəfdarlarının azı yarısı bu qəzeti alacaq, bu isə onun yeganə məqsədinə çatması üçün ən asan yoldur" (13).

1911-ci ildə **"İrani-nov"** qəzetində M.Ə.Rəsulzadənin **"Mətbuat azadlığı"** məqaləsin çap olunur. Əslində bu məqalə proqram xarakterli ciddi bir sənəddir. Müəllif yazır: "Hər ölkənin mədəniyyətinin inkişafı onun ədəbiyyatının inkişafı ilə bağlı olduğu kimi, hər millətin siyasi vəziyyəti də onun mətbuat azadlığı ilə bağlıdır.O millət, o məmləkət xoşbəxt və azaddır ki, onların mətbuatı azad və xoşbəxt olsun...

...Mətbuatın tərifi və xüsusiyyətləri haqqında demək olar ki, mətbuat ümumi məsələlərin yazılı şərhidir, bir ümumi mənafeyə xidmət edir, onu bütün xalqın nəzərinə çatdırır. Mətbuat üçün üç şərt lazımdır: birinci – yazmaq, ikinci – ümumi mənafe, üçüncü – yaymaq. Əgər bunların biri yoxdursa, mətbuat da yoxdur.

...Mətbuatın rolu çox böyük və əhəmiyyətlidir. Mətbuat mühüm milli qüvvələrdən biridir. O, milli iqtidarda dördüncü yerdə durur. Yəni iqtidarın üç qüvvəsi, birincisi – qanunvericilik, ikinci – icraedici, üçüncü – hüquq orqanları. Bundan sonra mətbuat gəlir" (14).

**“Kafkazskoe slovo”*(“Qafqaz sözü”)*** qəzetinin yazdığı böhtanlara toxunan M.Ə.Rəsulzadə fikirlərini oxuculara belə çatdırır:

“Kafkazskoe slovo” qəzetəsi yalançı mühərririnin yazdığından keçən nüsxələrimizdən birində bir neçə sətir yazmışdıq. Bəzi qanı isti olanlarımız hətta bu kimi böhtanlara da o qədər nazikanə yazı yazanı kafi görməmişlərdi. Bunlarca bu növdən füzulların*(həddini aşanların)* burunları ovulmalı ki, bir də həqlərini bilsinlər.Fəqət bizcə bir yazıçı üçün nəzakətlə də olsa, “yalan deyirsən” ixtarı*(xatırlatma,bildirmə)* “burun ovmaq” qədər vardır” (15).

**Qeyd edək ki, 1915-ci il 19 mayında M.Ə.Rəsulzadə** “Yeni İqbal” qəzetində Bakı Quberniyası Xalq Peşə məktəbinin direktoruna aid olan bir məlumatin səhifədən çıxarılmasına ciddi etirazını bildirdiyinə gorə Bakı şəhər rəisinin əmri ilə həbs edilir.İki aya qədər həbsdə saxlanıldıqdan sonra azadliğa buraxılır. Onun həbsi haqqında “Yeni İqbal” qəzetinin 1915-ci il, 24 may sayında (N23) məlumat vardır (16).

M.Ə.Rəsulzadənin yazılarında mətbuatın haqsız və ədalətsiz mövqeyinə ciddi etirazlara da rast gəlmək mümkündür. Bu mənada onun İranda nəşr edilən **“Novbahar”** qəzetinin əleyhinə yazdığı **“Rəfi-istibah” (“Səhvlərin düzəldilməsi”)** məqaləsi çox xarakterikdir: ***“Novbahar” qəzetəsinin 86-cı nömrəsinə cavab.***

“Novbahar” qəzetəsinin möhtərəm müdiri Məliküşşüəra, nə demək istədiyini bilmiyoruz! Lakin bu qədər bizə məlumdur ki, Məliküşşüəra cənablarının müdiriyyətilə nəşr olunan “Novbahar”ın 86-cı nömrəsində Qafqasiya Azərbaycan türklərinin bəşəriyyət aləmi gülüstanında özlərinə məxsus baxça tutub orada özləri üçün mədəniyyət gülləri əkməyə ixtiyarları olmadığını bildirirlər.

Möhtərəm “Novbahar” müdiri deyir: Qafqasiya Azərbaycan türklərinin islamiyyət evində özlərinə məxsus otaq tutmağa həqləri yoxdur...

Əcəba: biz Qafqasiya Azərbaycan türklərinin arzuları əksinə olan bu qədər məhəbbətsizlik haradan nəşət etmişdir” (4).

Qeyd edək ki, M.Ə.Rəsulzadə 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti dövründə qəbul edilən “Mətbuat Nizamnaməsi haqqında” qanun layihəsinin də müzakirələrində dəyərli çıxışlar etmişdir.O, çıxışlarında mətbuata böyük önəm verdiyini belə açıqlayırdı: “Burada mətbuat qanununun əleyhinə türkcə söylənilən sözləri rusca, bəlkə daha məntiqə müvafiq bir tərzdə müdafiə etdilər. Hamı söylədilər ki, hürriyyəti – mətbuat lazımdır, fəqət buna bir əndazə, qanun təyin etmək də icab edər. İştə mətbuat qanununu müdafiə edənlər ilə əleyhdarları arasında başlıca fərq bundan ibarətdir. Burada Burada bir adam bulunmaz ki, hürriyyəti – mətbuata zidd olsun” (17, 330).

1920-ci ilin 27 Aprelində Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra M.Ə.Rəsulzadə müxtəlif ölkələrdə yaşamaq məcburiyyətində qaldı. O, bu ölkələrdə sovet rejiminə qarşı kəskin mübarizə aparan mühacirət mətbuatını formalaşdırdı.

1923-cü ildə M.Ə.Rəsulzadə Türkiyədə **“Azərbaycan Cümhuriyyəti, keyfiyyəti-təşəkkülü, şimdiki vəziyyəti”***(“Azərbaycan Cümhuriyyəti, yaranması, indiki vəziyyəti”-N.Y)* kitabını nəşr etdirdi. Bu kitabda Azərbaycanda yaranmış bolşevik mətbuatını belə xarakterizə edirdi: “Əgər sırf türk yazısı ilə çıxan mətbuata türkcə mətbuat deyilirsə, indiki Azərbaycanda da bu var. Yox, mətbuatı milliyyədən məqsəd, yalnız yazının zahiri deyil, ruhu mündəricatı dahi murad *(bundan ibarətdir)* isə, o halda bolşevik Azərbaycanda mətbuatı milliyyə yoxdur. Vaxtilə ağpadişahdan bəhs edər durar. “Türküstan vilayətinin qəzeti” adı ilə misyoner Astraumov tərəfindən nəşr edilən türkcə bir qəzetə ilə Qızıl Lenin mənaqibindən *(əfsanələrindən)* və Kommunist Firqəsi nəzəriyyəsindən başqa bir şey bilməyən Azərbaycan Kommunist türk mətbuatı ilə müştərək bir şeyi varsa, o da yazısındakı ərəb hərfləridir. Fəqət bolşeviklər bu fərqi də ortadan qaldırırlar” (18, 99-100).

**Azərbaycan Milli Qurtuluş Hərəkatının böyük ideoloqu M.Ə.Rəsulzadənin** milli istiqlal mücadiləsi tariximizdə gördüyü ən böyük xidmət Azərbaycanın azadlığı və müstəqilliyi mübarizəsini elmi və sistemli şəkildə aparan mətbuat orqanlarını yaratması idi.

**1923-cü ilin sentyabrın 26-dan isə M.Ə.Rəsulzadə İstanbulda "Yeni Qafqasiya"** jurnalını nəşr etməyə başladı. Sonradan onun redaktorluğu və fəaliyyəti ilə **"Odlu Yurd", "Bildiriş", "İstiqlal", "Qurtuluş", "Azərbaycan" jurnalları nəşr olunmağa başladı.** M.Ə.Rəsulzadə bu mətbuat orqanlarının proqramını belə müəyyənləşdirmişdi:

1. Dövlət müstəqilliyi ideyasının təbliği və itirilmiş Azərbaycan müstəqilliyi uğrunda mübarizə.

2. Bolşevizmin və onun ictimai-təbliğat əsaslarının tənqidi və sovet hökumətinin milli siyasətinin istismarçı-müstəmləkə formalı olduğunun ifşası.

3. Rus-bolşevik işğalında olan ölkənin gündəlik ictimai-siyasi həyatının təhlili və məqama uyğun mübarizə şüarlarının müəyyənləşdirilib irəli sürülməsi.

4. Radikal siyasi dünyagörüşünə malik pozitiv ictimai-siyasi proqramın milli-inqilabi-siyasi ruhda inkişafı və yayılması.

5. Sovet mətbuatının tənqidi və onunla polemika" (19, 114).

Qeyd etdiyimiz kimi 1923-cü ilin sentyabr ayında İstanbulda M.Ə.Rəsulzadənin başçılığı ilə "Yeni Qafqasiya" jurnalı nəşrə başladı və Azərbaycan mühacirət mətbuatının əsası qoyuldu. Sonradan Türkiyənin İstanbul və Ankara şəhərlərində, Almaniyada, Polşada, Fransada çoxlu sayda qəzetlər, jurnallar, kitablar nəşr edilərək mühacirət mətbuatımızın dəyərli nümunələri oldu. Bu mətbuat orqanlarında Azərbaycanın mədəniyyəti,tarixi, ədəbiyyat, incəsənət və folkloru ilə bağlı yazılar çap edildi.

Qeyd edək ki, bu mətbuat orqanlarının fəaliyyətinə rəsmi dəstəyi göstərən şəxslərdən biri o dövrlərdə Türkiyənin Maarif naziri olan və eyni zamanda "Türk Ocaqları"na başçılıq etmiş Həmdulla Sübhi Tanrıövər idi.Bəzi mənbələrdə qeyd olunur ki,"Yeni Qafqasiya"nın yayılmasına və abunə şəraitinin genişlənməsinə Əhməd bəy Ağaoğlu da yardım göstərirdi.

Jurnalın ilk sayında M. Ə. Rəsulzadənin "Atəş çalan Prometey" (Proqram məqaləsi əvəzinə) yazısı çap olunmuşdu.

**"Yeni Qafqasiya"nın aşağıdakı maddələrdən ibarət olan proqramı belə idi:**

- "Yeni Qafqasiya" milliyyətçi, radikal və demokratikdir.
- "Yeni Qafqasiya" türkçüdür. Türklərin mədəni tərəflərini, mədəni əlaqələrini, mənəvi vəhdət və istiqlallarını hədəf seçir.
- "Yeni Qafqasiya" Türk davasının Azəri cəbhəsini müdafiyəyə mükəlləf Azərbaycan istiqlalçılarının ümumi fikridir.
- "Yeni Qafqasiya" Qafqazya millətlərinin Rusya əsarətindən xilas olmasını və baş verə biləcək Rusya istilasına qarşı müvəffəqiyyətlə durmasını təmin üçün Qafqazyanın konfederasiya şəklində birləşməsi tərəfdarıdır.
- "Yeni Qafqasiya" yalnız azərbaycançılıq, türkçülük və qafqazyaçılıqla qalmaz; o, Şərqdəki milli istiqlal hərəkatını da, hər hansı bir fikirlərini də mənimsəyir, Şərqin radikal bir surətdə əsirlənməsini bütün səmimiyyətiylə müasirləşməni seçir;
- "Yeni Qafqasiya" xüsusilə Rusya imperyalizminə qarşı mücadilə edər, o çarizmi olduğu qədər bolşevizmidə Türk dünyası üçün zərərli və Qafqazyaya düşmən görür".
- "Yeni Qafqasiya" Azərbaycanın istiqlal mübarizəsini mühacirətdə davam etdirən rəsmi təbliğat vasitəsi idi. Onun əsas qayəsi də milliyyət və istiqlal qayəsi idi, Azərbaycanın istiqlalı idi;
- **"Yeni Qafqasiya" jurnalı** Azərbaycan istiqlalı uğrunda əsasını "Azəri Türkünün Rus çarizminə qarşı davam etdirdiyi milli mədəniyyət uğrundakı mücadilədə görür", bütün çətinliklərə baxmayaraq bu mücadilənin davam etdiyini vurğulayırdı"(20, 12).

Jurnalda nəşr edilən digər məqalədə isə milli istiqlal ideyalarının bütün çətinliklərə baxmayaraq genişlənəcəyi göstərilirdi.

Məlum olduğu kimi, 28 May və 27 Aprel günləri Azərbaycanın tarixində mühüm yer tutur. Bu tarixlərdən birincisini bayram, ikincisini matəm günü kimi qeyd edən "Yeni Qafqasiya"nın səhifələrində bu hadisələrlə bağlı xeyli məqalələr dərc olunmuşdur.

**1920-ci ilin** 27 aprel işğalından sonra yenidən Rusyanın müstəmləkəsinə çevrilən Azərbaycanda baş verən hadisələr də "Yeni Qafqasiya"da dərc olunan yazıların mövzusunu təşkil edirdi. "Yeni Qafqasiya" Sovetlər Birliyinin bu məmləkətdə apardığı siyasəti pisləyir, bolşeviklərin əsas simasını açıb göstərirdi (21, 12).

"Yeni Qafqasiya" yalnız Türkiyədə deyil, eləcə də İranda, Misirdə, Əfqanıstanda yayılır, geniş maraq doğururdu. Jurnal gizli yolla Azərbaycana gətirilib xalq arasında yayılırdı.

**Sovet hökuməti hər vasitə ilə "Yeni Qafqasiya"nı** bağlamağa çalışırdı.1927-ci ildə "Yeni Qafqasiya" jurnalı nəşrini dayandırdı.

"Yeni Qafqasiya"dan sonra azərbaycanlı mühacirlərin nəşr etdiyi ikinci mətbuat orqanı **"Azəri Türk" jurnalıdır.** Jurnalın baş redaktoru M.S.Aran idi.Ədəbi-ictimai, elmi və siyasi, milliyyətçi bir jurnal olan "Azəri Türk" 1928-ci il fevralın 1-də İstanbulda, Sultan Əhməddə nəşr olunurdu.

"Azəri Türk"də dərc edilmiş, müəllifi M.Ə.Rəsulzadə olan ilk baş məqalənin adı "Tutacağımız yol" adlanırdı.

**"Azəri Türk" jurnalının fəaliyyət proqramı belə idi:**

**1.** "Azəri Türk", Azərbaycan istiqlal davasını müdafiə etmək vəzifəsini öhdəsinə götürən milliyyətpərvərlərin ümumi fikirdir.

**2.** Əsarətdə olan Türk qurtuluş və istiqlallarını qoruyar.

**3.** "Azəri Türk" xüsusilə Rusluqla mücadilə edər.

**4.** Qafqazya millətlərinin, Rusya əsarətindən qurtuluşunu və gələcək Rusyanın istilasına qarşı birləşmələrinə tərəfdardır (20, 51).

"Azəri Türk" jurnalının səhifələrində Azərbaycan Milli İstiqlal mübarizəsi ideyası müxtəlif məqalələrdə öz əksini tapırdı.1928-ci ilin sonunda isə "Azəri Türk" jurnalı nəşrini dayandırdı.

**1929-cu ilin martın 1-də imtiyaz sahibi A.Kazımzadə, məsul müdiri Kamal, baş redaktoru M. Ə. Rəsulzadə olan "Odlu Yurd" jurnalı nəşr edilməyə başladı.** "Odlu Yurd" özündən əvvəlki nəşrlərdən fərqli olaraq bütövlükdə latın əlifbası ilə çap olunan ilk jurnal idi. İlk sayı 1929-cu ilin martın 1-i tarixində nəşr edilən jurnalın son sayı 1931-ci ilin 6 avqust tarixinə aiddir. "Odlu Yurd" öz səhifələrində başda Azərbaycan olmaqla, Rusiya işğalında qalan başqa xalqların problemləri ilə yanaşı Qafqazya, İslam dünyası və beynəlxalq məsələlərlə bağlı mövzulara da üstünlük verirdi (21, 15).

Qeyd edək ki, Azərbaycanlı mühacirlərin Türkiyədə 1930-1931-ci illərdə nəşr etdiyi "Bildiriş" qəzetində də M.Ə.Rəsulzadənin iki məqaləsi dərc edildi.

1931-ci ildə isə Sovetlər Birliyinin təzyiqi ilə Azərbaycan mühacirət mətbuatının Türkiyədə fəaliyyət göstərməsi rəsmi olaraq qadağan edildi.

**M.Ə.Rəsulzadənin baş redaktorluğu ilə nəşr edilən "İstiqlal" qəzeti isə 1932-ci ilin yanvar ayının 10-dan Berlində fəaliyyətə başladı.**

Milli Azərbaycan istiqlal mübarizəsini təbliğ edən, siyasi qəzet olan "İstiqlal" 10 gündən bir nəşr edilirdi. Abunə şəraiti: il-2, 6 ayı 1 dollar olan bu qəzet 4 səhifədən ibarət idi. Qəzetin ilk sayında M.Ə.Rəsulzadənin "Kəsilməyən səs" məqaləsi çap olunmuşdu.

"İstiqlal"ın məram və məqsədi bir digər məqalədə belə açıqlanır: "Mücadilənin tərcümanı olmaq! Mücadilənin səsini eşitdirmək! Milliyət və istiqlal, cumhuriyyət və demokratiya naminə davam edən mücadilənin ələmdarı olmaq!

İştə bu qayə və bu məqsədlə Avropanın mərkəzində intişara başlayan "İstiqlal" qəzeti, Azərbaycan və onun istiqlalını istirdat yolunda çox qiymətli və tarixi bir vəzifə yerinə yetirməkdir" (21, 26).

**1952-ci ilin aprelin 1-də Ankarada M.Ə.Rəsulzadənin ümumi rəhbərliyi altında "Azərbaycan" jurnalı "Birlik-Dirilikdir" başlığı ilə nəşr edilməyə başladı.** Jurnalın birinci sayında "Azərbaycan Kültür Dərnəyi"nin İdarə Heyətinin adından verilən yazısında jurnalın fəaliyyəti belə açıqlanırdı: "... İndi ayda bir dəfə nəşr ediləcək bu dərgimiz vasitəsi ilə

dərnəyimizin üç ili aşan çalışmaları haqqında müfəssəl bilgi verəcəyimiz kimi, Anadolu Türklüyünə bunca mənən və maddətən yaxın və qonşu olan Azərbaycan türklüyünün tarixi, ədəbiyyatı, sənəti, teatr həyatı hüsuslarında yurddaşlara mümkün mərtəbə geniş bilgilər verməyə qeyrət edəcəyik" (22, 2).

**Jurnalın Başyazarı Feyzi Aküzüm, məsul müdiri isə Əhməd Yaşad idi.** Jurnalın on iki sayı M.Ə.Rəsulzadənin ciddi fəaliyyəti nəticəsində nəşr edilmişdi. Baş məqalələri isə adətən M.Ə.Rəsulzadə, bəzən Ə.V.Yurdsevər hazırlayırdılar. Digər yazıların da hazırlanmasında M.Ə.Rəsulzadənin xidmətləri olmuşdu.

**Qeyd edək ki, Azərbaycan Milli Qurtuluş Hərəkatının tanınmış ideoloqu M. Ə. Rəsulzadə** istər Türkiyədə, istərsə də Avropa ölkələrində Milli İstiqlal mübarizəsinin böyük salnaməsini təşkil edən dəyərli kitablar da nəşr etdirmişdi. M.Ə.Rəsulzadənin XX əsrin 20-ci illərində Türkiyədə nəşr etdirdiyi ilk kitab "Azərbaycan Cümhuriyyəti, Keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti" (1923-cü il) adlanırdı. Bundan əlavə, o, Türkiyədə həmin illərdə aşağıdakı əsərlərini də çap etdirmişdi: 1) "Əsrimizin Siyavuşu" (1923); 2) "İstiqlal məfkurəsi və gənclik" (1924); 3) Rusiyada siyasi vəziyyət" (1924); 4) "İxtilalçı sosializmin iflası və demokrasinin gələcəyi" (1928); 5) "Milliyyət və bolşevizm" (1930, farsca).

Azərbaycan mühacirət mətbuatının əsasını qoyan, görkəmli dövlət xadimi M. Ə. Rəsulzadə bolşevik işğalına qarşı davamlı mübarizə aparırdı.

Avropada isə M.Ə.Rəsulzadənn nəşr edilən aşağıdakı kitabları da olduqca əhəmiyyətlidir:

1) "Panturanizm və Qafqaz problemi", Paris, 1930;
2) "Azərbaycan müstəqillik uğrunda mübarizədə", Varşava, 1938;
3) "Azərbaycan Problemi",Berlin, 1938;
4)"Azərbaycan şairi Nizami", Ankara, 1951.

**M.Ə.Rəsulzadənin şəxsi yazışmalarında da mətbuat problemlərinə rast gəlmək mümkündür.**

Qeyd edək ki, M.Ə.Rəsulzadənin şəxsi yazışmalrında Azərbaycan mətbuatı problemləri ciddi olaraq qoyulur.Bu mənada onun Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Ceyhun Hacıbəyli ilə şəxsi məktublarında maraqlı faktlar vardır.

M.Ə.Rəsulzadənin İstanbuldan 1924-ü ilin aprelin 11-də C.Hacıbəyliyə yazdığı məktubda belə qeydlər vardır:

Sən mənə "Yeni Qafqasiya"nı Fransada intişar etdirmək (yaymaq) üçün vasitələr göstərəcəkdin. Onu gözləyirəm. "Yeni Qafqasiya"ya bugünə qədər gürcülər bir az yardım edirdilər. İndi isə tamamilə müavinətsiz *(yardımsız)* qalmışdır. Böhran halı keçirməkdədir. Buna görə abunə qeydinə kömək etsəniz yaxşı olar. Hal-hazırda illik abunə haqqı 1,5 dollardır..." (23, 255-256).

M.Ə.Rəsulzadənin mühacirətdə yaşadığı dövrdə şəxsi yazışmalrında və məktublarında da mətbuat problemlərinə rast gəlmək mümkündür.

1924-cü ilin 22 iyulunda tanınmış mühacir C.Hacıbəyliyə göndərilən bir məktubda isə yazılıb:

Çoxdandır Sizə məktub yazmadım. Qüsuruma baxmayacağınızı ümid edirəm. Əkbər ağa vasitəsilə göndərdiyiniz bir miqdar dolları aldım. Hər kəs Sizin qədər vəzifəşünas olsaydı, bəlkə də "Yeni Qafqasiya" bu qədər şiddətli böhran keçirməzdi. Fəqət arxadaşım, mən Sizə qarşı bir az qüsurluyam. Fəqət bilməlisiniz ki, imkan çox məhduddur. Sizin buraya gəlmək fikrində olduğunuzu və bir iş aradığınızı da bilirəm. Fəqət nə çarə ki, buradakı arxadaşlar belə iş bulmaqdan acizdirlər. Mirzənin işi də hələ ki, baş tutmamışdır. Sonra Murad bəy Vəzirovla görüşməyi məktubların birində yazmışdınız. Fəqət mən burada ikən onunla heç görüşməmiş kimiyəm. Siz ara-sıra məktub yazın. Mənim müntəzəm cavab yazmadığıma məna verməyin. Mühüm gördüyünüz məsələ və hadisələri "Yeni Qafqasiya"ya yetirməyi bizdən

əsirgəməyin. Göndərdiyiniz məqalələrdən bir qisminin dərc olunmaması Sizi pərişan etdi, etməsin!

Fransızca qəzet və ya məcmuələrdə Azərbaycana aid bir şey olarsa bizə göndərin. Avropa mətbuatında Azərbaycana aid yazıların dərc olunması daxildəkilərə xüsusilə yaxşı təsir edir" (23, 257-258).

M.Ə.Rəsulzadə Azərbaycan mühacirət mətbuatının nəşr edilməsi üçün Türkiyə rəsmiləri ilə ciddi əlaqələr yaratmışdı.

Polşanın Xarici İşlər Nazirliyinin rəsmisi olan Tadeuş Qoluvkoya yazdığı məktublarda isə M.Ə.Rəsulzadənin mətbuat orqanları yaratması və onların fəaliyyətinin dəstəklənməsi vacibliyi önə çəkilir.

**M. Ə. Rəsulzadənin Polşa Xarici İşlər Nazirliyinin rəsmisi olan T. Qoluvkoya ünvanladığı** bir məktubda mühacirət mətbuatı problemlərinə toxunulur. "Yeni Qafqasiya" jurnalına dəstək göstərilməsi xahiş edilir. Həmin məktub:

**"Çox hörmətli T.H.!**

"Sizin 9.10.26 tarixli məktubunuzu mən oktyabrın son günlərində aldım. Sizi başa düşürəm ki, bu jurnalın çap olunması üçün ayrılmış məbləğə baxmayaraq, Sizin tərəfinizdən bizim jurnala xüsusi subsidiyaların buraxılması məsələsi qaldırıla bilməz. Lakin Sizə deməliyəm ki, jurnalın fransız dilində çap olunmasının ləngiməsi əsasən komitənin günahından yox, Parisin günahından baş vermişdir. Ramişvilinin təkidi ilə jurnalın çap olunmasını Avropaya keçirmək lazım idi. Komitə qərara almışdır ki, jurnalın 1-ci nömrəsi Parisdə dərc olunsun. Smetanı gözləyərkən bir ay keçdi, sonradan smetaya qoymaq üçün pul tələb etdilər. Komitə ilkin xərclərə 200 lirə göndərib smeta tələb etdi. Smeta alınmamışdır, pullar isə tam tələb olundu. Komitə ümumi işi saxlamamaq üçün lazım olan pulları Parisə göndərdi.

Sizə bildirmək lazımdır ki, sentyabr ayının pulunu Komitə yalnız oktyabrda almışdır, oktyabr ayı üçün isə hələ almayıb (Konstontinipolda bu işə rəhbərlik edən şəxsin olmamasından). Belə bir halda aydındır ki, yalnız avqust ayının məbləği haqqında danışmaq olar.

Sizin məktubunuza əsaslanaraq mən əlbəttə ki, kömək üçün Komitəyə müraciət edəcəm, inanıram ki, Komitə bizi başa düşəcək və birtəhər sentyabr və oktyabr ayları üçün olan borcları verməyə kömək edəcək..."*(*24, v.32-37).

M.Ə.Rəsulzadənin T.Qoluvkoya yazdığı digər məktubunda isə Azərbaycandakı situasiya ilə yanaşı, "Yeni Qafqasiya" jurnalının nəşri vacibliyi də vurğulanır:**"Hörmətli dost!** Mənim 25.10.1927 tarixli məktubuma cavab gözləməyərək, lütfkarlığınızdan istifadə edərək Sizə yazıram ki, bizim tərəfimizdən Varşavaya nümayəndə kimi cənab Mustafa bəy Vəkilli təyin edilib, o, bu yaxınlarda təyinat yerinə gedəcək, eyni zamanda Sizə bildirim ki, bu yaxınlarda Parisə Milli Mərkəzin üç nəfərdən ibarət nümayəndə heyəti çıxacaq və öz vəzifələrinin yerinə yetirilməsinə başlayacaqlar....

Təəssüf ki, uzunmüddətli mübarizə və ciddi demarşlardan sonra nəhayət ki, bolşevik diplomatiyası "Yeni Qafqasiya"nın müvəqqəti bağlanmasına nail oldular. Lakin bu zaman bu hərəkətlərin acığına olduğu kimi bolşevik təşkilatlarının böyük bir şəbəkəsi aşkarlanmışdı. Yerli mətbuat qeyd edir ki, bu genişlənmədə əhəmiyyətli rolu Kitayqorodskinin "Pravda" qəzetində yerləşdirilmiş məqaləsi oynamışdır. Bu məqalənin tərcüməsi "Yeni Qafqasiya" sayəsində türk qəzetlərində yerləşdirilmişdir. Biz inanırıq ki, çox tez bir zamanda "Yeni Qafqasiya"nın çapı bərpa olunacaq... **29.11.1927**" (25, v.29-30).

1928-ci ilin fevralın 4-də Azərbaycan nümayəndə heyətinin adından M. Ə. Rəsulzadənin, gürcü nümayəndəsi Mdivianinin, Şimali Qafqaz nümayəndəsi M. Suncun **Polşanın Xarici İşlər Nazirliyinə** göndərilən məktubda da maraqlı məlumatlar vardır:

"**QİK-nin 1928-ci il üçün büdcəsini** Sizə göndərərək və onu lazımi orqanlar qarşısında tam dəstəkləməsini xahiş edərək, aşağıdakı izahı verməyi özümüzə borc bilirik.

1928-ci il üçün büdcə keçən ilə nisbətən 850 dollar artmışdır (2350 1500-ə qarşı), bu da təxminən 50% təşkil edir, bu məbləğdən bir hissəsi birinci növbədə türk və fransız dillərində

ümumi təbliğatın üstünə düşür (par. 2, bənd a və b), 2-ci – “Prometey” nəşriyyatına, 3-cü isə vətənlə əlaqəyə.

Keçən il inkişaf və əhəmiyyətin artmasını təsdiq etdi və həmçinin Qafqaz hərəkatı problemlərinin işıqlandırılması və türk ictimaiyyətini qafqazlıların həmrəy məqsədi ilə ümumi çıxışların türk dilində edilməsi vacibliyini göstərdi, hal-hazırda bu məqsədlə almanax dərc edilir, onun səhifələrində bolşeviklərin milli məsələdə nəzəriyyəsi və təcrübəsi, onların üsyana qarşı olan siyasətini təsvir edən ümumi xarakterli məqalələr, həmçinin Qafqaz respublikalarının, Ukraynanın və Türkestanın vəziyyətini təsvir edən məqalələr yer alırdı. Gələcəkdə də nəinki Türkiyə üçün, hətta bütün Şərq üçün əhəmiyyətli olan türk dilində kiçik kitabçalar dərc etməyi düşünürük. Bülletenin fransız dilində yararlılığı haqqında isə danışmağa belə dəyməz.

“Prometey”in büdcəsi təxminən 35%-dir. “Prometey” öz fəaliyyəti ərzində lazımi təəssürat yaratdı. Onun Qafqaz, Ukrayna, Türkestan xalqları arasında birləşmə ideyasının populyarlaşmasında rolu bolşevik dövri mətbuatının səhifələrində sistematik əks-sədalarla təsdiqlənir”(26,v.14-19; 27, 61).

**M.Ə.Rəsulzadənin** 1928-ci ilin 17 fevralında Polşa Xarici İşlər Nazirliyinin rəsmisinə ünvanladığı başqa bir məktub: **“Çox hörmətli T. Qoluvko!** Pan Papa ilə görüşdük. Siz düz deyirdiniz. Biz o dəqiqə hiss etdik ki, onların qismində biz bizim işimizə rəğbət bəsləyən əsl dosta sahib olduq. Onunla bir neçə görüş ərzində biz öz ehtiyaclarımızı müzakirə etdik və onların işlərinin ümumi vəziyyəti ilə tanış olmaq istəyini razı salmağa çalışırdıq; təfərrüatı haqqında yəqin ki bilirsiniz.“Yeni Qafqasiya”nın yerinə bəzi saylarını Sizə göndərdiyimiz “Azəri Türk”ü dərc etdik. 1-ci sayın baş məqaləsinin tərcüməsini mən bizim dostumuz mister Papeyə verdim*”*(28, v.29-30; 27, 66).

Qeyd edək ki,Polşa Respublikasında, Varşavadakı “Yeni Aktlar Arxivi”ndə, “Texniki Sənədlər Arxivi”ndə, Polşa Respublikası Müdafiə Nazirliyinin Xüsusi Arxivində, Varşava kitabxanasında saxlanılan materiallarda Mühacirət mətbuatımızla bağlı çoxlu məlumatlar vardır. Burada azərbaycanlıların Polşadakı fəaliyyətlərinə aid çox zəngin sənədlər saxlanılır. Azərbaycanlıların M.Ə.Rəsulzadənin, Ə.M.Topçubaşovun, M. Vəkillinin Pilsudski hökuməti ilə yazışmaları, Polşa dövlətinin mühacirlərə dəstəyini təsdiqləyən sənədlər böyük maraq doğurur.

Qeyd edək ki, Polşa dövləti Xarici İşlər Nazirliyinin Şərq Departamenti vasitəsi ilə azərbaycanlı mühacirlərin nəşr etdikləri mətbuat orqanlarına da maddi dəstək göstərirdi.

Polşa Xarici İşlər Nazirliyinin sənədlərində M. Ə. Rəsulzadənin Türkiyədə nəşr etdiyi “Azəri Türk” jurnalının fəaliyyət istiqamətləri də açıqlanır (29, v 37).

Göstərilir ki, Azərbaycan Milli Mərkəzinin orqanı olan “Azəri Türk” jurnalının 1-ci sayı nəşr edilmişdir. Jurnal “Yeni Qafqasiya”nın əvəzinə çap olunur. Jurnalın proqram xarakterli baş məqaləsinin müəllifi M. Ə. Rəsulzadədir.

Arxivdəki sənədlər arasında M.Ə.Rəsulzadənin nəşr etdiyi “Odlu Yurd” jurnalı haqqında da məlimatlar vardır.

1929-cu ilin martında jurnalın 40 səhifədən ibarət 1-ci sayı işıq üzü gördü. İlk sayda 20-yə qədər müxtəlif məzmunlu yazılar çap edilib. Göstərilir ki, “Çöhrəmiz” adlı baş məqalə əslində siyasi proqram xarakterlidir:

Qeyd edildiyi kimi M.Ə.Rəsulzadə ictimai-siyasi fəaliyyətində mətbuata,kitab nəşrinə böyük önəm verirdi.

M.Ə.Rəsulzadənin mətbuat haqqında yazıları çağdaş dövrümüz üçün də dəyərlidir və aktuallığını saxlamaqdadır.

## ƏDƏBİYYAT

1. “Şərqi-Rus” qəzeti, 1903, №19
2.Rəsulzadə M.Ə. Seçilmiş əsərləri, I c. (1903-1909). B., Azərnəşr, 1992
3. “Açıq söz” qəzeti,iyul 1917, №513

4.“Açıq söz”, 2 fevral 1918, N671
5.“İrşad”qəzeti, yanvar 1906, N18
6.“İrşad”, 9 may 1906, N108
7. “İrşad”, 1 iyun 1906. N128
8.“İrşad”, 14 iyun 1906, N139
9.“Təkamül”qəzeti, 30 dekabr 1906, N3
10.“Tərəqqi”qəzeti, 21 noyabr 1908, N108
11.“İrani-nov”qəzeti, 23 avqust 1909, N1
12.“İrani-nov”, 17 yanvar 1910, N113
13.“İrani-nov”, 20 fevral 1910, N137
14.“İrani-nov”, N 6, 11, 20, 24, 28 aprel, N28, 34, 40, 46, 50, 53, 28 may 1911.
15.“İqbal”qəzeti, 20 mart 1915, N891
16. “Yeni İqbal”, 24 may 1915, N23
17. Azərbaycan Xalq Cümhuriyyəti(1918-1920).Parlament(stenoqrafik hesabatlar): 2 cilddə II c.B., Azərbaycan,1998.
18. Rəsulzadə M.Ə.Azərbaycan Cümhuriyyəti (keyfiyyət-i təşəkkülü və şimdiki vəziyyəti). İstanbul,1923.
19. Rəsulzadə M.Ə. Azərbaycan müstəqillik uğrunda mübarizədə.(Polyak dilində), Varşava, 1938.
20. Şimşir S. Azərbaycanlıların Türkiyədə siyasi və kültürəl fəaliyyətləri (1920-1991). Ankara., 2001.
21.Yaqublu N.Azərbaycan mühacirət mətbuatı(dərs vəsaiti).B.,2014.
22.“Azərbaycan” jurnalı,Ankara, 1952,N1.
23. Rəsulzadə M.Ə.Əsərlər və məktublar məcmuəsi(tərtibatçı,ön söz və qeydlərin müəllifi S.İshakov).(Rus dilində), M., 2020.
24. Polşa Respublikası, Varşava, Yeni Aktlar Arxivi, Xarici İşlər Nazirliyi, (1926-cı il) iş N6687, v.32,34,35,36,37.
25. Polşa Respublikası, Varşava, Yeni Aktlar Arxivi, Xarici İşlər Nazirliyi,(1928-ci il), iş N6688, v.29-30
26. Polşa Respublikası, Varşava, Yeni Aktlar Arxivi, Xarici İşlər Nazirliyi,(1928-ci il), iş N6688, v.14,15,16,17,18,19.
27. Yaqublu N. Azərbaycan – Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu. B., 2007.
28. Polşa Respublikası, Varşava, Yeni Aktlar Arxivi, Xarici İşlər Nazirliyi,(1928-ci il), iş N6688, v. 29-30.
29. Polşa Respublikası, Varşava, Yeni Aktlar Arxivi, Xarici İşlər Nazirliyi, iş N6693, v. 37.

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN MƏTBUAT YAZILARI

***Nəsiman Yaqublu***

**Xülasə**

Məqalədə ictimai-siyasi fəaliyyəti dövründə onun məfkurə süzgəcindən keçən bir çox məlumat yazıları, daha dəqiq desək, dünyanın bir çox ölkələrinin qəzet və jurnallarında çap olunan əsərləri ictimai fikrin diqqətinə çatdırılır. O, öz yazılarında Qafqaz müsəlmanlarnın sözlə Azərbaycan türklərinin ayrıca müstəqil məlumatlarının – qəzet və jurnallarının açılmasına xüsusi önəm verirdi. O, hesab edirdi ki, millətin ələlxüsus gənc nəslin maarifləndirilməsində və gələcək inkişafında mətbuatın rolu əvəzsiz, eləcə də danılmazdır. Görkəmli dövlət qurucusu, mətbuatı “millətin danışan dili” adlandırmaqla yanaşı,

müstəqilliyimiz, gələcək tərəqqimiz naminə elm və təhsilin inkişafına, vətəndaşlarımıza milli və əxlaqi dəyərləri qoruyan, həmçinin aşılıyan məktəblərimizin açılmasına böyük əhəmiyyət verirdi. Təqdim olunan məqalədə Azərbaycan Milli Qurtuluş Hərəkatının ən görkəmli nümayəndələrindən olan M.Ə.Rəsulzadənin türkçülük ideyalarına xüsusi önəm verərək, bütün dünya türklərin bir amal uğrunda mübarizəsini və birliyini təmin edən – milli-mədəni cəhətlərinin, mənəvi vəhdət və istiqlal mübarizəsini seçmək, adət-ənənələrinin oxşarlığını hər cür təqdirə layiqdir.

## PRESS ARTICLES OF MOHAMMED AMIN RASULZADEH

***Nasiman Yagublu***

**Summary**

The article brings to the attention of public opinion many press articles that passed through the ideological filter of Mahammad Amin Rasulzadeh during his socio-political activity, more precisely, his works published in newspapers and magazines of many countries of the world. In his writings, he attached special importance to the opening of an independent press - newspapers and magazines - of Caucasian Muslims, in other words, Azerbaijani Turks. The thinker believed that the role of the press in the enlightenment and future development of the nation, especially the younger generation, is irreplaceable and undeniable. The outstanding founder of the state, in addition to calling the press "the speaking language of the nation", attached great importance to the development of science and education for the sake of our independence and future progress, as well as to the protection and promotion of national and moral values. In the presented article, M.A. Rasulzadeh, one of the most prominent representatives of the Azerbaijan National Liberation Movement, attached special importance to the Turkic ideas, and considered it worthy of all praise to realize the struggle for independence that ensures the struggle and unity of all Turks of the world for a common goal.

# M.Ə.RƏSULZADƏ AZƏRBAYCAN MİLLİ HƏRƏKATININ İDEOLOQU KİMİ

***Firdovsiyyə Əhmədova***
***Azərbaycan Respublikasının Prezidenti***
***yanında Dövlət İdarəçilik Akademiyasının***
***"Tarix" kafedrasının dosenti,***
***tarix üzrə fəlsəfə doktoru,***
*fahmedova@rambler.ru*

***Açar sözlər:*** Rəsulzadə, ideoloq, milli hərəkat, Müsavat, Azərbaycan, dövlətçilik
***Key words:*** Rasulzadeh, ideologist, national movement, Musavat, Azerbaijan, statehood

Azərbaycan milli hərəkatının ideoloji, nəzəri mərhələsi milli məfkurənin formalaşması uğrunda siyasi maarifçilikdən keçmişdir. Maarifçilik, xeyriyyəçilik yolu ilə müsəlmanların tərəqqiyə nail olacağına inanan, publisist yazılarında elmi, hümməti, qeyrəti təbliğ edən 21 yaşlı Rəsulzadə1905-ci ildə «Hümmət» qəzetində Azərbaycan gəncliyinin siyasi mənsubiyyət mənzərəsinin təsnifatını vermişdir: «... biz cavanların biri millətpərəst, o biri demokrat, üçüncüsü əqidəpərəst, dördüncüsü cədidpərəst olub da, bu cür dəstə-dəstə olmaqda, hərəmiz özünə məxsus bir yol götürüb, müəyyən bir məslək ilə getməkdən hamımız tək-tək tələf olluq... Hərəmiz bir küncdə bir xüsusi cəmiyyət qayırıb da müxtəlif yollar ilə getməkdənsə, birləşməli, öz fikr və fellərimizdən bir-birimizi hali etməliyiz. Millətpərəstlik bizə yararsa, hamımız millətpərəst, demokratlıq yararsa, hamımız demokrat və qeyri bir yarar məslək üzrə olub, müttəhidül-qövl vəl fel iş görək» [15, I cild, Bakı, 1992, s.18-19].

Milli hərəkatın «millət» anlayışının dəyərləndirilməsindən keçən mərhələsində Azərbaycan milli kimliyini açıqlayan məqalələri ilə M.Rəsulzadə milli hərəkatın məqsədyönlüyünə gətirən yolun mühüm şərtlərini göstərmişdir. Azərbaycana dönəndən sonra «Diriliklərin ən qiymətlisi də milli dirilikdir» deyərək «Milli dirilik» mövzusunda silsilə məqalələr yazmışdır. Birinci dünya müharibəsinin yenicə başladığı günlərdə 7 hissədən ibarət məqaləsi ideoloji, nəzəri və əməli əhəmiyyətə malikdir, " millətin tərifində dini birliyi deyil, dil və mədəniyyət birliyini önə çəkir, milli istiqlal ideyalarını geniş təbliğ edir" [2, s. 307].

M.Rəsulzadə hələ 1914-cü ilin oktyabrın başlanğıcında yazırdı: «Milli istiqlal, ələlxüsus, millətlərə xüsusiyyətlərinin mühafizəsini təmin edən istiqlal daima bəşəriyyətə saheyi-mədəniyyətdə yeni və əsli bir taqım ibdalar, ixtiralar nəvidindədir ki, mədəniyyəti-bəşəriyyə dediyimiz şey də bu bədaət və ixtiraların məcmuindən ibarət bir yekundur» [15, 2-ci cild, s.465].

Azərbaycan Cumhuriyyətindən 4 il əvvəl cəmiyyətə millət kəlməsinin mənasını açıqlayan, milli vicdandan, milli idealdan, milli dildən, milli tarixdən, milli mədəniyyətdən bəhs edən Rəsulzadə milli hərəkatın ideoloji zəminini hazırlayırdı. Həmin dövrdə, həm də müstəbid rejim devrilənədək Rəsulzadə «Müsəlman mətbuatı nümayəndəsi» kimi millət davasını aparırdı. Siyasi publisistikası yalnız maarifçilik məzmunundan irəli gedən tələblərlə çıxış etmirdi.

Rusiyada Fevral inqilabından 2 il əvvəl «Yəhudi istiqlalı» məqaləsində «Millət ölmüyor. Milli ideal, milli istiqlal fikri daima yaşıyor» qənaətilə "milli ruhun ölməz olduğu" mesajını verirdi. Amma milli ruhu diriltmək üçün mətbuat imkanlarını səfərbər etmişdi. 1915-ci il oktyabrın 1-də «Qurtuluş» məcmuəsinin nəşrini alqışlamış, bir gün sonra isə «Türkləşmək, islamlaşmaq və müasirləşmək" devizi ilə təsis olunan «Açıq söz» qəzetinin məramını şərh etmişdir.

Azərbaycan milli hərəkatının siyasi tribunasına çevrilən «Açıq söz» qəzeti eyni zamanda dünyada və regionda baş verən hadisələrin cəmiyyət üçün yalnız informatoru deyil, ətraflı şərhçisi idi.

Millətinin tərəqqisi üçün mübarizə aparan Rəsulzadə heç zaman irqçi millətçi olmamışdır. «Milliyyət və bəşəriyyət» məqaləsində bildirmişdir: «Milli icad qüvvəsi hər bir millətin səlahiyyəti və sənəti deməkdir… Milli icad və yaradışın ən yüksək göstərişi olan dahi həmişə millidir. Fəqət onun icad etdiyi şeylər yalnız kəndi millətinə məxsus olmayıb, bütün bəşəriyyənindir də» [15, 3-cü cild, s.211]. Milliyyət və dövlət anlayışlarına aydınlıq gətirərək yazmışdır: «…Milliyyət dövlətdən çox böyükdür. Hətta demək olar ki, milliyyət dövlətdən daha dərin və şümulludur… dövlət millətdən daha geniş, daha vüsətlidir [15, 3-cü cild, s.212].

Bu düşüncələrin yer aldığı "Açıq söz" qəzeti Azərbaycan milli hərəkatının koordinasiya mərkəzinə çevrilmişdi və Rusiyada mütləqiyyət devrildikdə "Açıq söz" ailəsi milli hərəkatın önündə oldu. "Açıq söz" qəzeti 1917-ci il martın 5-də "Böyük inqilab" məqaləsi ilə çıxış etdi. "Yaşasın tazə və azad Rusiya! Var olsun millətlərin bərabərligi, birligi!" şüarları ilə bitən bu məqaləsində M.-Ə. Rəsulzadə Rusiya inqilabını "dünyanın ən böyük bir hadisəsi" adlandırdı. Üstündən bir həftə ötməyən bir hadisəyə peşəkar siyasətçinin qətiyyətlə birmənalı qiymət verməsi "inqilabi-kəbir"in mahiyyətini dərk etməkdən də öncə, bu hadisəni nəinki gözləmək, arzulamaq kimi niyyət ifadəsindən də artıq, baş tutmuş akta yönəli illərlə aparılmış aşkar və gizli fəaliyyətdən qaynaqlanırdı.

1917-ci ilin aprelində Bakıda Qafqaz müsəlmanlarının qurultayı çağırıldı. Qurultayın qəbul etdiyi qətnamədə deyilirdi: "Federativ əsaslarla demokratik respublika qurulması Rusiya dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini təmin edən ən yaxşı forma kimi tanınsın".

1917-ci ilin oktyabrında "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın 1-ci qurultayında partiyanın Mərkəzi Komitəsinin sədri seçilən M.Ə.Rəsulzadə qurultaydakı çıxışında partiyanın mübarizə istiqamətini müəyyən edərək bildirmişdir ki, milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. Partiyanın məramnaməsi Rəsulzadənin milli ideologiyasının, siyasi baxışlarının düsturlaşan müddəalarıdır. "Müsavat" partiyasının tarixi xidmətlərindən bəhs edən Mirzə Bala Məmmədzadənin dəyərləndirdiyi təbii ki, Rəsulzadənin rəhbərlik etdiyi qurumun, əslində isə onun sədrinin xidmətləridir: "Siyasi türkçülüyü ilk dəfə proqram halına salan və əsir türklərin hürriyyət və istiqlallarını tələb edən ilk türk firqəsidir" [12, s.7]. Rəsulzadənin siyasi-ideoloji baxışlarında milliyyətçilik, istiqlalçılıq, xalqçılıq, cümhuriyyətçilik təməl prinsiplər olmuşdur.

1917-ci il noyabrın 16-ı üçün «Açıq söz»də yazıldığı kimi, «Müsavat» partiyasının yarıdan çoxunu müsəlman fəhlələri təşkil edirdi. Müsəlman fəhlələrinin «milliyyət fikrinə» yaxınlaşması təbii ki, Bakı siyasi mühiti üçün xarakterik olmayan hal idi və ənənəvi siyasi qüvvələri əndişəyə salmaya bilməzdi. Bolşeviklər hərbi-siyasi gücü ilə artıq Bakıda digər siyasi qüvvələri üstələmişdi. Yəqin ki, bütün bu amilləri nəzərə alaraq, «Millətin işini ancaq millət özü görməlidir» şuarı ilə M.-Ə.Rəsulzadə «böyük və işıqlı» bir il adlandırdığı 1917-ci ildən yeni təqvim ilinə keçərkən «Açıq söz»ün 1918-ci il üçün ilk 2 sayında Rusiyanın birillik siyasi tarixinin yığcam təhlilini «1917-ci il» adı ilə dərc etdirdi. İlə yekun yazısını həm də M.-Ə.Rəsulzadənin bolşevik siyasətini təqdir edən son yazılarından saymaq olar. Rusiyanın «siyasi inqilabdan çıxıb sosializm inqilabı dövrünə girdi»yi mərhələdə bolşevik hökumətinin etdiklərini təqdirlə sadalamış, millətlərə "samoopredeleniye" haqqını verdiyini isə konkret nümunələrlə isbatlamışdır [15, 4-cü cild, s.420-422].

M.-Ə.Rəsulzadə Rusiyada gedən prosesləri təhlil edərək artıq 1917-ci il noyabrın axırları üçün tezliklə «Azərbaycan Məclisi-Müəssisanını» gerçəkləşdirməyə çağırırdı. «Rusiyanın keçirməkdə olduğu halını» yalnız «Qiyamət» ifadəsi ilə tərif etməyin mümkünlüyünü yazan

Rəsulzadə ölkədə mərkəzi hökumətin olmadığı səbəbindən yubanmadan Azərbaycan muxtariyyətini qurmağı vacib sayırdı: «Bundan səkkiz ay qabaq muxtariyyət siyasi böyük bir fikirdən çıxma şüar idisə, imdi artıq bir zərurətdir» [15, 4-cü cild, s.412]. «Millətin işini ancaq millət özü görməlidir» şuarı ilə M.-Ə.Rəsulzadə "Azərbaycan Məclisi-Müəssisanı düşünəlim, milli komitələr konferensiyasının qərarlarını heç durmadan qüvvədən felə götürəlim" deyirdi. Belə ki, 1917-ci il noyabrın 9-12-də Bakıda Cənubi Qafqazın müsəlman milli komitələrinin konfransı keçirilmiş və Müvəqqəti hökumət tərəfindən bəyan edilmiş millətlərin öz müqəddəratı hüququnun həyata keçirilməsi üçün təcili surətdə Qafqaz dağlıları ittifaqının və Cənubi Qafqaz türklərinin milli Müəssislər məclisini çağırmaq qərara alınmışdı.

Azərbaycan milli siyasi qüvvələrinin bolşevik hakimiyyətinə ümidi Rusiya Məclisi-Müəssisanının qovulması ilə sona yetdi. «Müsavat» partiyası M.-Ə.Rəsulzadənin simasında artıq bolşeviklərin Azərbaycan muxtariyyətinin gerçəkləşməsinə razı olacaqlarını güman etmirdi. Bolşeviklərin «sinifdən kənar» milli həmyerli birləşmələrə qarşı mübarizə devizi əməli olaraq 1918-ci ilin yazında əsasən «müsəlman millətçiliyinə» qarşı mübarizə məzmunu daşıyırdı. Belə «əlahiddə» münasibət səbəbindən M.-Ə.Rəsulzadə 1918-ci il yanvarın 29-da «Açıq söz» qəzetində «Bizim muxtariyyətimiz və Bakı bolşevikləri» məqaləsi ilə çıxış etmək ehtiyacı duymuşdu. Məqaləni bolşevik mətbuatının «hücumuna» cavab hesab etmək olar. Belə ki, M.-Ə.Rəsulzadə özünün Bakı fəhlə və əsgər deputatları Şurasının İcraiyyə Komitəsindəki bir nitqinin «B.Raboçi» qəzetəsinə «Müsavat» firqəsi ilə Müsəlman Milli Komitəsinə hücum üçün bir sərmayə təşkil» etdiyini yazır [15, 4-cü cild, s.439]. Əslində, bu çıxış müsəlman milli hərəkatına münasibətdə formalaşmış bolşevik fikrinin ifadəsi üçün növbəti imkan kimi istifadə olunmuşdu.

«Müsavat» partiyası «Azərbaycan muxtariyyəti»ni gerçəkləşdirmək əzmindən geri çəkilmək fikrində deyildi, hətta bu muxtariyyət xarabazarlar qiymətinə alınsa belə: «Bəlkə də müqəddərdir ki, biz muxtariyyətimizi xarabəzarlar qiymətinə alalım. Müqəddərati – tarixiyyədən əlbəttə ki, boyun qaçırmaq olmaz» [15, 4-cü cild, s.442]. Rusiyada baş verən proseslər, Qafqazda, xüsusən də Bakıda bolşeviklərin davranışı müsəlman milli siyasətçilərini təşvişə salırdı, yeni hakimiyyətin öz vədlərinə sadiq qalmamaları, bəyanatları ilə əməlləri arasında ziddiyyətləri müsavatçılara yenidən əsarət altına düşmək təhlükəsini yaşadırdı: «Rusiya millətlərinin həqqi-muxtariyyətləri o demək degildir ki, Rusiya millətləri velikorus dvoryanlarının keyfindən qurtarıb velikorus əmələlərinin keyfinə tabe olsunlar» [15, 4-cü cild, s.442].

«Azərbaycan muxtariyyəti»nə qənim kəsilən qüvvələrdən bir qismi bu ideyanın İran Azərbaycanına şamil olunduğunu, İranın daxili işlərinə qarışmaq kimi qiymətləndirənlər idi. Onlar «Azərbaycan muxtariyyəti»nə İran Azərbaycanının ilhaqı kimi baxırdılar. Məsələyə geniş aydınlıq gətirən Rəsulzadə Azərbaycanın hər iki hissəsinin vahid milli mənşəyinə toxunmuş və siyasi müqayisə aparmışdır. 1917-ci il dekabrın sonu üçün Rəsulzadənin mövqeyi belə idi: «Bu gün Azərbaycan muxtariyyətindən bəhs olunuyorsa həmən İrəvan, Gəncə və Bakü quberniyaları ilə sair Zaqafqasiya uyezd və mahallarından bəhs olunuyor deməkdir» [1, 22 dekabr, N635].

Bolşeviklərin düşüncəsinə görə, «Müsavat» partiyasının muxtariyyət məqsədli siyasəti və fəaliyyəti Qafqazı xarabazara döndərə bilərdi, lakin «bütün Qafqasiya demokratiyasının əlbirliğilə bu bədbəxtliği saxlamaq olarmış. Nəzərə alınsa ki, bolşeviklər müsəlman əhalini «daha Rusiya inqilabına təmas etməmiş» hesab edirdilər, onda Rəsulzadənin qənaəti məntiqidir ki, «Qafqasiya demokratiyasının əlbirligində» müsəlman hissəsi «çox az təsəvvür olunuyor»du. Tezliklə hər iki tərəfin proqnozu özünü doğrultdu: müsəlman torpaqları xarabazarlığa çevrildi, amma bolşeviklərin rəhbərliyi altında «Qafqaz demokratiyasının əlbirliyilə» və bu koalisiyada müsəlman demokratiyasının çox cüzi bir hissəsi iştirak edirdi. Beləliklə, 1918-ci ilin fevralı üçün müsavatçılarla bolşeviklər arasında yollar nəinki ayrılmış, artıq qarşı-qarşıya gəlmişdi. Bu siyasi qüvvələrin məramnamə baxımından uyğunluğu olsa

da, əməli baxımdan yolları heç üst-üstə düşmədi. Cəbhənin bir tərəfində məhəlli müxtariyyət istəyən müsavatçılar (Türk ədəmi-mərkəziyyətçilər), digər tərəfində M.-Ə.Rəsulzadənin «bizim bolşeviklər» adlandırdığı Bakı bolşevikləri görünsə də, əslində Mərkəzi bolşevik hakimiyyəti, yəni Sovet Rusiyası dayanmışdı.

Bolşeviklərin yalnız kadetlərlə deyil, daşnaklarla, menşeviklərlə birgə «siyasi blok» hasil etmələrinin səbəbini axtaran «Demokrat» imzalı M.-Ə.Rəsulzadə «Qafqaz demokratiyasının», xüsusən də «Bakı demokratiyasının» gözünü açmağa çalışırdı. Kadet, daşnak, menşeviklərin öz mövqelərindən əl çəkməyəcəkləri yəqinliyilə «siyasi bloku» formalaşdıran amili bolşeviklərin onlara güzəştə getməsi ilə izah edirdi. Qafqaz demokratiyasının mənafeyinə xəyanət kimi qiymətləndirilən bu addımı «mərkəzi bolşevik hökuməti»nin eyni siyasət xəttinə əməl edilməsi kimi dəyərləndirirdi: «Kəzalık ( eləcə - tərtibçi) mərkəzi bolşevik hökuməti Türkiyə ilə sülh imza etmiş olduğu halda, «müharibəyə dəvam!» şüarilə milyonlarla demokratiya təbəqatını qanlara boğmuş kadetlərə quyruq olub yeni başdan kim bilir daha nə qədər qan və qurban meydanları açmaq üçün tədarüklər görüyorlar» [15, 4-cü cild, s.452].

Rusiya Müəssislər Məclisi qovulduqdan sonra yaranmış Zaqafqaziya Seymində təmsil olunan Azərbaycan siyasi qüvvələri içərisində ən çox yeri müsavatçılar tuturdu. Seymdəki Azərbaycan partiyalarının ümumi razılığına əsasən «Müsavat» fraksiyası və demokratik bitərəflər qrupunun rəyasət heyəti eyni zamanda Azərbaycan fraksiyalarının ümumi rəyasət heyəti funksiyasını yerinə yetirməyə başladı [8, s.141-142]. Rəyasət heyətinin sədri M.Ə.Rəsulzadə, müavinləri isə M.Y.Cəfərov və N.Yusifbəyli idi.

Rəsulzadənin Seymdəki xidməti həm də diplomatik fəaliyyəti ilə əlamətdardır. Osmanlı dövləti ilə münasibətlərin nizamlanmasında fəal rol oynamışdır. Bu zaman nə Osmanlı dövlətinin mənafeyinin zərbə almasına, nə də Cənubi Qafqazın mənafeyinin tapdanmasına yol verməmək istiqamətində iş aparmışdır. Qars, Batum, Ərdahanla bağlı iddiada Türkiyəni Ərzincan barışığının pozulmasında günahlandırmağı təklif edənlərə qarşı çıxan Rəsulzadə, eyni zamanda bildirirdi ki, Rusiyadan və Türkiyədən olan təhlükə bizi daha sıx birləşdirməlidir. Cənubi Qafqazın müstəqilliyi və birliyi naminə isə Azərbaycanın maraqlarını güzəştə getmək mövqeyini qəbul etmirdi. Əksinə, 1918-ci ilin yazı üçün yaranmış situasiyada Cənubi Qafqazın müstəqilliyinin elan edilməsini Azərbaycanın mənafeyinə məqbul akt kimi real çıxış yolu hesab edirdi: «Zaqafqaziya müstəqil olmalıdır. Bu müstəqillik zərurətə çevrilməlidir». Bakıda kütləvi müsəlman qırğınlarından sonra təşkil edilmiş sovet hakimiyyəti ilə, sovet Rusiyası ilə əlaqələr qurub Türkiyəyə qarşı birgə mübarizə aparmaq meyllərinin yarandığı şəraitdə Seymin müsəlman fraksiyası Cənubi Qafqazın müstəqilliyini tələb edirdi. Bu məsələnin reallaşması üçün Seymin digər fraksiyalarının mövqeyinə təsir etmək məqsədilə M.Ə.Rəsulzadə Trabzon danışıqlarına tərəfdar olan menşeviklərdən istifadə etməyi lazım bilirdi [10, s.65].

Batumda Osmanlı dövləti ilə yeni sülh danışıqlarında iştirak edəcək Cənubi Qafqaz nümayəndəliyinin üzvlərindən biri M.Ə.Rəsulzadə olmuşdur. O, M.H.Hacınski ilə birlikdə əsas tərkibdə Azərbaycanı təmsil edirdi. Batum danışıqlarında getdikcə artan gərginlik və ziddiyyətlər Cənubi Qafqaz Federasiyasının parçalanması ilə nəticələndi. Tiflisdə Cənubi Qafqazla bağlı taleyüklü dəyişikliklər baş verdi. Gürcüstan istiqlaliyyətini bəyan etdikdən sonra Seymin bütün azərbaycanlı üzvlərinin yığıncağı özünü Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdi. M.Ə.Rəsulzadə gizli səsvermə nəticəsində qiyabi olaraq Milli Şuranın sədri seçildi.

Yüksək bir statusda fəaliyyət göstərmiş, «Azərbaycan dövlətçiliyində möhtəşəm tarixi rol oynamış Azərbaycan Milli Şurası»nın (Şəfi bəy Rüstəmbəyli) sədri sonadək Məhəmməd Əmin Rəsulzadə olmuşdur. Azərbaycan Parlamentinin ilk iclasını da M.Ə.Rəsulzadə «Şura-yi-Milli rəisi» səlahiyyətində açıq elan etmişdir. Tarixi sənədlər M.Ə.Rəsulzadənin Azərbaycan Cümhuriyyətinin ilk dövlət başçısı olduğunun tarixi-hüquqi əsasını təsbit etmişdir.

Azərbaycan dövlətçiliyi 1918-ci ilin iyununda Gəncədə məhv olma təhlükəsi altında qalanda M.Ə.Rəsulzadənin çevik, cəsarətli mövqeyi həlledici rol oynadı. Azərbaycan dövlətçiliyini partiyalar fövqünə qoyaraq özünün sədri olduğu dövlət hakimiyyət orqanını- Milli Şuranı buraxmağa, səlahiyyətlərini şərtlərlə hökumətə verməyə razı oldu. Bu addımı «demokratiyanın geri çəkilməsi və mürtəce qüvvələrin uğuru» adlandıran Rəsulzadənin Milli Şuranın buraxılmasının səhəri günü, İstanbul konfransında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinin sədri kimi Türkiyəyə yola düşməsi tarixşünaslıqda birmənalı qiymətləndirilmir. Sırf diplomatik missiya kimi səciyyələndirilən bu səfər həm də Gəncədə yaranmış gərgin vəziyyətin yumşaldılması tədbirlərindən biri kimi də qiymətləndirilir [8, s.216-217].

Milli Şura fəaliyyətini dayandırdığı gün, İstanbulda keçirilən Sülh konfransında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinə Azərbaycan hökuməti tərəfindən verilmiş etimadnamədə yazıldığı tək – «Azərbaycan Məclisi-Millisi rəisi Rəsulzadə Məmmədəmin bəy Əfəndi təhdi-rəyasətində...» statusunda İstanbula yola düşdüyü kimi, 1918-ci ilin noyabrında oradan qayıdan günlərdə hökumət başçısı F.Xoyski M.Ə.Rəsulzadəyə müraciət edərək Milli Şuranın işinin bərpa edilməsini lazım bilmişdir [7, s.14-23].

Faktiki olaraq Milli Şuranın fəaliyyətsiz qaldığı dövr (1918, iyun-noyabr) M.Ə.Rəsulzadənin Azərbaycanda olmadığı müddətdir. Fərdi siyasi motivlə əlaqələndirilən bu səfər sırf praktiki məna ilə əsaslandırıla bilər. Belə ki, artıq Batum konfransında həlledici söz sahibi olmuş 2 azərbaycanlı nümayəndədən biri kimi müəyyən diplomatik təcrübəyə malik M.Ə.Rəsulzadə 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında dostluq müqaviləsini, Bakı-Batum neft kəmərinin istismarına, Cənubi Qafqaz dəmiryol xətlərinə dair sazişləri imzalamışdır [6, s.14]. Bu baxımdan Azərbaycan hökumətinin 1918-ci il 18 iyun tarixli qərarı, İstanbul beynəlxalq konfransına göndərilən nümayəndə heyətinə M.Ə.Rəsulzadənin sədr təyin edilməsi təbii, əsaslı, məntiqi qəbul edilə bilər [6, s.25-26].

M.Ə.Rəsulzadənin başçılıq etdiyi 7 nəfərdən ibarət Azərbaycan nümayəndə heyəti iyunun 24-də İstanbula gələrək fəaliyyətə başladı. Azərbaycan Xalq Cümhuriyyətinin ilk rəsmi diplomatik nümayəndəliyinə beynəlxalq konfransın bütün iştirakçıları ilə müxtəlif səciyyəli müqavilələr bağlamaq, yalnız Osmanlı dövləti və Dağlılar Respublikası ilə hər cür gizli sazişlər imzalamaq səlahiyyətləri verilmişdi [13, s.44]. Nümayəndəliyin fəaliyyəti konkret göstəriş çərçivəsində məhdudlaşmamışdır.

Əksinə, M.Ə.Rəsulzadə, 1918-ci il iyulun 19-da İstanbuldan M.H.Hacınskiyə göndərdiyi məlumatda Azərbaycan dövlətinin xarici siyasət kursunu müəyyənləşdirəcək informasiyalar (xüsusən Bakı nefti ətrafında) verməklə yanaşı, AXC hökumətini ən vacib tədbirlər görməyə istiqamətləndirmişdir. Ordu yaradılması işinin diqqət mərkəzində durduğunu, xüsusi hərbi nazirliyin təsis edilməsinin əhəmiyyətini vurğulamaqla yanaşı Şimali Qafqaz hökuməti ilə əlaqələr qurmağı vacib saymışdır. Rəsulzadə İstiqlal bəyannaməsinin, bu barədə hökumətlərə göndərilən teleqramın surətlərini, Borçalı və Qarayazı bölgələri ilə bağlı sənədləri, Qafqazın xəritəsini göndərməyi tapşırmış, özü də bir sıra sənəd və materialları məktubla birgə yola salmışdı. Azərbaycanda işləmək üçün müəllimlər axtarmaq, kitab tədarükü, maliyyə və xarici işlər üzrə müşavirlər tapmaq da Rəsulzadənin İstanbul səfərindəki fəaliyyətinə daxil idi. Türkiyədəki Qafqaz azərbaycanlıları, İran azərbaycanlıları ilə görüşləri də siyasi məzmundan xali deyildi [6, s.33-41].

Azərbaycan dövlətinin qonşularla münasibətdə yaranmış kəskin problemlərinin (sərhədlər məsələsi, əmlak bölüşdürülməsi, pul nişanlarının buraxılması və s.) çözülməsi missiyası xarici aləmlə-dövlətlərlə təmas qurmaq imkanı və səlahiyyətinə malik, başlıcası isə yardımından faydalanmağın mümkün olduğu bir ölkədə olan M.Ə.Rəsulzadənin diplomatik fəaliyyətinin əsas məzmununa çevrildi. Azərbaycan hökumətinin ən böyük qayğılarından biri pul nişanlarının çatışmazlığı idi. Vəziyyətin hədsiz təhlükəli olduğunu bildirən F.Xoyski bu

məsələni ən qısa müddətdə reallaşdırmağı, təcili olaraq borc kimi əvvəlcə 1 mln türk lirəsi, sonra isə yubanmadan hökumətin sifariş etdiyi bonları göndərməyi tapşırmışdı [6, s.42-43].

Azərbaycan hökuməti bu yöndə fəaliyyətini səfərbər etdiyi kimi, M.Ə.Rəsulzadə də hərbi işin təşkili, Azərbaycana qonşularının iddia etdiyi ərazilər haqqında Osmanlı rəsmiləri ilə danışıqlarını davam etdirmiş, xüsusən Bakı məsələsində çevik və prinsipial mövqe tutmuşdur. Vaxtı itirməmək üçün, hökumətdən xüsusi səlahiyyətlər verilməsini gözləmədən sentyabrın 12-də Almaniyanın Osmanlı dövlətindəki səlahiyyətli nümayəndəsi qraf Valdburqa Azərbaycan hökuməti adından nota imzalayaraq təqdim etmişdir. Bakının Azərbaycan ərazisində, Azərbaycan xalqının tarixində tutduğu yerdən, mədəni, iqtisadi, siyasi, milli bağlılıq tarixindən bəhs edərək, gətirdiyi konkret faktlara söykənərək fikrini əsaslandırmış, Rusiyanın Bakıya iddiasının əsassızlığını, həm də yeni rus hökumətinin bəyan etdiyi prinsiplər baxımından Almaniya nümayəndəsinin diqqətinə çatdırmışdır [6, s.72-75].

Cənubi Qafqaz respublikalarının sərhədlərinin müəyyənləşdirilməsi Rəsulzadənin İstanbulda diqqət verdiyi məsələlərdən olmuşdur. Ermənilər Ənvər paşaya təqdim etdiyi layihə və xəritəyə görə Türkiyə və Azərbaycan ərazilərindən, həmçinin gürcülərdən bir sıra torpaqlar tələb edirdilər. Bu məsələyə dair Ənvər paşa ilə söhbətlərində Rəsulzadə Osmanlı dövlətinin ümumi maraqlarına zidd olmasa da, Azərbaycan dövlətinin mənafeyi əleyhinə olan layihələrə qarşı çıxmış və Ənvər paşa da ən münasib saydığı yolları məsləhət görərək Nuru paşaya müvafiq hərbi göstərişlər vermişdi.

M.Ə.Rəsulzadənin Türkiyə dövlət rəsmiləri ilə mütəmadi görüşləri məhz qarşılıqlı münasibətlərin nizamlanması, bərabər səviyyəli məcraya yönəldilməsi baxımından təqdirəlayiq sayıla bilər. M.Ə.Rəsulzadə Azərbaycanın istiqlaliyyəti haqqında hökumət teleqramının surətini bütün konsulluqlara təqdim etməklə yanaşı Azərbaycanın müstəqil dövlət kimi mövcudiyyətini göstərmək üçün rəsmi dövlət qəzetinin nüsxəsini, qoşunların, bayrağın, dövlət adamlarının foto şəkillərini, milli ədəbiyyatın nümunələrini, Bakı şəhərinin görünüşlərini tezliklə göndərməyi xahiş edirdi. Azərbaycanın hərbi işinin təşkili üçün lazım olan hər şeyi Türkiyədən ürəklə, cəsarətlə tələb etməyə çağırırdı.

Bütün çətinliklərinə baxmayaraq 1918-ci il oktyabrın 22-dək İstanbulda olmuş Rəsulzadənin diplomatik fəaliyyəti olduqca faydalı məzmun daşımış, Türkiyə rəsmiləri ilə münasibətlərin qurulması, Azərbaycan üçün hərtərəfli dəstəyə nail olmaq yönündə iş aparmışdır. Azərbaycanın xarici siyasi məsələlərinin tənzimlənməsində, xüsusən də «Bakı məsələsində» ardıcıl və prinsipial mövqeyi mətbuat tərəfindən də yüksək dəyərləndirilmişdir (5, 10 noyabr). Rəsulzadənin İstanbuldan Bakıya dönüşünü salamlayan «Azərbaycan» qəzeti «görkəmli ictimai xadim-publisist»in Azərbaycan türklərinin ictimai hərəkatı tarixində rolunun, doğma xalqının maraqlarının qorunmasında ağır məsuliyyətli zəhmətinin dərin minnətdarlığa və ehtirama layiq olduğunu yazırdı [5, 10 noyabr]. Milli Şuranın buraxılmasından dərhal sonra Azərbaycanı tərk etmiş Rəsulzadə Bakıya dönən kimi, yaranmış yeni siyasi vəziyyətin şərtlərinə müvafiq F.Xoyskinin müraciətinə əsasən [5, 12 noyabr], Milli Şuranın çağırılması işinə başlayır. Azərbaycan parlamentçiliyi tarixində bilavasitə rolu və izi olan Rəsulzadə 1918-ci il noyabrın 12-də «Azərbaycan» qəzetinə müsahibədə İstanbul səfərindən, parlamentin təşkilindən bəhs etmiş, Qafqazın taleyi ilə bağlı fikirlərini bildirmişdir. Qafqazın gələcəyini Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqazın daxil olduğu birləşmiş ittifaq dövləti halında görən Rəsulzadə 1918-ci il noyabrın 29-da «Bütün Azərbaycan əhalisinə» müraciət etmişdir. Muraciətdə «İstiqlal bəyannaməsi»nin məzmunu bir daha təsbit olunmuş, qarşıda dayanan ən mühüm vəzifələrin həllinə çağırılmışdır: parlamenti təsis etmək, yeni hökumət təşkil etmək və ümumsülh məclisinə hazırlaşmaq [4, f.895, s.1, iş.25].

Bu da əlamətdar idi ki, parlamentin açıldığı gün «Azərbaycan» qəzetində Rəsulzadənin «təyini-müqəddərat» haqqında məqaləsi dərc olunmuşdur. Təyini-müqəddərat prinsipinə fərqli siyasi platformalar prizmasından şərh verən Rəsulzadə Azərbaycan parlamentini açarkən tarixi-rəmzi nitq söyləmişdir: “...müstəqil Azarbaycanı təmsil edən o üç boyalı bayrağı

Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarıəhrarnəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtiraz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir" [2, s.308].

Milli ideologiyanın üç təməl müddəası dövlətin rəsmi siyasi kursunu ifadə edirdi. Parlamentin açılması ilə Rəsulzadənin bioqrafiyasında yeni mərhələ başlamışdır. Parlament üzvü, «Müsavat» fraksiyasının sədri Rəsulzadə bu mərhələdə nə rəsmi dövlət vəzifəsi tutmadı, nə də buna iddialı olmadı. Amma Cümhuriyyətin taleyində ən ağır, böhranlı sınaq anlarında çevik, cəsarətli qərarı, mövqeyi ilə çıxış yolu tapmış, hadisələrin axarına təsir göstərməyə qadir və nail olmuş, dövlətin ideoloqu missiyasını layiqincə yerinə yetirmişdir. Parlamentdə siyasi partiyaların bəyannamələri təqdim edilərkən M.Ə.Rəsulzadə ilk olaraq fraksiyası adından geniş proqramla çıxış etmişdir. Onun aqrar məsələ, fəhlə məsələsi və b. məsələlərlə bağlı söylədikləri mütəmadi alqışlarla müşayiət olunmuş, çox zaman sol qüvvələr tərəfindən rəğbətlə qarşılanmışdır [3, 1-ci cild, s.49-58].

M.Ə.Rəsulzadə parlamentin ən fəal, intizamlı üzvü olmuşdur. İclaslarda ardıcıl iştirak etmiş, demək olar ki, bütün məsələlərin (təşkilati, ərazi, milli münasibətlər, qanun layihələrinin qəbulu, sosial vəziyyət, xarici siyasət, ölkənin müdafiəsi, Qars, Dağıstan məsələləri, Rusiya ilə münasibətlər, fəhlə məsələsi və s.) müzakirəsində nəinki münasibət bildirmiş, professionallıq nümayiş etdirmiş, həllini tapmasına nail olmuşdur (3). Qeyd etmək lazımdır ki, Bakıda fəhlə konfransı timsalında bolşeviklərin hakimiyyəti qədərincə fəallıq göstərən rəqib qurumu təcrid etmək üçün Rəsulzadə mütəmadi olaraq müsəlman fəhlə konfransının iclaslarında çıxış etmiş, ən mühüm dövləti məsələlərin fəhlələr arasında müzakirəsi və təqdirinə səy göstərmişdir [7].

Aktiv bir siyasətçi ömrü yaşamış M.Ə.Rəsulzadənin Cümhuriyyətin süqutu anlarında ayıq, real mövqeyi və dəqiq proqnozu olmuşdur. Siyasi proseslərin mahiyyətinə misilsiz poetik ifadə ilə təhlil vermiş Rəsulzadə bir sıra tarixi məzmun və əhəmiyyətli əsərlərin müəllifidir. Mühacir həyatında milli dövlətçilik əqidəsinə sadiq qalmışdır, "şəxslər müvəqqəti, ideologiya əbədidir" tezisini əsas tutaraq, siyasi mühacirləri istiqlal ideologiyasına sadiq olmağa çağırmışdı [2, s.309]. Azərbaycan milli dövlətçiliyinin bərpası, Azərbaycanın bütövləşməsi amalı ilə yaşamışdır. Hətta qənim kəsildiyi bir rejimin qurulması hesabına da olsa Cənublu-Şimallı Azərbaycanın qovuşmasına xeyir-dua vermişdi. M.Ə.Rəsulzadə yaşadığı mühitdən, milli-mənəvi məfkurə sahiblərinin irsindən qidalandı, yüksək intellektli, peşəkar ziyalılar nəsli ilə birgə yol keçdi, dövlətçiliyimizi bərqərar etdi. Sovet dövrü ərzində məhdud elmi və siyasi dairə üçün M.Ə.Rəsulzadə adı ideoloji cəhətdən qatı antikommunist cəbhəsinin nümayəndəsi sayılmışdır. Cümhuriyyət bayrağının yenidən qaldırıldığı zaman «Bir kərə yüksələn bayraq bir daha enməz!» sözlərinin müəllifi M.Ə.Rəsulzadə milli-demokratik hərəkatın ideya rəmzinə çevrildi.

Azərbaycan milli hərəkatının ideoloqu, "Müsavat" partiyasının sədri, məhəlli-milli muxtariyyət fikrinin ardıcıl müdafiəçisi, Azərbaycan Cümhuriyyətinin ilk dövlət başçısı və aktiv yazar olan M.Rəsulzadə gənclik dövründən ictimai anlamda təşkilatlanmaya meylli siyasətçi olmuş, ömrünün sonunadək fəaliyyətində təşkilat formasında mübarizəyə üstünlük vermiş, zamanın və şəraitin imkanlarını nəzərə alaraq siyasi və ictimai məzmunlu qurumların təsisçisi olaraq mücadilə etmişdir.

## ƏDƏBİYYAT


1. Açıq söz, 1917, 1 oktyabr
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, Bakı: 2014, 2-ci cild
3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I cild, Bakı: 1998
4. Azərbaycan Respublikası Dövlət Arxivi
5. Азербайджан, 1918, 10 ноября

6. Азербайджанская Демократическая Республика. Внешняя политика (Документы и материалы), Б.: 1998
7. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Б.: 1998
8. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг., Б.: 1998
9. Ələkbərov F. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü, Bakı: 2007
10. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), Bakı: 1993
11. Каспий, 1917, 8 mart, N54
12. Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı, Bakı: 1992
13. Musayev İ. Azərbaycanın xarici siyasəti (XX əsr), I hissə, B.: 2003
14. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, Bakı: 1990
15. Rəsulzadə M.Ə. Əsərləri. Bakı: 2013

## M.Ə.RƏSULZADƏ AZƏRBAYCAN MİLLİ HƏRƏKATININ İDEOLOQU KİMİ

***Firdovsiyyə Əhmədova***

**Xülasə**

Azərbaycan milli hərəkatının ideoloqu, "Müsavat" partiyasının sədri, məhəlli-milli muxtariyyət fikrinin ardıcıl müdafiəçisi, Azərbaycan Cümhuriyyətinin ilk dövlət başçısı və aktiv yazar olan M.Rəsulzadə gənclik dövründən ictimai anlamda təşkilatlanmaya meylli siyasətçi olmuş, ömrünün sonunadək fəaliyyətində təşkilat formasında mübarizəyə üstünlük vermiş, zamanın və şəraitin imkanlarını nəzərə alaraq siyasi və ictimai məzmunlu qurumların təsisçisi olaraq mücadilə etmişdir. Nikbin ictimai-siyasi ovqatı real şərtlərlə əsaslandırdığı zəmindən – ayıq mühakimə ilə verdiyi təhlillərdən qaynaqlanırdı.

Aktiv bir siyasətçi ömrü yaşamış M.Ə.Rəsulzadə Cümhuriyyətin süqutundan sonra da, mühacir həyatında milli dövlətçilik əqidəsinə sadiq qalmışdır, "şəxslər müvəqqəti, ideologiya əbədidir" tezisini əsas tutaraq, siyasi mühacirləri istiqlal ideologiyasına sadiq olmağa çağırmışdı. Azərbaycan milli dövlətçiliyinin bərpası, Azərbaycanın bütövləşməsi amalı ilə yaşamışdır. M.Ə.Rəsulzadə yaşadığı mühitdən, milli-mənəvi məfkurə sahiblərinin irsindən qidalandı, yüksək intellektli, peşəkar ziyalılar nəsli ilə birgə yol keçdi, dövlətçiliyimizi bərqərar etdi. Sovet dövrü ərzində məhdud elmi və siyasi dairə üçün M.Ə.Rəsulzadə adı ideoloji cəhətdən qatı antikommunist cəbhəsinin nümayəndəsi sayılmışdır. Cümhuriyyət bayrağının yenidən qaldırıldığı zaman «Bir kərə yüksələn bayraq bir daha enməz!» sözlərinin müəllifi M.Ə.Rəsulzadə milli-demokratik hərəkatın ideya rəmzinə çevrildi.

## M.A.RASULZADEH AS THE IDEOLOGIST OF THE AZERBAIJAN NATIONAL MOVEMENT

***Firdovsiyya Ahmedova***

**Summary**

M.A. Rasulzadeh - From the ideology of "National Vitality" to the National Republic

M.A. Rasulzadeh, who was the ideologist of the Azerbaijani national movement, chairman of the "Musavat" party, successive defender of the idea of local-national autonomy, the first head of state of the Azerbaijan Republic and an active writer, was a politician with a tendency of organization in a social sense, and until the end of his life, he preferred to fight in the form of an organization. Taking into account the circumstances, he struggled as the

founder of political and social institutions. His positive socio-political mood was based on real conditions - on his analyzes with real judgment.

After the fall of the Azerbaijan Democratic Republic, M.A. Rasulzadeh stayed true to the belief of national statehood during his life of emigrant. Based on the thesis of "persons are temporary, ideology is eternal", he called the political emigrants to be loyal to the ideology of independence. He lived with the idea of restoration of the national statehood of Azerbaijan and the state to be whole. M.A. Rasulzadeh took advantage of the life he lived, the heritage of the national-cultural ideologists. He moved ahead together with a generation of intelligentsia and professional intellectuals, He established our statehood. For the limited scientific and political circles of the Soviet era, M.A. Rasulzadeh was considered the representative of the anti-communist front. When the flag of the Azerbaijan Republic was raised again, M.A. Rasulzadeh, the author of the words "The flag once raised shall never fall!", became the symbol of the idea of the national-democratic movement.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN DÜNYAGÖRÜŞÜNDƏ AZƏRBAYCANÇILIQ İDEYASININ FƏLSƏFİ MAHİYYƏTİ

**_Faiq Ələkbərli_**
**_dosent, fəlsəfə üzrə fəlsəfə doktoru,_**
**_AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri,_**
_faikalekperov@mail.ru_
_https://orcid.org/0000-0002-8865-568X_

**_Açar sözlər_**: İslamçılıq, Qafqaz türklüyü, Azərbaycan türklüyü, azərbaycançılıq, Azərbaycan milli ideyası, Azərbaycan Cümhuriyyəti, Bütöv Azərbaycan ideyası
**_Key words_**: Islamism, Caucasian Turkism, Azerbaijani Turkism, Azerbaijaniism, Azerbaijan national idea, Azerbaijan Republic, Whole Azerbaijan idea

## Giriş

Azərbaycan Cümhuriyyətinin qurucusu, tanınmış mütəfəkkir-filosof, sosioloq, milli ideoloq Məhəmməd Əmin Rəsulzadə ilk dəfə Qafqaz türklüyünü deyil, ümumtürklük içində Azərbaycan türklüyünü müdafiə etmişdir. Buradakı Azərbaycan türklüyü isə yalnız çar Rusiyasının işğalı altında olan Quzey Azərbaycan türklüyü ilə məhdudlaşmır və Qacarlar dövlətinin tərkibində olan Azərbaycan türklüyünü də özündə birləşdirirdi. Məhz M.Ə.Rəsulzadənin düşüncələrinin məhsulu olaraq da 1-ci Dünya müharibəsi dövründə Qafqaz türklüyünün yerini Azərbaycan türklüyü tutmağa başladı. Bununla da bir tərəfdən milli-məhəlli türklüyün inkişafının vacibliyi, digər tərəfdən isə onun ən bariz örnəyi kimi Azərbaycan türklüyünün milli fəlsəfi dərki ortaya çıxırdı. Bizcə, buradakı milli-məhəlli türklüyün adının Azərbaycan türklüyü kimi ifadəsi, keçmişdəki (Kuti, Subar, Turukku, Manna, Midiya, Səlcuq, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar və b.) eyniliyin yenidən canlanmasından başqa bir şey deyildir. Bunu dəfələrlə ifadə edən Rəsulzadənin fəlsəfəsində də dörd ideya bu cür şəkillənmişdir: 1) Türklük, 2) İnsanlıq, 3) İslamlıq, 4) Azərbaycanlıq. Bizcə, buradakı türklük əgər milli-məhəlli xarakter daşıyarsa - Azərbaycan türklüyü, ancaq ümumi xarakter daşıyarsa - Türk birliyi kimi ifadə olunmalıdır.

M.Ə.Rəsulzadə türkçülük, müasirlik və islamçılıq ideyaları əsasında yeni bir ideyanın – Azərbaycan türkçülüyünün (Azərbaycançılıq, Azərbaycan milli ideyasının) əsasını qoymuşdur. O, sonralar yazırdı ki, əslində Türk mərkəzli Azərbaycan milli ideyası Nəsib bəy Yusifbəyli ilə tanışlığının ilk illərindən (1914-1915-ci illər) hər ikisində yaranmışdı: “Bu ruhi-müştərək Gəncədə Nəsib bəyə siyasi bir firqə maddəsinin yazılmasını təlqin etdiyi bir zamanlarda, mənə də Bakıda “Açıq söz” qəzetəsinə eyni tezisi müdafiə edən bir baş məqalə yazdırmışdı” (17, s.110-111).“Hərbi-ümumi sənləri idi. O, Gəncədə bələdiyyə idarəsi əzadarlığında, mən də Bakıda 1915-də təsis etdiyim “Açıq söz” qəzetinin başında bulunurduq. Nəsib bəy idarə işləri üçün Bakıya sız-sıx gəlirdi və hər gəlişində ilk ziyarətini “Açıq söz” idarəxanasına verirdi. Daha ilk görüşümüzdə rəhmətliklə aramızda 1920-ci ilin son may günlərnədək zərrə qədr xələldar olmayan bir səmimiyyətlə davam edən bir dostluq təəssüs etmişdi. Bu dostluğu bu qədər mətin bağlarla bir görüşmədə bağlayan şey, şübhəsiz, müştərək bir qayə, müştərək bir ruh daşıdığımızı mütəqabilən kəşf edişimiz idi. Bu ruhi-müştərək Gəncədə Nəsib bəyə siyasi bir firqə maddəsinin yazılmasını təlqin etdiyi bir zamanlarda, mənə də Bakıda “Açıq söz” qəzetəsinə eyni tezisi müdafiə edən bir baş məqalə yazdırmışdı” (17, s.110-111).

Bütün bunları nəzərə alaraq M.Ə.Rəsulzadə daha sonra yazırdı ki, N.Yusifbəylinin Azərbaycan istiqlalı hərəkatındakı rolu yalnız maarif naziri və baş nazir olmaqla kifayətlənməmişdir: “Onun hərəkatdakı həqiqi rolu sonra tutduğu bu rəsmi mövqelərdən çox əvvəl başlamışdır. Bu rol onun Gəncədə 1917-də “Türk Ədəmi Mərkəziyyət xalq firqəsi” namıyla təsis

edilən siyasi Azərbaycan firqəsinin təşkilinə təşəbbüs etməsiylə başlayır. Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formulə etmək şərəfi mərhum Nəsib bəyindir” (17, s.110).Qeyd edək ki, Nəsib bəy 1917-ci il aprelində Bakıda keçirilən Qafqaz Müsəlmanlarının 1-ci qurultayında “kim dava edə bilər ki, biz kəndini (özünü – F.Ə.) idarəyə səlahiyyətdar bir millət deyilik!” demişdir. Bu məsələ ilə bağlı M.B.Məmmədzadə yazırdə ki, qurultayın lap ilk günlərindən etibarən hakim mövqeyi iki firqə tutmuşdu: “Bunlardan biri “Müsavat” xalq firqəsi, digəri də “Türk Ədəmi-Mərkəziyyət firqəsi” idi. Birincinin fikirlərinə Məhəmməd Əmin Rəsulzadə, ikincininkinə isə Nəsib bəy Yusifbəyli tərcüman olurdu” (15, s.55).

M.Ə.Rəsulzadənin də yazdığı kimi, o, bu qurultayda milliyyətçilik (Azərbaycan türkçülüyü), türkçülük, xalqçılıq və modernələşmə (yeniləşmə) prinsiplərini müdafiə etmişdi. Hətta, bununla kifayətlənməyərək eyni prinsiplərlə çıxış edən iki partiyanın birləşməsinə təşəbbüs göstərmiş və həmən bunun tətbiqini istəmişdi. Rəsulzadə yazırdı: “Nəsib bəyin zəkası yalnız bu çıxışı ilə bitməmiş, o qurultayda eyni prinsipləri müdafiə edən Müsavat xalq firqəsinin nümayəndələri və “Açıq söz” qəzetini təmsil edən cərəyanla sözləşərək, onlara yaxın axınların birləşmlərini təmin etmək zərüriyyətini görmüş və onu həyata keçirmək təşəbbüsünü irəli sürmüşdür. Bir tərəfdən Nəsib bəy, digər tərəfdən də M.Ə.Rəsulzadə ilə A.Kazımzadə tərəfindən təmsil olunan Gəncə və Bakı milliyyətçi Azərbaycan istiqlalçılıq hərkatında çox mühüm əsərləri sonradan meydana çıxan bu ittihadın hüsulunda Nəsib bəyin zəka və səmimiyyətinin qəti rol oynadığını burada təsbit etməliyəm. Bu ittihad üzərinə idi ki, Qafqaziya qurultayını mütəəqqib Türk Federalist Müsavat Xalq Firqəsinin ilk qurultayı Bakıda toplanmış və bu toplanış siyasi Azərbaycan həyatında pək mühüm bir hadisə təşkil eyləmişdir” (17, s.111).

M.B.Məmmədzadə və H.Baykara da hesab edirlər ki, Qafqaz türklərini “ümmətçilik”dən “millətçiliy”ə yönəldən, onları əvvəlcə türkçülük, daha sonra Azərbaycan türkçülüyü (Azərbaycan milli ideyası) ətrafında birləşdirən və “Açıq söz” qəzetində bunu təbliğ edən ilk növbədə, Rəsulzadə və Yusifbəyli olmuşdur. Bununla bağlı M.B.Məmmədzadə fikirlərini bu cür ifadə etmişdir: “Azərbaycana qayıtdıqdan sonra Nəsib bəy Əmin bəylə yaxın əlaqəyə girərək “Açıq söz” ailəsinə daxil olmuşdu. Onun qurduğu Ədəmi-Mərkəziyyət firqəsi “Açıq söz”ün yaydığı millət nəzəriyyəsinə əsaslanırdı və millət məsələsini “Müsavat” kimi həll edirdi. O, Rusiyanın milli varlıqlara parçalanmasını, federalizm üzərində qurulmasını, bütün millətlərə, o cümlədən Azərbaycana, Türküstana, İdil-Urala və Krıma milli-məhəlli muxtariyyat verilməsini tələb edirdi” (15, s.54).

Həmin dövrdə xüsusilə də, tanınmış İslam-Türk mütəfəkkiri Cəmaləddin Əfqanin yolunu davam etdirən Rəsulzadə “islam millətçiliyi”nin yerinə “türk millətçiliyi”ni irəli sürmüşdür. M.B.Məhəmmədzadə yazırdı: “Şeyx Cəmaləddin Əfqani kimi Məhəmməd Əmin bəy də islamiyyətin və müsəlmanlığın milliyyət deyil, “ümmətçilik” ifadə etdiyini, milliyyətin isə din üzərində deyil, dil və mədəniyyət birliyi üzərində qurulduğunu və bu milli diriliyin təməlini təşkil edən milli mədəniyyətin ünsürlərini izah edərək milli hərəkatın ictimai fəlsəfəsini qurmuşdur” (15, s.52).Onun fikrincə, 1915-ci ildən işıq üzü görən “Açıq söz” qəzetində ilk dəfə olaraq “müsəlman”, “tatar” əvəzinə “türk” sözünü işlədən, “Biz türkük!” deyən Rəsulzadə bu surətlə “ümmət” və “ümmətçilik” dövrünü rəsmən qapamış, “millət”, “türk millətçiliyi” dövrünün başlandığını elan etmişdir (15,s.52).

Beləliklə, M.B.Məmmədzadəyə görə, Rəsulzadənin ümmətçilikdən millətçiliyə, islamçılıqdan türkçülüyə keçməsində Əfqaninin böyük rolu olub. O yazırdı ki, Rəsulzadənin “ümmət” dövrünü yaşayan müsəlman Şərqində milliyyət şüurunun oyanmasında çox böyük rolu olan məşhur islam mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin "milliyyət xaricində səadət yoxdur" - deyən "Vəhdəti cinsiyə fəlsəfəsi"ni (yəni "Milli birlik fəlsəfəsi") farscadan türkcəyə çevrib "Türk yurdu"nda dərc etməsi də bu zamana rast gəlir. Hətta, Rəsulzadə sonralar Bakıdakı nəşriyyatında milliyyət məsələsini işlədiyi zaman Cəmaləddin Əfqanidən çox faydalanmışdır.

Ümumiyyətlə, Mirzə Balanın fikrincə, çar Rusiyası əsarətindəki türklərin 19-cu əsrin ortalarına doğru milli-mədəni yüksəlişi şəklində başlayan milli qurtuluş hərəkatı bu günə qədər üç dövr keçmişdir: 1) Milli-mədəni oyanışın bir nəticəsi olmaq üzrə “Milli-mədəni muxtariyyət” üçün mücadilə dövrü; 2) Milli-siyasi dövlət şürünün bir nəticəsi olmaq üzrə, tam istiqlala gətirəcək “Milli-məhəlli (torpaq) müxtariyyəti” üçün mücadilə dövrü; 3) Rusiyadan tamamilə ayrılmağı ifadə edən tam istiqlal üçün mücadilə dövrü (14, s.137).**M.B.**Məmmədzadəyə görə, milli-mədəni muxtariyyət Topçubaşov başda olmaqla, 1905-1907-ci illərdə “Rusiya Müsəlmanları İttifaqı” partiyası tərəfindən ortaya atıldığı halda,milli-məhəlli muxtariyyət ideyasının başında isə 1917-1918-ci illərdə Rəsulzadə dayanmışdır: “Bəzi Türküstan şairlərinin nəzmə çəkmiş olduqları bu tarixi müdafiədən sonra qəbul edilən bu “Milli tezis”ə görə, böyük çoxluğunu rus olmayan millətlər təşkil edən Rusiya imperatorluğu milli vahidlərə, yəni millətlərin sayı qədər ayrı-ayrı müstəqil milli dövlətlərə parçalanacaq, o cümlədən olmaq üzrə, rus əsiri türklərin də özlərinə məxsus milli dövlətləri olacaqdır” (18, s.10).

Mirzə Balaya görə, M.Ə.Rəsulzadənin milli-məhəlli muxtariyyət ideyasının arxasında bir tərəfdən Rusiya türklərinin birliyi, digər tərəfdən isə Rusiya əsarəti altında olan ayrı-ayrı türk millətlərinin – Azərbaycan, Türküstan, Volqa-Ural, Krım, Sibir və başaqlarının tam istiqlalları dayanırdı: “Artıq tam istiqlaldan başqa bir qurtuluş yolunun mövcud olmadığı anlaşılmışdı. İlk və müsbət örnəyi müstəqil və demokratik Milli Azərbaycan Cümhuriyyəti təşkil edən bu hərəkat və dava ətrafında Rəsulzadə Məhəmməd Əmin konqres, konfrans, qurultay, məclis və yığıncaqlarda söylədiyi nitqlər, oxuduğu məlumatlar, etdiyi mübahisə və müzakirələr, nəşr etdiyi bəyannamə və verdiyi bəyanatlar, çıxardığı qəzetə və jurnallar, yazdığı məqalə və çap etdirdiyi kitablar siyasi tariximizin qızıl səhifəsini təşkil etməkdədir” (18, s.10).

Hüseyin Baykara isə yazırdı ki, 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə çar tərəfindən elan edilən amnistiya siyasi məhbuslara da aid edilirdi və bundan istifadə edən M.Ə.Rəsulzadə Bakıya dönüb, “Müsavat” partiyasında da liderliyi tezliklə əlinə alıb: “1915-ci ildə “Açıq söz” adlı qəzət çıxarmağa başlayan M.Ə.Rəsulzadə bu qəzet vasitəsilə İstanbuldan gətirdiyi Ziya Gökalpın “türkçülük” fikirlərini yaymağa başladı” (2, s.186).

Əslində burada Baykaranı demək istədiyi odur ki, Rəsulzadə Gökalpdan bu ideyaları daha dərin şəkildə mənimsəmişdir. Çünki türkçülük ideyası Türkiyədən Azərbaycana ixrac olunmamışdır. Bu baxımdan əvvəllər də, hazırda da xalqa bəzən yanlış bir fikir təlqin edilir ki, Azərbaycana millətçilik, türkçülük və bu kimi milli ideyalar kənardan-xaricdən gətirilmişdir. Bu, qətiyyən doğru deyil. Milli ideyaların beşiyi Azərbaycan xalqı, Azərbaycan türkləri özü olmuşdur. Yuxarıda apardığımız araşdırmalar da göstərir ki, milli ideyanın başlıca qaynağı Azərbaycan türklərinə məxsus milli mənəvi dəyərlər olmuşdur. Milli mənəvi dəyərlərin ideyalar şəklində formalaşması isə birdən-birə baş verməmişdi, o təkamül nəticəsində, tarixi şəraitə uyğun olaraq ortaya çıxmış və formalaşmışdır. Bunu, Hüseyn Baykara özü də görmüş və bunu düzgün qiymətləndirərək yazmışdır: “Azərbaycana milliyyətçilik fikrini Əhməd Ağaoğlu Fransadan, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə İstanbuldan gətirdiyi düşüncəsi yanlış və əsassızdır. Şəraitin yetişmədiyi bir zamanda kənardan heç kim, heç bir fikir gətirib toplum həyatına yerləşdirə bilməz” (2, s.76).

Deməli, türkçülük məfkurəsi bütün Türk ölkələrində, o cümlədən Azərbaycan və Türkiyədə eyni zamanda yaranmış və inkişaf etmişdir. Üstəlik, Əli bəy Hüseynzadənin türkçülük məsələsində milli ideoloq kimi öncüllüyünü sonralar M.Ə.Rəsulzadə, Z.Gökalp, Y.Akçura, M.B.Məmmədzadə və başqa mütəfəkkirlər də dəfələrlə yazmışlar. M.Ə.Rəsulzadə isə bu məsələni bir qədər də dəqiqləşdirərək yazırdı: ““Füyuzat” jurnalı “Türk Yurdu”nda olduğu kimi aydın, ardıcıllıqla olmasa da türkçülük mövzusunu daha öncə işə salmış, hətta mərhum Ziya bəyin son çağlarda “Türk millətindənəm, İslam ümmətindənəm, Qərb mədəniyyətindənəm” çağırışı ilə göstərdiyi anlamı Əli bəy Hüseynzadə “Türk qanlı, islam imanlı və firəng geyimli olaq” formulu ilə açıqlamışdı. Azərbaycan mətbuatının, eləcə də Azərbaycan ədəbiyyatının

şüurlu metodik bir biçimdə milli türk ideologiyasını işə salmaq düşüncəsi isə I Dünya savaşı öncəsində, illərində daha çox gəlişmişdir" (19, s.48). Onun fikrincə, beləliklə, balkan və dünya müharibələri dövrü türk milli ideyasının inkişafında dönüş nöqtəsi olmuşdu (20, s.49). M.B.Məmmədzadə də yazırdı ki, Azərbaycan milli hərəkatının kamilləşməsində, onun ictimaiyyətinin şüurlanmasında "Füyuzat" jurnalı və onun əsas yazarı Ə.Hüseynzadə müstəsna rol oynamışdı (15, s.47). Belə ki, mədəni millətçiliyin sonrakı forması Hüseynzadə tərəfindən "türkləşmək, islamlaşmaq və avropalaşmaq" kimi bir prinsip halına gətirilmiş, daha sonra «Müsavat»ın başlıca şüarı və milli Azərbaycan bayrağının əsasını təşkil etmişdir: "Beləliklə, türk milli hərəkatı gərək geniş mənası ilə, gərəksə də Azərbaycan ölçüsündə XX əsrin əvvəllərinə doğru şəkillənməyə başlamışdır. XX əsrin əvvəlləri türklüyün milliyyət dövründən millət dövrünə keçdiyi bir dövrdür" (15, s.22).

Yeni dövr tədqiqatçılarından Yaşar Qarayev, Aydın Balayev (3, s.17-18), Rasim Mirzə (16, s.22) və başqaları da yazırlar ki, türkçülük şüuru öncə çar Rusiyasının Türk xalqları arasında yaranmış, siyasi türkçülüyün əsasların isə "Həyat" və "Füyuzat"da Azərbaycan türklərindən Ə.Hüseynzadə işləyib hazırlamışdır.Y.Qarayev yazır: "Azərbaycanda milli bir ideologiya səviyyəsində türkçülüyün ilk dəfə hərəkətə gəldiyi qatarın sükanı arxasında hamıdan əvvəl Əli bəyi görürük" (7, s.276). Türkiyə tədqiqatçılarından M.Ertuğrul Düzdağ da hesab edir ki, Osmanlı dönəmində türkçülük cərəyanının yaranmasında "çar Rusiyası idarəsindəki Türk diyarlarından gəlmiş fikir və hərəkat adamlarının təsiri olmuşdu" (11, s.18).

H.Baykaranın fikrincə, ilk dövrlərdə sosial-demokratlarla eyni cəbhədə çalışmış M.Ə.Rəsulzadə də 1911-1913-cü illərdə C.Əfqaninin yazılarının və Z.Gökalpın ideyalarının təsiri altında türkçülük hərəkatına qoşulmuş və Azərbaycanda bu ideyanın əsas ideoloqu olmuşdur: "M.Ə.Rəsulzadənin Azərbaycan istiqlalının elanında və Azərbaycan dövlətinin yaradılmasında xidmətləri əvəzsizdir" (2, s.192).H.Baykara onu da əlavə edir ki, Rəsulzadənin lideri olduğu, "Müsavat" və Bitərəf demokratik qrup öncə milli ərazi və milli muxtariyyət tərəfdarı olsalar da, 1-ci və 2-ci rus inqilablarının gedişi, Qafqaz hadisələri onları özlərinin öncədən "uzaq məqsəd" olaraq planlaşdırdıqları Azərbaycan istiqlalı yoluna sürükləmişdi: "Azərbaycan istiqlal mübarizəsi tarixində "Azərbaycan istiqlalına" nə rast gəlinmiş, nə də baş verən siyasi hadisə olmuşdur. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi tarixin axarı içində öz yerini tapmışdır" (2, 133).

Fikrimizcə, Baykara yuxardakı sözləri ifadə edərkən əsas vurğunu «Azərbaycan» anlayışına salmış, bu mənada tarixən «Azərbaycan istiqlalına» rast gəlinmədyini iddia etmişdir. Məlum olduğu kimi, 1918-ci ilə qədər «Azərbaycan» anlayışı coğrafi ərazi mənasında işlədilmiş, bu ərazidə təşəkkül tapmış dövlətlər isə müxtəlif adlarla (Manna, İskit, Atropatena, Albaniya-Aran, Şirvanşahlar, İldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və b.) tarixə düşmüşdür. Dünya tarixində "Azərbaycan" adlı ilk müstəqil dövlət isə 1918-ci ildə yaranmışdır. Baykara da məhz bu faktordan çıxış etmişdir.

Tarixçi alim Aydın Balayevin də qeyd etdiyi kimi, Rəsulzadə XX əsrin əvvəllərində Türk nüvəli azərbaycançılıq konsepsiyasının bitkin, bütöv sistemini işləyib hazırlamış və bu konsepsiya nəticəsində də dünyanın siyasi xəritəsində "Azərbaycan" adlı dövlətin yaranması mümkün olmuşdır (3, s. 8-9). A.Balayevə görə, Rəsulzadənin və "müsavatçılığ"ın ciddi opponentlərindən biri hesab olunan N.Nərimanov da etiraf edərək bildirmişdir ki, Azərbaycanın istiqlal ideyası M.Ə.Rəsulzadənin lideri olduğu "Müsavat"Partiyası ilə assosiasiya olunur (3, s..66).Y.Qarayevin təbrincə desək, bu isə o deməkdir ki, Məhəmməd Əmin Atatürklə yanaşı, Türk xalqlarının XX əsrdə dünyaya verdiyi iki müdrik ərindən, iki türk dahisindən biridir: "İki türk xalqının iki xilaskarı bu adlar oldular. Türk adını millətlərin və xalqların demokratiya, hüquqi dövlət və istiqlal xəritəsinə hətta Atatürkdən də əvvəl Rəsulzadə həkk etdi… Məncə, indi Atatürkün əsil məqbərəsi heç də Türkiyədəki ən möhtəşəm daş-divar, bədii abidə kompleksi deyildir, yox: azad, münəvvər, suveren Türkiyənin özüdür. Və Məhəmməd Əmin

Rəsulzadə də Azərbaycanda yalnız belə bir möhtəşəm abidəyə, mənəvi mehraba, milli məbədə köç edə, əbədi qayıda bilər" (7, s.126). Bütün bunları təsdiq etməklə yanaşı, biz isə hesab edirik ki, ümumilikdə XX əsrdə Azərbaycan ədəbiyyatına, tarixinə, mədəniyyətinə də M.Ə.Rəsulzadə qədər diqqət yetirən, bunları qələmə alan, qiymətləndirən ikinci bir azərbaycanlı mütəfəkkir yoxdur. Bu baxımdan Məhəmməd Əmin mədəniyyətimizin, adət-ənənələrimizin, milli dövlətçiliyimizin unudulmaması və yaşadılması üçün əlindən gələni etmiş, yeni nəslin yaddaşında əbədi bir iz buraxmışdır (9, s.260).

Beləliklə, Rəsulzadənin sayəsində, onun öz təbrincə desək, ictimai ideologiyanın bütün sisteminin öncə dini islamçılıq sistemindən ümumi türkçülüyə-turançılığa, daha sonra türkçülükdən milli türkçülüyə keçidi başlandı (20, s.51). Rəsulzadə bu məsələ ilə bağlı qeyd edirdi ki, əvvəllər türk ziyalıları rus inqilabçıları və rus liberalistləri arasında gedən mübarizədə dolayısıyla iştirak etsələr də, sonralar milli ideyasını irəli sürdülər: "1910-cu ilə kimi rus liberalizmi ilə rus sosializmi arasında seçim qovğası ilə keçən siyasi yaşam bu çağdan etibarən Qafqaz türklərində yeni bir səhifəyə girir, üçüncü müstəqil bir siyasi düşüncə axını ilə yeni qurum çalışmaları başlayır, bu da milli demokratizm və milli devrim ideologiyasıdır. …Bu ideologiya birinci olaraq Qafqaz türklərinin siyasi gələcəyini Rusiyadan ayrı düşünmüşdür. Bu ün (şərəf – F.Ə.) isə türkçülüyündür" (19, s.55).

Məhz türkçülük nüvəsində Azərbaycan türklərinin Rusiyanın federativ dövlətə çevrilməsi nəticəsində milli-məhəlli muxtariyyətini (1917-ci ilin mayında Moskvada keçirilən Ümumrusiya Müsəlmanlarının I qurultayında) (13, s.163),az sonra da istiqlaliyyətini (N.Yusifbəyli ilə birlikdə) irəli sürən Rəsulzadə olmuşdur. Artıq "Müsavat"ın 1-ci qurultayında (1917, 25-31 oktyabr) milli istiqlalı müdafiə edən Rəsulzadə deyirdi ki, milli amal (milli ideya) və milli məfkurə (milli ideologiya) olmadan milli istiqlal mümkün deyildir. Beləliklə, istiqlaldan öncə "insanlara hürriyyət, millətlərə istiqlal!" şüarı ilə çıxış edən Rəsulzadənin bu ideyaları "Müsavat"ın yeni proqramında da öz əksini tapmışdı: "… ən müvafiq və ən təbii dövlət milli dövlətdir, çünki milli istiqlal və ya muxtariyyətə malik olmayan bir millət hürriyyət və mədəniyyətini hifz edə bilməz" (4, s.74).

Milli ideoloqun istiqlal ərəfəsində "Azərbaycan" adına müraciət etməsi isə, türkçülüyün yaxın və uzaq milli hədəfi olan yeni bir Türk dövlətinin yaranması və Azərbaycan türklərinin bu dövlətin çatısı altında birləşməsi ilə birbaşa bağlı olmuşdur. M.Ə.Rəsulzadə Azərbaycan milli ideyasını – azərbaycançılığı nəzərdə tutaraq yazırdı: "Bu yolla qafqazlı türk yazarların və şairlərdən bir çoxunun ayrı-ayrı çağlarda gizli olsa da, söylədikləri "bağımsızlıq" ideyası I Dünya savaşı illərində bilginlərin başında yaranaraq devrim günlərində siyasi bir çağrış biçiminə girir, daha uyğun bir gündə "bütünlüklə bağımsızlıq" çağrışına keçmək yetənəyində bulunan siyasi bir prorqama çevrilirdi" (19, s.56). O hesab etmişdir ki, Azərbaycan milli ideyası – azərbaycançılıq yalnız türkçülük uğrunda savaş aparan müsavatçıları deyil, sosialistləri, islamçıları və başqalarını da öz ətrafında birləşdirə bilər. Əslində son hədəfi müstəqil Türk dövləti yaratmaq olan türkçülərin ölkənin "Azərbaycan" adlandırılması bir tərəfdən türklüyün ifadəsi, digər tərəfdən isə siyasi-ideoloji gediş idi. Rəsulzadə yazır: "…Güney Doğu Qafqaz torpaqlarının bütünlüklə "Azərbaycan" adı altında yaranmış siyasi quruluşlarda olması tutalqasından başqa Azərbaycan türklərinin yaşadıqları bir ölkə olduğu üçün buraya "Azərbaycan" deməkdə heç bir sıxıntı görülməmişdir. Bu adın yeni Türk Cümhuriyyətinə verilməsində ən böyük tutalqa sözsüz bu türklük olmuşdur" (19, s.61).

Rəsulzadənin Azərbaycan milli ideyası ilə bağlı ən mühüm əsərlərdən biri "Əsrimizin Səyavuşu" (1920-ci il iyun-iyul, Lahıc) siyasi-fəlsəfi xarakterli olub, Azərbaycan türkçülüyüy manifestidir. Fars şairi Firdovsinin "Şahnamə" əsərini bir daha oxuyan və paralel müqayisə apararaq Firdovsinin qəhrəmanlarından biri olan Səyavuşun həyatını Azərbaycan Cümhuriyyətinə oxşadan Rəsulzadənin gəldiyi nəticəyə görə, İranla Turan arasında qalan Səyavuşun həyatı Azərbaycan Cümhuriyyətinə həyatına bənzəyir. Onun fikrincə, 28 Mayda "Turanın mərkəzində Azərbaycan" adlı bir ölkə yaranmışdır ki, "yeni Turanın açarı" ondadır.

Yeni Azərbaycan Türk ocağı, əski Türk yurdudur (26, s.35). Ona görə, Türkiyə türkçüləri başda Gökalp olmaqla turançılığı nəzəri şəkildə yaymaqda ikən, Azərbaycan turançıları bunu siyasi bir fəlsəfə kimi qəbul edərək qurduqları milli siyasi partiyanın prinsipi elan etmişdilər. Bu siyasi fəlsəfəyə görə, bütün müsəlmanları "İslam birliyi" altında birləşdirmək mümkün deyilsə, ancaq bütün türklər öz aralarında böyük dünya federasiyasına nümunə olmaq üzrə bir Türk federasiyası yarada bilərlər: "Yeni Turan, mədəni birlik üzərində təsis edilib ancaq gələcək birər Türk hökumətlərinin federasyonu şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan silsiləsinin mühüm bir halqasıdır" (26, s.36).

Azərbaycan milli ideyasını "Azərbaycan Cümhuriyyəti" əsərində elmi dəlillərlə əsaslandırmağa çalışan M.Ə.Rəsulzadə burada yazırdı ki, azərbaycanlılar milliyyət etibarilə türk, müxtəlif adlar daşıyan böyük Türk ağacının bir qoludur: "Azəri türklərinin hal-hazırda yaşadıqları yerlər min ilə qədim türk xalqı ilə məskun idi. Gərək Bakı, Gəncə, Şamaxı, İrəvan ilə Təbriz, Marağa, Ərdəbil və sairə kimi vilayətlər və gərək Muğan, Arran, Qarabağ və Qaradağ kimi məmləkətlər daim türk elinin məskəni və türk xanlarının ovlağı olmuşdur. Bu yerlər özlərində bir çox türk sülalələrinin irili-ufaqlı hökumətlər qurduqlarını və illərlə səltənət sürdüklərini görmüşlərdir" (21, s.12).

Bu əsərində M.Ə.Rəsulzadə bir çox məsələlərlə yanaşı, yeni dövlətə nədən "Azərbaycan" adının verilməsinə də aydınlıq gətirməyə çalışmışdır. Əslində bir Türk dövlətinə "Azərbaycan" adı verilməsi Rəsulzadə və onun silahdaşları tərəfindən siyasi-ideoloji bir addım idi. Azərbaycan Cumhuriyyətinin ideoloqu Rəsulzadə başda olmaqla yeni dövlətə "Azərbaycan" adını verənlər bunu üç faktorla izah etmişlər: 1) Qacarlar dövlətinin şimal-qərbində məskunlaşmış türklərin yaşadıqları coğrafiya adı Azərbaycandır; 2) Cənubi-şərqi Qafqazda yaşayan türklərlə, Qacarlların şimal-qərbində yaşayan türklər (dil, din, etnik, mədəni və sosial baxımdan) eynidir; 3) Cənubi-şərqi Qafqazda türklərin yaşadıqları coğrafiya da Azərbaycan adını daşımışdır (10, s.81-82).

Buradan belə bir nəticəyə gəlmək olur ki, Rəsulzadə yeni dövlətə "Azərbaycan" adı verməklə ilk növbədə "tarixi-coğrafi" və "siyasi-inzibati" amili göz önünə almışdır. Yeni Türk dövlətinə bu ad verilərkən, etnik-milli kimliyə deyil, qədim tarixi-coğrafi anlayışa və siyasi-inzibati coğrafiyaya üstünlük verilib. Ancaq bu, məsələnin görünən tərəfi idi. Şübhəsiz, əsas hədəflərdən biri, bəlkə də birincisi Qacarlar dövlətinin ən böyük siyasi-inzibati vilayətlərindən biri Azərbaycan olmuşdur. Cümhuriyyət ideoloqunun Güney Azərbaycan türkləri ilə Qafqaz türklərinin eyni kökə, dilə, mədəniyyətə bağlı olduqlarını da açıq şəkildə söyləməsi bunu bir daha ortaya qoyur. Deməli, yeni dövlətə "Azərbaycan" adının verilməsi, nə zamansa Güney Azərbaycan türkləri ilə Qafqaz türklərinin Azərbaycan adlı dövlətdə yenidən birləşməsi, bütövləşməsi ideyası ilə bağlı olmuşdur. Fikrimizcə, bu səbəbdən o vaxt, yeni dövlətə kiçik bir ərazini əks etdirən digər adların verilməsindən qəti şəkildə imtina olunmuşdur. Əsasən Rəsulzadənin sayəsində "Azərbaycan" adı qalib gəlmişdi (8, s.163).

Fikrimizcə, yeni Türk dövlətinə "Azərbaycan" adının verilməsində ikinci hədəf dövlətçilik ənənələrinin bərpası ilə bağlı olmuşdur. Bir sözlə, "Azərbaycan" adı bu ərazilərdə vaxtilə mövcud olmuş dövlətlərlə (Atropatena, Albaniya, Sacilər, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və b.) yeni dövlət arasında bir bağlılıq olmalı idi. Deməli, "Azərbaycan" adı qədim dövlətçilik ənənələrini ifadə etmək, eyni zamanda milli dövlətçilik ideologiyasını yaratmaq naminə yeni dövlətə verilmişdir. Bununla da, milli mənsubiyyəti ifadə edən "türkçülük" ideyası ilə yanaşı, milli dövlətçiliyi ifadə edən "Azərbaycan" ideyası yaranmışdır. Çox keçmədən "Azərbaycan" ideyası türkçülüyün rəsmi təbliğinin əsas hissəsinə çevrilmişdir. Rəsulzadə yazır ki, bu Cümhuriyyət Azərbaycan adlansa da əslində bir türk hökuməti, başqa sözlə kiçik Türkiyədir (21, s.10).

Deməli, "Azərbaycan" sözü dövlətçilik ideologiyası ilə bağlıdır, ölkənin adının nə cür adlanmasından asılı olmayaraq əslində bu dövlət Türk dövləti, Türk hökumətidir. Görünür, M.Ə.Rəsulzadə "Azərbaycan" sözünə sinonim kimi "kiçik Türkiyə" ifadəsini də bu mənada

işlətmişdir. Hər halda açıq şəkildə hiss olunur ki, Cümhuriyyət ideoloqları milli mənsubiyyət, milli dili, milli mədəniyyəti "türkçülük", dövlətçiliyi, dövlət ənənələrini isə "Azərbaycan"-azərbaycançılıq ideyaları əsasında təbliğ ediblər. Məhz bu amildən çıxış edərək M.Ə.Rəsulzadə yazır ki, Rusiyada yaşayan Qafqaz müsəlmanlarını "türk", ölkələrini "Azərbaycan" kimi qəbul etdirmək qazanılmış bir dava idi. Ona görə, "Azərbaycan" sözü artıq xalqın düşüncəsində də coğrafi mənadan ideoloji mənaya çevrilmişdir: "Xalqın düşüncəsində AZƏRBAYCAN məfhumu coğrafi bir mənadan daha çox fikir və əməl şəklində təcəssüm edir" (21, s.95).

Yeni dövlətə "Azərbaycan" adının verilməsində üçüncü hədəf Azərbaycanın əsas nüvəsi olan türklərlə, Bütöv Azərbaycanda yaşayan bütün azsaylı etnik qrupları və etnosları bir ideya altında birləşdirmək, milli dövlətə xidmətçiliyə nail olmaq idi. "Azərbaycan" adı yalnız türklərin deyil, başqa azsaylı etnik qrupların və etnosların da qəbul etdiyi anlayış kimi Azərbaycan milli ideyasına xidmət etməli idi.

Rəsulzadədə türklüklə bağlı "Azərbaycan" milli ideyası 1-ci Dünya müharibəsi dövründə (1914-1918) meydana çıxmışdır. "Azərbaycan"ın Turanla-Türkçülüklə bağlı olması fikrini M.Ə.Rəsulzadə ilk dəfə qismən 1916-cı ilin martından "Açıq söz" qəzetində qələmə aldığı "Məktəb və mədrəsə" silsilə yazılarında, əsasən də həmin ilin oktyabrında yazdığı "Nə Qafqasiya, nə də İran" məqalələrində ifadə etmişdir. O, həmin məqalələrində yazırdı ki, Qafqaz türklərinin özlərini "qafqasiyalı", "Qafqaz türkü" adlandırıb da Azərbaycanı iki hissəyə bölən Araz çayının o biri tayında yaşayan türklərə "iranlı" kimi yuxarıdan aşağı bir nəzərlə baxmaq ruhumuza sirayət etmiş bir xəstəlikdir (22, s.536-537). "Nə Qafqasiya, nə də İran" məqaləsində isə o, açıq şəkildə Şimali Azərbaycanda ya da Qafqazda yaşayan türklərin özlərini Qacarların Azərbaycan əyalətində yaşayan türklərdən ayrı müstəqil bir etnoqrafik vücud kimi görüb "Qafqaz türkü" adlandırmasını yanlışlıq hesab etmişdir. Türk şöbələri arasında "Qafqaz türkü" ismiylə tanınan etnoqrafik şöbə yoxdur, deyən Rəsulzadə yazırdı: "Azərbaycan türkü, Azərbaycan şivəsi, Azərbaycan ədəbiyyatı var. Ola da bilər. Fəqət Qafqasiya türkcəsi və Qafqasiya türkü olamaz. Bu gün nə "Xosrov Pərvizi" yazan Mirzə Abdullah iranlı, nə də Kazımoğlu qafqasiyaladır. Onların ikisi də azərbaycanlılardır... Çünki hamımız bir kütləninn (Azərbaycan Türkünün) parçası, bir məcmuin hissəsiyiz, xəlq təbrincə, "hamımız bir bezin qırağıyız", Araz çayının qismən bu, qismən də o tərəfində bulunan türklər, bir kərə bilməlidir ki, nə iranlı, nə də qafqasiyalı bəlkə: azərbaycanlılardır" (22, s.537).

Gördüyümüz kimi, Rəsulzadə "Azərbaycan" milli ideyasını hər şeydən öncə Qafqaz türkləri ilə Qacarlar, ya da "İran" türklərini birləşdirən, onların biri-birindən ayrı deyil vahid ulus olması anlamında gündəmə gətirmişdir. Başqa sözlə, Rəsulzadənin irəli sürdüyü "Azərbaycan" ideyasının əsasını Dərbəndən Kəngər korfəzinə, Bakıdan İrəvanadək eyni adət-ənənənyə, əxlaqa, məişətə, dilə, ədəbiyyata sahib olan türklərin vahidliyi, bütünlüyü təşkil etmişdir. Bu mənada Rəsulzadə yazılarında artıq "Azərbaycan türkləri", "Azərbaycan muxtariyyəti"anlayışlarına geniş yer verir(23, s.150, 204, 388),Türk xalqları arasında Azərbaycan türklərinin öz dili, öz ədəbiyyatı, öz adəti olmasını müdafiə edirdi (23, s.186). 1917-ci ilin mayında Moskvada keçirilən Birinci Rusiya müsəlmanları qurultayında digər türk xalqlarıyla yanaşı "Azərbaycan muxtariyəti" ideyasını da irəli sürən Rəsulzadə artıq həmin ilin sonunda "Azərbaycan muxtariyyəti haman bir əmri-vaqe halını almaldır"- deyə (23, s.408), fikrini açıq şəkildə ifadə etmişidr. Bizcə, "Azərbaycan muxtariyyəti" ideyasını ortaya atan Rəsulzadə, bununla da yeni bir Türk dövlətinin adının bəlirlənməsi yolunda ciddi zəmin hazırlamış, eyni zamanda "Qafqaz" türkləriylə "İran" türklərinin ortaq gerçək adını da dəqiqləşdirmişdir: Azərbaycan türklüyü!

"Azərbaycan"ın Turanla biri-birini tamamlaması məsələsinə gəlincə, M.Ə.Rəsulzadə 1-ci Dünya müharibəsi dövründə (1914-1918) anladı ki, türklərlə farslara istinadən "ortaq yurd" hesab etdiyi "İran", ortaq ideologiya saydığı "iranlılıq" üçün savaş türklərə fəlakətdən başqa heç nə verməmiş, bundan qazanan yalnız farsdillilər və onun havadarları olmuşdur.

Ona görə də, Rəsulzadə 1915-1916-cı illərdən etibarən siyasi, mədəni, əxlaqi, etnik, adət-ənənə anlamlarda İran və Turan anlayışlarını biri-birindən ayırmağa başladı. Bizcə, İran və Turan anlayışlarının biri-birinə zidd olmasını daha dərindən anladıqdan sonra da o, türklər üçün "İran", "iranlılığ"ın deyil, Turan və Azərbaycanın önəmli olması qənaətinə gəlmişdi (22, s.169, 343, 344).

Həmin dövrdə müstəqil Azərbaycan Türkçülüyünün ya da Azərbaycan Turançılığının əleyhinə olan əsas qüvvələr: 1) rusiyaçılar, 2) ittihadçılar, 3) irançılar idilər. Məsələn, "Azərbaycan türklüyü" ya da Azərbaycan milli ideyası ortaya atıldığı zaman Quzey Azərbaycanda İslam birliyindən çıxış edən ittihadçılarla "Böyük Rusiya" xülyasından qurtulmayan sosial-demokratlar (bolşeviklər, menşeviklər, sosialistlər) birmənalı şəkildə buna qarşı çıxırdılar. "Azərbaycan muxtariyyəti" ideyasını ittihadçılar İslam birliyinin parçalanması, sosialistlər isə Rusiya demokratiyasından ayrı düşmək kimi yozurdular. Azərbaycan milli ideyasının əleyhdarları olan ittihadçılarla sosial-demokratlar (bolşeviklər, menşeviklər, sosialistlər) bu fikirlərini Azərbaycan Cümhuriyyəti yaranana qədər davam etdirdilər. Yalnız 1918-ci ilin 28 mayında Azərbaycan Cümhuriyyəti adlı yeni Türk dövlətinin bəyanından sonra azərbaycanlı ittihadçılarla demokratlar da Azərbaycan milli ideyasına sahiblənməyə başladılar.

Quzey Azərbaycan türkləri "Azərbaycan" milli ideyasıyla öz mövqeyini gücləndirdiyi dövrdə "Azərbaycan" isminə qarşı etirazlar sosial-demokrat adıyla pərdələnən rusiyaçılar və İslam biliyindən çıxış edən ittihadçılarla yanaşı Qacarlar dövlətindən, daha doğrusu bu dövlətdə "İran", "İranlı" adlarıyla pərdələnən irançılardan da gəlməyə başladı. Belə ki, Tehranda nəşr olunan "Novbahar" qəzeti 1918-ci ilin əvvəllərində yayımladığı saylarının birində Şimali Azərbaycan türklərinin "Azərbaycan" ideyası zəminində Azərbaycan muxtariyyəti uğrunda mübarizə aparmasını tənqid edirdi. "Novbahar" qəzetinin irançı ideoloqlarına görə, Azərbaycan muxtariyyəti ideyası "İran" dövlətinin istiqlalına qarşı olub "İran Azərbaycanı"nı da özünə birləşdirmək niyyəti güdür (23, s.448). M.Ə.Rəsulzadə "Novbahar" qəzetinin bu iddiasına cavab olaraq yazırdı ki, onların əsas hədəfi "İran dövləti" ya da "İran Azərbaycanı" deyil, Bakı, Gəncə, İrəvan və qeyri əyalətlərdən ibarət olan Qafqaz Azərbaycanı türklərinin muxtariyyəti və istiqlalıdır. Milli ideoloqumuza görə, bu mənada ""Novbahar" müdiri Azərbaycan adından nahaq xof və dəhşətə düşmüşdür: "Azərbaycan yüz on il bundan qabaq havayi-ruzigardan təqsim olundu və Araz çayının Şimal tərəfində olan qitələri rus aldıqdan sonra Azərbaycan adını götürüb Zaqafqasiya adlandırdılar ki, Məvarayi-Qafqaz olsun" (23, s.448).

Gördüyümüz kimi, Cümhuriyyət qurulana qədər "Azərbaycan" ideyasının Türkçülük və Turançılıqla bağlı olması haqqında müəyyən müddəalar irəli sürülmüşdür ki, bunun da əsas müəllifi Rəsulzadə olmuşdur. Rəsulzadə də Azərbaycan türkçülüyünü ya da Azərbaycan turançılığını birmənalı şəkildə "Rusiya Azərbaycanı"na və "İran Azərbaycanı"na qarşı qoymuşdur. Yəni Rəsulzadənin ortaya atdığı "Azərbaycanizm"in mahiyyətində artıq Rusiya və "İran" mərkəzlilik deyil, məhz Türklük və Turanlılıq dayanırdı. Başqa sözlə, Quzey Azərbaycan türkləri bir tərəfdən 100 ilə yaxın Rusiyanın işğalı altında olduğu üçün ruslaşdırma siyasətinin qurbanı olmuşlara, digər tərəfdən Qacarlar dövlətinə son vermək niyyətində olan farsçılarla onların təsiri altına düşmüşlərə qarşı mübarizə apararaq Azərbaycan turançılığını müdafiə etmişlər. Üstəlik, Azərbaycan Türk aydınları, özəlliklə də Rəsulzadə "Turan Azərbaycanı", "Türk Azərbaycanı" ideyalarını müdafiə edərkən də bir tərəfdən türkçülük, turançılıq prinsiplərindən kənara çıxmamağa çalışmış, digər tərəfdən isə Türkçülük və Turançılıq içində onun müstəqil varlığını müdafiə etmişlərdir.

Ancaq ilk dövrlərdə Azərbaycan milli ideyasının yetərincə öz təsbitini tapmamasının nəticəsi idi ki, Azərbaycan Cümhuriyyəti gerçəkləşdikdən sonra da (28 may 1918-ci il) Azərbaycanla türklüyün biri-birinə zidd ya doğma olması məsələsində müzakirələr davam etmişdir. Çox maraqlıdır ki, ilk dövrlərdə türkçülərin bir qismi "Azərbaycan" adının Türk kimli-

yini ifadə etmədiyi üçün ondan imtina edilməsinin tərəfində olduğu halda rusiyaçılar, ittihadçılar və irançılar isə yuxarıda ifadə etdiyimiz mövqelərində qalmağa davam edirdilər. Bizcə, 1918-ci ildə qurulan dövlətə "Azərbaycan" deyil, başqa bir ad məsələn, Oğuz Cümhuriyyəti ya da Türküstan ismi verilsəydi, bu ərazidə yaşayan Türk xalqının SSRİ və SSRİ-dən sonrakı dönəmdə həyatı müsbət və mənfi anlamda xeyli dərəcədə fərqli olacaqdı. Yeni Türk dövlətinə "Oğuz Cümhuriyyəti" adı veriləcəyi halda, bu adı daşıyan ulusun tarixi taleyinin hansı istiqamətdə inkişaf edə biləcəyi haqqında fikir yürütmək çox çətindir. Amma bir şeyi dəqiq bilirik ki, yeni Türk dövlətinin ismi məsələsinin müzakirəsində "Azərbaycan"la yanaşı Oğuz ya da Türküstan adı üzərində dayanılması da təsadüfi olmamışdır. Çünki bu bölgənin aborigen yaşayanları olan Türklər öz ölkələrini milli kimliklərinə uyğun olaraq Türkistan, Xəzəran-Azərbaycan, Oğuz, Turan kimi tarixə daha çox damğasını vuraraq Oğuzluğunu, Turanlığını, Xəzərliyini, Türklüyünü də XX əsrin əvvəllərinədək qoruyub saxlamışdır. Məhz bu vahidliyin, eyniliyin nəticəsi olaraq da yeni Türk dövlətinin ismi kimi əsasən "Oğuz", "Türküstan", "Xəzəristan" və "Azərbaycan" adları ön plana çıxmışdır. Bu anlayışlardakı vahidlik, eynilik də hərfi məna üzərindən deyil, tarixi gerçəklik və milli mənsubiyyət əsasında ifadə edilmişdir.

Bu adlardan hər birinin Türklüyü ifadə etdiyini yaxşı anlayan milli aydınlarımızın çoxunun sonda ən optimal variant olaraq "Azərbaycan" üzərində dayanmaları isə diqqətçəkicidir. Yeni yaranmış Türk dövlətinə konkret etnik kimliyi ifadə edən, bu anlamda heç kəsdə şübhə yeri qoymayan Oğuz, Türküstan, Xəzəristan deyil, artıq Türk ulusu mahiyyətindən kifayət dərəcədə uzaqlaşdırılaraq daha çox İrançı-Ariyançı coğrafiya ya da ölkə anlamında yayğın "Azərbaycan" adı üzərində dayanılması Türk aydınlar, o cümlədən Türk xalqı arasında istər-istəməz mübahisələrə yol açımışdır. Başqa sözlə, daha çox hərfi mənada, özü də fars dilində "odlar yurdu" ya da ona yaxın anlamda izah olunan "Azərbaycan" adının yeni Türk dövlətinə verilməsi birmənalı qarşılanmamışdır (10).

Şübhəsiz, həmin dövrdə Türk aydınlarından bir hissəsinin "Azərbaycan Cümhuriyyəti" adına olan etirazlarının kökündə də məhz "Azərbaycan" anlayışının Türklükdən xeyli dərəcədə uzaqlaşdırılmasıyla bağlı idi. Özəlliklə, "Azərbaycan" anlayışının tarixi-coğrafi və etnik anlamda iranlılaşdırılması ya da ariyanlaşdırılması (hind-avropa nəzəriyyəsincə) fonunda, Türk milliyyətçilərinə görə belə bir ismin Türk dövlətinə verilməsi məntiqəuyğun ola bilməzdi. Ancaq Türk düşməni ideoloqların "Azərbaycan" anlayışını türklükdən, oğuzluqdan, turanlılıqdan uzaq tutulub iranlılaşdırılması, ruslaşdırılması, avropalaşdırılması prosesini zamanında çox yaxşı dərk edən M.Ə.Rəsulzadənin Turanın mərkəzi olan Azərbaycanın bir hissəsində yaradılmış Türk dövlətinə "Azərbaycan Cümhuriyyəti" adının verilməsində əsas məqsədi quzeyli-güneyli Azərbaycanı, Azərbaycan türklərini Türklüyə, Oğuzluğa və Turanlığa yenidən qaytarmaq idi. Bu anlamda yeni yaranmış Türk dövlətinə "Oğuz" ya da "Türküstan", "Xəzəristan" deyil, məhz "Azərbaycan" adının verilməsi Türk kimliyinin ifadəsi baxımından uğurlu görünməsə də, ancaq burada əsas məsələ daha geniş çaplı milli hədəfin ortaya atılması idi. Belə ki, əgər yeni Türk dövlətinə "Oğuz Cümhuriyyəti" ismi verildiyi halda, 1828-ci ildə fiziki cəhətdən bölünmüş Azərbaycan türkləri mənəvi-ruhi cəhətdən də parçalanmış olacaqdırlar. Bununla da "Oğuz" türkləriylə Azərbaycan türkləri arasındakı bağ, indiki Türkiyə ya da Türkmənistan türkləriylə olan bağdan uzağa getməyəcəkdi. O zaman "Oğuz" türkləri də məcburən Qacarlar dövlətindəki Azərbaycan türklərinin dövlətçilik ənənələrindən tutmuş fəlsəfi, mədəni, ədəbi irsinə qədər hər bir şeydən uzaq durmaq məcburiyyətində qalacaqdırlar.

Ona görə də "Azərbaycan" milli ideyasının müəllifi olan M.Ə.Rəsulzadə Cümhuriyyət dövründə Türk dövlətinə belə bir adın verilməsini üç faktorla izah etmişdir: 1) "Qafqaz Azərbaycanı" və "İran Azərbaycanı"nda məskunlaşmış türklər tarixən milli kimlik anlamında "Azərbaycan"la bağlı olmuş, bu anlamda milli kimliyi "Azərbaycan türkü", milli dili "Türk dili" ya da Türk dilinin Azərbaycan şivəsi adlandırılmışdır; 2) Quzeyli-güneyli Azərbaycan

türkləri dil, din, etnik, mədəni və sosial baxımdan tarixən vahidlik təşkil etmişdir; 3) Qafqaz türklərinin yaşadıqları coğrafiya da tarixən "Azərbaycan" adını daşımışdır.

Rəsulzadənin bu izahlarının nəticəsi olaraq da çox keçmədən milli sosialistlərin, milli ittihadçıların çoxu uyğun olaraq Rusiya yanlısı, ya da Osmanlı yanlısı olmaqdan əl çəkərək "Müstəqil Azərbaycan" ideyasını müdafiə etməyə başladılar. M.Ə.Rəsulzadə 1918-ci ilin 10 dekabrında parlamentin 2-ci iclasındakı çıxışında "Azərbaycan" milli ideyasının şüurlarda qazanılmış bu uğurunu nəzərdə tutaraq deyirdi: "Bizim yaxın məqsədlərmizdən biri olan Azərbaycan muxtariyyətini tələb edərkən həm sağdan, həm də soldan hücumlara düçar olurduq... Daima Azərbaycan məfkurəsinin müdafiəçisi olan firqəmiz üçün bu gün o böyük məqsəd hasil olmuşdur. Çünki artıq gərək sağlar, gərəksə sollar Azərbaycanı inkar deyil, var qənaətlərilə isbat edirlər. Çünki artıq Azərbaycan fikri üzərində müsəlman firqələri arasında ixtilafi-nəzər yoxdur. Çünki cəmiyyətimizin zehnində Azərbaycan istiqlalı fikri yer tutmuş, yerləşmişdir. Çünki üçrəngli o məğrur bayraq artıq siyasətən hamımızı birləşdirmişdir" (1, s.50).

M.Ə.Rəsulzadənin bu sözlərində inkar olunmaz elə bir həqiqət var idi ki, 70 illik SSRİ imperiyası belə milli bayraq fəlsəfəsini Azərbaycan Türk insanının şüurunda siləb ilməmişdi. Əksinə, milli bayraqdakı üçboya və səkkizguşəli aypara onların ruhuna və mənəviyyatına əbədi həkk olunmuşdu. Bizcə, bu baxımdan milli bayraqdakı boyaların fəlsəfi-ideoloji mənasını M.Ə.Rəsulzadə aydın ifadə etmişdi. Onun fikrincə, milli bayrağın məzmun və mənası "müasir bir türk və islam siyasi mövcudluğu" ilə bağlıdır. Burada qeyd edilən "müasir bir türk və islam" kəlməsi göstərir ki, "müasirlik" dedikdə, ilk növbədə milli və dini sahədə, yəni islamda və türklükdə yeniləşmə, milli və bəşəri mədəniyyətin bütövlüyü – dünyəvilik (layiqlik) nəzərdə tutulur. Bunu, M.Ə.Rəsulzadənin bayrağın mənası ilə bağlı, bir kitabında öz əksini tapmış xüsusi qeydi, açıqlaması da bir daha təsdiq edir. O, yazır: "Azərbaycan bayrağındakı mavi rəng – türklüyü, yaşıl rəng – müsəlmanlığı, al rəngdə – təcəddüd (yeniləşmə – F.Ə.) və inqilab rəmzi olmaq həsbilə əsrliyi tərmiz edər ki, möhtərəm Ziya Gökalp bəyin "türk millətindənəm, islam ümmətindənəm, qərb mədəniyyətindənəm" – düsturunu ifadə etmiş olur" (21, s.97). Deməli, M.Ə.Rəsulzadə "qərb mədəniyyətindənəm" anlayışını yeniləşmə və inqilab kimi başa düşmüşdür. Bu baxımdan "yeniləşmə və inqilab" dünyəvilik (layiqlik) məfhumu ilə bağlıdır.

Bizcə, Azərbaycan bayrağında öz əksini tapmış göy rəngin türklüyü ifadə etməsinində böyük mənəvi-ideoloji anlamı var. Bu boya ilk növbədə, qədim türklərdə mövcud olmuş dini inanc – Tanrıçılıq dini ilə bağlıdır. Qədim türklər Tanrıya "Göy Tanrı" deyə müraciət edirdilər. Türklərdə "göy" səmanın rəngini bildirdiyi üçün müqəddəs sayılırdı. Buna görə də, göy boya müqəddəs göyün olduğu kimi, həm də Tanrının simvolu idi. Bir sözlə, mavi rəng əski türk inancları ilə bağlı olaraq türklüyün rəmzi, simvolu kimi Azərbaycan bayrağına daxil edilmiş, XX əsrin əvvəllərində milli tərəqqi və milli istiqlalın siyasi doktrinası olan "türkləşmək, müasirləşmək, islamlaşmaq" ideoloji modelinin bir istiqamətini simvollaşdırmışdır. Bu baxımdan türkçülüyün simvolu olan göy boya, eyni zamanda tanrıçılığın rəmzidir. Göy boya türkçülüyü əks etdirdiyi qədər də, tanrıçılığı – təkallahlılığı da ifadə edir. Bu anlamda türkçülük tanrıçılıq, yəni tək olan Allaha inam deməkdir. Deməli, islamda yaşıl boya, tanrıçılıqda isə göy boya tək olan Allahı əks etdirir və hər ikisində dini-fəlsəfi məna vardır. Bu baxımdan türklərin tanrıçılıqdan sonra islama tapınmalarını anlamaq çətin deyildir.

Bizcə, Azərbaycan təhsilində və tədrisində yuxarıda qeyd etdiyimiz bilgilər öz doğru əksini taparsa, Azərbaycan Türk insanı milli bayraq məfkurəsini daha yaxından mənimsəyər və ona mənən də sahib çıxar. Bunun üçün, bu gün yeni nəslə Hüseynzadələrin, Rəsulzadələrin, Cavadların, Cabbarlıların və başqalarının milli ruhlu ideyaları aşılanmalı və onlarda milli bayraq sevgisi yaradılmalıdır.

Quzey Azərbaycan türklərinin böyük çoxluğu siyasi əqidələrindən asılı olmayaraq "Azərbaycan" milli ideyasını qəbul etdikləri bir dövrdə ruslardan sonra bundan ən çox narahatçılıq yaşayan irançı qılığına girmiş farslar olmuşlar. Həmin dövrdə "Azərbaycan" ismi üzərindən müzakirələrin mərkəzində isə Bakıdakı "Azərbaycan" qəzeti ilə Tehrandakı "İran" qəzeti dayanmışdır. Belə ki, Rəsulzadə 1919-ci ilin aprelində "Azərbaycan" qəzetində yayınlanan "İran və biz" məqaləsində Qacarlar dövlətindəki irançıların "Azərbaycan" adı üzərindən sui-istifadə etmələrinin doğru olmadığını yazmışdır. Milli ideoloqumuz Qacarların sülaləsinin Türk kimliyini, eyni zamanda türklərin, o cümlədən Azərbaycan türklərinin Qacarlar dövlətindəki ana varlığını nəzərdə tutaraq yazırdı ki, Cümhuriyyətlə Şahlıq arasında iqtisadi, ədəbi, tərbiyəvi, ən əsası böyük bir qohumluq vardır. Bü baxımdan irançı aydınların Azərbaycanın quzeyində yaranan Türk Cümhiyyətinin isminə düşməncəsinə münasibət bəsləyərək bunu, "İran"a təhdid kimi görmələrini doğru qəbul etməyən Rəsulzadə hesab edirdi ki, "Azərbaycan" adını Qacarlar dövlətinin bir hissəsi olan Azərbaycana bağlayaraq başqa mənalara yozmağın bir anlamı yoxdur: "Azərbaycan derkən qəsdimiz Şimali Azərbaycan və yaxud Qafqasiya Azərbaycanıdır ki, əski Aran ilə Şirvan və Muğanı ehtiva edər. Azərbaycan ismi isə coğafi istilah olmaqdan ziyadə qövmi bir məna ilə işlənmişdir. Biz kəndimizi Azərbaycan dili ilə (ki türkcənin bir növüdür) mütəkəllim məxsus bir qövm əǆd edəriz. Bu qövmün ismi nə Aran, nə Şirvan, nə də Muğandır. Yalnız Azərbaycandır" (24, s.231).

Bizcə, Rəsulzadə bu məqaləsində yeni Türk dövlətinə niyə "Azərbaycan" adının verilməsi məsələsinə əsasən nöqtə qoymuşdur. Milli ideoloq "Azərbaycan" adının yalnız coğrafi ya da vətən anlamında başa düşülməsinin yanlış olduğunu, burada əsas məsələnin "Azərbaycan" kəliməsinin milli kimlik olaraq (Azərbaycan türkləri) anlaşılmasının önəmini vurğulamışdır. Başqa sözlə, "Azərbaycan" kəliməsinin milli kimlikdən uzaqlaşaraq yalnız coğrafiya ya da vətən anlamında başa düşülməsini doğru qəbul etməyən Rəsulzadə hesab edirdi ki, türklüyün, o cümlədən Azərbaycan türklüyünün sinonimi olan "Azərbaycan" kəliməsi yenidən milli kimlik anlamında çar Rusiyasının işğalından sonra ortaya çıxmışdır. Belə ki, çar Rusiyasının "Azərbaycan" adına qoyduğu qadağalara baxmayaraq, 19-cu əsrin ikinci yarısından etibarən Gəncə, İrəvan və Bakı vilayətlərindən Sankt-Peterburqa, Moskvaya təhsil almağa gedən tələbələr "Azərbaycan cəmiyyəti" adlı təşkilatlar qurmuş, burada keçirdikləri tədbirlərinə "Azərbaycan gecəsi" ismini vermişlər. Eyni zamanda, Qafqaz türkcəsindən ruscaya lüğət tərtib edən milli aydınımız S.M.Qənizadə kitabını "Azərbaycan türk dili-Rusca lüğət" adlandırmışdır. Rəsulzadə yazırdı: "Ola bilər düşünülsün ki, başqa bir isimlə olsa da məxsus bir qövm olmaq əsası və xüsusiyyəti uya bilər bir kütlə olduğu üçün mətlub degildir. Böylə bir düşüncənin, əlbəttə ki, ciddi mütəfəkkirlərcə beş para qiyməti olamaz. Çünki o zaman Cümhuriyyətimizi təşkil edən qövmin qövmiyyətini inkar etmək, ona kəndi müqəddəratını təyin həqqini verməmək icab edər. Böylə bir vəziyyətə ruslar, ingilislər, firəng və sair xristian millətlər durmadığı halda dindaş bir dövlətin duracağını qətiyyən təsəvvür etməyiz. Böylə olunca Azərbaycanın nə ismi, nə də cismi iranlı qardaşlarımızda şəkk və şübhə hissi oyatmamalı, yanı başlarında bir Ermənistan, bir Gürcüstan hökuməti təşəkkül etdigi bir zamanda, bir də həmkeş və əqraba bir Azərbaycan Cümhuriyyətinin təşəkkül edib kəsbi-qüvvət etməsini səmimanə bir surətdə arzu etməlidirlər" (24, s.232).

M.Ə.Rəsulzadənin "Azərbaycan" qayəsi ilə bağlı uzlaşdırıcı fikirlərinə baxmayaraq, Qacarlar dövlətini yıxmaqda qərarlı olan irançı ideoloqlar başda "İran" qəzeti olmaqla yazırdılar ki, Qafqazın bir qimindən ibarət olan Türk dövlətinə "Azərbaycan" isminin verilməsi doğru deyildir. Onlara görə, "Azərbaycan" adı yalnız "İran"ın qədim vilayəti kimi tanınan Azərbaycan əyalətinin haqqıdır. Rəsulzadə isə "Azərbaycan və İran" adlı növbəti məqaləsində bir daha yazırdı ki, Qafqazdakı Azərbaycan Türk milləti, azərbaycanlılar "Azərbaycan" kəliməsini çoğrafi mənadan çox milli mənsubiyyət olaraq qəbul edirlər. Yəni dünyada "Azərbaycan" adlı bir coğrafiyayla yanaşı "Azərbaycan camaatı" da vardır. "Azərbaycan camaatı" da özünə məxsus bir ləhcə ilə danışan Türk xalqlarından bir millətdir ki, o, başqa adla Qafqaz

türkləri də olaraq tanınır. Bu anlamda Qafqaz türklərinin ədəbiyyatı, teatrı, operası, dili də "Azərbaycan"la bağlıdır. Beləliklə, coğrafi anlayışlar üzərindən müzakirələr aparılmasını doğru saymayan Rəsulzadə "Azərbaycan" ideyasında əsas vurğunun milli kimlik üzərində qurulmasını vacib hesab etmişdir: ""Qafqaz müsəlman türkləri" ilə azərbaycanlı təbirinin eyni mənanı ifadə etdiklərini coğrafiya nöqteyi-nəzərindən cərh eləmək mümkün olsa da, qövmiyyət nöqteyi-nəzərindən bunu inkar etmək mümkün deyildir. Zira İrəvan, Gəncə və Bakı quberniyalarındakı türklər ilə Ərdəbil, Marağa, Xalxal, Təbriz və Qaracadağ mahallarındakı türklərin biri-birindən nə ilə ayrıldıqlarını mən yaxşı fərq edəmiyoram. Eyni dil, eyni adət, eyni məzhəb, eyni ənənələr burada da, orada da hökmfərma, ortada yalnız yüz illik digər bir siyasi həyat ilə yaşamanın təsiri mövcuddur. "Qafqaz müsəlman türkləri"nin "İran müsəlman türkləri" kimi tanınan bir ismi vardır: Azərbaycan türkü" (24, s.239).

Beləliklə, "Azərbaycan" kəliməsini milli kimlik anlamında irəli sürənlər Azərbaycan Cümhuriyyətini milli həyat yaşamaq istəyən Azərbaycan türk millətinin təsis etdiyi bir dövlət olaraq görürdülər. Azərbaycan Türk millətinin də "Azərbaycan Cümhuriyyəti" adından Qacarlardakı Azərbaycan türklərinə görə imtina etməsi məntiqli hesab olunmurdu. Qaldı ki, irançıların Azərbaycan Cümhuriyyəti adı altında öncə Qafqaz Azərbaycanı türklərinin, daha sonra da Qacarlardakı Azərbaycan türklərinin istiqlalını istədikləri müddəasına, Azərbaycan türk aydınları bunu da əsassız hesab etmişlər.

Eyni zamanda Cümhuriyyət dövründə də "Azərbaycan" milli ideyasının varlığı üçün irançılığa qarşı Turançılıq fikri daima təbliğ olunmuşdur. Azərbaycan və Turan ideyalarının üst-üstə düşməsinə əsas səbəblərdən biri kimi də, Turanın mərkəzinin Azərbaycan olması ideyası irəli sürülmüşdür. Hətta, iranlılarla turanlılar arasında ilk müharibənin də Azərbaycanda olması geniş yayılmışdır. Türklər/turanlılar da iranlılardan/arilərdən çox öncə Turanın mərkəzi olan Azərbaycanın sakini olmuşlar. Bu kimi fikirlər o zaman Quzey Azərbaycanla yanaşı Qacarların tərkib hissəsi olan Azərbaycan əyalətində də müdafiə olunurdu. Rəsulzadə, İsmayıl Əfşar, A.Şaiq (27, 61), C.Cabbarlı (6, s.63), Ə.Cavad (5, s.127) kmi quzeyli-güneyli Azərbaycan türk aydınları Azərbaycanın əski Turanın mərkəzi və ən qədim sakinləri olmasını ortaya qoymaq üçün də əcnəbi alimlərdən örnəklər vermişlər.

Hər halda "Azərbaycan" ismi zahirən türklərin Turan idealını özündə əks etdirməsə də, ancaq tarixi-coğrafi və etnik, adət-ənənə anlamında onun ayrılmaz bir hissəsi, özü də ən vacib və mərkəzi bir hissəsi olmaqla bu haqqı qazanmışdır. Başqa sözlə, Türk Cümhuriyyəti qurulana qədər artıq "Azərbaycan"ın Farslıq və İranla ya da başqa yad bir millət və əraziylə deyil, məhz doğma Türklük və Turanla bağlılığının öz təsbitini tapmasının nəticəsi idi ki, qəti bir qərar verilmişdir. Bizcə, Rəsulzadə "Azərbaycan" adında israr edərkən də silahdaşlarına onun qövmiyyət, adət-ənənələr, həyat tərzi, dövlətçilik məsələlərindən tutmuş tarixi-coğrafi anlamınadək ilk növbədə, Türklük və Turanla bağlı olmasını inandırmağı bacarmışdır. Milli ideoloq inanırdı ki, özünü turanlı kimliyində görənlər Azərbaycan ideyasına da sahib çıxacaqlar. Bu anlamda Rəsulzadənin düşüncəsində Turan və Azərbaycan ideyaları vahidlik, eynilik təşkil edirdi. Onun qurucusu olduğu Müsavat Partiyasının proqramı da ideal olaraq böyük bir Turan ideyasına hesasablanmışdır. Rəsulzadə Turanın müstəqil Türk müttəfiq hökumətlərinin birliyi şəkilində meydana gələcəyinə inanırdı (24, s.45). bu anlamda Cümhuriyyətin qurulmasında Nuri Paşa başda olmaqla, Osmanlı türklərinin yardımını "Turan toxumunun əkilməsi" (24, s.62)kimi dəyərləndirən Rəsulzadəyə görə, Turan idealanın gerçəklşəməsi yolunda artıq ilk addımlar atılmışdır. Rəsulzadə yazırdı: "Turan bu gün maddətən qazanılmamışsa da, mənən hasil olmuş; Turan fikri doğmuşdur. Bir kərə doğan fikir bir daha ölməz, bir daha sönməz!" (24, s.63). Azərbaycan fikriylə Turan fikrini biri-birinin tamamlayıcısı kimi görən Rəsulzadə "biz məfkurəmizdə böyük Türk millətinin bir gün gəlib də bir Türk federasyonu qurmaqla bütün görmək istəriz" (24, s.106), - deyirdi.

Beləliklə, Azərbaycanın, Azərbaycan türklərinin ana ülkülərindən birinin də Turançılıq, Turan vətəninin olmasına qətiyyən şübhə etmirik. Bu anlamda milli ideoloqumuz Məhəmməd Əmin Rəsulzadənin liderliyi ilə 1918-ci ilin mayın 28-də qurulan Azərbaycan Cümhuriyyətinin varlığının Türklük və Turançılıq məfkurəsiylə birbaşa bağlılığı vardır. Şübhəsiz, yeni qurulan Türk Cümhuriyyətinə məhz "Azərbaycan" adı verilərkən də əsas hədəflərdən biri olaraq Türklük və Turançılıq məfkurəsindən çıxış edilməsidir. Çünki ən əski dönəmlərdən "Azərbaycan" istər tarixi-coğrafi anlamda, istərsə də etnik, adət-ənənə, əxlaqi dəyərlər baxımdan Turan vətəninin ya da Türk (Turanlı) kimliyinin tərkib hissəsi olmuş, onun başlıca qalalarından biri olmuşdur. Hesab edirik ki, Rəsulzadə ilə onun fikirdaşları, silahdaşları da Türkçülük və Turançılıq məfkurəsini yetərincə dərk etdikləri üçün yeni qurulan Türk Cümhuriyyətinə "Azərbaycan" ismini vermək qərarına gəlmişlər.

Deməli, yeni Türk dövlətinə "Azərbaycan Cümhuriyyəti" adını verən başda M.Ə.Rəzulzadə olmaqla, milli ideoloqların düşüncəsində nə keçmişə yönəlik türksüz "Azərbaycan tarixi" yaratmaq, nə də gələcəyə yönəlik türksüz "Azərbaycan dili" anlayışnı ortaya atmaq fikri əsla olmamışdır. Rəsulzadə açıq şəkildə yazırdı ki, Azərbaycan Cümhuriyyətini, bir sözlə "Azərbaycan" anlayışını Türklükdən, Türk-Turan mədəniyyətindən, Türk dövlətçiliyindən, Türk-Turan tarixindən ayrıca hesab etmək mümkün deyildir. M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər" (25, s.40). Hər halda açıq şəkildə hiss olunur ki, Cümhuriyyət ideoloqları milli mənsubiyyət, milli dili, milli mədəniyyəti, dövlətçiliyi, dövlət ənənələrini həm «Azərbaycan»-azərbaycançılıq, həm də türkçülük-turançılıq ideyaları əsasında təbliğ ediblər. Fikrimizcə, bundan çıxış edərək M.Ə.Rəsulzadə yazır ki, Rusiyada yaşayan Qafqaz müsəlmanlarını "türk", ölkələrini "Azərbaycan" kimi qəbul etdirmək qazanılmış bir dava idi (21, s.95).

**Nəticə**

"Azərbaycan", "azərbaycanlılar" anlayışları yalnız birinci Dünya müharibəsi dövründə, xüsusilə 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yaranması ilə "tarixi-coğrafi" yaxud da coğrafi məkan, vilayət, əyalət anlamlarından kənara çıxaraq siyasi-ideoloji mənada milli ideologiya səviyyəsinə qədər yüksəlmişdir. "Azərbaycan" anlayışının milli ideyalardan birinə çevrilməsi nəticəsində də "Azərbaycan milləti", "Azərbaycan Türk milləti", "azərbaycanlı", "Azərbaycan xalqı", "Azərbaycan Türk dili", "Azərbaycan Türk dövləti" kimi istilahlar ölkə daxilində və onun xaricində status qazanmağa başlamışdır. Ancaq burada "Azərbaycan milləti", "azərbaycanlı", "Azərbaycan dili" kimi anlayışlar Türk milləti, Türk, Turan vətəni, Türk dili eyniliyindən başqa heç bir anlam kəsb etməmişdir. Çünki Rəsuzladənin təbrincə desək, "Azərbaycan" coğrafiyadan çox milli kimliyi ifadə edir ki, bu ulusun da bir adı var: Azərbaycan türkü!!! Quzeyli-güneyli Azərbaycanda bir millət, bir mədəniyyət, bir dil, bir tarix var: Türk nüvəli Azərbaycan milləti!

Ona görə də, "Azərbaycan"nın etnik kimliyi ifadə etməməsiylə bağlı bir çox iradlar olsa da, bütövlükdə onun Türklüyə, Turanlılığa, Oğuzluğa zidd olmadığı göz önündədir. Bu amildən çıxış edərək "Azərbaycan" kəliməsini dövlət adı kimi təsbitlənməsinə çalışanlar, eyni zamanda türk olmayan etnik azlıqların da "Azərbaycan"a müsbət yanaşacaqlarnı yaxşı bilirdilər və haqlı idilər. Beləliklə, "Azərbaycan" dövlət adına çevrilməklə bir tərəfdən oğuzluğunu-türklüyünü yenidən ortaya qoyur, digər tərəfdən tarixdəki bütövləşdirici, birləşdirici funksiyasını da davam etdirirdi. Hər halda "Azərbaycan" adlı Oğuz-Türk dövləti dünyanın yeni tələblərinə əsasən yaradılmışdır ki, burada qurucu, əsas nüvə Azərbaycan türkləri olsa da, eyni zamanda milli-demokratik prinsiplərə uyğun olaraq etnik azlıqların maraqları da nəzərə alınırdı.

Yeni yaranmış dövlətin ideoloqlarının bir tərəfdən "Azərbaycan Cümhuriyyəti" türk tarixi, türk ədəbiyyatı, türk mədəniyyəti anlamında onun bir parçası olması kimi varislik prinsiplərini gözləməsi, digər tərəfdən vətən və coğrafiya anlamındakı "Azərbaycan"dan uzaqlaşaraq onu millət və dövlət olaraq ifadə etmələri təsadüfi ola bilməzdi. Hər halda 1918-ci ilə

qədər daha çox coğrafi və vətən anlamında qəbul edilən, ancaq Rəsulzadənin sayəsində milli mənsubiyyətinə dönən "Azərbaycan" kəliməsinin "Türk-Oğuz" etnik kimliklə eyniləşdirilməsi, eyni zamanda dövlət kimi ifadəsi keçmişlə bağlılığı ortaya qoymuşdur. Bütün hallarda "Azərbaycan" kəliməsinin dövlət adı kimi seçilməsi, onun Türk milli kimliyi üzərində ifadəsi təsadüfdən çox, məntiqli bir "yol xəritəsi"dir. Çünki "Azərbaycan" sözü yunan, fars, suriyani mənbələrə görə zahirən coğrafi və ölkə-vətən anlamında Türklüyə yad kimi görünsə belə (halbuki "Azərbaycan" kəliməsi yerli mənbələrdə birmənalı olaraq türklük, oğuzluq, xəzərliklə ifadə olunur), onun xalqının mahiyyət etibarilə Türklüklə bağlı olması Azərbaycan Cümhuriyyəti meydana çıxana qədər əsasən heç kəsdə şübhə doğurmamışdır. Ancaq Azərbaycan Cümhuriyyətinin meydana çıxmasından sonra yeni dövlətin yaşayanlarının türksoylu, irandilli, qafqazdilli ya da digər xalqlardan biriylə bağlı olması barədə fikirlər ortaya çıxmışdır. Bir qədər də dəqiqləşdirsək deyə bilərik ki, əvvəllər tək-tük hallarda Azərbaycan türk xalqının kimliyilə bağlı səsləndirilən fikirlər Cümhuriyyətin quruluşundan sonra özünün kuluminasiya nöqtəsinə çatmış, bu günə qədər də həmin məsələ ətrafında müzakirələr davam etməkdədir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqraifk hesabatlar). I c. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998
2. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992
3. Balayev Aydın. Məhəmməd Əmin Rəsulzadə (1884-1955).Bakı,Çıraq,2012
4. Балаев А. Азербайджанское национальное-демократическое движение в 1917-1920 гг., Баку: Элм, 1990
5. Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb», 2005
6. Cabbarlı Cəfər. Əsərləri. Dörd clddə. I cild. Bakı, Şərq-Qərb, 2005
7. Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan. Bakı, «Sabah», 1996
8. Qarayev Yaşar. «Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər». Bakı, 2002
9. Ələkbərov Faiq (Qəzənfəroğlu). Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı, «Elm», 2007
10. Əmin Abid. «Müsavat» jurnalı, 1995, №: 8
11. Düzdağ Ertuğrul. Türkiyede islam ve irkçılık meselesi. İstanbul, Cihad,1976
12. Hüseynzadə Əli bəy. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı, Mütərcim, 1997
13. İhsan İ. Rusyada birinci müslüman Kongresi tutanakları. Ankara: 1990
14. Mehmetzade M.B. Resulzade Mehmet Emin. "Dergi", yıl: 1 Ocak-Mart, Minih, 1956
15. Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı, "Nicat", 1992
16. Mirzə Rasim. Türkçülüyün babası (Əlibəy Hüseynzadənin fikir dünyası). Bakı: Elm, 2000
17. Rəsulzadə M.Ə. Nəsibbəy Yusifbəyli."Odlu Yurt" dərgisi, 1929, № 3
18. Rəsulzadə M.Ə. Əsərləri (1903-1909). I c., II clddə, Bakı: Azərnəşr, 1992
19. Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012
20. Rəsulzadə M.Əmin. Panturanizm. Qafqaz sorunu. Bakı, "Təknur", 2012
21. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990
22. Rəsulzadə M.Ə. Əsərləri. III cild, - Bakı, "Elm", 2012
23. Rəsulzadə M.Ə. Əsərləri. IV cild, Bakı,"Qanun nəşriyyatı", 2013
24. Rəsulzadə M.Ə. Əsərləri. V cild, - Bakı, "Təhsil", 2014
25. Rəsulzadə M.Ə. Əsərləri (Mühacirət dövrü: Türkiyə, 1922-1929). I cild, Bakı, "OL" npkt, 2016

26. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağda. Azərbaycan ədəbiyyatı. Çağdaş. Azərbaycan tarixi. Bakı, Elm,1991
27. Şaiq Abdulla. Seçilmiş əsərləri. Üç cilddə. II cild. Bakı, 2005

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN DÜNYAGÖRÜŞÜNDƏ AZƏRBAYCANÇILIQ İDEYASININ FƏLSƏFİ MAHİYYƏTİ

***Faiq Ələkbərli***

**Xülasə**

Məqalədə Azərbaycan Cümhuriyətinin qurucusu, tanınmış mütəfəkkir, milli ideoloq Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşlərində Azərbaycan türkçülüyü, həmçinin azərbaycançılıq ideyasının yaranmasından və inkişafından bəhs olunur. Burada göstərilir ki, M.Ə.Rəsulzadənin baxışlarında Azərbaycan türkçülüyü, eləcə də azərbaycançılıq ideyasının ortaya çıxmasına səbəb 1-ci Dünya müharibəsi dövründə "ümmət"çiliyin arxa plana keçməsi, bunun əvvəzində milliyyətçlik cərəyanının geniş şəkildə yayılması və çar Rusiyasının dağılması gerçəkliyinin yaxınlaşması olmuşdur. Belə bir vəziyyətdə, M.Ə.Rəsulzadə o dövrə qədər özünü daha çox Qafqaz türkü kimi, Qafqaz müsəlmanı kimi tanıyan türklərin Azərbaycan türkü, azərbaycanlılıq anlayışlarına sahiblənməsini vacib hesab etmişdir. Bununla da, 1918-ci ilin 28 mayında qurulan Azərbaycan Cümhuriyyətinin təməl əsaslarını müəyyənləşdirən M.Ə.Rəsulzadə "Azərbaycan" anlayışını "tarixi-coğrafi" qavramdan, siyasi-ideoloji bir şəkilə salmağı bacarmış və yeni milli dövlətçiliyin yaranmasına zəmin hazırlamışdır. Məqalədə o da qeyd olunur ki, M.Ə.Rəsulzadənin yeni yaranan Türk Cümhuriyətinə "Azərbaycan" adını verməsi də təsadüfi olmamış, gələcəkdə Bütöv Azərbaycan ideyasının yaranması üçün ciddi zəmin təşkil etmişdir.

## IN THE WORLD VİEW OF MOHAMMAD AMİN RASULZADEH THE PHİLOSOPHİCAL ESSENCE OF THE İDEA OF AZERBAİJANİISM

***Faig Alakbarli***

**Summary**

The article talks about the creation and development of the idea of Azerbaijani Turkism or Azerbaijaniism in the socio-philosophical meetings of the founder of the Republic of Azerbaijan, a well-known thinker, national ideologist Muhammad Amin Rasulzadeh. It is shown here that the reason for the emergence of the idea of Azerbaijani Turkism or Azerbaijaniism in Rasulzadeh's views was the passing of "ummatism" to the background during the First World War, instead, the widespread spread of the trend of nationalism and the approaching reality of the collapse of Tsarist Russia. in such a situation, Rasulzade considered it important that Turks, who until that time identified themselves more as Caucasian Turks and Caucasian Muslims, should acquire the concepts of Azerbaijani Turks and Azerbaijaniness. Thus, Rasulzadeh, who defined the fundamental principles of the Republic of Azerbaijan, founded on May 28, 1918, managed to change the concept of "Azerbaijan" from a "historical-geographical" concept to a political-ideological picture and prepared the ground for the creation of a new national statehood. It is also mentioned in the article that Rasulzadeh gave the name "Azerbaijan" to the newly formed Turkish Republic, and it formed a serious foundation for the creation of the idea of Whole Azerbaijan in the future.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN SİYASİ LEKSİKASI

***Abbasova Qızılgül, f.e.d.,***
***Bakı Dövlət Universitetinin***
***Sosial iş kafedrasının professoru***
*q.abbasova@mail.ru*
*ORCID: 0000-0003-4938-5637*

***Açar sözlər*:** siyasi leksika, ritorik xüsusiyyətlər, M.Ə.Rəsulzadə, siyasi proseslər və dil.
***Keywords***: political speech, rhetorical features, M.A. Rasulzadeh, political processes and language.

**Problemə giriş**

Siyasi nitq üslubu özündə bütövlükdə dövrün xarakterini əks etdirir. Bütövlükdə burada dilin özünün inkişafını, xalqın siyasi mədəniyyətini, natiqin şəxsi keyfiyyətlərini, siyasi kredosunu vurğulamaq lazım olur. XIX əsrin ikinci yarısı, XX əsrin 20-30-cu illəri regionun kapitalist münasibətlərinə daxil olması və bununla bağlı təsəvvürlərin həyatda, insanların şüurunda möhkəmlənməsi ilə bağlı siyasi transformasiyalar dövrü idi. Müxtəlif sosial qruplarda siyasi proseslərdə iştirak dərəcəsi iştirakçının savadı, həyat səviyyəsi və dövlət siyasətinə münasibəti ilə bağlı sosial statusundan asılı idi. Xalq arasında sosial təbəqələşmə, savadlılığın aşağı səviyyəsi və varlı mülkədarlardan feodal asılılığında olan kənd əhalisinin üstünlük təşkil etməsi ona gətirib çıxardı ki, ölkədə və ondan kənarda gedən proseslərin mahiyyətinin dərk edilməsi təkcə mollaxanda və ya mədrəsədə deyil, həm də ölkədən kənarda, yəni xaricdə təhsil alanların işi olmuşdur.

Məlumdur ki, Rusiya avtokratiyası dövründə milli ziyalıların nümayəndələri Dövlət Dumasına qədər müxtəlif səviyyələrdə özünüidarəetmədə iştirak edirdilər [3]. Qeyd edək ki, hətta bu məhdud bir səviyyədə siyasi proseslərdə iştirak etməklə ictimai rəyə təsir etmək, insanların şüurunda problemə münasibətini formalaşdırmaq mümkün olmuşdur. Həmin dövrdə siyasi leksikondan mətbuatda, Bakı Dumasında çıxışlarda fəal istifadə olunur, daha sonra mədəniyyət ocaqları, kitabxanalar yaradılır və s.

Həmin dövrdə siyasi lüğətin istifadə xarakteri və məzmunu həm cari müzakirə mövzusunu, həm də natiqin liderlik keyfiyyətlərini və bacarıqlarını özündə əks etdirirdi.

Azərbaycanın siyasi xadimləri sırasında görkəmli ictimai xadim, bir çox siyasi proseslərin və hərəkatların iştirakçısı və təşkilatçısı Məhəmməd Əmin Rəsulzadə öz siyasi ritorikası, oratorluq qabiliyyəti ilə seçilirdi. Onun Azərbaycanın siyasi inkişafında, suverenliyinin formalaşmasında xidmətlərini xüsusi qeyd etmək lazımdır. Rəsulzadənin siyasi lüğətinin xüsusiyyətlərini müəyyən etmək üçün onun ictimai fəaliyyətini qısaca xarakterizə edirik. O, gənc yaşlarından Azərbaycanın gənc inqilabçıları dərnəyini yaradaraq, 1902-ci ildən siyasi fəaliyyətdə fəal iştirak edib. Bu gizli cəmiyyətin iştirakçıları insanların milli özünüdərkinin inkişafı üçün hər şeyi etməyə çalışırdılar. Bu təşkilat müsəlman demokratik cəmiyyəti Müsavat, sonra isə "Hummət" sosial-demokrat təşkilatı kimi gələcəkdə yaradılması üçün əsas rolunu oynadı. Bundan əvvəl onun geniş siyasi fəaliyyəti sayəsində İran Demokrat Partiyasının əsasları qoyulmuşdur. Siyasi təqiblərə görə Rəsulzadə Türkiyəyə yollanır, burada müxtəlif tanınmış ictimai xadimlərlə ictimai işlərdə fəal iştirak edir, jurnallarda günün aktual mövzuları ilə bağlı məqalələr yazır.

Onun səyləri, təlimatları və təşkilatçılıq fəaliyyəti sayəsində Bakıda Müsavat müsəlman demokratik partiyası, daha sonra "Nicat" cəmiyyəti yaradıldı. 1913-cü ildən Rusiya çarının əfvindən sonra Bakıya qayıdır. 1917-ci ildən Müsavat partiyasının sədri, Bakı Müsəlman İctimai Təşkilatları Şurasının üzvü olmuşdur. Onun tərəfindən 1917-ci il çevrilişindən sonra sosial iğtişaşlara, o cümlədən 1918-ci il mart qırğını və s. qarşı fəal mübarizə aparıldı. O,

Ümumrusiya Müəssislər Məclisinin üzvü seçilmiş, Zaqafqaziya Seyminin işində iştirak etmişdir. 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsini qəbul edən Azərbaycan Milli Şurasına rəhbərlik etmişdir. 1920-ci ildən sürgündə yaşayıb. O, ömrünün son illərində Türkiyədə mədəni-maarif işlərində iştirak edib.

**Məhəmməd Əmin Rəsulzadənin fəaliyyəti dövrünün siyasi lüğəti haqqında**

Burada siyasi leksika lüğətinə ilk növbədə Qərbdən gələn və idarəetmə formaları, yəni siyasi rejim, idarəetmənin demokratik prinsipləri, ona xas olan cəmiyyətin siyasi təşkili, Azərbaycanda istehsal üsulu ilə bağlı olan sözlər, ifadələr, söz birləşmələri daxildir. Bundan əlavə, buraya Şərq dövlətçiliyinə xas söz və ifadələr daxil edilməlidir ki, hansılar sonradan, bədii ədəbiyyatdan siyasi məna daşıyan söz və ifadələrə çevrilmişdir. Və nəhayət, burada Məhəmməd Əmin Rəsulzadənin həm ana dili, həm də xarici dilləri bilmə səviyyəsi nəzərə alınmalıdır. Bu halda linqvistik interferensiya (bir-birinə keçmə, müdaxilə) şübhəsiz ki, özünü göstərməli idi. Siyasi leksikadan istifadənin sosiolinqvistik kontekstini də unutmaq olmaz, yəni söhbətin qəzet məqaləsindən, təhsil müəssisəsində mühazirədən, siyasətçilərlə danışıqlardan, ictimaiyyət qarşısında çıxışdan və s.-dən getdiyini bilmək vacibdir.

Rəsulzadənin gənc yaşlarından özünü aşkarlayan natiqlik qabiliyyətini qeyd edək. Bundan əlavə, o, çoxlu mütaliə edir, müxtəlif dillərdə danışır, bir çox ölkələrin siyasi elitasının nümayəndələri ilə geniş kommunikasiya mühitində olaraq, danışıqlar aparır, müxtəlif rəhbər orqanların iclaslarında iştirak edirdi və s. Beləliklə, biz Rəsulzadənin ayrı-ayrı əsərlərini nümunə kimi götürərək onun yaradıcılığında siyasi leksikanı təhlil edəcəyik. Eyni zamanda, siyasi lüğətin bu və ya digər təbəqəsinin təmsil olunmasından asılı olaraq biz, lazımi ümumiləşdirmələr aparıb nəticələr çıxaracağıq.

**Elmi ədəbiyyatda siyasi leksika problemi**

Siyasi münasibətlər sosial inkişafın vacib hissəsi olaraq dövrdən-dövrə daha mürəkkəb olur və həyatın digər sahələrinə onların təsir imkanları da genişlənir. Siyasi şüur formalaşır, siyasi sosilallaşma nəticəsində siyasi lüğət tərkibi əmələ gəlir. Bundan əlavə, siyasi nitq üslubuna siyasi elita namayəndələri, liderlər mühüm təsir göstərir. Liderin, dövlət başçısının və digər aparıcı siyasi xadimlərin natiqlik qabiliyyəti əsaslı şəkildə siyasi nitqə, onun lüğətinə təsir edir. İnandırma, təbliğat işində, mürəkkəb siyasi məsələlərin həlli zamanı danışmaq və inandırmaq bacarığı xüsusilə vacibdir. Azərbaycan siyasi mədəniyyətinin formalaşması prosesinə siyasi liderlərin ritorikası, bəlağətli nitqlər olduqca faydalı və böyük təsir gücünə malik olmuşlar.

Bütövlükdə siyasi leksika məsələləri həm linqvistik proseslər və sosiolinqvistika baxımından, həm də müasir siyasi idarəetmənin siyasi texnologiyalarını təkmilləşdirmək məqsədilə mütəxəssislər tərəfindən fəal şəkildə öyrənilir. Bundan əlavə, şifahi və ya yazılı siyasi lüğətlə bağlı araşdırma mövzuları olub, indi də var [2]. Bu problemə maraq siyasi kommunikasiya imkanlarının genişləndirilməsi ilə bağlıdır. Tədqiqatçıların qeyd etdiyi kimi, Azərbaycanda M.Ş.Qasımov (1987), S. N. Xəlilova (1989) Azərbaycan dilinin ictimai-siyasi lüğətinin söz əmələ gəlmə üsullarını, R.Y. Babayev (2006) genetik aspektdə öyrənməyə çalışıblar. E.Axundova Azərbaycan dilindən rus dilinə və əksinə publisistik tərcümənin xüsusiyyətlərini təhlil edərək, ictimai-siyasi lüğəti qəzet dilinin tərkib hissəsi hesab etmişdir (2011) [2].

Bütövlükdə ictimai-siyasi leksika müasir siyasi proseslərin idarə edilməsinin vacib ünsürü olmaqla siyasi texnologiyanın aparıcı elementinə çevrilmişdir. Siyasi leksikanın həm nəzəriyyə, həm praktikada əhəmiyyətini M.Ə. Rəsulzadə öz fəaliyyətində dəfələrlə təsdiq etməyə bacarmışdır.

**XX əsrin 20-ci illərində Rəsulzadənin siyasi lüğətinin xüsusiyyətləri**

Rəsulzadənin ictimai-siyasi lüğətində üç təbəqəni fərqləndirmək mümkündür: ortaq türk sözləri, azərbaycan dilinə aid leksika və qeyri dillərdən alınma sözlər. Məhəmməd Əmin Rəsulzadə bu illər ərzində publisistik əsərlərində ictimaiyyətə təsir etmək üçün ən geniş imkanlardan istifadə edib. Bu, insanların maarifləndirilməsi, onların özünüdərkinin inkişafı üçün,

ictimai rəyin formalaşdırılması məqsədi ilə edilib. Müəllif tərəfindən müraciət etdiyi mövzu və auditoriyadan asılı olaraq, müxtəlif dil üslublarından və onların lüğət imkanlarından istifadə edilmişdir. XX əsrin iyirminci illərində Rəsulzadə xalqın maariflənməsi, cəhalət və savadsızlığın aradan qaldırılması üçün fəal təbliğat aparırdı.

İlk növbədə ərəb və türk dillərindən gələn terminləri, söz və ifadələrin mətnlərindəki bolluğuna fikir verək. Daha sonra müxtəlif, ilk növbədə dini mənbələrdən sitat gətirməklə (bunlar hədislər, Qurani-Kərimin ayələri və s. olmuşdur) fikirlərinin əsaslandırılmasına diqqət yetirmişdir. Əlavə olaraq o, görkəmli ictimai xadimlərin fikirlərinə də müraciət edirdi. Cümlələrin və bütövlükdə mətnin quruluşu həmişə bütöv və məntiqli olmuşdur. Aydındır ki, Rəsulzadənin ictimai-siyasi fəaliyyəti XX əsrin əvvəllərindən etibarən başlamış və təxminən bu əsrin sonuncu qərinəsinə qədər davam etmişdir. Bir ictimai-siyasi quruluş, yəni çar Rusiya imperiyasının süquta doğru irəliləməsi Rəsulzadənin siyasi fəaliyyət istiqamətlərini, işlədiyi sosial təbəqələr və qrupların tərkibini, müraciət etdiyi mözvuları və siyasi ritorikasının məzmununu, lüğətini təyin etdi.

Tədqiqatçıların qeyd etdiyi kimi, "bu dövrdə islamçılıq-şərqçilik, qərbçilik-avropaçılıq və türkçülük-milliyyətçilik cərəyanları Quzey Azərbaycanda, onun sənaye və elm mərkəzi Bakıda yayılsa da, sosial-demokrat təlimi imperiya ilə mübarizədə nisbətən daha cəlbedici təsir bağışlayırdı. Hər halda islamçılıq-islam xalqlarının birliyi, türkçülük-Turan ideyası imperiyaya qarşı mübarizədə əvvəllər olduğu qədər, hələlik geniş xalq kütlələrinə lazimi qədər təsir edə bilmirdi" [3].

Həm də "Azərbaycan dilində ictimai-siyasi leksikanın dövrləşməsi istər bu gün, istərsə də illər boyu Azərbaycan dilində baş verən dəyişikliklər, ilk növbədə, ictimai-siyasi leksikada öz əksini tapır. Bu isə ictimai-siyasi leksikanın dillərin leksik qatında aparıcı yerlərdən birini tutduğunu bir daha təsdiqləyir" [4, s.74]. M.Ə. Rəsulzadənin istifadə etdiyi siyasi leksikanı bir neçə qrupa ayırmaq olar:

-xalqın etnik mənsubiyyəti, kimliyi, inkişaf tarixi ilə bağlı leksika;

-ərazi və regional-coğrafi xüsusiyyətlərini xarakterizə edən terminlər;

-regiondakı siyasi vəziyyəti əks etdirən terminlər;

- ölkədə siyasi idarəçilik xüsusiyyətlərini özündə ehtiva edən lüğət;

-söhbətin predmetini bilavasitə səciyyələndirən və tədqiq olunan dövrün ictimai-siyasi reallıqları ilə bağlı olan leksika.

Lüğətdə ölkəni idarə edən və ya onun siyasi idarəetmə elitasının bir hissəsi olan tarixi şəxsiyyətlərin adları da öz əksini tapmışdır. Struktur baxımından hər bir mətn, ölçüdən asılı olmayaraq, öz başlanğıcında birbaşa problemi ortalığa qoyurdu. Lakonik, eyni zamanda dərin məzmunlu, məqsədi ortalığa qoymaqla nöbvəti mərhələyə keçdin təmin edilməsi Rəsulzadənin siyasi mitqinin üstün cəhətlərindən biridir. Məsələn:

*-Əhalinin bekar vaxtlarında güzəranı bihudə keçməyib ləhvü-ləəbə' məşğul olmasın deyə, Avropa qaidəsi olaraq şəhərlərdə cəmiyyətxanələr təşkil olunmuşdur.*

*-Hürriyyət, azadlıq və sərbəstliyin nə əndazədə ziqiymət olmağına hər bir yerdə dəlil, bürhan istəsələr də, rusiyalı bir nəfərin cümlə Rusiyanı tutan iğtişaş və ixtilali və bu yolda tökülən qanları, dağılan xanimanları görüb də dəlil istəməsi əqlidən kənar, fəhmdən xaric bir şey olduğunu hər kəs uca bir səslə şəhadət verib, böylə bir şəxsdən nifrət edəcəkdir.*

*-Görünür ki, Asiya özünün köhnə aləmini yada salıb təzədən həyata, mədəniyyətə, tərəqqi və rövnəqə üz döndərmişdir.*

Müraciət nümunələrini nəzərdən keçirərkən, onların müxtəlifliyini və mövzu ilə bağlılığını görmək olur:

*Ey vicdansız Qoloşşapov!*

*Ey camaət, ey generalların qurbani-istibdadlan olanlar!*

*Ey vətənini istəyən qafqazlı sülhsevən ünsürlər'*

*Ey iki millətin həqiqi sülhpərəsti olan füqərayi-kasibə, harada qalmısan ki. səsin çıxmıyor!*

*-Ey çinli qardaşlanmız! Məbada, məbada bu şəbədəbazları aranıza qoysanız ki, sizləri də bizlərin gününə salarlar.*

*- Ey mədəniyyətli, həmmiyyətli əhli-maarif yoldaşlarım! Sizdən xahiş budur ki, bu tövr mədəniyyət asari olan təşəbbüsatda qayım durunuz, millətimizə rəhbər sizsiniz - rəhbərlik vəzifəsini ifayə hazırlaşınız!*

Dialoq imkanlarından da ustalıqla istifadə edən Rəsulzadə müsəlmanların psixologiyasını, dəyərlər sistemini məharətlə açıqlayır:

*Sakit olub, işimə məşğul oldum. Bir-iki sətir yazmışdım ki, bir də gördüm tapançalar gurhagur işlədi. Dəhşətli yerimdən qalxıb, qapıya yüyürdüm, gördüm ki, müsəlmanlar dəstənin dalınca gedirlər, amma qeyri müsəlmanlar atışma gələn tərəfə qaçırlar. Bir nəfər müsəlmanı yüyürdüyü yerində saxladım.*

*- Qardaş, o yandan gəlirsən, indi orda atışma vardı, nə olmuşdu?*

*- Heç, iki dəstə müsəlmanlar atışdılar, bekar işdir!*

*- Bəs bu tərəfə hara gedirsən?*

*- Bah! Görmüyorsan məhərrəmlik dəstəsi gəlir!*

*- Orada nə təəccüblü iş var ki, hər il gördüyümüz şeydir da!*

*- Bu yanda nə var, hər gün gördüyün şey deyilmi!* [1, c.173].

M.Ə.Rəsulzadə Azərbaycan dilinin bir çox qrammatik imkanlarından geniş istifadə edirdi.

**Ritorik suallar və nida nümunələri:**

Xudavənda, bu qəzetin davamını sizdən rica edirəm. Amin! [1, c.21].

İlahi, havaxtacan bizlər gecə-gündüz fikrə qərq və millətimizin dərdini və dalda qalmağını özümüzə vəzifə biləcəyik? Məgər bizlərə tərəqqi etməyə maneə vardır? Bəli, vardır! Nə şeydi bizə mane olub? [1, c.21].

Bəsdir, bəsdir çəkdiyimiz müsibətlər! Bəsdir bu qədər nahaq tökülən qanlar! Bəs biz nə vaxt əqillənib, «şeytan»a alət olmayacağız?!. [1, s.29].

**Atalar sözləri və frazeoloji söz birləşmələri**:

Olan olub, keçən də keçib;

Kişilərin hümməti birləşsə, dağları qoparar.

**Cümlənin yekcins üzvləri, mürəkkəb cümlənin tərkib hissəsi kimi yekcins cümlələr**:

Mən nə deyim ki, **abad şəhərlərimiz xaraba qalmış, kəndlərimiz viranə olmuş, gözəl Qafqaz iki düşmən ordusuna dönmüş**... Bəsirət sahibi özü görər... [1, s. 46].

Bu gün külli Rusiyanı əhatə edən hədsiz-həsrsiz **bəlalar**, **təcavüzlər**, **zülm və təəddilər** cəmi aləmi müdhiş bir halə salmaqdadır. Rusiyanın hər bir küncünə, hər bir nöqtəsinə baxılırsa, **insafsızlıq**, **həlakət** və **fəlakət** görülməkdədir [1, s.26].

Heyhat **atəş**, **güllə**, **xəncər**, **top**, **tüfəng** - bularmıdır sülh aləti? [1, s.33].

Ekspressiyanı gücləndirmək üçün Rəsulzadə məharətlə eyni sözün mətndə təkrarından istifadə edirdi:

**Bəsdir**, **bəsdir** içdiyiniz insan qanları, **bəsdir** iki milləti bir-birilə çalışdırıb, sonra hər ikisini də badi-fənayə verdiyiniz! [1, s. 28].

Çox tez-tez sual verilirdi və müəllif dərhal özü buna cavab verirdi.

**Mürəkkəb sözlərdən** istifadə etməklə Rəsulzadə ifadənin daha güclü bədii-emosional təsirirə nail olmağa çalışırdı: Pəs məsum biçarə tifillər, heç bir cinayət göstərməyə qadir olmayan **zəif-zəifələr, əlsiz-ayaqsızlar, oğul-uşaqlar** nə eləsin, onlar nə günahın yiyəsidirlər.

Əhalinin dindarlığını nəzərə alan Rəsulzadə təkcə sadə insanların deyil, dindarların da cəhalətinin aradan qaldırılmasının qayğısına qalmağı zəruri hesab edirdi. O, məktəblərin və qiraətxanaların, dini təhsil ocaqlarının tikintisindən danışarkən müsəlmanların dini hisslərinə

səslənir və “bir nəfərə də olsa kömək etmək ömrün uzadar” deyə, insanları yoxsullara kömək etməyə çağırırdı.

Rəsulzadə yalnız insanları maariflənməyə çağırmır, o, həm də maarifçiliyin məqsədlərini xeyriyyəçilik, insanın mənəvi yetkinliyi, humanizmi ilə bağlı müxtəlif terminlərin şərhi ilə izah edir. O, insanları ayrı-ayrı maraq qruplarına bölünüb bir-birinə qarşı durmağa deyil, ümumi rifah və inkişaf naminə birlikdə getməyə çağırır.

Rəsulzadənin müzakirə mövzusu həm də ermənilərlə bölgənin müsəlman əhalisi arasında uzun sürən, çoxlu qan tökülməsi ilə nəticələnən qarşıdurmanın təhlili idi. O, canlı, obrazlı şəkildə müraciətlərdən, giriş sözlərdən, feli sifət və feli bağlamadan, durğu işarələrindən məharətlə istifadə edərək evlərin dağıdılmasından, dinc əhali arasında itkilərdən danışır, bəlağətli ifadələrdən istifadə edir, oxucuya təsir imkanlarını artırır.

İnsanda belə bir təsəvvür yaranır ki, bu, auditoriya qarşısında deyilən bir nitqdir, yəni burada şifahi nitqin bütün xüsusiyyətləri qorunub saxlanılır və mətnin bir parçasında parlaq, ifadəli və anlaşıqlı məzmun cəmlənməklə, problem baxımından məntiqli şəkildə tamamlanır və müzakirə olunur. Nəticədə tam təsəvvür formalaşır və yaranmış vəziyyətdən çıxış yolları göstərilir.

Əsrin birinci onilliklərində cərəyan edən hadisələri dərindən dərk edən Rəsulzadə mətbuatda ilk növbədə gənclərlə bağlı öz narahatlığını bildirirdi. Təəssüflə qeyd edirdi ki, “millətimiz bir cəhl içində yaşayıb, ömrünü qəflət və xəbərsizlikdə keçirtməkdədir”. “Cavanlarımıza” adlanan əsərində natiqlik, siyasi ideya yetkinliyi, təkrarsız nitq bəlağətini nümayiş etdirərək o, dövr, sivilizasiya, millət səviyələrində gənclər qarşısında duran vəzifələri təyin etməyə çalışır.

Nümunə üçün gətirilən bu parçada ilk növbədə təyini söz birləşmələri nəzərdən keçirək. Ümumi mətn hissəsi belədir:

“*Ətrafını tutan heç bir hərəkətləri sənələr ilə istibdadın və hökuməti-mütləqənin çəkdiyi zəncirlərdən keyimiş bədəni hiss etməyib havayı-havayı sözlər ilə cəfəngiyat və mövhumata hekayə və vəzlərilə dolmuş qulaqları küll Rusiyanı çuğlayan hürriyyət və inqilab sədalarını eşitmiyor. Alimnüma mollaların göz heyrətləndirən şəbədələri və sərmayədarların hər bir şeyi əsildə olmadığı bir rəngdə göstərmələrindən naşi pərdeyi-zəlam və qəflət ilə örtülən gözləri hürriyyət, insaniyyət və həqqaniyyət yolunda tökülən qanları onu (özünü) əhatə edən rəzalət və zəlaləti görmiyor. Və daha doğrusu, əvarizi-siyasiyyə ilə məyub olan gözləri əhvəl adamlar kimi hər bir şeyi başqa bir rəngdə, başqa bir ədəddə görür.*

*Elmə həvəs etmiyor, mərifət kəsb eləmiyor, kəsb-nızi yolunda lazım olan səy və guşeş etmiyor, Allah özü yetirər diyor*” [1, s.90].

Rəsulzadənin siyasi leksikanın xüsusiyyətlərindən biri də söz birləşmələrdən məharətlə istifadə etməsi idi. Bununla o, məna dərinliyinə, faktların müqayisədə daha qabarır ifadəsinə, oxucuya təsirliliyinin artmasına nail olurdu, məsələn:

istibdadın və hökuməti-mütləqənin çəkdiyi zəncirlərdən;
zəncirlərdən keyimiş bədəni;
havayı-havayı sözlər;
hekayə və vəzlərilə dolmuş qulaqları;
Rusiyanı çuğlayan hürriyyət və inqilab sədalarını;
Alimnüma mollaların;
göz heyrətləndirən şəbədələri;
əsildə olmadığı bir rəngdə;
qəflət ilə örtülən gözləri;
insaniyyət və həqqaniyyət yolunda tökülən qanları;
əvarizi-siyasiyyə ilə məyub olan gözləri əhvəl adamlar;
başqa bir rəngdə;
başqa bir ədəddə.

Gördüyümüz kimi, müəllif böyük məharətlə söz birləşmələri istifadə edərək mürəkkəb tərkibli, içində həm tabeli, həm də tabesiz strukturlu komponentləri olan bu mətndə kifayət qədər zəngin emosional təsirə nail olmuş, inandırma məharətini nümayiş etdimişdir. Gətirilən söz birləşmələrinin bir tərəfi isim olmaqla, digər tərəfi isə təyini bildirən müxəlif nitq hissələrindən ibarət olmuşdur.

M.Ə. Rəsulzadə siyasi problemlərin öyrənilməsi və həll edilməsini yalnız Çar Rusiya imperiyasının problemləri və ziddiyyətlərinin təhlili ilə məhdudlaşdırmırdı. O İran, Türkiyə, bir sıra Avropa ölkələrində cərəyan edən siyasi proseslərinə də öz münasibətini bildirirdi. Qeyd edək ki, ildən ilə onun siyasi leksikası yeni məzmunla, qarşıya qoyduğu vəzifələrə uyğun olaraq leksik və qrammatik, üslubi dəyişikliklərini özündə əks etdirirdi. Müraciət etdiyi kütlə, sosial qruplar öz xarakterinə, siyasi fəallığına görə əvvəlki illlərdə olduğu kimi deyildi. Bunu gözəl başa düşən mütəfəkkir nitqin digər formalarından – qısa məqalələr, qeydlər, teleqraf məktubları, Təbrizdən məktublar silsiləsi, yol təəssüratları və s. kimi forma və imkanlardan geniş istifadə edirdi.

Qısa bir yazıda Rəsulzadə İranda xalqın vəziyyətini dəqiq təsvir edə bilirdi:

"*Mərənd...*

*Nə gözəl, nə şairanə bir bucaq!.. Qovaqlar uzanaraq, asimanə baş qalxızmış, meyvədar ağaclar böyük bir vüqar ilə fikrə dalmışlar. Hər yanda, hər tərəfdə sulardır, axıyor. Nə gözəl sular, nə şirin bulaqlar təbiət burada tamam etmişdir. Bir neçə sənət çatmıyor ki. bura da Qafqazın Kislovodskisi kimi məşhur olsun. Artıq lüzum yoxdur. Bir müxtəsər təmir ilə bura olduqca şöhrət tapa bilər. Zira, İranda cüzi bir şey ilə gələn şöhrət qazanmaq asan şeylərdəndir.*

*İran məşhurlarının bir çoxu baxarsan ki, heç şöhrətə müvafiq fəzli və ləyaqəti yoxdur. Bu bərbad ölkə, bu biçarə vilayət o dərəcə möhtaci-mədəniyyətdir ki. qeyri məmləkətlərdə ən alçaq və adi hesab olunan bir fəzl burada zəka və düha qələminə keçiyor. Şose yolu nə şeydir! Rusiyada, Avropada buna kim əhəmiyyət veriyor? Amma baxınız, yolsuz İranda haman şöhrət və nüfuz qəsdi ilə hazırlanmış bu yollar nə rollar oynayır*!.. [1, s.357]. Cümlələrdə təkrarlar, müqayisələr, müraciətlər, ritorik suallar və müraciətlər oxucuya olduqca güclü təsir bağışlayır, fikir, ideya anlaşıqlı, dolğun çatdırılır.

Və yaxud dilənçilər barədə:

"*Ah bu dilənçilər! İran bir parça dilənçidir. Zavallı uşaqlar nə haldadırlar! Nə fəlakətdədirlər. Bunların o haliəsəf iştimallarını qələmlə təsvir etmək mümkün deyil. Qız, uşaq, böyük, kiçik, qoca, qarı, şikəst, kor, küll, keçəl, cüzamlı bir silli hədsiz-hesabsızdır. Bir sailə bir şahı verdikcə artıq gün qaraldı: hər tərəfə getsək, hər nə tövr eləsək bir sürü fəlakət əhatə edib, ürəyini parçalayacaqdır, qanını qaraldacaqdır. Heç kəsin xəyalına belə gəlməz ki, bəlkə, daha pulun yoxdur: olmaz, dalına düşəcək, canlı bir kölgə olub, səni izləyəcəklər. 12 imamı sayacaqlar. Həzrət Abbasa and verəcəklər, Allahı əzimüşşənin özünü, peyğəmbəri zişənini vəsilə edəcəklər. «Xırda pul yoxdur, daha qalmayıb», «gedin», «qaçın», «rədd olun» kimi sözlərinə, etirazlarına baxan olmayacaq. Səni mənzilinə kimi vida edəcək. Lap darıxdıracaqlar. Əgər kəmhövsələ olub dürüşlük edərsən, o vaxt təkdir oldacaqsan!..* [1, s.367]. Qısa cümlələr, müraciətlər, həmcins sözlərdən istifadə etməklə müəllif xalqın mızlumluğunu, cəhalətdə, savadsızlıqda qalmasını göstərir, insanların nadanlığını bildirir.

Bir-iki cümlədə həm də bəlağətliliyini, məzmun dolğunluğunu ifadə etmək üçün Rəsulzadənin müraciət etdiyi sinonimiya və cümlənin hömögen üzvlərindən necə istifadə etdiyini göstərək:"*Bu gün külli Rusiyanı əhatə edən hədsiz-həsrsiz bəlalar, təcavüzlər, zülm və təəddilər cəmi aləmi müdhiş bir halə salmaqdadır*" [1, s.29]. Yaxud da ki Rəsulzadə "Dəvət" qəzətinin birinci nömrəsində (20 iyul 1906) yazır: "*doğrudur, qəzetələr arasında hər bir vaxt, hər bir zaman mübahisə, mücadilə, mübarizə olur, lakin bu bəhs, bu cidal xəncər və tapança davası olmayıb müsadimeyi-əfkar, mübarizeyi-təsəvvürdən ibarətdir və bu toqquşma və vuruşma qəbih olmayıb, bəlkə, ən gözəl və ən müstəhsən mübarizə təriqidir*" [1, s.31].

Bütövlükdə Məhəmməd Emin Rəsulzadənin həyatı və yaradıcılığı göstərir ki, o, zəngin nitq qabiliyyətinə malik olaraq siyasi kommunikasiyalar çərçivəsində fəaliyyət aparmış, mövcud şəraiti, auditoriyanı nəzərə alaraq yeni informasiya texnologiyaları yaradırdı. Bunu illər ərzində onun tərəfindən yazılmış mətnlər, deyilmiş nitqlər özünü təsdiq edir. M.Ə.Rəsulzadənin siyasi fəaliyyəti müxtəlif dövrləri əhatə etmişdir. Bu da özünü onun siyasi ritorikasında, müraciət etdiyi auditoriyasının tərkibində bildirirdi. Diqqət yetirsək, onun 20-30-cu illərin siyasi leksikası II Dünya müharibəsi dövrünə və daha sonrakı illərə təsadüf edən siyasi leksikasından xeyli dərəcədə fərqlənir.

Siyasi proseslər nəticəsində müxtəlif siyasi qruplar (partiyalar, cəmiyyətlər) formalaşır, siyasi mübarizəyə qatılır, əhalinin savadlılığı artır, Azərbaycan dilinin özündə bir çox yeni sözlər lüğət tərkibinə daxil edilir (rus, ingilis, türk və s.). Fikir versək, illər keçdikcə, Rəsulzadə öz siyasi çıxışlarında nitqini siyasi auditoriyanın tələblərinə uyğun formalaşdırır. Ömrünün son mərhələsini Türkiyə ilə bağlayan Rəsulzadənin nitq lüğətində türk dilinin təsiri özünü bildirir. Bununla belə tarixdə bu böyük siyasi xadimin adı zəngin siyasi dil, kütləni inandırmaq və arxasınca aparmaq bacarığı, sərrast qələmi ilə qalacaq. Bu baxımından gənc nəsillər M.Ə. Rəsulzadə ilə yanaşı, müasir siyasi liderlərdən, o cümlədən ulu öndər Heydər Əliyevdən oratorluq bacarıqları, nitq zənginliyi baxımından çox şey öyrənə bilərlər.

## ƏDƏBİYYAT


1. Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). İkinci nəşri. Bakı: «Təhsil». 2014. 480 s.
2. Ресутова Э. И. История изучения вопроса общественно-политической лексики в отечественном и тюркском языкознании // Вопросы крымскотатарской филологии, истории и культуры, 2017, № 4, с.43-48
3. Ələkbərli Faiq. Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşləri: milli həmrəylik və azərbaycançılıq. “Elm və təhsil”, Bakı: 2022. 414 s.
4. Mahmudova Qətibə. Azərbaycan dilində ictimai-siyasi leksikanın dovrləşməsi. // "Naxçıvan" Universiteti, 2019. Elmi əsərlər, №4 (11) s. 94-100


## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN SİYASİ LEKSİKASI

*Abbasova Qızılgül*


**Xülasə**

M.Ə.Rəsulzadənin ictimai-siyasi leksikasının tədqiqi böyük elmi maraq kəsb edir. Çünki siyasi kommunikasiyalar sistemində siyasi leksikanın öyrənilməsinə diqqət artır. İctimai-siyasi lüğətin mövzu və tədqiq sahələrinin rəngarəngliyinə baxmayaraq, bir sıra problemlər öz həllini tapmamış qalır. Leksik məkanın transformasiyası prosesi demək olar ki, davamlı xarakter daşıyır, bu da dil sisteminin ictimai həyatın digər sahələri (siyasi, sosial-iqtisadi, mənəvi) ilə əlaqəsi ilə bağlılığını bildirir. Siyasətdəki dəyişikliklər nə qədər intensiv olarsa, onun inkişafının hər bir mərhələsində lüğətdəki dəyişikliklər də bir o qədər əhatəli olur. Məhz siyasi lüğət sahəsində ictimai-siyasi proseslərlə bağlı mühüm dəyişikliklər müşahidə olunur. Bu M.Ə.Rəsulzadənin natiqlik fəaliyyətində, əsərlərin məzmununda da özünü ifadə edir.

# POLITICAL VOCABULARY OF MUHAMMAD AMIN RASULZADE

***Abbasova Qizilgul***

**Summary**

The study of M.A. Rasulzade's socio-political lexicon is of great scientific interest. Because in the system of political communications, attention is being paid to the study of political lexicon. Despite the variety of topics and research areas of the socio-political dictionary, a number of problems remain unsolved. The process of transformation of the lexical space is almost continuous, which indicates the connection of the language system with other areas of social life (political, socio-economic, spiritual). The more intensive the changes in policy, the more extensive the changes in vocabulary at each stage of its development. It is in the field of political vocabulary that important changes related to socio-political processes are observed. This M.E. It is expressed in Rasulzadeh's speaking activity and the content of his works.

# MİLLİ ŞÜURUN FORMALAŞMASINDA MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ İDEYALARININ ROLU

***Məmməd Rzayev***
***f.e.d., professor***
***Naxçıvan Dövlət Universiteti***
*mamedrazi@mail.ru*

***Açar sözlər***: Rəsulzadə, cümhuriyyət, millət, milli mənlik şüuru, cəmiyyət, dövlət, din, dil.
***Key words*****:** Resulzade, republik, nationality, national self-consciousness, society, state, religion, language.

Milli müstəqillik dövrünün tarixi təcrübəsi sübut edir ki, cəmiyyətdə baş verən əsaslı yeniləşmələr yalnız o vaxt öz adekvat mənasını kəsb edir ki, ölkə əhalisini təşkil edən millətlərin və xalqların nümayəndələri həmin proseslərdə şüurlu surətdə və bilavasitə iştirak edirlər. Bu baxımdan, ictimai həyatın bütün sferalarında gedən transformasiya prosesləri onların, müvafiq surətdə milli şüurda və psixologiyada da əks olunmasını tələb edir. Qeyd olunan münasibətdə milli şüurun yüksək pilləsini təşkil edən milli mənlik şüuru (milli özünüdərk) xüsusilə mühüm əhəmiyyətə malikdir. Söhbət milləti təmsil edən insanların öz millətinin həqiqi varlığını hərtərəfli və dərindən anlamasından gedir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2023-cü il tarixli Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında imzaladığı Sərəncam böyük əhəmiyyət kəsb edir. Sərəncamda qeyd edildiyi kimi "Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik ideallarının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur" [1].

Məhəmməd Əmin Rəsulzadə Azərbaycanın məşhur dövlət xadimi, Azərbaycan Milli Musavat Xalq Partiyasının lideri, görkəmli publisist, şair, dramaturq ədəbiyyatşünas idi. Onun ölkəmizin incəsənəti və mədəniyyəti, ədəbiyyatı və tarixi, ictimai fikri, ana dili haqqında zəngin irsi vardır. Azərbaycan Demokratik Cumhuriyyətinin banilərindən biri kimi bu dahi şəxsiyyətin yaradıcılığında sosial-fəlsəfi baxışlar da mühüm yer tutur. Doğrudur, M.Ə.Rəsulzadə fəlsəfi problemlərlə ətraflı və geniş şəkildə məşğul olmasa da onun social fəlsəfənin bir sıra problrmləri ilə bağlı çoxlu sayda nəzəri təhlilləri, məqalələri vardır. Bu əsərlərdə və bir sıra məqalələrdə o, sosial fəlsəfəni cəmiyyət, xalq, millət, milliyyət, dövlət, hakimiyyət, siyasət, mədəniyyət, din, dil və s. haqqında dəyərli və maraqli elmi mülahizələrlə zənginləşdirmişdir. Bu baxımdan onun fəlsəfi irsi müasir milli problemlərin öyrənilməsi istiqamətində də əhəmiyyətli rol oynayır və müasir dövrdə də milli şüurun formalaşması prosesində özünü aparıcı amil kimi göstərir.

Cəmiyyətin formalaşması və inkişafında milli-etnik cəhətlərin artmaqda olan rolu, şəxsiyyətin milli şüurun yüksəlişində özünün təmərküzləşmiş ifadəsini tapır. İnzibati-amirlik idarəetmə sisteminə əsaslanan totalitar cəmiyyətdə şəxsiyyətin bütövlükdə mənlik şüuru kimi, onun milli forması da məhdudlaşdırılır və təzyiqlərə məruz qalırdı. Sovetlər Birliyində rəhbərlikdə təmsil olunanlar belə hesab edirdilər ki, SSRİ ərazisində məskunlaşmış bütün millətlərin və xalqların nümayəndələri mərkəzdən gələn göstəriş və əmrlərin avtomatik icraçısı olmalıdırlar. Milli şüur etnik sferada bu qəbildən olan stereotiplərin qərarlaşdırılmasında

əsas maneələrdən biri kimi qələmə verilir və buna görə də onun inkişafı hər vəchlə sıxışdırılırdı. Digər postsovet respublikalarında olduğu kimi Azərbaycan cəmiyyətində də xalqın milli şüurunun formalaşması və inkişafı müstəqillik əldə edildikdən sonra yeni sosial zəmin üzərində baş verırdi. Əlbəttə, bu fakt əvvəlki dövrlərdə həmin sahədə əldə edilmiş ənənələrin və formaların rolunu heçə endirmirdi. Söhbət ondan gedir ki, xalqımızın XIX əsrin sonlarından etibarən bu sahədə qazandığı təcrübə milli müstəqillik əldə edildikdən sonra daha da inkişaf edərək, zənginləşmiş, prinsipcə yeniməna çalarları, miqyaslar kəsb etmişdi.

Əvvəlcə onu qeyd edək ki, şəxsiyyətin milli şüuru dedikdə onun mənsub olduğu millətin müasir varlığını dərk etməsi, tarixi ənənələrini anlaması və dünya xalqları sistemində gələcək perspektivlərini adekvat mənalandırmaq məharəti başa düşülür. Məhz Məhəmməd Əmin Rəsulzadəyə görə insanların milli şüuru bir çox amillər sisteminin birgə təsiri nəticəsində formalaşır. Onların sırasında insanların öz fərdi keyfiyyətləri, peşə fəaliyyəti, təhsil və şüurluluq səviyyəsi, fəallıq dərəcəsi ilə yanaşı, həmçinin mənsub olduğu millətin spesifik xüsusiyyətləri, həyat tərzi, ənənələri və mədəniyyəti çox mühüm yer tutur.

M.Ə.Rəsulzadə milli şüuru mürəkkəb və çoxstrukturlu təsisat kimi nəzərdən keçırərək, onun məzmununda şəxsiyyətin elementar milli hissləri və əhval-ruhiyyəsi, emosional- psixoloji səviyyəsi, öz millətinin həqiqi varlığını, onun milli münasibətlər sistemində və bütövlükdə cəmiyyətdə yerini, milli ləyaqətinin adekvat mənalandırmasını ifadə edən nəzəri biliklərin və onun mənəvi əsaslarını təmin edən dəyərlərin üzvi vəhdət halında birləşdiyini görürdü [ 10,79 ]. Bu mənada milli şüuru, millətin öz sosial təcrübəsini malik olduğu bütün milli xüsusiyyətlər ilə birlikdə dərk etməsi kimi səciyyələndirən M.Ə.Rəsulzadə göstərirdi ki, milli şüur hər bir fərdin həyat fəaliyyətinin yüksək səviyyəli şüurlu tənzimləyicisi olmaqla yanaşı, bu fəaliyyətin bütün sahələrində daim artmaqda olan rol oynayır. O, həmçinin belə bir nəticəyə gəlirdi ki, bu fenomen, yəni milli şüur insanlar tərəfindən onun mənsub olduğu millətin spesifik milli mənafeləri və maraqlanının nə dərəcədə dərk edildiyi, öz dünyagörüşündə, dəyərlər sistemində və real davranışında onlara nə dərəcədə əməl olunduğunun çox mühüm göstəricisidir. Bu təlimdə hər bir fərdin öz şəxsi varlığı ilə milli varlığı arasında qarşılıqlı münasibətlərin anlaşılması səviyyəsi və buna uyğun formalaşan həyat mövqeyi özünün ən təmərküzləşmiş ifadəsini tapir, bütövlükdə toplumun hər bir üzvünün mənəvi dünyasının təkmilləşmə səviyyəsini ifadə edir, millətin mütəşəkkilliyinin və birliyinin artmasına və ümumilikdə öz potensialını dolğun şəkildə reallaşdırmasına güclü təkan verir.

Daha sonar M.Ə.Rəsulzadə millətə tərif verərək onu « dil birliyi, adət və əxlaq birliyi, ənənati-tarixiyyə və nəhayət, etiqadati-diniyyə birliklərinin məcmuyundan ibarət mütəşəkkil bir məhsulu» hesab edərək qeyd edirdi ki, millət dili, dini, adət-ənənələri, ədəbiyyatı və tarixi bir olan toplumdur" [ 5,285 ]. "Yalnız din birliyi müasir məna ilə bir millət təşkil edə bilməz. Milliyyəti təşxis edən müştərək əlamətlərin başlıcası dil, din, adət və ədəbiyyatdır. Bu nöqteyi-nəzərdən türklər bir millətdir... Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal" [12, 64].

Milli şüur problemi ilə bağlı fikirlərini şərh edərkən M.Ə.Rəsulzadə öz konsepsiyasını iki fəlsəfi kateqoriya: milli vicdan və milli iman əsasında təhlil edir. Milli vicdanı milli özünüdərk səviyyəsinə qaldiran mütəfəkkir millətin həyatını milli vicdanın inkişafına bağlayırdı. Milli vicdanın milli imanın yaranmasında rolunu yüksək qiymətləndirən M.Ə.Rəsulzadə milli imanın yaranmasını millətlərin gələcək inkişafında mühüm addım hesab edirdi. O haqlı olaraq yazırdı: "Milli vicdan və yaxud milli iman, milli dirilikdəki əməl və arzunun mövcudiyyətindən və onun surəti-hiss və bəyanatından hasil oluyor. Hər millət deyil, hətta hər bir şəxsin özünə görə əməli vardır. Buna başqa təbirlə meyl və arzu dəxi demək olar. Bunun firəngcəsi «ideal» gəlir. Osmanlıcada son zamanlar bunu, «məfkurə» deyə, tərcümə edənlər də vardır" [4, 470 ].

Bu fikrə əsaslanaraq qeyd etmək lazımdır ki, şəxsiyyətin milli şüur səviyyəsi onun dünyagörüşünün səviyyəsi, dəyərlər sistemi və oriyentasiyaları ilə sıx bağlıdır. Qeyd etmək lazımdır ki, elmi-fəlsəfi dünyagörüşə malik olan şəxsiyyət dünyanı, təbiəti və cəmiyyətdə gedən prosesləri düzgün dərk edə və onların fonunda öz millətinin varlığını adekvat mənalandıra bilir. Onun milli mənlik şüuru elmə əsaslanır, özündə mədənilik, dinamiklik və tənqidi yanaşma kimi müsbət xüsusiyyətləri özündə ehtiva edir. Burada həqiqət, ədalət, xeyirxahlıq, gözəllik, humanizm kimi ümumbəşəri dəyərlər (konkret milli reallıq prizmasından əks olunmaqla) mühüm yer tutur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq qeyd edir ki, "Bizə sağlam millət lazımdır, sağlam, yeni gənc nəsil lazımdır. Bilikli, savadlı, bütün dünyada gedən proseslərə bələd olan, gözəl təhsil alan, öz biliyi və savadı ilə Azərbaycanın gələcək inkişafına töhfə verəcək gənc nəsil lazımdır, vətənpərvər gənc nəsil lazımdır" [14]. Bu baxımdan müasir şəraitdə Azərbaycanda insanların milli şüurunun formalaşması prosesində ölkəmizdə həyata keçirilməkdə olan əsaslı siyasi, iqtisadi, sosial və mədəni islahatların milli inkişaf baxımından pozitiv fonda mənalandırılması mühüm yer tutur. Deməli, cəmiyyətin hər bir üzvü öz təcrübəsi, biliyi və müşahidəsi sayəsində müəyyən edir ki, açıq cəmiyyətə keçid vəzifələrinin həlli istiqamətində ölkədə milli siyasətdə totalitar rejimdən miras qalmış bir çox problemlər tədricən aradan qaldırılır, başqa sözlə milli inkişafda və millətlərarası münasibətlərdə əməkdaşlığın möhkəmlənməsinə real şərait yaranır.

Bu gün böyük iftixar hissi ilə duyduğumuz və milli şüurun formalaşmasında mühüm rol oynayan üçrəngli milli bayrağımızın dalğalanmasında da M.Ə.Rəsulzadənin böyük xidmətləri olmuşdur. Onun bayrağın mənası iə bağlı yazdığı aşağıdakı fikirlər bunu aydın şəkildə sübut edir. "Azərbaycan bayrağındakı mavi rəng-türklüyü, yaşıl rəng-müsəlmanlığı, al rəng də - təcəddüd (yenilik) və inqilab rəmzi olmaq həsbiləəsrliyi tərmiz edək ki, möhtəşəm Ziya Gökalp bəyin "türk millətindənəm, islam ummətindənəm, qərb mədəniyyətindənəm" düsturunu ifadə etmiş olur" [8, 97].

Hər bir milləti dünyada tanıdan və onu digər xalqlardan fərqləndirən ən önəmli xüsusiyyətlərindən biri də onun adət və ənənələri və bu müstəvidə yüksək mənəvi dəyərlər sisteminə malik olmasıdır. Bu baxımdan qloballaşan dünyada milli adət və ənənələr və onun əsasında formalaşan yüksək mənəvi dəyərlər sistemi hər bir millətin mənəvi, mədəni simasının göstəricisidir. Təsadüfi deyildir ki, min illər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən adət və ənənələrimiz millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz bir mənəvi körpü rolunu oynamaqdadır.

M.Ə.Rəsulzadə öz əsərlərində bu problemə diqqətlə yanaşaraq qeyd edirdi ki, adət-ənənələrimiz və onların formalaşdırdığı milli dəyərlər sistemi ilə güclü dövlətçilik quruculuğu arasında sıx vəhdət vardır. Belə ki, hər bir dövlətin gücü, ilk növbədə, onun adət və ənənələrinin cəmiyyəti əxlaqi, milli vətənpərvərlik baxımından düzgün istiqamətə yönəltməsindən, onları saf təməllər üzərində tərbiyə etməsindən asılıdır. O, bu baxımdan belə bir nəticəyə gəlirdi ki, bütün dövrlərdə adət və ənənələr hər bir dövlətin qüdrətli və uzunömürlü olmasında on minlərlə əsgərin görə bilmədiyi əvəzsiz bir iş görür. Bir sözlə, adət və ənənələr insani münasibətlərinin tənzimləyici və istiqamətverici funksiyasını yerinə yetirərək, öz lideri ətrafında möhkəm birləşən güclü və qüdrətli dövlətin meydana çıxmasında önəmli rol oynayır

Başqa sözlə, cəmiyyət dəyişdikcə adət və ənənələr də təkmilləşir və millətin, xalqın yaradıcılıq nümunələrini yaşadır. Deməli, mənəvi dəyərlər dövrün, şəraitin və ictimai quruluşun ruhuna, tələblərinə uyğun cilalanır, yeni forma və məzmun kəsb edir.

Cəmiyyətdə milli şüurun formalaşmasında adət və ənənələrin mühüm rol oynadığını yüksək qiymətləndirən M.Ə.Rəsulzadə daha sonr qeyd edirdi ki, "milliyyət amillərindən birisi də tarix ilə adət və ənənədir. İləridə bir miknət və qüvvət tapa bilmək üçün millətlər həmən tarixlərindən istimdad edərlər. Zəif düşdükləri, əzilib, inqiraza tərəf çəkildikləri, hətta

inqiraz bulub, hər bir iqtidar və qüvvətdən düşmüş olduqları zamanda belə keçmişin qüvvətli və parlaq dəmlərini xatirə salmaqla istiqbal üçün bir ümid bəslərlər. Keçmişini yaxşıcasına tədqiq etmiş olan millətlər daima mazinin ölüb torpaqlar altında çürümüş olan qəhrəmanlarından birər ideal modeli yapıb da, onu gələcəyin bir nümuneyi-həmasəti kəsdirirlər" [3, 483].

Hər bir millət tarixdə ata və babalarının qazandığı uğurlarla fəxr edir, onu zənginləşdirməyə çalışır. Bu isə həmin milləti qürurlu edir, tərəqqiyə, yeni-yeni uğurlar qazanmağa istiqamətləndirir. Əks-təqdirdə, millət yerində sayar, daha sonra isə tənəzzülə uğrayar. Hər bir xalq öz tarixini dərindən öyrənməli və bilməlidir. Keçmişini bilməyən bir millət tarixi yaddaşını unudaraq, milli kimliyini itirərək, assimilyasiyaya uğramağa məhkumdur. Şanlı tarixə malik olmuş, lakin indi mövcudiyyətini qorumayan xalqların və dövlətlərin tarixini xatırlamaq bu elmin faydası barədə çox şey deyir. Tarixi yaddaş millətimizin kimliyi, mövcudluğumuzun ən vacib sütunlarından biridir. Bu baxımdan tarixi-mədəni, milli-psixoloji irsin öyrənilməsi, tədqiqi, təbliği və tədrisi tarixi yaddaşı möhkəmləndirməyin, milli varlığı qorumağın önəmli amilləridir. M.Ə.Rəsulzadənin fikrincə, hər bir millətin öz tarixini bilməsi qədər qüvvətli birlik və amal ola bilməz. Ona görə, hər bir xalqın mədəni inkişafı onun tarixinin dərindən öyrənilməsindən keçir: «Vətənin keçmişdə keçirdiyi şanlı günləri və bəşəriyyət aləminə bəxş edə bildiyi səmərəli və faydalı xüsusları həmən tarix dərs kitablarından başlanaraq övladi vətənin yadına nəqs etdirilir. Vətən və millət əfradı həmən müəyyən bir üsul ilə böyük və bəşəriyyətə, mədəniyyətə dəyərli xidmətlər yetişdirmiş olan bir nəsli-nəcibə mənsub olduğuna qənaət yetirərək böyüyür. Haradan gəldiyini, tarixdə nələr elədiyini və nə kimi qüvvələrə malik olduğunu bilib, izzəti-nəfsi ilə istiqbala qarşı bir ümid olaraq yaşayır» [4, 484].

M.Ə.Rəsulzadə tarixin bir elm kimi öyrənilməsinin millətin həyatında əhəmiyyətli rol oynadığını yüksək qiymətləndirərək belə bir nəticəyə gəlir ki, «tarixi öyrənmək və millət arasında tarix dərsini təmin etmək ittihad və ittifaqı mövcib olduğu qədər, bəlkə ondan daha artıq, vüqüatitarixiyyə özü də millətləri qaynadıb qarışdıran bir amildir. Bu xüsusda başqalan üzərinə hücumlar icra edən təcavüzkar tarixdən çox, başqalarının hücumunu dəf edib də müdafiədə olan tarix faydalıdır» [4, 485].

Hər bir cəmiyyətdə şəxsiyyətin milli şüuru millətçilik ilə çox mürəkkəb əlaqədə çıxış edir. Məhz bu gün də bu iki anlayış arasındakı münasibətləri araşdırmaq həm də ona görə vacibdir ki, yaxın keçmişə qədər «millətçilik» anlayışı birtərəfli surətdə, yəni yalnız mənfi planda müəyyənləşdirilirdi. Onu çox vaxt bəsit şəkildə anlayır və bir milləti digərinə qarşı qoyan, milli üstünlük və əlahiddəlik təbliğ edən ideologiya, siyasət, psixologiya və sosial praktika kimi qələmə verirdilər. Son dövrlərdə dünya miqyasında baş verən proseslər, bu qəbildən olan müddəaların əsassızlığını və birtərəfliliyini göstərir. Sovetlər Birliyinin dağılmasında millətlərin milli-azadlıq hərəkatının böyük rolu eyni zamanda sübut etdi ki, millətçilik həm də mühüm mütərəqqi əhəmiyyətə malikdir. Məsələyə bu baxımdan yanaşdıqda milli müstəqillik dövründə o öz rolunu tükətmir, əksinə daha da genişləndirir. Millətçilik, şəxsiyyətin milli ruhunun, özünüdərkinin və müstəqil təfəkkürünün inkişafında o dərəcədə əhəmiyyətli rol oynayır ki, onu rədd etmək deyil, onun yaratdığı üstünlüklərdən və güclü səfərbəredici qüvvəsindən demokratik, hüquqi dövlət quruculuğunda daha fəal istifadə etmək məqsədəuyğundur.

Müasir dövrdə baş verən milli proseslər milli mənlik şüuru və millətçilik anlayışlarını məzmunca bir-birinə çox yaxınlaşdırır. Bu faktı təsdiq etməklə yanaşı, həm də qeyd etməliyik ki, onlar tam eyni olmayıb, bir-birindən müəyyən qədər fərqlənən anlayışlardır. Bunu aydın təsəvvür etmək üçün milli mənlik şüurunun məzmununda vurğulanan aşağıdakı məqama diqqət yetirmək kifayətdir: adı çəkilən anlayış millətin mənafe, maraq və məqsədlərinin dərk olunması deməkdir, bu mənada o özündə həm də millətçiliyin dərk olunmasını ehtiva

edir. Fikrimizcə, digər fərqlilik bundadır ki, sağlam millətçilikdən fərqli olaraq ifrat millətçiliyin məzmunu çox mütəhərrik xarakter daşıyır. Yəni o milli maraqların təmin olunması məqsədini aşıb keçdikdə milli əlahiddəlik təlqin edir və neqativ səpki alır. Deməli, milli mənlik şüuru nisbətən daha sabitdir və özü də müsbət məna daşıyır. Nəhayət, bu da nəzərə alınmalıdır ki, milli mənlik şüuru ilə müqayisədə millətçilik anlayışında praktiki yönüm, real fəaliyyət ilə yaxınlıq daha çoxdur, birinci anlayışda isə elmi-nəzəri mahiyyətin üstünlüyü nəzərə çarpır. Millətçiliyin müsbət əhəmiyyəti əsas etibarilə aşağıdakı tərəflərdə çıxış edir: a) o milləti təşkil edən müxtəlif sosial təbəqələrin, kateqoriyaların və fərdlərin həmrəyliyini təmin edən özək, onların maraqlarının inteqrativ ifadəçisi rolunu oynayır; b) millətçilik aid olduğu sosial-etnik birliyin daxilində milli həyatın yeknəsəkliyinə və fərqlərin silinməsinə qarşı çıxır, bu həyata rəngarənglik donu verir. Bu baxımdan yanaşdıqda əsl millətçi həm də həqiqi patriot kimi çıxış edir, mənsub olduğu millətin xarakterindəki müsbət cəhətləri göstərməklə yanaşı, realist mövqe tutur, yəni buradakı nöqsan və qüsurları da qeyd edir. Öz millətinin uğurları ilə fəxr edirsə, çatışmayan cəhətlərinə görə müəyyən vicdan əzabı çəkir.

M.Ə.Rəsulzadənin fikrincə, «millətlərin həyatı da ancaq bu milli vicdanın inkişafı sayəsində mümkün olub, ancaq bu vicdanın təsirləridir ki, milli ideal hasil olur. Milli idealın (imanın) hökümilədir ki, millətlər özlərinə şanlı və şərəfli bir dirilik təmin edə bilirlər» [3, 16].

M.Ə.Rəsulzadə haqlı olaraq qeyd edirdi ki, « bir millətçi üçün Vətən sadəcə, maddi ünsürlərlə hüdudlanmaz. Milliyyətdə siyasi şüur güdən millətçi, vətəndə də mənəvi bir öz, bir ruh arar. Onun üçün vətən maddi deyil, mənəvi bir varlıqdır. Maddi özəlliklər, mənəvi özəlliklərlə canlanmadıqca, coğrafi bir bölgənin, sözün əsl mənası ilə, zaten bir vətən olmasına imkan yoxdur. Maddi vətən ünsürlərindən başqa hər aydın insanın bildiyi vəchiylə dil, din, ədəbiyyat, musiqi, fəlsəfə, sənət və tarix kimi mənəvi vətən ünsürləri vardır» [6, 194].

Onun fikrincə, "bir millətçinin vətən anlayışı, coğrafi mənadakı vətəni müstəqil bir dövlət halına gətirmək istəməsidir. Bir millətçi, hər şeydən əvvəl istiqlal davasında bulunan bir vətənçi bir patriotdur. Avropalıların patriot termini ilə ifadə etdikləri anlam, bizim millətçi sözü ilə anlatmaq istədiyimiz anlamın eynidir. Bu, avropalıların nasyonalizm sözü ilə kəsb etdikləri milliyyətçilikdən tamamilə başqa bir şeydir" [10, 20]. M.Ə.Rəsulzadə bu zaman hər bir dövr üçün mühüm əhəmiyyət kəsb edən milli birlik amilini əsas götürür və onun daima qorunmasını tövsiyyə edərək yazırdı: "Bu, millətçilik fikrinin əsası və təməlidir. İnternasiyonalist və kosmopolit nəzəriyyələrlə ortaya atılan marksizm, kommunizm və anarxizm kimi doktrinaların əsl qayəsi, milli birlik və bütünlüyü sarsıtmaq, parçalamaq və pozmaqdır. İctimai, sinif və zümrələr arasında ixtilaf və ziddiyyət təhriki və hüsusət ihdası bu məqsədilə yapılır. Halbuki, həqiqi millətçilərin üzərinə tərəttüb edən kutsal qayə uzun sürəkli tarixin məhsulu bulunan milli varlığı bütün fəzilətləri, gələnək və görənəkləri, kültür və ədəbiyyatı ilə qorumaq, yaşatmaq və gəlişdirməkdir" [10, 14].

Daha sonra M.Ə.Rəsulzadə belə bir fikri vurğulayırdı ki, toplumun milli şüuru ilə şəxsiyyətin inkişafı ikitərəfli vahid proses kimi çıxış edir. Belə ki, bir tərəfdən şəxsiyyətin inkişafına milli şüur güclü təsir göstərir. Bu başlıca olaraq aşağıdakı şəkildə ifadə olunur: şəxsiyyət özünün milləti ilə və bütövlükdə cəmiyyət ilə çoxtərəfli əlaqələrini milli şüurun fəaliyyət mexanizimləri ilə sıx əlaqədə həyata keçirir. Sonra milli şüur mənsub olduğu millətin nümayəndələri olan insanların birləşməsində və ümummilli vəzifələrin yerinə yetirilməsinə səfərbər olunmasında mühüm rol oynayır.

Digər tərəfdən isə milli şüurunun funksiyalarının həyata keçirilməsi prosesi, onun intensivlik dərəcəsi konkret şəxsiyyətlərdən, onların ümumi yetkinlik göstəricilərindən, habelə dünyagörüşündən və mədəni inkişaf səviyyəsindən çox asılıdır. Məhəmməd Əmin Rəsulza-

dəyə görə də milli şüur və cəmiyyət ayrılmaz qarşılıqlı təsirdə olmaqla, biri digərini zənginləşdirir və təkmilləşdirir. Milli şüur millətin xarakterini və milli psixologiyasını, habelə digər spesifik xassələrini təmərküzləşmiş şəkildə ifadə etdirdiyi üçün həmin millətı təşkil edən hər bir fərdin fəaliyyəti və davranışını vahid sosial istiqamətə yönəldir, onları konkret şəkildə müəyyənləşdirir və dəqiqləşdirir. Bu proses onların milli borc, milli məsuliyyət, milli iftixar hissi kimi şəxsi keyfiyyətlərinin formalaşmasına sürətləndirici təsir göstərir. Onların inkişafı isə öz növbəsində şəxsiyyətlərarası münasibətlərin normallaşmasında, şəxsiyyət-cəmiyyət əlaqələrinin möhkəmlənməsində, millətin ümumi potensialının vahid istiqamətə yönəldilməsində çox mühüm rol oynayır. Nəzərə alsaq ki, belə bir vəziyyət tarixi inkişafın dönüş xarakterli məqamlarında daha aydın nəzərə çarpır və indi cəmiyyətimiz məhz belə bir dövrü yaşayır, bu zaman yuxarıdakı amillərin əhəmiyyəti daha da artır.

M.Ə.Rəsulzadə dərindən dərk edirdi ki, insanlarda milli xarakteri və milli psixologiyanı səciyyələndirən keyfiyyətlərin, milli iftixar hissinin bir sözlə, dəqiq milli müəyyənliyin formalaşdırılması son dərəcə zəruridir. Milli müəyyənliyə, milli mənlik şüuruna malik olan şəxsiyyət öz millətinin və vətəninin həqiqi vətənpərvəri kimi hərəkət edə bilir. O, millət haqqında bəsit hisslərdən və təsəvvürlərdən azad olur, mühüm əhəmiyyət kəsb edən ideyaları əsas götürür, daim öz xalqının qayğısına qalır. Millətin və vətənin adı ilə bağlı olan hər şey belə subyekt üçün müqəddəs sayılır. Milli şüurun formalaşması və zənginləşməsi insanların mənəvi dünyasını yüksək əxlaqı keyfiyyətlərlə zənginləşməklə şəxsiyyəti konkret fəaliyyətə təhrik edən qüdrətli amillər rolunu oynayırlar. Bu baxımdan məhz M.Ə.Rəsulzadə milli dəyərlərin formalaşması, inkişafı və mahiyyətində milli əxlaqın böyük rol oynamasını yüksək qiymətləndirirək yazırdı: “Milli əxlaqa gəlincə, o da fərdlərdən mütəşəkkil böyük bir topluluğun toplu bir halda uyacağı və daima bağlı qalacağı bir taqım maşəri ümdə və qaidələridir. Millət hizblərin, zümrələrin və siniflərin fövqündə olduğu və bunların hamısını içində barındırdığı və qoyununda bəslədiyi üçün heç bir hizb, zümrə və sinif mənfəətlərinə və ya qayələrinə fəda ediləməz. Hələ milli varlığın şəxsi təmayüllərə və qərəzlərə alət və vasitə edilməsi xəyalə belə gətiriləməz” [10, 26]. M.Ə.Rəsulzadə daha sonra qeyd edirdi ki, “verilən sözə və yapılan sərbəst anlaşılmalara riayət milli əxlaqın üçüncü ümdəsidir. Haqqı, hürriyyəti, sülhü və demokratiyanı qoruma və müdafiə, zülmə və təcavüzə qarşı dönməz bir cəbhə alma milli əxlaqın dördüncü ümdəsidir. Milli səviyyəni daima yüksək tutma, geriliyə və cəhalətə qarşı savaşma milli əxlaqın beşinci ümdəsidir. Bütün bu ümdələrə riayət edən millətlərə insanlıq camiəsi, iləri, kültürlü, səciyyəli, zində və istiqbalı parlaq millətlər, deyə, qiymət verir” [10, 26-27].

Bu məsələ ilə bağlı Azərbaycanda M.Ə.Rəsulzadə irsinin tanınmış tədqiqatçılarından biri, fəlsəfə doktoru F.Q.Ələkbərli haqlı olaraq qeyd edir ki, “onun milli təsanüd sistemi milli məsələ ilə sosial məsələnin kəsişdiyi bir nöqtə idi. O, bu fikri irəli sürməklə sübut etmək istəyirdi ki, sosial məsələləri milli məsələlərə qarşı qoymağın heç bir mənası yoxdur. M.Ə.Rəsulzadə sosial məsələlərin milli məsələlərə zidd olmadığını, əksinə, onunla bağlı olduğunu ortaya qoyurdu. O, əsas fikirlərini milli məsələ ilə sosial məsələnin təsanüdünə, yəni onların həmrəyliyinə yönəltmişdir. O, sosial məsələlərdən sui-istfiadə edən bolşevikləri və milli məsələdən eyni şəkildə yararlanan kapitalistləri bir-birindən fərqləndirmirdi. Onun əsas qayəsi onların iç üzünü açıb göstərmək və əsil milli həmrəyliyə nail olmaq idi. Bu baxımdan M.Ə.Rəsulzadənin milli tesanüd sistemini gündəmə gətirməsi uzun elmi-fəlsəfi, siyasi-ideoloji axtarışların nəticəsi idi. Milli təsanüd (solidarizm) fikirləri ilə ortaya atılan Rəsulzadə artıq cəmiyyətin problemlərinin həllində son nöqtəni tapmışdı” [ 5, 241].

Azərbaycançılıq məfkurəsi müstəqil, suveren Azərbaycanın istiqlalını və bu ölkədə dünyəvi prinsiplərə malik sivil demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyasıdır. Onun əsasında Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır.

Azərbaycançılıq milli dövlət ideologiyası kimi, Azərbaycan Respublikasının Konstitusiya əsaslarına söykənən, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir. Azərbaycançılıq ideologiyası məhz XIX əsrin sonu XX əsrin əvvəllərində təşəkkül taparaq formalaşmış və bir əsr ərzində davamlı təkamül yolu keçmiş, inkişaf edərək bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlmişdir.

Azərbaycançılıq ideologiyasının əsas təməl daşı güclü, müstəqil və qüdrətli dövlət ideyasıdır. Azərbaycançılıq ideologiyasının təşəkkül tapmasında və milli ideologiyaya çevrilməsində 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Cümhuriyyətinin əvəzsiz və xüsusi rolu vardır. Məhz bu dövrdə Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrinin davamı olan milli dövləti tarix səhnəsinə çıxaraq, türk-islam dünyasında ilk respublika - Azərbaycan Cümhuriyyətini qurmuş və bu zəmində azərbaycançılıq ideologiyasının nəzəri və praktiki əsaslarının təməl sütunlarını vücuda gətirmişdir.

Azərbaycançılığın nəzəri əsasları M.Ə.Rəsulzadənin yaradıcılığında xüsusi və önəmli yer tutur. O zaman "Azərbaycan Cümhuriyyəti" əsərində Azərbaycan məfkurəsinin əsaslarını daha da inkişaf etdirərək göstərirdi ki, azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə İslam, mədəniyyət etibarilə şərqlidirlər. Azərbaycançılığın bütün parametrlərinin, köklərinin, mənbələrinin,nəzəri əsaslarının elmi araşdırmalara cəlb edilməsi birbaşa Məhəmməd Əmin Rəsulzadənin irəli sürdüyü müdrik fikirlərlə, taleyüklü ideyalarla üzvi surətdə bağlıdır və bu ideyalar məcmusu bu gün də gələcək inkişafımız üçün fundamental zəmin yaratmışdır.

M.Ə.Rəsulzadə irsində azərbaycançılıq ideyası millətçilik anlayışı ilə eyni vəhdətdə götürülür.. Bu böyük şəxsiyyətin "Millətçilik patriotism" (Ankara, 1952) məqaləsində bu cəhət daha parlaq və aydın şəkildə özünü göstərir: "Millət etnik bir anlayış ikən milliyyət siyasi bir anlamdır. Milliyyət müəyyən şərtlər və hadisələr nəticəsində vücudə gəlmiş statik bir varlıqdır; millət isə bu statik varlığın şüurlaşan, fəal bir şəklidir. Statik bir keyfiyyət əxz edən milliyyət baxımından Vətən coğrafi bir anlamdır. Halbuki süur və iradəyə malik olan millət baxımından Vətən siyasi bir məna ifadə edir." [ 10,19 ].

M.Ə.Rəsulzadənin fəlsəfi baxışlarında azərbaycançılıq ideyası kompleks bir fəlsəfi anlayışlar sistemi, uğurlu gələcəyə doğru aparan mübarizə proqramıdır. Qanunauyğun olaraq o qeyd edirdi ki, "avropalıların patriot termini ilə ifadə etdikləri anlam bizim millətçi sözü ilə anlatmaq istədiyimiz sözün eynidir". Beləliklə, onun görüşlərində millətçilik şovinizmdən yüksəkdə duran, vətənsevərlik, vətənkeşlik qaynağından, azərbaycançılıqdan doğulan tarixi-siyasi bir anlayışdır və millətçiliyin əsasında milli birlik, milli istiqlalçılıq dayanır. Ona görə də azərbaycançılıq eyni zamanda istiqlal ideologiyasıdır.

Tarixçi alim Aydın Balayev çox haqlı olaraq yazırdı ki, məhz M.Ə.Rəsulzadə XX əsrin əvvəllərində türk nüvəli azərbaycançılıq konsepsiyasının bitkin, bütöv sistemini işləyib hazırlamış və bu konsepsiya nəticəsində dünyanın siyasi xəritəsində "Azərbaycan" adlı dövlətin yaranması mümkün olmuşdur [2, 8-9].

M.Ə.Rəsulzadə mənalı və parlaq ömrünün bütün mərhələlərində azərbaycançılıq ideyasına sadiq qalmış, əsərlərində dönə-dönə bu ideyanın əhəmiyyətini və rolunu nəzəri və praktiki mərhələ əsasında təhlil etmişdir. 1923-cü ildə Türkiyədə çap olunmuş "Azərbaycan Cümhuriyyəti" kitabında azərbaycançılığı "istiqlal məfkurəsi" kimi mənalandıraraq o yazırdı: "Azərbaycan dövrü - istiqlalına bolşeviklər Müsavat dövrü deyirlər. Fəqət xalq buna Azərbaycan dövrü deyir: Xalq düşüncəsində Azərbaycan məfhumu coğrafi bir mənadan ziyadə, fikir və əməl şəklində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün başqa bir Azərbaycan yoxdur" [ 9, 95 ].

Bütün tarixi dövrlərdə şəxsiyyətin formalaşdırılması məsələsi diqqəti cəlb edən mühüm bir problem kimi cəmiyyəti düşündürmüş və bu düşüncənin məzmunu və həyata keçirilməsinə düzgün münasibət bildirilmişdir. Müasir dövrdə də bu məsələ aktuallıq baxımından mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyildir ki, şəxsiyyətin milli ruhda formalaşdırılmasında

isə azərbaycançılıq ideologiyası, azərbaycançılıq məfkurəsi aparıcı rol oynayır. Milli ruhlu şəxsiyyətin düşüncəsi azərbaycançılığa qırılmaz tellərlə bağlı olmalıdır. Çünki azərbaycançılığın təməlində milli tərbiyə sistemi dayanır. Qeyd etmək lazımdır ki, milli tərbiyə sisteminin nəzəri və praktik mənbə kimi dəyərləndirilməsi təlim-tərbiyənin keyfiyyətini yüksəldir, o cümlədən gənc nəsildə mili şüurun oyanışına və inkişafına, zənginləşdirilməsinə, başqa sözlə, azərbaycançılıq ideologiyasının formalaşdırılmasına mühüm təsir göstərir. Ona görə də milli tərbiyə sisteminin yenilənməsi prosesində milli şüurun oyanışına azərbaycançılıq ideologiyasının başlanğıc mənbəyi kimi yanaşılması vacibdir. Bu, həm də gələcək nəsillərin milli ruha, həm də azərbaycançılıq ruhuna bağlılığı, şəxsiyyət kimi hərtərəfli formalaşdırılmasına geniş imkanlar açır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər [15].

Bu gün Azərbaycan insanının milli şüuru keyfiyyətcə yeni dəyərlər zəminində formalaşmağa başlamışdır. Ölkəmizdə yeridilən düzgün milli siyasət, xalqın tarixinin, mədəniyyətinin dilinin və dininin qorunmasına daimi qayğı göstərilməsini ifadə edən tədbirlərin həyata keçirilməsi milli şüurun formalaşmasına müsbət təsir göstərməklə Məhəmməd Əmin Rəsulzadə ideyalarının duzgün və dolğunluğunu bir daha sübut edir. Bu dahi şəxsiyyətin zəngin irsinin dərindən öyrənilməsi respublikamızda aparılan milli dövlət quruculuğu prosesinin günü-gündən tərəqqisinə əlverişli şərait yaradır, müstəqilliyimizin qorunması və milli şüurun formalaşması baxımından aparılan təlim-tərbiyə sisteminin hərtərəfli inkişafına geniş imkanlar açır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2023-cü il tarixli Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında imzaladığı Sərəncam. https://president.az/az/articles/view/62970.

2. Balayev Aydın. Məhəmməd Əmin Rəsulzadə. Bakı, Çıraq, 2012, 286 s.

3. Cəfərov N. Milli ictimai fikir tariximizdən. Bakı: Azərnəşr, 1993, 79 s.

4. Ələkbərov F.Q. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı, "Elm", 2007, 270 s.

5. Ələkbərov.F.Q.Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşləri: milli həmrəylik və azərbaycançılıq. Bakı, "Elm və Təhsil", 2022, 4141 s.

6. Rəsulzadə M.Ə. Əsərləri (1909-1914), II cilddə, Bakı: Şirvannəşr, 2001, 528 s.

7. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. Bakı, Təknur, 2014,72 s.

8. Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı, Təknur, 2012, 111 s.

9. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti", Bakı, Elm, 1990, s

10. Resulzade M.E. Milli tesanüd. Ankara: Kardeş matbaası, 1978, 143 s.

11. Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar.M.Ə.Rəsulzadənin 120 illiyinə həsr olunmuş elmi konfransın materialları,28 yanvar 2004-cü il.Bakı, Xəzər Universiteti Nəşriyyatı, 2005, 286s.

12. Yaqublu. N. Müsavat Partiyasının tarixi. Bakı: Ay-ulduz, 1997, 327 s.

13. Yaqublu Nəsiman. Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı, 2001,154 s.

14. https://bakivaxtı.az/az/posts/detail/azerbaycan-gencliyi-ve-milli-suur

15. https://president.az/az/articles/view/31737

# MİLLİ ŞÜURUN FORMALAŞMASINDA MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ İDEYALARININ ROLU

*Məmməd Rzayev*

**Xülasə**

Azərbaycanda milli şüurun formalaşması və inkişafı müstəqillik əldə edildikdən sonra yeni sosial zəmin üzərində baş vermişdir. Əlbəttə, bu əvvəlki dövrlərdə həmin sahədə əldə edilmiş ənənələrin və formalanın rolunu tədqiq etməyə geniş ehtiyac hiss etdirir. Qeyd etmək lazımdır ki, xalqımızın XIX əsrin sonlarından etibarən bu sahədə qazandığı təcrübə, milli müstəqillik əldə edildikdən sonra daha da inkişaf edərək zənginləşmiş və prinsipcə yeni miqyas kəsb etmişdir. Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadə elmi irsinin öyrənilməsi, eləcə də onun əsərlərindəki ideyaların milli şüurun formalaşmasındakı rolu böyük dəyər daşıyır.

Təqdim edilən məqalə bir filosof kimi Məhəmməd Əmin Rəsulzadənin bu sahədəki xidmətlərinin təhlilinə həsr edilmişdir. Tədqiqatda onun yaradıcılığında milli şüur, onun formalaşması, cəmiyyətdə həmrəylik və azərbaycançılıq ideyalarının inkişafı, bu ideyaların bu gün ölkəmizin həyatında oynadığı əhəmiyyətli roldan bəhs edilir.

# THE IMPACT OF MAHAMMAD AMIN RASULZADEH'S IDEAS ON THE FORMATION OF NATIONAL CONSCIOUSNESS

*Mammed Rzayev*

**Summary**

The formation and development of the national consciousness in Azerbaijan has occurred on a new social level after regaining independence. Certainly, this occurrence shows us the need for the research on the role of various traditions and forms which were obtained in the past. One should also note here that this experience that our nation started gaining about this matter after the late XIX century has enriched and gotten new definitions after the independence period. In this regard, the study of the founder of the Azerbaijan National Republic - Muhammed Amin Rasulzadeh as well as the ideas he presented in his works have had an enormous influence on the formation of the national consciousness.

This presented article is dedicated to the analysis to the contributions of Muhammed Amin Rasulzadeh as a scholar in this field. This research deals with the national consciousness in his works, its formation, the unity in society and the development of the ideas on the Azerbaijani national identity and how much of a vital role of these ideas there is on our country's life.

# M.Ə. RƏSULZADƏ VƏ "MOLLANƏSRƏDDİN"ÇİLƏR

***Azər Mustafayev, f.e.d., prof.,***
***AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun***
***"Sosial fəlsəfə və ekologiya"şöbəsinin müdiri***
*mustafayev.azer1954@gmail.com*

***Açar sözlər:*** M.Ə.Rəsulzadə, "mollanəsrəddin"çilər, azərbaycançılıq, humanizm, milli azadlıq, milli dirçəliş milli dövlətçilik, istiqlal məfkurəsi, demokratiya, millət, ideoloq.
***Key words:*** M.A.Rasulzadeh, mollanasraddinists, azerbaijanism, humanism, national independence, national revival, national statehood, ideology of independence, democracy, nation, ideologist

Görkəmli dövlət, siyasi, ictimai xadim, publisist Məhəmməd Əmin Rəsulzadə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının sədri seçilmiş, vətənpərvərlik, yüksək humanizm baxışlarına malik tarixi bir şəxsiyyət olmuşdur. Dərin erudiksiyaya sahib olan M.Ə.Rəsulzadə Azərbaycanın ədəbi-fəlsəfi fikir tarixinin bir çox sahələrinə, o cümlədən tənqidi düşüncəsində mühüm yer tutan "mollanəsrəddin"çilərin yaradıcılığına xüsusi önəm verirdi. Bəs M.Ə.Rəsulzadənin diqqətini "mollanəsrəddin"çilərin hansı ideyaları cəlb edirdi? Məlum olduğu kimi, *"Molla Nəsrəddin" jurnalı Azərbaycanda və türk-müsəlman dünyasında milli azadlıq və müstəqillik uğrunda mübarizənin ədəbiyyatda və mətbuatdakı bənzərsiz simvoludur. Bu mübariz jurnal istiqlal hərakatına mütəşəkkil, əvəzedilməz xidmətlər göstərmişdir. "Molla Nəsrəddin" jurnalı obrazlı dildə desək milli dirçəliş ideyalarından və mübarizlik ruhundan yoğrulmuş mənalı istiqlal kitabıdır. "Molla Nəsrəddin" jurnalı milli dövlətçilik uğrundakı istiqlal savaşının əsas hərəkətverici qüvvələrindən biri və bu mübariz yürüşün şanlı salnaməsidir. Azərbaycana, türkçülüyə və Qafqaza istiqlal məfkurəsinin, demokratiya ab-havasının ən zəruri və şərəfli adını "Molla Nəsrəddin" dərgisi tanıtmışdır. Türk-müsəlman dünyasında da demokratik mətbuatın bayraqdarı "Molla Nəsrəddin"dir. Vətən, millət, ana dili idealı, söz azadlığı,çoxpartiyalı sistem, cümhuriyyət anlayışı ilə bağlı böyük və ümummilli ideyaları mətbuata və ədəbiyyata da bu jurnal gətirmişdir. Bu jurnal təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində demokratik mətbuatın yaradıcısı sayılır."[2]*

Məhz bu səbəbdən də ilk növbədə M.Ə.Rəsulzadəni və "mollanəsrəddin"çiləri bir-birinə bağlayan azərbaycançılıq məfkurəsi ideyası olmuşdur.

M.Ə.Rəsulzadə "Osmançılar"a zidd olan, yad elementlərlə korlanmış Osmanlı dilinin türk dili adlandırılmağa layiq olmadığını iddia edən "Azərbaycançılığı" müdafiə edənlərdən biri idi. Mətbuat dilini seçərkən "Azərbaycançılar" üçün əsas meyar onun Azərbaycan oxucuları üçün sadə dildə başa düşülməsi idi. Bu baxımdan "Azərbaycançılar"in xalq dilini rəhbər tutması təsadüfi deyil. Bu cərəyanın ən görkəmli nümayəndəsi C.Məmmədqulizadənin redaktorluğu ilə çıxan "Molla Nəsrəddin" jurnalı idi. "Molla Nəsrəddin"çilər jurnalın geniş kütlələr üçün başa düşülməsi məqsədilə lazımsız ərəbizm və farsizmdən əl çəkərək, onları danışıq – ana dilindən götürülmüş leksik elementlərlə fəal şəkildə əvəz edirdilər. Düzdür, eyni zamanda, ədəbi dildə xalq dilinin formalarından həddən artıq istifadə edirdilər"

Faktlar sübut edir ki, M.Ə.Rəsulzadə "Molla Nəsrəddin" jurnalının vəkillərindən biri olmuşdur.Azərbaycan Respublikasının əməkdar müəllimi, türkoloq Nazim Nəsrəddinov "Molla Nəsrəddin"in Bakı vəkillərindən birinin – Məhəmməd Əmin Rəsulzadə olması haqqında belə yazır: *"M.Ə.Rəsulzadə də dünyaya ağlaya-ağlaya,həyatı dərk etməyə, həyatı yeniləşdirməyə gəlib. Bu cəhətdən M.Ə.Rəsulzadənin bəxti çox gətirib.Maraqlı və zəngin işləri ilə dolu həyat yolu var. Yaxşı müəllimlərdən yaxşı dərs alıb. Özü də öz həyat nümunsi, ictimai-siyasi fəallığı ilə nəsillərə dərs deyıb. M.Ə.Rəsulzadə tarix yazan insanlardan biridir.Onun təvəllüd günü hər il keçirilməlidir. Biz hər il onun təvəəlüd gününə bayram əhvali-*

*ruhiyyəsi ilə gəlməliyik. M.Ə.Rəsulzadə adı dövlətçilik tariximizdə özünə şərəfli yer tutan vətəndaşlarımızdandır. ... M.Ə.Rəsulzadənin həyat və yaradıcılığının müəyyən mərhələləri haqqında mənim bir sıra yazılarım Azərbaycan, rus və ingilis dillərində dünya oxucularına çatdırılmışdır. M.Ə.Rəsulzadənin "Molla Nəsrəddin" jurnalının "Bakı vəkili" olduğunu oxuculara ilk dəfə mən xəbər vermişəm. Əlbəttə,bu vəkillik məsələsi arxiv materialları əsasında daha ciddi araşdırılmalıdır.Amma,hər halda fakt var.Özü də "Molla Nəsrəddin" jurnalında. M.Ə.Rəsulzadənin "Molla Nəsrəddin" jurnalında yazılarla çıxış edib-etmədiyi barədə heç bir elmi faktiki məlumat yoxdur. Biz bu fikirdəyik ki, M.Ə.Rəsulzadənin jurnalist kimi yetişməsində "Molla Nəsrəddin" jurnalının böyük rolu olmuşdur. "Molla Nəsrəddin" jurnalının çox güclü yazarları var idi.Onlardan Ö.F.Nemanzadə, M.Ə.Sabir yüksək dini rəhbərlərin imzaladıqları "prixod mollası" attestatı alandan sonra müəllimliyə başlamışlar. M.Ə.Rəsulzadənin "Molla Nəsrəddin" jurnalının vəkili olması xəbəri "Molla Nəsrəddin" jurnalının 9 dekabr 1907-ci ilə aid 46-cı nömrəsindəndir."[5]* Nədənsə M.Ə.Rəsulzadənin tədqiqatçıları bu məlumatın vacibliyinə əhəmiyyət verməmişlər. Müəllif məlumatı olduğu kimi oxucuların diqqətinə çatdırır: *"Bakıda məcmuəmizin vəkilləri "İrşad" idarəsində-"Nicat" cəmiyyətinin sədri cənab Məhəmməd Əmin Rəsulzadə və Parapetdə "Nadejda" kontorunda məzkur cəmiyyətin xəzinədarı cənab Əsədulla Axundovdur. Gəncədə vəkilimiz şəhər məktəbinin türk dili müəllimi cənab Mirzə Hüseyn İsmayılzadədir".Vəssəlam.... Maraqlıdır ki, bu elan jurnalın sonrakı — 16 dekabr 1907- ci il tarixli 47-ci nömrəsində də oxuculara çatdırılmışdır. Lakin əvvəlki nömrədəki soyadların təkrarlanması nədənsə məsləhət olmamışdır. Yeri gəlmişkən qeyd edək ki, M.Ə.Rəsulzadə hələ S.M.Qənizadənin direktor olduğu vaxtlarda Bakı Rus-Tatar Məktəbində oxuyarkən milli mətbuatla ciddi maraqlanırdı. "Nicat"Cəmiyyətinin sədri kimi M.Ə.Rəsulzadənin də ilk tamaşada tamaşaçı kimi iştirakı şübhəsizdir. M.Ə.Rəsulzadə ilə ilgili qəzet və jurnal materiallarının diqqət və bələdliklə öyrənilməsi həmişə gündəmdə olmalıdır. Mən fəxr edirəm ki, tariximizə sevgi və qayğı ilə bir neçə iri həcmli kitaba yerləşəcək qədər iş – xeyirxah yaradıcılıq işi görmüşəm.[5]*

M.Ə.Rəsulzadəni və "mollanəsrəddin"çiləri bir-birnə bağlayan digər ideyalarda humanist və demokratik ideyalar idi.

Böyük ideoloq M.Ə.Rəsulzadə qeyd edir ki, "şeytan" insanlığı, insana xas olan bütün hissləri – sevgini, sülhü, dostluğu yandırır. Bu isə bütün Qafqazda müxtəlif xalqların və millətlərin münaqişəli vəziyyətidir.Təbii ki, cəmiyyətdəki humanist münasibətlərin təfərrüatları və sistemi ilə bağlı M.Ə.Rəsulzadənin əsərində kifayət qədər zəngin fikirlərə rast gələ bilərik. Amma bizim üçün xüsusi maraq kəsb edən bir problemi mütləq ortaya qoymalıyıq. Bu, böyük ideoloqun bütöv bir humanist və demokratik cəmiyyətin yaradılması haqqında söylədiyi fikir və izahlardır. Onun fikrincə, belə bir cəmiyyət necə yaradıla bilər və onun ən mühüm tərəflərini necə müəyyənləşdirmək olar? Onun siyasi, iqtisadi, sosioloji, mənəvi və hüquqi əsasları necə qurulmalıdır? Müəllif Qərb ölkələrinin və Yaponiyanın demokratiya ilə bağlı fikirlərini nəzərə alır, lakin onlara öz təcrübələrini öyrənməyi tövsiyə edir. M.Ə.Rəsulzadə kimi Cəlil Məmmədqulizadə də İranda və Rusiya imperiyasında monarxiyanın, dövlətçiliyin, siyasi idarəçiliyin yaratdığı qeyri-insani, səfil sosial mühitin obrazlarına diqqət yetirir. "Molla Nəsrəddin" jurnalının naşiri və redaktoru kimi C.Məmmədqulizadə Rusiya imperiyası ilə yanaşı, İran həyatından da maraqlı məqalələr dərc etdirmişdir. Digər media mənbələrində də bu mövzuda yazılar, felyetonlar var.

*"M. Ə. Rəsulzadə və C. Məmmədqulizadə məqalələrini təsvir etmək və oxucuya çatdırmaq üçün müxtəlif üsullardan istifadə etmişlər. Birinci mətn siyasi, hüquqi və sosioloji ümumiləşdirmələrin köməyi ilə, ikinci mətn isə konkret həyat hadisələri, konkret faktlar və onların təfərrüatları ilə bağlı yumor və sarkazmla oxucuya çatdırılıb. Bu, təbii ki, birincinin sosioloq və siyasətçi, ikincinin isə yazıçı olması ilə bağlı idi."[7,s.29]*

Molla nəsrəddinçilər göstərirlər ki, Qafqaza gələn iranlı fəhlə eyni zülmü, əzab-əziyyəti, qanunsuzluğu görürlər. Beləliklə, onlar həm İran, həm də Rusiya dövlətlərindəki qəddar, alçaldıcı köləlikdən, ədalətsiz siyasi nəzarətdən qurtulmalıdır. Bunsuz insanlığa, sevgiyə əsaslanan cəmiyyət yaratmaq mümkün deyildir. C.Məmmədqulizadə "Sənət ustadları" felyetonunda yalançı humanizmi tənqid edir. Məqalənin əsas diqqəti bir çox insanların şəfqətli, qayğıkeş və xeyirxah görünməsidir. Onlar guya narahatdırlar və insanlara kömək əlini uzatmaq istəyirlər. Bu, əslində dinə ziddir və insana qarşı saxtakarlıqdır. Bu cür mərhəmət, insanlıq, xeyirxahlıq haqqında söhbətlər məsxərədən, öyünməkdən, özünü tərifləməkdən başqa bir şey deyildir.

Yazıçı onları yumor ustası adlandırır və ələ salır. Buna görə də felyeton "Sənət ustaları" adlanır. Felyeton göstərir ki, insanlıqda söz döyüşçüsü yox, insan əməlinin qəhrəmanı, insanlıq nümunəsi olmalıdır. C. Məmmədquluzadənin "Nə etməli?" felyetonu, görkəmli şair Mirzə Ələkbər Sabirin "Müsəlman və erməni vətəndaşlarımıza" şeiri erməni-müsəlman münaqişəsinə həsr olunubdur. C.Məmmədqulizadə bu anti-insani sui-qəsdi bütün Qafqazı məhv edən "zalım şeytanın hiyləsi", M.Ə.Sabir isə "fitneyi-şeytan" adlandırır. Bu fitnə əbədiyyətə qədər cəmiyyətdə iğtişaşlara səbəb olur. M.A.Sabir çox güclü, istedadlı satirik şair olmaqla, cəmiyyətin və insanların ən xırda qüsurlarını belə tənqid edirdi. Amma onun tənqidi nifrət deyil, sevgi və insanın xislətinə xas olan çatışmazlıqları üzərində qurulmuşdu.

Onun insani münasibətlər fəlsəfəsi "İnsanı sevən azadlığa aşiqdir, azadlıq olan yerdə insanlıq vardır" misralarında ifadə olunur. Şairin fikrincə, hamının sevməsi gərəkdir, sevən də öz azadlığını, həyatını istəməlidir. Əslində insanı, onun xüsusiyyətlərini sevmək insanlığın borcudur. Şair "Uşaq" şeirində Vətənində qayğıya, sevgiyə ehtiyacı olan hər bir uşaq haqqında düşünür. M. A. Sabir əzab-əziyyətdən, müsibətdən, böyük ölümdən narahatdır. O, xalqını sevir, onu xoşbəxt, qayğıkeş, görmək istəyir. Molla Nəsrəddinçilər arasında humanizm ideyaları publisist və maarifçi Ömər Faiq Nemanzadənin əsərlərində də öz əksini tapmışdır. Dini inanclar, siyasi və inzibati idarəetmənin qeyri-insani normaları, qanunlar və münasibətlər, adət-ənənələrlə, ictimai müstəvidə müxtəlif humanitar ideyalarla üst-üstə düşməyən baxışlar daima problem hesab olunurdu və bu səbəbdən də problem onun düşüncəsini məşğul edirdi.

O, həmçinin bəşəriyyətin mövcud problemlərini geniş açıb, cəmiyyətə müharibələrin, fəlakətlərin, faciələrin vurduğu yaraların anti-humanist mahiyyətini çatdırmağa çalışıb. Birinci Dünya Müharibəsi dövrünə təsadüf edən əsərlərində yazıçı müharibənin faciəvi nəticələrini xatırladır. Müharibə qorxu, qan, xəstəlik və ölüm gətirir. İnsanları evsiz, torpaqsız, ac qoyur. Bu qeyri-insani və insanlığa zidd hərəkətin günahkarı kimdir? Təbii ki, bu müharibələri aparanların öz hiyləgər və düşmən niyyətləri vardır. Müəllif demək istəyir ki, müharibə və humanizm bir yerə sığmır. Müharibələr olduğu halda, insani münasibətdən söhbət gedə bilməz. Müharibə insanlar arasındakı müqəddəs amalları sarsıdan ən dəhşətli faciədir

Ö.F.Nemanzadənin əsərləri o dövrün Osmanlı İmperiyasında (Türkiyə) Qars və Ərdəhan faciələrinə həsr olunub və bu ərazilərdən gələn qaçqınlara yardımın göstərilməsinin zəruriliyi vurğulanır. O, açıq şəkildə bildirir ki, bu, din qardaşlarımıza qarşı yerinə yetirdiyimiz insani vəzifədir. Onu da qeyd etmək lazımdır ki, şəriət qaydalarına əməl etməklə Allah-Təala qarşısında namaz və ibadət borclarını yerinə yetirdiklərinə inanan bəzi insanlar qaçqınlara lazımi diqqət, kömək, hörmət və sevgi göstərmirlər. O zaman İslam dini bütün bəşəriyyətə nazil olan haqq dini kimi xeyirxahlıq, hörmət, sevgi və ən əsası öz xeyirxah niyyətini, var-dövlətini başqalarının xeyrinə qurban vermək bacarığıdır. "Ən fəzilətli insanlar o kəslərdir ki, başqalarına fayda verməyi bilirlər", "Ən yüksək insan xeyirxah niyyətli insandır" sözlərini xatırladan müəllif təəssüfünü də bildirir ki, bununla belə, bir çox insanlar dua və sədəqənin bir mədəniyyətin əlaməti olduğunu düşünür. Hər ikisi səhvdir". Ö.F.Nemanzadəyə görə, imanın əsas şərtlərindən biri də insanları sevmək, hörmət etmək, yaxşı işlər görmək, onlara xidmət etməkdir.

20-ci əsrin əvvəllərində, M.Ə.Rəsulzadənin "Molla Nəsrəddin" in davamçısı kimi yeni humanist ideyaların formalaşmasında və yayılmasında, cəmiyyətin sosial-mədəni həyatına

daxil edilməsində ən böyük töhfəsi milli və dövlətçilik ideologiyasının səviyyə baxımından yüksəlməsi olmuşdur.

M.Ə.Rəsulzadə mədəniləşmə hərəkatında C.Məmmədquluzadəyə qədərki dövr üçün ədəbiyyatın missiyasının hüdudlarını cızmış və onun məhdud cəhətlərini göstərmiş, Mirzə Cəlilin timsalında yeni ədəbiyyatın rolunu və funksiyasını "Qafqaz türkləri" və "Azərbaycan kültür gələnəkləri" əsərlərində düzgün müəyyənləşdirmişdir. O yazırdı: "*Tiyatronun, şeirin, hekayənin və qəzetəçiliyin bu dövrdə yeganə məqsədi xalqa ümumi insan fikrinin ilərləməsinə ayaq uydurmaq gərəkliyini anlatmaq olmuşdur. Məqsədə ermək yollarını göstərməkdə pək də aydın olmayan bu dövr ədəbiyyatı, mövcud durumu tənqid etmək xüsusunda qüvvətli, kəskin,parlaqdı.Bu tənqid–"Molla Nəsrəddin"mizah məcmuəsinin talantlı müdiri Cəlil Məmmədquluzadənin vaxtiylə ortalığı vəlvələyə vermiş "Ölülər" pyesi Azərbaycan tənqidçi ədəbiyyatının şah əsəridir. Burada yazıçı kəndinə məxsus sərt bir ifadə ilə ortaçağ dövrünün bütün yalan, cəhalət, riya və əksikliyini açıb ortaya döküyor." [6,s.303]*

Məhəmməd Əmin Rəsulzadə "Ölülər" pyesi haqqındakı başqa bir məqaləsində yazırdı:

*"... Etiraf edirik ki, müəllif kefli İsgəndərlə Şərq zehniyyətindəki meyxana tipini göstərmək və çatdırmaq istəyib ki, şeyx nəsrullahlar yalnız cahil və ziyalısı sərxoş olan bir mühitdə yetişə bilər"[6,s.303].* Həyatını "ölülər"i diriltməyə həsr edən Cəlil Məmmədquluzadə bunu nə qədər bacara bildi, deyə bilmərik. Amma onu deyə bilərik ki, bu gün cəmiyyətimizdə kefli İsgəndərlər, Şeyx Nəsrullahlar olduğu kimi Rəşid bəylər də var.

M.Ə.Rəsulzadə kimi tanınmış mühacir tədqiqatçının, C.Məmmədquluzadənin "Ölülər" və başqa əsərləri, eləcə də "Molla Nəsrəddin" jurnalı ilə bağlı fikir və mülahizələrini ümumiləşdirən mühacirətşünas alim Nikpur Cabbarlı düzgün elmi qənaətini ifadə edərək yazır:

*"Beləliklə, Mirzə Cəlilin yaradıcılığını və bütövlükdə mollanəsrəddinçi ədəbi istiqaməti milli ədəbiyyat tarixinin yeni inkişaf mərhələsi - tənqidçi, xalqçı ədəbiyyatın ikinci dövrü kimi səciyyələndirməklə, mühacirət ədəbiyyatşünaslığı XX əsr realizminin (tənqidi realizm) XIX əsr realizmindən (maarifçi realizm) tipoloji fərqini, stixiyalı məntiqlə olsa da, aşkarlayır".[1,s.124]* Qeyd edək ki, mühacir tədqiqatçı M.Ə.Rəsulzadənin C.Məmmədquluzadənin yaradıcılığına münasibəti milli ədəbiyyatda satirik poeziyanın təkrarsız nümayəndəsi M.Ə.Sabirə münasibəti ilə tamamilə üst-üstə düşür.

M.Ə.Sabirin həyatı, mühiti, dünyagörüşü, çoxspektrli yaradıcılığı siyasi mühacirətin ən görkəmli nümayəndələrinin diqqət mərkəzində olmuşdur. M.Ə.Sabir haqqında fikirlər həm ayrıca monoqrafik tədqiqat və məqalələrdə, həm də ədəbiyyata dair ümumi elmi-nəzəri araşdırmalarda bəhs olunmuşdur. M.Ə.Rəsulzadənin "Azərbaycan kültür gələnəkləri" əsərində M.Ə.Sabirlə bağlı fikirləri ümumiləşdirməsi şair haqqında mühacirət ədəbiyyatşünaslığında bütün deyilənləri özündə ehtiva etmək gücündədir:

*"Talantlı şairlər və mühərrirlər arasında..."Molla Nəsrəddin" məcmuəsində Hop-Hop uydurma adıyla yazan mizahçı Sabirin yıldızı parlıyor. Bu şairin "Hop-hopnamə" ünvanı altında nəşr olunan şeirləri, qısa bir zaman içində, hər bir azərbaycanlının sevə-sevə oxuduğu bir kitab halinə gəliyor. Onu sadə şəhərlərdə, burjuvazinin zəngin evlərində, kiçik əsnaf və alış-verişçilərinin ailələrində və işçi məskənlərində deyil, köylərdə, kültür həyatından uzaqda qalan izbələrdə belə oxuyorlar".* [6,s.305] Mühacir alim, Sabirin ədəbiyyat tariximizdəki mövqeyini və sənətkarlığını yüksək qiymətləndirərək yazırdı:

*"Füzulidən sonra, Sabir Azərbaycanın ümum tərəfindən bənimsənmiş ikinci şairidir. Sadə bir dil, oynaq bir üslub və dərin bir mənaya malik olan Sabirin mizahı, çağındakı bütün nöqsanları əmsalsız surətdə xırpalıyor. Gənc Azərbaycan nəslinin ilərliyən yürüyüşünə yol vermək istəməyən zamanı keçmiş feodalitə qalıntılarının heç biri onun ölümcül istehzalarından qurtulamıyor. Fəqət Sabirin bu gülüşündə yurdunu candan sevən yurddaş şairin gözyaşları bəliriyor. Sabir, yaratdığı ictimai mizah növüylə, türk ədəbiyyatında orijinal bir varlıqdır". [6,s.305]*

Mühacirət ədəbiyyatşünaslığında, o cümlədən M.Ə.Rəsulzadənin yaradıcılığında M.Ə.Sabir "Molla Nəsrəddin" ədəbiyyatı"nın yetişdirməsi kimi təqdim olunur.

Həmçinin C.Məmmədquluzadə də "Cümhuriyyət" məqaləsində xalq hakimiyyətinin, yəni demokratik respublikanın prinsiplərindın və azadlıqlarından (etiqad, yığıncaq, birləşmək, danışmaq, siyasi partiyalar yaratmaq hüququndan və s.) bəhs etmişdir.Onun fikrincə, Cümhuriyyət idarəsinin seçkisinin dörd vacib şərtləri var, odur ki, cümhuriyyət seçkisinə dördüzvlü, yainki dördhissəli seçki də, deyilir: *"Bu şərtlərin əvvəlincisi ümumilikdir, yəni məmləkətdə yaşayan nüfuzun cəmisi seçkiyə iştirak etməlidir. Bu dörd şərtlərin ikincisi seçkinin müsavi olmağıdır; yəni səslərin bərabərliyi. Məsələn, mən əgər xan və bəyəm, mənim də səsim birdir, sən çoban və rəiyyətsən, sənin də səsin birdir. Demək, hər ikimizin səsi bərabərdir.Üçüncü şərt seçkinin düzbədüzlüyüdür. Bunun mənası budur ki, bir para seçkilərdə, məsələn, kəndlilər qabaqca vəkilləri seçib göndərirlər şəhərə. Belə olanda aşkardır ki, əvvəlinci seçkidə səs verənlər bilməyəcəklər ki, aya axırıncı seçkinin vəkilləri kimin və hansı məbusun seçkilərinə səs verəcəklər. Bəs, bundan yaxşısı budur ki, hər bir kəs əvvəlinci seçkiyə duranda düzbədüz istədiyi məbusa rəy versin. Dördüncü şərt seçkinin gizli olmağıdır; yəni səs sahibi səsini elə gizlin verə ki, bir kəs xəbərdar olmaya ki, aya, bu kimə rəy verdi" [4,s.101-192].*

O, bu dövrdə zamanın hökmü ilə Azərbaycan xalqının milli həmrəyliyi və azadlığı, o cümlədən Cümhuriyyət ideyası uğrunda mübarizə aparan milli lider, görkəmli ideoloq M.Ə.Rəsulzadəyə üzünü tutaraq yazırdı:

*"İndi də Bakıda seçki məcəlləsi düşüb ortalığa və Məhəmməd Əmin Rəsulzadə həmişəki kimi çalış-vuruş, çalış-vuruş nə var, nə var, mən millətin əlindən yapışacağam. Çox əcəb, yapış, vuruş qəzet yaz, nitq söylə, o şəhərə get, yenə yaz, yenə yaz, yenə danış, amma, - bu işlərin iki nəticəsi var: biri budur ki, atalar demişkən "el üçün ağlayanın gözü kor olar", nə qədər çalışrsan çalış, yenə axırda sənə qalacaq haman yazmaq, yazmaq və hələ çox danışsan və ata və analarından xəbəri olmayan müsəlman qardaşların arzusu yerinə yetsə – bəlkə dustaqxanalarda millət yolunda çəkdiyin günləri yenə ziyarət etmək". [3,s.215]* O, daha sonra yazırdı: *"İkinci nəticəsi budur ki, indi sən, əzizim doğrudur ki, çalışırsan və bu çalışmaqdan da söz yox millətə də az-çox mənfəət gətirirsən və özünə də şöhrət qazanırsan, buna sözüm yox – amma burası var ki, sənin bu çalışmağın mənə xoş gəlmir, səbəb budur ki, əvvala mənim məsləkimə ziddir və ikincisi mənim fitrətim ilə düz gəlmir ki, sən millətçi olub şan və şöhrət qazanasan, mən də kənardan durub baxım". [3,s.216]*

C.Məmmədquluzadə satirik anlamda da olsa, doğru yazırdı ki, sözün həqiqi mənasında millətin arasından M.Ə.Rəsulzadə kimi bir şəxsiyyət tapılıb milli ideoloqa çevrilirsə, gözü götürməyənlər müxtəlif yollarla onu ləkələməyə çalışacaqlar.

C.Məmmədquluzadənin dili ilə desək: *"Yox belə ola bilməz, mən səni qoymaram məqsədinə çatasan, mən səni peşman elərəm, mən səni sındıraram, mən səni yox elərəm və bundan da asan iş mənim üçün yoxdur, bir istəkan su içməkdən asandır. Məhz lazımdır saqqalımı qaraldıb daxil olum mollalar məclisinə və bir ovqat yalandan məsciddə görsənim və sonra orada-burada səs buraxım ki, Məhəmməd Əmin Rəsulzadə istəyir yeddi cüzini çıxardıb atsın". [3,s.216]* Deməli, C.Məmmədquluzadə artıq XX əsrin əvvəllərində dərk etmişdi ki, Azərbaycan xalqının xilas yolu onun öz əlindədir və bunu həyata keçirmək üçün millətin böyük liderə ehtiyacı vardır. Həmin dövrdə belə bir lider olaraq M.Ə.Rəsulzadənin olmasını qəbul edən C.Məmmədquluzadə Azərbaycan xalqının məhz bu rəhbər ətrafında birləşməsini istəyirdi.

Beləliklə, M.Ə.Rəsulzadə və "mollanəsrəddin"çilər arasındakı münasibətlərdən bəhs edərkən sonda nəticə olaraq onu qeyd etmək lazımdır ki, onları azərbaycançılıq, humanizm, demokratik fikirlər ətrafında qırılmaz tellərlə, eyni zamanda məfkurədə və əxlaqda, düşüncədə, yaradıcılıq amalları ilə zənginləşdirən və birləşdirən ideyalar olmuş, bu qarşılıqlı təmas və ünsiyyət nəticəsində bu aydınlar arasında vahid əqidə, eləcə də yaradıcılıq birliyi yaranmışdır.

## ƏDƏBİYYAT

1. Cabbarlı, Nikpur. Mühacirət və klassik ədəbi irs.- Bakı: Elm, 2003, -172 s.
2. Həbibbəyli İ. "Molla Nəsrəddin" ədəbi məktəbi və mollanəsrəddinçilik./07.04.2016 https://science.gov.az/ az/news/ open/ 3445 2/5
3. Hüseynov, Ş.Mətbu irsimizdən səhifələr.-Bakı:"Çənlibel", NRM, 2007, -484 s.
4. Məmmədquluzadə, C.Əsərləri.IV cild: memuarlar, məqalələr, məktublar. Tərtib edəni və izahların müəllifi: İ. Həbibbəyli; Redaktor: V. Məmmədov.- *Bakı*: "*Öndər* nəşriyyat", *2004*, -472 s.
5. Nəsrəddinov, Nazim M.Ə.Rəsulzadə və milli türkdilli mətbuatımızın şəkilli - müsəvvər "Molla Nəsrəddin" jurnalı - Kırım'ın Sesi Gazetesi /05.04.2021 https://kiriminsesigazetesi.com/m-ə-rəsulzadə-və-milli-turkdilli-mətbuatimizin- səkilli-musəvvər-molla- nəsrəddin-jurnali/ 3/9
6. Rəsulzadə, Məhəmməd Əmin. Mühacirət dövrü ədəbi-elmi irsindən seçmələr.Tərtibçilər: Nikpur Cabbarlı, Şamil Vəliyev. I cild. -Bakı: Elm, 2016, -356 s.
7. Набиева, Г.М. Роль М.Э.Расулзаде и приверженцем «Муллы Насреддина» в распространении идей гуманизма в Азербайджане в начале XX века// Евразийский Союз Ученых (ЕСУ) № 1(70), 2020, с. 27-31

## M.Ə.RƏSULZADƏ VƏ "MOLLANƏSRƏDDİN"ÇİLƏR

***Mustafayev Azər***

**Xülasə**

Məqalədə M.Ə.Rəsulzadə və "mollanəsrəddin"çilər arasındakı münasibətlərdən bəhs edilmişdir. Burada qeyd edilirr ki, onları azərbaycançılıq, humanist, demokratik ideyalar bir-birinə bağlayır. M.Ə.Rəsulzadənin diqqətini "mollanəsrəddin"çilərin milli azadlıq və müstəqillik uğrunda mübarizə milli dirçəliş milli dövlətçilik istiqlal məfkurəsinin, demokratiyaı, Vətən, millət, ana dili idealı, söz azadlığı, çoxpartiyalı sistem, cümhuriyyət anlayışı ilə bağlı böyük və ümummilli ideyaları cəlb edir.Eyni zamanda M.Ə.Rəsulzadə "Molla Nəsrəddin" jurnalının vəkillərindən biri olmuşdur.M.Ə.Rəsulzadə əsərlərində "mollanəsrəddin"çilər C.Məmmədquluzadə, Sabir, Ömər Faiq haqqında yazmışlar. Mollanəsrəddinçilər, ocümlədən C.Məmmədquluzadə M.Ə.Rəsulzadəni Cümhuriyyət ideyası uğrunda mübarizə aparan milli lider, görkəmli ideoloq kimi dəyərləndirmişdir.

## M.A.RASULZADEH AND "MOLLA NASRADDİNİSTS"

***Mustafayev Azer***

**Summary**

The article discusses the relations between M.A. Rasulzadeh and the "Molla Nasreddinists". It is noted that they are connected by Azerbaijaniism, humanist, and democratic ideas. M.A. Rasulzadeh's attention is drawn to the struggle of the "Molla Nasreddinists" for national freedom and independence, national revival, national statehood, the great deeds related to the concept of homeland, nation, mother tongue, freedom of speech, and republicanism. At the same time, M.A. Rasulzadeh was one of the advocates of the "Molla Nasreddin" magazine. In his works, M.A. Rasulzadeh expressed quite valuable opinions about the well-known "Molla Nasreddinists" J. Mammadguluzadeh, Sabir, and Omar Faig. The Mollanasraddinists, including J. Mammadguluzadeh, valued M.A. Rasulzadeh as a national leader and prominent ideologist who fought for the idea of the Republic.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN DİNİ BAXIŞLARI

***Rafail Əhmədli***
***fəlsəfə elmləri doktoru, professor***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Fəlsəfə və sosial elmlər kafedrasının müdiri***
*ehmedli.rafail@mail.ru*

***Açar sözlər:*** Türkləşmək, İslamlaşmaq, ideoloji, ümmət, millət, dil, xurafat.
***Keywords:*** Turkization, Islamization, ideology, ummah, nation, language, superstition.

XIX əsrdə, xüsusilə XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində istər Osmanlı imperatorluğu, istər çar Rusiyası və istərsə də İran adlanan məmləkətlərdə yaşayan türk düşüncə sahibləri arasında üç ideoloji düşüncə sistemi yaranmışdı. Bu idealoji düşüncə sisteminin tarixi araşdırılarsa, görünən həqiqət budur ki, düşüncə sahiblərimiz ilkin olaraq «Müasirləşmək» düşüncəsini irəli sürmüşlər. Osmanlı imperatorluğunda Sultan III Səlim, çar Rusiyası tərkibində olan türklər, o cümlədən də Quzey Azərbaycan türkləri arasında XIX əsrin ikinci yarısından başlayan «Müasirləşmək» cərəyanının əsası isə Güney Azərbaycanda müasir tipli təhsilin - 1875-ci ildə Təbriz Darülfünunun açılması ilə qoyulmuşdu. Sonralar bu cərəyana Osmanlı imperatorluğunda Sultan II Əbdülhəmid dövründə «İslamlaşmaq» cərəyanı da qoşuldu. Ən son olaraq isə «Türkləşmək» cərəyanı da bunlara qoşularaq bir ideoloji sistem yaratdı və «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» şəklində düsturlandı.

«Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» ideoloji sistemini qəbul edən və həm də onu dövlət ideologiyası səviyyəsinə qaldıran siyasi xadimlərimizdən biri də Məhəmməd Əmin Rəsulzadədir. O, şəxsi mütaliə yolu ilə dünya xalqlarının ədəbiyyatına, tarixinə, fəlsəfəsinə dərindən bələd olmuş, poetik, yaradıcılıqla, tərcüməçilik fəaliyyəti və publisistika ilə məşğul olmuş, 1909-cu ildə siyasi fəaliyyəti ilə əlaqədar olaraq Bakıdan uzaqlaşdırılmış, Tehranda fars dilində Seyid Hüseyn Tağızadə ilə birlikdə Avropa tipli «İrani-Nov» adlı qəzet nəşr etmiş, daha sonra 1911-ci ildə İstanbula gələrək «Türk yurdu» cəmiyyətinə daxil olmuş, 1913-cü ildə isə yenidən Bakıya qayıdaraq «İqbal», «Şəlalə», «Bəsirət», «Dirilik» və s. mətbuat orqanlarında ictimai-siyasi, mədəni, milli və s. problemlərlə bağlı məqalələr dərc etdirmiş, 1915-ci ildə «Açıq söz» qəzetini nəşr etdirmiş, 1913-cü ildən «Müsavat» partiyasına rəhbərlik etmiş, daha sonra Azərbaycan «Milli Şura»sının sədri, Azərbaycan Xalq Cümhuriyyətinin başçısı olmuşdur.

Bəllidir ki, Azərbaycanda milli azadlıq hərəkatı ilk öncə ümmətçiliklə başlamış və ilk siyasi təşkilat olaraq «Ümmət» adlanmışdır. Hətta o dövrlərdə millətimizə «türk» deyil, «müsəlman», dilimizə «türk dili» deyil, «müsəlman dili», hətta cəmiyyət və məktəblərimizə belə «Müsəlman Cəmiyyətləri, Müsəlman məktəbləri» deyilmişdir. İlk dəfə siyasi-ideoloji anlamda millət və milli dil anlayışlarını siyasi publisistikaya milliyyətçi türklər gətirmişlər. «Türk yurdu» cəmiyyətinə daxil olan, Şeyx Cəmaləddin Əfqaninin «Vəhdəti-cinsiyyə»…» fəlsəfi traktatını türkcəyə tərcümə edən Məhəmməd Əmin Rəsulzadə türk millətçilərindən «Türklüyü» əxz edərək «Açıq söz» qəzetində ilk dəfə olaraq «müsəlman» və «tatar» sözlərini «türk» sözü ilə əvəz edərək «millətə: Sən Türksən!, rus hökumətinə isə: Biz Türkük! - deyə xitab etdi. Bu sürətlə Məhəmməd Əmin Rəsulzadə «ümmət» və «ümmətçilik» dövrünü rəsmən qapatmış, «millət», «türk» millətçiliyi» dövrünün başlandığını elan etmişdir» (1).

Bütün bunlara baxmayaraq, Bakıda ruhani ailəsində anadan olan, Şərq fəlsəfəsinə dərindən bələd olan, ideoloji baxımdan ilk əvvəllər sosial-demokrat olan Məhəmməd Əmin Rəsulzadənin islam dininə baxışı milliyyətçilərlə eyniyyət təşkil edir. O, İslam birliyi tərəfdarlarının, xüsusilə ittihad və tərəqqiçilərin arasında olsa da dini və milli mənada təkcə İslam birliyi ideyasını qəbul etməmiş və göstərmişdi ki: «Müştərək din və mədəniyyət sahibi olan

millətlər arasında, dolayısı ilə müsəlmanlar arasında bütün müsəlmanları bir məkanda birləşdirən «İttihadi-İslam» (İslam Birliyi - R.Ə.) ola bilməz. İslam Birliyi mümkün olmayacaq bir xəyal, bir utopiyadır» (5).

Məhəmməd Əmin Rəsulzadə də Cəmaləddin Əfqani kimi İslam Birliyinin Federasiya formasını qəbul edir və hətta buna inanaraq yazırdı ki: «Bütün türklərin, bütün ərəblərin, bütün farsların ictimai bir vücud kimi birləşmələri mümkün, həm də istənilən bir haldır. Müsəlman olan millətlər… bir hökumət halına gəldikdən sonra ittihad deyil, İslam İttifaqı ola bilər» (3, 148).

Bu mənada Məhəmməd Əmin Rəsulzadənin din, dil və millət haqqındakı fikir və mülahizələri Cəmaləddin Əfqani və digər türk milliyyətçiləri ilə eyniyyət təşkil edir. Lakin qeyd etmək gərəkdir ki, ictimai-fəlsəfi fikir tariximizdə millət, milliyyət, dil, din, əxlaq, mənəviyyat kimi milli ideologiyamızın əsasını təşkil edən amilləri heç kim M.Ə.Rəsulzadə kimi sistemli şəkildə işləməmişdir. Onun 1914-cü ildə «Dirilik»də çap etdirdiyi «Dirilik nədir?», «Milli dirilik», «Millətin bir rüknü də dindir» adlı silsilə yazıları bütünlüklə bu məsələlərə həsr edilmiş, daha sonra 1915-ci ilin oktyabrından nəşrə başlayan «Açıq söz» qəzetindəki əksər yazıları «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» məfkurələrinin mahiyyətini açıqlamağa həsr edilmişdir.

Öz sələfləri kimi İslam dinində islahat tərəfdarı olan M.Ə.Rəsulzadə göstərirdi ki: «Dinimizin (İslam dininin - R.Ə.) iki cənbəsi (tərəfi - R.Ə.) vardır: ibadət və üsul. Birinci qisim (ibadət - R.Ə.) bəndə ilə Allaha aiddir. İkinci qisim isə bəndə ilə bəndələrə məxsusdur. Birinci qisim sabitdir. Qiyamətə qədər əbədidir. Dəyişikliyə uğramaz, ikinci qisim isə əksinə, bir şəkildə qala bilməz. Təfsir və zamanın tələbinə görə dəyişilə bilər. Bu nöqteyi-nəzərdən şəxsi təfəkkürün qapısı bağlana bilməz. Şəxsi düşüncə millətlərin ictimai həyatlarında daima möhtac olduqları zəruri bir şeydir. Çünki həyat gün-gündən dəyişir. Şəxsi düşüncə də tərəqqi etməlidir. Müctəhidləri tənqid etmək mümkündür. Qayda-qanunlara, üsullara aid xüsusiyyətlər hər zaman dəyişə bilir və dəyişməlidir… Müsəlman aləmini bərbad edən ən böyük xəstəliklərdən biri də ayrı-ayrı fikirlərə hürriyyət verilmədiyindən, yeni fikir və düşüncələri eşitməyə qarşı dözümsüzlüyüdür. Bizdə yeni bir fikir meydana qoyuldumu həmən arı yuvasına çöp uzadılan kimi hamısı yerindən qalxar, hay qoymayın - deyə səs-küy qopar: Bu dinə xilaf oldu, o mövcud olan əsaslara qarşı çıxdı, o biri kafir oldu, digəri bilməm nə oldu - deyə hücum olunar. Nəticədə isə zərər görən həqiqət olar ki, bunun da sonunda həqiqətdən məhrum qalan camaat cəzasını çəkər. Halbuki fikirlərin mübahisəsindən həqiqət qığılcımı doğular» (6).

Milli birlik üçün dinin rolunu yüksək qiymətləndirən M.Ə.Rəsulzadə göstərirdi ki: «Din hər nə qədər dildən sonra gələn bir amil isə də bəzi şərait daxilində ondan (dildən - R.Ə.) daha təsirli bir qüvvə şəklini də ala bilər… Din bir millətin dilinin əbədi qalmasına və bu münasibətlə milliyyət fikri və amalının inkişafına səbəb olur… Millətin bir … dövrü vardır ki, o zaman hər şeyə ancaq dini bir qüdsiyyət nöqteyi-nəzərindən əhəmiyyət verir. Bu qüdsiyyəti-diniyyə etiqadı onu (milləti- R.Ə.) bir çox bəlalardan mühafizə etmək xassəsinə malikdir… Din təəssübü olmasaydı, ehtimal ki, pobedonosevçilərin təmsil etdikləri politikası indiki natamam nəticələrə deyil, daha parlaq müvəffəqiyyətlərə nail olacaqdı» (7).

Məhəmməd Əmin Rəsulzadə də digər Azərbaycan maarifçiləri kimi Tanrı ilə yanaşı etiqadı da qəbul edir, dini fanatizmə, xurafata qarşı mübarizədə əsl, həqiqi dinin öz müqəddəs silahı olan Quranla silahlanmağı məsləhət bilir və bu işdə də öz orijinal fikir və mülahizələrini irəli sürərək göstərirdi ki: «Qurani-Kərimin müxtəlif İslam qövmlərinin dillərinə tərcümə edilməməsi, xüsusilə dini ayinlərin ərəbcə icra olunması islamiyyəti bir qədər milli istiqlaldan, ən başlıcası milli dil azadlığına yardım etmək xüsusiyyətindən məhrum etmişdir…Bir türk ilə fars öz dilindən daha çox ərəbcəyə əhəmiyyət vermiş, ərəbcəni müqəddəs sanmış, ona (ərəb dilinə - R.Ə.) ehtiram eləmiş, bununla da öz dilini, yazısını unutmuş, tam ərəbləş-

mişdir. Ərəb təhsili bu cəhətdən daha çox istifadə etmiş, islamı qəbul edən millətlər ərəbləşməyə üz tutmuşlar. Fars və türk alim və ziyalılarının ən sayılanları dünyaca məşhur olan əsərlərini ərəbcə yazmışlardı… Quranın başqa dillərə tərcümə olunmaması ərəb olmayan millətlər arasında əxlaq nöqteyi-nəzərindən bir çox ağır nəticələr verdi. Xalq dua və sənalarda bulunarkən lazımdır ki, dua əsnasında söylədikləri ilahi sözlərdən bir şey anlayıb da qəlbi ilə hərəkəti birləşsin və özündə böyük bir səmimiyyət görə bilsin. Halbuki belə ola bilmədi.

Təbiətlə işin arasına bir məchulluq və bir güman, sonra da xurafat daxil oldu… Din və onun ehkamları anlaşılmaz bir hala gələrsə, verəcəyi faydanı təmin edə bilməz, ruhsuz olar, məişətdən uzaqlaşar. Eləcə də islam dini bir məişət və həyat dini olaraq təsis edildiyi halda onun daşıyıcıları ilə öz arasına bir məchuliyyət girdi. Bunun nəticəsində də islam həyatında və İslam həyatı ilə yaşamaq gümanında olanlar əsl islamdan uzaqlaşdılar. Bunun üçün də müxtəlif islam millətlərindən olan islam mütəfəkkirləri arasında islam deyə tanınan şeyin islaha möhtac olduğunu düşünənlər gündən-günə çoxalırlar. Şübhəsiz bu yolda bir islah lazımdır.

Belə bir islah vücuda gəlməyincə islam millətləri düçar olduqları ətalətdən çətin ki çıxsınlar. Bu islah həm İslamın ümumi mənfəətini, həm də İslam millətlərinin xüsusi faydasına yarıyar. İslah olunmuş, ilahi əsaslarla icra olunmuş, cəfəng və artıq şeylərdən qurtarıb ictimai və milli əsaslara mane olmayacaq fəlsəfi bir hala qaytarılmış islam dini o vaxt qüvvətli bir tərəqqi amili və eyni zamanda da islam millətlərinin milliyyət və mədəniyyətlərinə xidmət edən mühüm bir mühərrik olacaqdır… Bu da ancaq başqa xüsusiyyətlərin islahı ilə bərabər Qurani-Şərif ilə başlıca dua və ibadətlərin türkcəyə tərcümə olunub xalqın ruh və qəlbinə qida verəcək bir sürətə qoyulması ilə hasil ola bilər» (7).

Məhəmməd Əmin Rəsulzadənin və bütövlükdə mütərəqqi Azərbaycan maarifçiliyinin «İslamlaşmaq» tezisi hər şeydən əvvəl xurafatdan azad olan ali ilahi təlim idi. Bu təlim hər şeydən əvvəl, ortodoks dini ideologiyaya, mövhumata və xurafata qarşı çıxa bilmənin də optimal forması idi. Məhz bu baxımdan Şeyx Cəmaləddin Əfqani tərəfindən irəli sürülən və Türk dünyasının ictimai-siyasi xadimləri tərəfindən ideoloji-fəlsəfi və hətta dövlət siyasəti səviyyəsinə qaldırılan «İslamlaşmaq» dini müasirləşdirmək, dində islahat ideyasını irəli sürmək o dövrdə böyük cəsarət, dərin elm tələb edirdi.

Xurafat və mövhumatı həqiqi dindən fərqləndirmək, islama əsaslanan maarifçiliklə axundların, mollaların korladığı islama qarşı çıxmaq, elmi dinlə, dini müasirliklə və milliyyətçiliklə birləşdirə bilməklə onlar yaşadıqları cəmiyyəti müasirləşdirmək üçün Quranın cəmiyyətdəki böyük təsir gücündən bacarıqla istifadə edərək belə bir mükəmməl təlimi meydana gətirə bildilər. Şeyx Cəmaləddin Əfqaninin «Dində, əqidədə birlik», İsmayıl Bəy Qaspıralının «Dildə, fikirdə, işdə birlik», Əli bəy Hüseynzadənin «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq», Məhəmməd Əmin Rəsulzadənin «Milliyyət, Beynəlmiləliyyət, Əsriyyət» ideyaları, nəhayət, 1918-ci ildə Şərqdə, ilk dəfə Azərbaycanda öz bəhrəsini verdi. Azərbaycan Xalq Cümhuriyyəti bu ideoloji sistem əsasında yarandı. Azərbaycan Xalq Cümhuriyyətinin, bütövlükdə Türk dünyasının qəbul etdiyi və rəhbər tutduğu bu mənəvi meyarlar - İslam, Türk və Müasirlik dəyərləri ilk dəfə olaraq rəsmi-ideoloji doktrina, dövlət siyasəti səviyyəsində əməl, iş proqramı kimi elan və qəbul olundu. Eyni zamanda üçrəngli rəsmi dövlət bayrağı bu ideoloji sistemi özündə əks etdirdi.

Azərbaycanın milli istiqlalını, ərazi bütövlüyünü, Respublika statusu üçün potensial tarixi əsasını, inzibati və siyasi modelini də bu ideoloji doktrina özündə əxz edirdi. O həmçinin xalqımıza eyni sosial-siyasi məkanda milli-mənəvi yaddaşın qorunmasını, təzahürü və yüksəlişi üçün fəlsəfi-estetik təməlini, nəzəri əsasını, milli tərəqqi təlimi və konsepsiyasını ərmağan etdi. Bu ideoloji doktrina türklüyün ilk öncə Osmanlı imperatorluğu və çar Rusiyasında, daha sonra isə Türkiyə və Sovet İttifaqında yenidən mərkəzləşib, yeni keyfiyyət dəyişikliklərinin qazanmasına səbəb oldu. Beləliklə, 1923-cü ildə yaranan Türkiyə Respublikası,

1991-ci ildə isə yaradılan Müstəqil Azərbaycan Respublikası yenidən bu ideoloji sistemə sahib çıxdı.

### İstifadə edilmiş ədəbiyyat


1. «Açıq söz» qəzeti. 1915. (№50).
2. Əhmədli R. A. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, islamçılıq, müasirlik Bakı, Elm, 2007.
3. Qurbanov Ş. Cəmaləddin Əfqani və Türk dünyası. B., 1996.
4. Rəsulzadə M.Ə. Əsərləri, İkinci cild. Bakı.2001.
5. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. Bakı., 1991.
6. Rəsulzadə M.Ə. «Yeddi bəyza», «Bəsirət» qəz. 1914. 06.(№9).
7. Rəsulzadə M.Ə. «Millətin bir rüknü də dindir». «Dirilik», 16.12.1914, №7.


## MƏMMƏD ƏMİN RƏSULZADƏNİN DİNİ BAXIŞLARI

*Rafail Əhmədli*


**Xülasə**

Məqalədə XIX əsrin sonu XXəsrin əvvəllərində bütün Türk dünyasında düşüncə sahibləri arasında üç ideoloji sistemin - "Türkləşmək, İslamlaşmaq, Müasirləşmək" formalaşmasına nəzər salınır, siyasi xadim M.Ə.Rəsulzadənin dini baxışları "ümmət" və "millət" haqqında düşüncələri araşdırılır.

Eyni zamanda mütəfəkkirin millət, dil, din, mənəviyyat kimi amillərə sistemli yanaşması, milli birlik üçün dinin roluna verdiyi qiymət, bir maarifçi kimi dini fanatizmə, xurafata qarşı mübarizədə əsl həqiqi dinin mahiyyətinin dərk olunması üçün bildirdiyi tövsiyələri təhlil olunur.


## MAMMAD AMIN RASULZADE`S RELIGIOUS VIEWS

*Rafail Ahmedli*


**Summary**

The article examines the formation of three ideological systems - "Turkization, Islamization, Modernization" among thinkers in the entire Turkic world at the end of the 19th century and the beginning of the 20th century. As a politician M. A. Rasulzade's religious views and thoughts about "nation" and "nation" are examined.

And also, the thinker's systematic approach to factors such as nation, language, religion, spirituality, his assessment of the role of religion for national unity, and his advices as an educator in the fight against religious fanaticism and superstition are analyzed.

# MEHMET EMİN RESULZADE VE MUHACİRLERİN TÜRKİYE'DEN SÜRGÜN EDİLMESİNDE SOVYETLER BİRLİĞİ İLE TÜRKİYE ARASINDAKİ PARİS ANLAŞMASININ ROLÜ

***Prof. Dr. Sebahattin ŞİMŞİR***
***Balıkesir Üniversitesi Türkiye***
*sebahattinsimsir@gmail.com*

***Anahtar Kelimeler:*** M.E.Resulzade, Türkiye, Paris, Sovyetler Birliği, Azerbaycan
***Key Words:*** M.E.Resulzade, Turkey, Paris, Soviet Union, Azerbaijan

Her ne kadar Türkiye ile Sovyetler Birliği arasındaki münasebetler I. Dünya Savaşı sonrasında Türkiye'nin istiklal savaşı mücadelesi verdiği dönemde başlamış olsa da, bu süreç sonraki yıllarda da, özellikle Mustafa Kemal Paşa döneminde yükselerek devam etmiştir. Kuşkusuz bu dönemin en önemli gelişmeleri Azerbaycan Cumhuriyeti'nin Kızıl Ordu birlikleri tarafından işgal edilmesi ile farklı bir seyir takip etmiştir. Şüphesiz bu süreçte Azerbaycan'dan Türkiye'ye göç eden Azerbaycan Türkleri de, bu gelişmelerden olumsuz olarak etkilenmişlerdir.

28 Mayıs 1918 tarihinde istiklalini ilan eden Azerbaycan Cumhuriyeti'nin bu mesut dönemi 23 ay gibi kısa bir süre devam etmiştir. Bu dönemde, Rusların Azerbaycan ve Bakü petrolleri üzerinde hesaplar yaptıkları muhakkak olup, fırsat bekledikleri de bir gerçektir. Nitekim bu fırsat Anadolu Türklerinin istiklal mücadelesi verdiği sırada, onlara, yani Anadolu Türklerine yardımı vesile ederek hayata geçirmişlerdir. Azerbaycan Bolşevik Rus orduları tarafından istila edilmeden kısa bir süre önce Azerbaycan Millî Şura Başkanı Mehmet Emin Resulzade, başta Halil Paşa olmak üzere, diğer Türkiyeli siyasi mültecilere, Rus Bolşeviklerin Anadolu'ya yardımı bahane ederek Azerbaycan'ı istilaya yelteneceklerini bildirerek Ruslara uymamalarını, halkın maneviyatını kırmamalarını istemiş ve şunları söylemiştir: *Yapmayınız, bizi kendi halimize bırakınız. Yüz seneden beri taht-ı esaretinde bulunduğumuz Rusları biz daha iyi biliriz. Onlar hile ile gelir sonra bizi ezerler* [1, s.99].

Ancak, Mehmed Emin Resulzade'nin bu uyarıları o zaman yeterince anlaşılamamış ve Ruslar 27 Nisan 1920 tarihinde Azerbaycan'ı işgal ederek, Cumhuriyeti ortadan kaldırmışlardır. Bu ağır durum sonrasında, yani işgal sonrasında Azerbaycanlılar Bolşevik baskı ve zulümlerinden kurtulmak için, başta Türkiye ve İran olmak üzere komşu ülkelere geçme yolları aramaya başlamışlardır.

Şüphesiz bu dönemin önemli isimlerinin başında gelen M.E.Resulzade yakalandıktan sonra götürüldüğü Moskova'dan kaçışını Stalin'le İhtilal Hatıraları'nda, Türk silahlı kuvvetlerinin düşmanı İzmir'den denize dökmek üzere harekete geçildiği günlerde gerçekleştiğini belirtmiştir [5].

Gerçi Anadolu, Türk Dünyasının muhtelif bölgelerinde yaşayan Türkler için, her zaman anavatan olarak görülmüştür. Hatta meşhur Kazak devlet adamı Mustafa Çokay bunu şu veciz sözle; *her Türk'ün iki vatanı vardır. Biri doğduğu yer, diğeri ise Türkiye Cumhuriyeti'dir* diyerek vurgulamıştır. Aynı dönemde sadece Azerbaycan'dan değil, Kafkasya'nın diğer bölgeleri ve Türkistan'dan da Anadolu'ya izinli veya izinsiz bir göç dalgası olduğu bilinmektedir. Bu gelişmelerde, Anadolu Türklerinin sınırları dışında yaşayan ırkdaşlarının kaderine daima ilgi duymalarının rolü büyüktür.

Ancak, bu ilgi bir müddet sonra, bir zamanlar Osmanlı Devleti'nin sınırları içinde bulunan, Balkan topraklarına göç etmiş olup, orada yaşayan Türklerin anavatana dönüşleri desteklenmekle birlikte, kültür bakımından Anadolu Türklerinden farklı sayılan, Sovyet Cumhuriyetlerinde yaşayan Türklerin, Türkiye'ye gelişlerinde aynı hassasiyet gösterilmemiştir. Ama her şeye rağmen, bu bölgelerden gelen şahısların iltica talebinde

bulunanlar da, genelde büyük bir güçlüğe uğramadan da Türkiye'ye kabul edilmişlerdir [4, s.219].

Azerbaycan muhacirlerinin Nisan 1920 sonrası başlayan Türkiye'ye göçleri Resulzade'nin geldiği 1922 yılına kadar, günlük iaşe ve ibadelerinin sağlanması için koşuşturmakla geçmiştir. Nitekim Resulzade bu manzara karşısında hayal kırıklığını şu cümlelerle ifade etmiştir; *İstanbul'a uğradığım günlerde oradaki Azerbaycan kolonisine dair gördüğüm manzara hiç de tahmin etmediğim bir fecaat arzediyordu* [7, s.42].

Resulzade bu durumdan dahi ümitsizliğe kapılmadığı gibi, İstanbul'daki ilk gününden itibaren, bütün cihana karşı tarihe mal edilmiş olan Azerbaycan istiklali davasını üzerine almıştır. Azerbaycan Cumhuriyeti, Asrımızın Siyavuş'u gibi kitaplar Yeni Kafkasya gibi dergiler yanında siyasi mücadeleyi verecek olan Azerbaycan Milli Merkezini oluşturarak, bunun Azerbaycan'ın sürgündeki siyasi temsilcisi olduğunu belirtmiştir.

Türkiye ile Rusya arasında 16 Mart 1921 tarihinde imzalanan antlaşmanın amacı herhalde Türkiye açısından tartışılamayacak kadar önemli oluşudur. Bu antlaşmanın dokuz ve onuncu maddeleri iki ülke vatandaşlarına ayrılmıştır. Ahmet Özgiray bu durumu şöyle bağlamaktadır; *bir Türk yazarı, Türkler ve Ruslar hakkında şu basit ifadeyi kullandı: "İki ülkenin düşmanları aynıdır." Gerçekten de Moskova Antlaşması'nın temel dayanağı da budur. İki ülkenin milleti geniş ve karşılıklı ortak ihtiyaçları için dostça ortak politika üretti beyanatını aynı Türk yazar belirtmiştir. Mamafih, iki ülkenin karşılıklı ilişkilerinde birçok önemli ve ince noktalar vardı. Ankara hükûmeti, topraklarında ihtilalci Bolşevik doktrinin yayılmasına müsaade etmedi. Bolşevik Rusya'da, Türk milliyetçilik hareketinin Rusya'da yayılmasını uygun bulmadı. İşte, her iki taraftaki bu his, iki ülkenin çatışmasına engel oldu* [2, s.18-19].

Her ne kadar Lozan Antlaşmasından sonraki dönemde Türk – Rus İlişkileri de İngiliz istihbaratını ilgilendirmeye devam etmiştir. 8 Kasım 1923 tarihli istihbarat raporu bu konuda şu ilginç bilgiyi vermiştir. *Brest-Litovsk ve Batum anlaşmaları bizi hem elden hem de ayaktan bağladı. Savaştan zayıf çıkan Türkiye'nin kendi etki bölgemizde kalacağını sanarak, ona özveride bulunmayı ilkin iyi karşıladık, ama uluslararası durum Türkiye'nin yararına gelişmiş ve Türkiye'nin bize karşı olan tutumu değişmiştir. Lozan'daki başarısından sarhoş olan Türkiye Müslüman Doğuya, Batıya ve Rusya'ya karşı kullanma düşüne geri dönmüştür.*

*İşte bu düş Türk siyasetinin özünü oluşturmaktadır. Türkler Mavera-yı Kafkas ve Türkistan da dahil Sovyetlerin Doğu ülkeleri üzerinde kendi hegemonyalarını kurmak emelindedirler. Türkiye bu amaçla, Afganistan, İran ve Arap şeyhlerini kullanmaya çalışıyor, dolayısıyla Türkistan'a büyük silahlı güçler üslendirmek zorundayız. Türkler, Mavera-yı Kafkas'da geniş bir propaganda kampanyasına girişmişlerdi* [6, s.135] şeklindeki yorum ve yaklaşım gerçeği aksettirmektedir.

Resulzade'nin özellikle yayın alanındaki faaliyetleri ilk zamanlar olmasa da, 17 Aralık 1925 tarihinde Paris'te imzalanan Dostluk ve Tarafsızlık Anlaşması sonrasında dengeler Türkiye'deki Rusya mahkumu Türklerin liderleri aleyhine değişmeye başlamıştır. Bu çalışmada biz bu değişim ve Türkiye'nin uygulamalarını değerlendirmeye çalışacağız.

Zira, 1925 Dostluk ve Tarafsızlık Antlaşmasının her iki memleketin bağımsızlık ve egemenliklerini sınırlayan bir anlaşma olarak sayılmaması gerekmektedir. Çünkü her iki memleket birbirlerinin aleyhine bir harekete katılmayacaklarından tamamen emindirler [8, s.106]. Eğer taraflardan herhangi biri 6 ay önceden bilgi vermezse üç yıllığına imzalanan anlaşmanın süresi bir yıl daha uzayacaktır. 17 Aralık 1929 tarihinde anlaşmanın süresi iki yıl, 30 Ekim 1931 tarihinde ise beş yıl daha uzatılmıştır. 7 Kasım 1935 tarihinde ise, on yıl süreyle uzatılmıştır.

1925 ve 1932'de Mustafa Kemal Paşa, Türkiye'deki Komünistleri mahkeme kararıyla hapse attırmıştır. Çünkü, Ruslar her ülkenin iç zaaflarından istifade etmeyi gayet iyi bilirler. Ayrıca Mustafa Kemal Paşa'da, Rusların dış politikasında Ankara'nın köşe taşı olduğunu iyi

biliyordu. Ruslar Ankara'nın yaptıklarını uluslararası politika diyeti gereği sineye mecburen çekiyordu. Zaten büyük devlet adamı olmak herkesin harcı değildir. İlerisini de görmek herkese nasip olmaz. Nerede duracağını bilmek önemli bir haslettir [2, s.19].

Bu dönemde Türkiye'de çok partili hayata geçilmesi tekrar denenmiş, Fethi Bey'in Batılı devletlerle ilişkileri kuvvetlendirmek için kurduğu Serbest Fırka'nın oluşumundan sonra bu ziyaret 1930 yılında Moskova'ya yapılmıştır. 1931 yılında, bütün uluslararası meselelerde iki hükümetin aynı görüşü benimsedikleri iki ülke halkını birleştiren sevgi, saygı ve bilhassa emperyalist Avrupa'ya karşı duydukları nefreti her iki taraf da her fırsatta açıklıyordu. Fakat fasılalı olsa da iki devlet arasındaki ilişkilerde bazı kopukluklar da olmuyor değildi. Türk basını, komünizmin Rusya için ideal bir sistem olduğundan şüphe etmemekle beraber, bu sistemin Türk halkına ve Türk mantığına uygun olmadığını belirtiyordu. Bu arada ister Türkler, isterse Ruslar tarafından yapılan komünist propagandası Rusya tarafından iyi karşılanmasa da, Türk yetkililer en sert şekilde propaganda yapanları cezalandırıyordu. Rusya ise bunu sineye çekmek zorunda kalıyordu [3, s.193-194].

Burada şu hususun vurgulanması yerinde olacaktır. O da, Türkiye Cumhuriyeti yöneticilerinin ve basının büyük bir kısmının komünizm karşıtı faaliyetleri ve bunlara karşı verilen mücadelenin karşı tarafı veya Türkiye'deki Sovyet Rusya mahkumu Türklerin de tehlikeli görülmesi düşündürücüdür. Hele bunların, Türkiye'de bin bir sıkıntı içinde varlıklarını sürdürmek ve rızk kavgasından sonra kalan zamanlarını siyasi ve kültürel meselelere ayırmalarına destek olunmadığı gibi, çıkardıkları Yeni Kafkasya, Azeri Türk, Odlu Yurt, Bildiriş gibi gazete ve dergilerin devletin kararı ile kapatılması yetmezmiş gibi, Azerbaycan istiklali davasının önderlerinin başta Mehmet Emin Resulzade olmak üzere, Türk Dünyasının muhtelif bölgelerinden gelenlerin Türkiye dışına çıkarılmaları elbette bugünün bakış açısı ile değil, o günkü Türkiye'nin içinde bulunduğu şartlar göz önünde bulundurularak değerlendirilmelidir. Lakin sonrasında ise, bu kez yurt dışında yayınlanan Mirza Bala Mehmetzade'nin Milli Azerbaycan Hareketi (Ek. 1) ile Kafkas Almanağı (Ek. 2) gibi yayınların Bakanlar Kurulu kararı ile yasaklanması da şüphesiz o günkü şatlarda düşünülmelidir.

Şüphesiz bu dönemde İsmet Paşa ile Mehmet Emin Resulzade'nin münasebetlerinin nasıl olduğu hususudur. Bu konuda BOA. Dışişleri Başkanlığı Türk Diplomatik Arşivi 571/34747/136812/38 sayılı yazılarda Resulzade'nin Mustafa Kemal Paşa ve Türk yetkililere teşekkür ettiği gibi, 22.9.1925 tarihli belgeden anlaşılmaktadır. Yine Musafa Kemal Paşa ile Resulzade Dolmabahçe'de karşılaştıklarında kendisine şöyle demiştir; *Ben dünya senden 3 sene erken göz açmışım ancak ilk cumhuriyet bayrağını ilk kez yükselttin zirveye ve bayrak inmez diye senin elinden alıp ben Türkiye üzerinde dalgalandırmışım, inmez demişsin bu bayrak inmeyecek!*

Diğer taraftan şurası da göz ardı edilmemelidir ki, o da Mustafa Kemal Paşa'nın Cumhuriyetin Onuncu yıl kutlamaları çerçevesinde Ankara'da Ziraat Bankası'nın Cumhuriyetin Onuncu yıl kutlamaları çerçevesinde söylemiş olduğu şu sözler öncelikle düşünülmelidir:

*Bugün Sovyetler Birliği dostumuzdur. Bu dostluğa ihtiyacımız vardır. Fakat yarın ne olacağını, kimse bugünde kestiremez, tıpkı Osmanlı gibi, tıpkı Avusturya – Macaristan gibi parçalanabilir, ufalabilir. Dünya yeni bir dengeye ulaşabilir. İşte o zaman Türkiye ne yapacağını bilmelidir. Bizim bu dostluğun idaresinde dili bir, inancı bir kardeşlerimiz vardır. Onlara sahip çıkmaya hazır olmalıyız. Hazır olmak yalnız susup beklemek değildir. Hazırlanmak lazımdır. Milletler buna nasıl hazırlanır? Manevi köprülerini sağlam atarak. Dil bir köprüdür. İnanç bir köprüdür. Tarih bir köprüdür. Köklerimize inmeli ve olayların böldüğü tarihimizin içinde bütünleşmeliyiz. Onların bize yaklaşmalarını bekleyemeyiz. Bizim onlara yaklaşmamız gerekir.*

Evet, Cumhuriyetin onuncu yıl kutlamaları esnasında Mustafa Kemal Paşa'nın zihin dünyası bu cümleleri ifade ederken ortaya koyduğu tavır ile devlet politikasının daha farklı olması ve Türk Dünyasından gelip Türkiye'de özellikle basın alanındaki faaliyetleri ile geldikleri bölgelerin istiklalini düşünenlerin, önce faaliyet alanlarının kapatılması, ardından da ülkeden çıkarılmaları, yaman bir çelişki gibi gözükmekle birlikte bir vakıadır. Muhtemelen bundan sonraki çalışmalarımızda bu süreç daha ayrıntılı ele alınmalıdır.

Sonuç:

1921 Moskova Antlaşması ile başlayan Türk Sovyet ilişkileri, karşılıklı dostluk ilişkileri içinde yaklaşık 20 yıl sürmüştür.

Ancak bu dostluk münasebetlerinin pek de isteyerek gitmedi, şartlar gereği böyle sürdürülmeye çalışıldığı da bir gerçektir. Zira daha Lozan görüşmeleri esnasında, İsmet Paşa Ruslar hakkında; *Sovyet Rusya ile asla içten dostluk ilişkileri kurmayacağız, çünkü esir Çar yönetimi gibi, şimdiki hükûmet, Türkiye'ye karşı saldırgan bir siyaset izliyor. İlk fırsatta doğu illerimiz istila edecektir. Ayrıca İstanbul'u ele geçirmek emelindedirler* [3, s.36] sözleri gerçeği aksettirmektedir.

1929 sonrası gelişmeler de ise, Türkiye ile Rusya arasındaki ilişkiler sadece pratik ve politik karaktere sahiptir. Türkiye'nin Sovyet Rusya ile olan ilişkileri, Türkiye'nin politik olarak yüzünü döndürmesine mani değildir. İki ülke arasındaki antlaşmalar gereğince, biri diğerinin iç işlerine müdahaleyi hariç tutuyordu. Türkiye bu maddeyi, kendi toprakları üzerinde ne çeşit olursa olsun Bolşevik propagandasına sert bir şekilde karşı koyarak kullanıyordu. Hatta Türkiye komünizmi devlete karşı düşmanca bir tavır sayarak yasaklıyor, komünizm yandaşlarını da hiçbir devletten çekinmeyerek en şiddetli şekilde cezalandırıyordu. Ancak, aynı dönemde, özellikle 1929 sonrası yaşanan süreçte, eski Rusya veya Sovyetler Birliği topraklarından gelen o ülkenin vatandaşı olup, Anadolu'ya gelen Türk kökenlilerin, başta basın yayın alanlarındaki faaliyetleri Rusya'yı bir hayli sıkıntıya düşürmüştür. Bunun neticesi olarak da, Yeni Kafkasya, Azeri Türk, Odlu Yurt, Bildiriş, gibi Türkiye'de çıkan dergiler kapatıldığı gibi İstiklal, Kurtuluş, Dilek, Kafkas Almanağı, Milli Azerbaycan Hareketi gibi Türkiye dışında yayınlanan dergi ve kitapların Türkiye'ye girişlerinin yasaklandığı da bir gerçektir. Oysa, Türkiye'de siyasi iktidarın Komünist propagandaya karşı tavır takınması ile Rusya'dan kaçan Türklere ve kendi istiklallerinin kavgasını verenlerin karıştırılmaması gerekmektedir.

## Kaynaklar:


1. Ahmet Karaca, *Azerbaycan Milli Hareketinin İdeolojik Karakteri*, Milli Eğitim ve Kültür, Y. 2, S. 7, Haziran – Temmuz – Ağustos, 1980.
2. Ahmet Özgiray, Atatürk'ün Dış Politikası 1919 – 1938, İzmir, 1999.
3. Ahmet Özgiray, *Türk Sovyet İlişkileri*, Prof. Dr. İsmail Aka Armağanı, İzmir 1999
4. Kemal Karpat, Türk Demokrasi Tarihi, İstanbul, 1996.
5. Mehmet Emin Resulzade, *İhtilal Hatıraları*, Dünya Gazetesi, 15 Haziran 1954, Tefrika No: 25.
6. Salahi R. Sonyel, Kurtuluş Savaşı Günlerinde İngiliz İstihbarat Servisinin Türkiye'deki Faaliyetleri, Ankara, 1995.
7. Sebahattin Şimşir, *Mehmet Emin Resulzade'nin Türkiye'ye Geliş Tarihi Açısından Önemli Bir Vesika*, Kardaş Edebiyatlar, Ocak-Şubat-Mart 1998,

2. Suat Bilge, Güç Komşuluk, Ankara, 1992.

# RESULZADE VE MUHACİRLERİN TÜRKİYE'DEN SÜRGÜN EDİLMESİNDE SOVYETLER BİRLİĞİ İLE TÜRKİYE ARASINDAKİ PARİS ANLAŞMASININ ROLÜ

***Sebahattin Şimşir***

**Xülasə**

Birinci Dünya Savaşından sonra ortaya çıkan yeni durum Türkiye için sıkıntılı olmuştur. Batılı devletlerin Türkiye'yi parçalama arzuları başarılı olmamıştır. Sovyetler Birliği ile bu dönemde başlayan dostluk, Pariş anlaşması ile zirveye çıkmıştır. Lakin bir müddet sonra bu anlaşmaya binaen Resulzade ve Türkiye'deki diğer Azerbaycan Türkleri Türkiye dışına gönderilmişlerdir.

# IN THE EXILE OF RASULZADE AND IMMIGRANTS FROM TURKEY THE ROLE OF THE PARIS AGREEMENT BETWEEN THE SOVIET UNION AND TURKEY

***Sebahattin Shimshir***

**Summary**

The new situation that emerged after the First World War was troublesome forTurkey. The desire of Western states to disintegrate Turkey has not been successful. This is with the Soviet Union.The friendship that started during the period reached its peak with the Parish agreement. But after a while this According to the agreement, Resulzade and other Azerbaijani Turks in Turkey were sent out of Turkey. They were sent.



T. C.
BAŞVEKALET
KARARLAR DAİRESİ MÜDÜRLÜĞÜ
Karar sayısı
2
9569

Kararname

T. C.
BAŞBAKANLIK
CUMHURİYET ARŞİVİ

Berlinde basılan ve [illegible] Zade Mirza Bala tarafından yazılmış olan "Milli Azerbaycan Hareketi" adlı eserin zararlı yazıları taşıdığı anlaşıldığından Matbuat Kanununun 51 inci maddesi mucibince satışının ve memlekete sokulmasının yasak edilmesi Dahiliye Vekilliğinin [illegible] tarih ve 4152/33/A/II sayılı teklifi üzerine İcra Vekilleri Heyetince 14/[illegible]/938 tarihinde onanmıştır.

14/[illegible]/938

REİSİCUMHUR
K. Atatürk

Bş. V. — Ad. V. — M. M. V. — Da. V.
Ha. V. V. — Ma. V. — Mf. V. — Na. V.
İk. V. — S. İ. M. V. — G. İ. V. — Zr. V.



BAŞVEKALET
KARARLAR MÜDÜRLÜĞÜ
Karar sayısı
2
5322

Kararname

CUMHURİYET ARŞİVİ

F. Daryal tarafından yazılan ve İstanbulda Milli Mecmua Matbaasında Türkçe basılan "Kafkas Almanağı" adındaki kitabın, zararlı yazıları taşıdığı anlaşıldığından, Matbuat Kanununun 51 inci maddesi hükmüne göre toplattırılması ve satışının yasak edilmesi; Dahiliye Vekilliğinin 8/9/936 tarih ve 1414 sayılı teskeresiyle yapılan teklifi üzerine İcra Vekilleri Heyetince 15/9/936 da onanmıştır.

15/9/936

REİSİCUMHUR
K. Atatürk

Bş. V. V. — Ad. V. — M. M. V. — Da. V. V.
Ha. V. V. — Ma. V. — Mf. V. — Na. V.
İk. V. — S. İ. M. V. — G. İ. V. — Zr. V. V.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ VƏ AXC DÖVRÜNDƏ İLK DEMOKRATİK HƏMKARLAR İTTİFAQLARI

***Hüseyn Qaraşov,***
***sosiologiya elmləri doktoru, professor,***
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***

***Zeynəddin Şabanov***
***fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
*zeynaddin.shabanov@mail.ru*

***Açar sözlər:*** müstəqlillik, cəmiyyət, siyasət, həmkarlar ittifaqı, demokratik idarəetmə, islahatlar, işçilər, fəhlələr, iqtisadi vəziyyət
***Keywords:*** independence, society, politics, trade union, democratic governance, reforms, workers, economic situation

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra müstəqil dövlətdə zəruri islahatlar aparılmağa başlandı, yeni qanunlar qəbul edildi, daxili və xarici siyasətin həyata keçirilməsində müstəqillik elementlərinə üstünlük verildi, xalqın sərvətlərinin talan edilməsinin qarşısı alındı, üzvlük haqqında beynəlxalq təşkilatlara müraciətlər olundu. Bununla belə, bolşevik Rusiyası təzyiqlərini və təhdidlərini davam etdirir, ölkənin daxili işlərinə qarışır, onun müstəqilliyini tanımaq istəmirdi. Bolşeviklər pərakəndəlik yaradır, fəhlələr arasında müstəqil dövləti gözdən salmaq üçün çalışır, həmkarlar ittifaqları təşkilatlarına güclü təsir edirdilər. Ümumilikdə isə, Bakı fəhlələri içərisində qeyri-azərbaycanlılar fəallıq təşkil edirdilər. Onların da əksəriyyəti bolşeviklərin tərəfini saxlayırdılar.

Gənc Azərbaycan hökuməti ölkədə sabitliyi qoruyub saxlamaq üçün bütün diplomatik imkanlarından çevikliklə istifadə edərək, ingilis komandanlığı ilə siyasi kompromisə getməyə məcbur olmuşdu. Bu dövrdə xırda burjua liderlərinin rəhbərlik etdiyi Bakı Fəhlə Konfransının (BFK) hökumətlə barışmaz müxalifətdə olması AXC-nin fəaliyyətinə çətinliklər yaradırdı. 1918-ci il dekabrın 24-də BFK məhbusların buraxılması, mətbuat azadlığı, həmkarlar ittifaqının sərbəstliyi, yığıncaqlar azadlığı şüarları altında tətil keçirdi.

Bu xəyanətkar tətildə menşevik Çurayev AXC hökumətinin guya həmkarlar ittifaqlarının azadlığını pozduğu barədə riyakar bəyanat vermiş və qanuni Azərbaycan dövlətilə hesablaşmayaraq ingilis komandanlığından tələb etmişdi ki, neft sahibkarlarından və fəhlə konfransı nümayəndələrindən ibarət sazişçi komissiya yaradılsın və kollektiv müqavilə bərpa olunsun. BFK-nın iclasında iştirak edən M.Ə. Rəsulzadə konfrans liderlərinin separatçı mövqeyini qəti pisləmiş və xüsusilə vurğulamışdı ki, fəhlələrin iqtisadi maraqları ilə bağlı bu problemin həllində səlahiyyətli tərəf ingilis komandanlığı deyil, öz parlamentinə söykənən yeganə qanuni Azərbaycan hökumətidir [2, s.114].

Üçgünlük 1918-ci il dekabr tətili Bakı fəhlələrinin qələbəsi ilə başa çatdı. Tətilin «ibrət dərsləri» bu oldu ki, fəhlə kütlələri içərisində bolşeviklərin riyakar siması üzə çıxdı, ingilis komandanlığı isə Bakı proletariatının real gücünü hiss edərək, onun siyasi tələblərinə daha ehtiyatlı yanaşmağa başladı. Komandanlıq güzəştə gedərək məhbusları azad etməli olmuşdu. Vəziyyətin mürəkkəb xarakterini real qiymətləndirən Parlament özünün 1918-ci il 25 dekabr tarixli iclasında siyasi məhbuslara amnistiya vermək məqsədilə A. Kardaşev, A. Əfəndiyev, A. Tağıyev, A. Səfikürdski, S. Ağamalıoğlundan ibarət komissiya yaratmalı oldu. Fəhlə tətillərinin yaratdığı mürəkkəb sosial-siyasi şərait elə idi ki, həm AXC hökumətinin, həm BFK-nın tədbirlərində fəhlələrin əmək hüquqları gündəlikdən düşmürdü. Dekabr tətilindən sonra

mütəmadi keçirilən fəhlə konfranslarında siyasi xarakterli məsələlərin müzakirəsinə daha çox yer verilirdi.

Artıq 1919-cu ilin yanvarında etnik situasiya da mürəkkəbləşmişdi. Belə ki, rus fəhlələri açıq-aşkar kommunistlərə meyil göstərir, bolşeviklərin konfransında onlar daha çox çıxış edərək, fəhlələr arasında Müsavat hökumətinin sosial siyasətinə qarşı böhtançı bəyannamələr yayırdılar. Həmin ilin martından kommunistlər konfransın tədbirlərində çoxluq təşkil etməyə başlayır. Artıq konfransın rəyasət heyətində təmsil olunan 10 üzvdən 7-si kommunist idi [5, s.193]. 1919-cu il yanvarın 8-də parlament iclasında müsavatçı A.K. Kazımzadənin müsavat fraksiyasının Əmək nazirinə ünvanladığı tələbdə fəhlələrin vəziyyətinin son dərəcə ağır olduğu göstərilir, kollektiv müqavilənin ləğv edilməsi, əməkhaqqının aşağı düşməsi xüsusi vurğulanırdı.

Müsavat fraksiyasının bu haqlı iradına Əmək naziri A. Səfikürdski operativ reaksiya verərək, fəhlələrin vəziyyətini yaxşılaşdırmaq üçün hökumətin bütün səyləri göstərəcəyini bəyan etmişdi. O, müttəfiqlərin, komandanlığın, neft sahibkarlarının, bank və fabrik müfəttişliyi nümayəndələrinin iştirakı ilə çağırılmış müşavirədə 1919-cu il yanvarın 1-dən fəhlə və qulluqçuların maaşını artırmaq məqsədilə müəyyən vəsaitin ayrılacağını bəyan etmişdi [3, s.59]. Əmək nazirliyi iqtisadiyyatı inkişaf etdirmək təşəbbüsünü bolşevik hay-küyçülərinin, eləcə də menşevik-daşnak millətçilərinin öhdəsinə buraxmamaq üçün M.Ə.Rəsulzadənin təklifi ilə fəhlə məsələsi üzrə xüsusi müşavirənin təşkilinə başlamışdı.

Xüsusi müşavirə əməyin mühafizəsi və fəhlələrin məişət məsələləri ilə bağlı problemləri tez bir zamanda həll etməyi planlaşdırmışdı. Təəssüf ki, həm subyektiv, həm də obyektiv səbəblər, eləcə də bürokratik süründürməçilik üzündən parlament gənc respublikanın siyasi imici üçün müstəsna əhəmiyyət kəsb edən bu sənədi yalnız 1919-cu il martın 19-da təsdiq etdi. Belə ləngiməni M.Ə.Rəsulzadə kəskin tənqid etmişdi [1, s.76]. Hökumət «fəhlələr məsələsi»lə ciddi məşğul olsa da, əməkhaqqının artırılması məqsədilə mümkün daxili vəsait və imkanların axtarışlarında əlindən gələni etsə də, ölkənin iqtisadi vəziyyətində müsbət dəyişikliklərə nail ola bilməmişdi, əksinə, bolşeviklərin təxribatçı səyləri nəticəsində istehsalın tempi aşağı düşür, gündəlik tələbat məhsullarının qiyməti artırdı.

Lakin artmaqda olan iqtisadi böhran hökuməti təxirəsalınmaz tədbirlər görməyə vadar etsə də, digər partiya və fraksiyaların parlamentin fəaliyyətini pozmağa yönəlmiş hərəkətləri ölkədə siyasi-iqtisadi böhranı daha da kəskinləşdirirdi. Məsələn, 1919-cu il fevralın 4-də Parlamentdə fəhlə komissiyasının əməkhaqqını artırmaq üzrə qanun layihəsi müzakirə edilərkən, sosialistlər bunun fəhlələrin maddi vəziyyətinin yaxşılaşdırılmasında heç bir faydası olmayacağını da israr etmişdilər. Bu məsələdə «İttihad» partiyası da sosialistləri dəstəkləmişdi. Layihəni yalnız «müsavat»çılar bəyənib müdafiə etmişdilər. İttihadçıların bu mövqeyi əslində hökumətə ilk etimadsızlığın təzahürü idi [4, s.30].

M.Ə.Rəsulzadə iqtisadi böhranın yumşaldılması üçün fəhlələrin əmək haqqının artırılmasını təklif edirdi. Ayrı-ayrı yerlərdə əmək adamlarının geniş yığıncaqları keçirilir və parlamenti müdafiə edən qətnamələr qəbul olunurdu. 1919-cu il yanvarın 1-də Ramanada fəhlələrin 500 nəfərlik yığıncağı bu mövqeni belə ifadə edirdi: «Biz, Ramanada yaşayan fəhlə və kəndlilər Azərbaycan parlamentini təbrik edir və ona bütün qəlbimizlə etimad göstəririk. Biz «Znamya truda», «Naşe Vremya», «Vperyod» qəzetlərində millətimizə düşmənçilik münasibətləri əks etdirən məqalələrə etirazımızı bildiririk». Hümmətçi-menşeviklər də hökumətin iqtisadi siyasətini birmənalı şəkildə qeyri-qənaətbəxş sayır, üstəlik də israr edirdilər ki, mövcüd parlament fəhlə və kəndlilərin mənafelərinin əsl müdafiəçisi deyildir.

Buna görə də təsadüfi deyildir ki, ölkədə hökumət böhranı ilə müşayiət olunan ağır iqtisadi çətinliklərdən istifadə edən bolşeviklər Bakı fəhlələri və Zaqafqaziya və Şimali Qafqaz əhalisi ilə vahid cəbhə yaradıb, yerli «əksinqilabi» hökumətləri yıxıb Sovet Rusiyası ilə birləşmək taktikasını seçmişdilər. Bu taktikaya real qüvvə vermək məqsədilə Bakı bolşeviklə-

rinin təşəbbüsü ilə Bakıda 1919-cu il aprelin 27-də Zaqafqaziya, Dağıstan və Zakaspi həmkarlar ittifaqlarının qurultayını keçirmişdilər [3, s.79]. Qurultay «proletar diktaturası yolu ilə sosializmə çatmaq» şüarı altında keçmişdi. M.Ə.Rəsulzadə isə öz çıxışlarında bunun yolverilməz olduğunu bildirirdi.

Beləliklə, həmkarlar ittifaqları tamamilə bolşeviklərin siyasi mübarizə alətinə çevrilmiş oldu. Ona görə də bütün tətillər siyasi şüarlar altında keçirilirdi. Tətillər bütün hallarda ölkənin siyasi sabitliyinə ciddi təsir göstərir, kapital ilə əmək arasında konfliktləri daha da kəskinləşdirirdi. Rusiya ilə ticarət əlaqələrinin kəsilməsi isə Azərbaycanı həm iqtisadi, həm də siyasi cəhətcə gücdən salırdı. Əhalinin yoxsulluğunu siyasi bazar obyektinə çevirən bolşeviklər müsavatçı həmkarlar ittifaqlarının sosial proqramını gözdən salmaq məqsədilə fəhlələri tez-tez təxribatçı tətillərə təhrik edirdilər.

M.Ə.Rəsulzadənin rəhbərliyi altında AXC-nin antiböhran proqramı hazırlanmışdı. AXC-nin antiböhran proqramının həyata keçirilməsinə hər vasitə ilə mane olan bolşeviklər bilərəkdən ümumi tətil elan etmiş, təkcə iqtisadi tələblər (kollektiv müqavilənin bərpası) deyil, həmkarlar ittifaqının funksiyalarına zidd siyasi tələblər (neft məhsullarını Sovet Həştərxanına göndərmək) irəli sürmüşdülər. Bolşevik «liderləri» ümumi Bir May siyasi tətilini keçirməyə nail olsalar da, hökumətin iqtisadi siyasəti əleyhinə aksiya keçirmək niyyətlərini həyata keçirə bilməmişlər. Çox önəmlidir ki, müsavat hökumətinə sadiqliyini nümayiş etdirərək, azərbaycanlılar tətilin hökumət əleyhinə çevrilməsinə mane olmuşdular [6, s.109].

Mühacirətdə olarkən həmin hadisələr haqqında M.Ə.Rəsulzadə yazırdı ki, bu bir daha azərbaycanlıların milli-siyasi şüurunun artmasından xəbər verirdi. Parlament də öz növbəsində siyasi tətillərə yol verməmək məqsədilə 1919-cu il mayın 5-də elan etmişdi ki, BFK-nın keçirdiyi tətil iqtisadi tələblərdən uzaq siyasi aksiyalar olub, milli dövlətçiliyə qarşı çevrilmiş tətillərdir. Bu tipli tətillərdə iştirak edənlər həbs ediləcək və ölkə hüdudlarından qovulmaqla cəzalandırılacaqlar [4, s.32]. M.Ə.Rəsulzadə siyasi gərginliyi azaltmaq üçün Əmək nazirinə tapşırmışdı ki, sahibkarlarla fəhlələrin birgə görüşündə iqtisadi tələbləri müzakirə etsin. Hökumətin bu addımını sosial tərəfdaşlıq yolunda ilk mühüm addım kimi qiymətləndirmək olar.

Hökumətin qadağasına baxmayaraq, 1919-cu il mayın 6-da BFK yenidən tətil elan etdi. Azərbaycanlı fəhlələrin tətilin keçirilməsi əleyhinə qəti mübarizəsi hökumətin qətiyyəti sayəsində, eləcə də ölkədə sabitliyə maraq göstərən ingilis komandanlığı tərəfindən AXC-nin siyasətinin dəstəklənməsi dəmiryolçuların tətilini iflasa uğratdı. Hökumət mayın 9-da tətilçilərin 43 fəalını həbs etmişdi. Bunların arasında A. Mikoyan, A. Anaşkin, A. Çurayev və H.Qurbanov var idi. Dəmir yolu məsələsinə daha çox strateji faktor Cənubi Qafqazda müttəfiq qoşunlarının baş komandanı, general Q.F. Millin əmrində göstərilirdi ki, dəmir yollarının, rabitə yollarının, körpülərin, hərbi sursat anbarlarının tələf edilməsində iştirak edən şəxslər hərbi tribunala veriləcək, ölüm cəzasına məhkum ediləcəklər [3, s. 103].

Əmək naziri isə sahibkarlardan fəhlələrin tətillər ərzində buraxılmış iş günlərini ödəməsini tələb etmişdi. 1919-cu il 13 may tətili tam məğlubiyyətə uğradı, baxmayaraq ki, həmin dövrdə bolşeviklərin rəhbərliyi onlara «rəğbət» bəsləyən həmkarlar ittifaqlarını «Bakı şəhəri və onun rayonlarının neft və emal sənayesi və onlara köməkçi sahələrin işçilərinin Birləşmiş ittifaqı»nda birləşdirə bilmişdilər. Maraqlıdır ki, tətilçilər içərisində müsəlman bolşevikləri iştirak etməmişdilər. Tətilin uğursuzluğunda müttəfiq qoşunların baş komandanlığının dəstəyilə yanaşı, BFK-nın daxilində birliyin olmaması da neqativ rol oynamışdır. Üstəlik, tətil başlanmazdan əvvəl gözləmə mövqeyi tutan menşevik-eserlər sonralar ona mənfi münasibət bildirmişdilər. Bu siyasi aksiyada bolşeviklər məğlub olsalar da, onlar AXC-nin sabitlik proqramını pozmaq siyasətindən heç zaman əl çəkməmişlər. Belə ki, ilk pozucu təşkilati addım olaraq, onlar BFK-nın menşevik rəhbərliyini bolşevik liderləri ilə əvəz etməyə nail olmuşdular. Bu taktiki manevr bolşeviklərə həmkarlar ittifaqını nəzarətə götürmək strategiyasını həyata keçirmək yolunda ciddi addım oldu. Etiraf edilməlidir ki, konkret şəraitdə siyasi-

iqtisadi sabitsizlik obyektiv olaraq bolşeviklərin təxribatçı fəaliyyətinə işləyirdi. Cari iqtisadi problemlərin həll edilməməsi, sənaye işçiləri arasında narazılıq bolşeviklərə həmkarlar ittifaqlarından fəhlələrə psixoloji təsir aləti kimi istifadə etməyə imkan yaratmışdı.

Digər tərəfdən, hökumətin həmkarlar ittifaqları ilə işləmək sahəsində çevik siyasətinin olmaması bolşeviklərin hökuməti devirməklə bağlı demoqoji təbliğatına psixoloji mühit yaratmışdı. AXC-nin sosial bazasının tükənməyə başladığı həmin dövrdə əvvəlcə çar Rusiyasını, sonralar isə öz qanuni milli dövlətlərini devirmək proqramını səylə həyata keçirməyə çalışan fəhlə komissiyalarının fəaliyyətində öz şüarları ilə həmkarlar ittifaqlarını partiyanın möhkəm dayağına çevirmək siyasətlərini yeritmişlər. Bolşeviklərin bu taktikası bir daha sübut etmişdi ki, onlar həmkarlar ittifaqlarının əsl sosial təyinatından yan keçərək, Azərbaycanın ictimai mühitilə heç bir əlaqəsi olmayan proletar inqilabı ideyalarını təbliğ etməyə, partiyanın hegemon qüvvə olması psixologiyasını kütlələrin beyninə yeritməyə üstünlük verirdilər.

M.Ə.Rəsulzadənin dərin dövlətçilik siyasətinə baxmayaraq ölkədə siyasi şüurun çox aşağı səviyyədə olması, BFK-da xırda burjua müxalifətinin zəifləməsi, bütövlükdə iqtisadi vəziyyətdə pozitiv irəliləyişlərin olacağına inamsızlıq ona gətirib çıxardı ki, 1919-cu ilin yazında həmkarlar ittifaqları üzərində tam nəzarət bolşeviklərin əlinə keçdi [6, s.84]. Təsadüfi deyildir ki, 1919-cu ilin aprelində keçirilmiş Azərbaycan, Dağıstan, Zakaspi Həmkarlar İttifaqlarının qurultayı bolşeviklərin tam üstünlüyü ilə keçmiş, bununla da sosialistlərin son dayağı olan Bakı Həmkarlar İttifaqları Şurasında da bolşeviklər tam hakimiyyətə nail ola bilmişdilər [6, s.124].

Bu qurultayda Azərbaycan həmkarlar ittifaqları tamamilə bolşeviklərin platformasına keçdilər. Bu dövrdən başlayaraq, bolşeviklərin təsiri altında olan Azərbaycan həmkarlar ittifaqları bolşeviklərin Rusiyaya qovuşmaq siyasətində alət rolunu oynamağa başladılar. Bolşeviklər həmkarlar ittifaqlarından öz ideyalarını kütlələrin beyninə yeritmək üçün leqal kütləvi tribuna kimi istifadə edir, bu sosial qurumun əsl təyinatından uzaqlaşaraq, Kommunist partiyasının əlində alətə çevrilməsinə nail olmuşdular.

Bunun qarşısını almaq üçün hökumət bolşeviklərin tam təsiri altında olan Mərkəzi Fəhlə Klubunu bağlamaq üçün dəfələrlə cəhd göstərmişdi. İlk dəfə 1919-cu il dekabrın 9-da MFK-nın binası möhürlənmişdi. Buna cavab olaraq, Fəhlə Konfransının Rəyasət Heyəti etiraz tətilinə çağırışla çıxış etmiş və hökuməti Mərkəzi Fəhlə Klubu binasını açmağa məcbur etmişdi [7, s.258].

Fəhlə sinfinin mənafeyini müdafiə etmək şüarı ilə kommunistlər milli hökumətə qarşı mübarizəni getdikcə gücləndirirdilər. Kommunist təbliğatçılar fəhlələrin öz hüquqları uğrunda mübarizəyə qarşı Daxili İşlər Nazirliyinin mane olması barədə fəhlələr içərisində kampaniya aparırdılar.

Bu vəziyyət parlamentin və hökumətin işinə çox ciddi mənfi təsir göstərirdi. M.Ə.Rəsulzadənin təklifi ilə 1919-cu il dekabrın 28-də Əmək və Əkinçilik Naziri Ə. Pepinov həmkarlar ittifaqı təşkilatlarının iştirakı ilə fəhlə məsələsinə dair müşavirə keçirdi. Nazir həmkarlar ittifaqının işlərinə nazirliyin qarışmayacağını bildirərək fəhlələri əmin etmişdi ki, fəhlə klubuna və fəhlə təşkilatlarına polis basqıları dayandırılacaq, yığıncaq azadlığı məhdudlaşdırılmayacaq və əməkhaqqı artırılacaqdır. Nazir fəhlələrdən ona kömək göstərmələrini xahiş etmişdi.

Respublikanın Daxili İşlər Naziri M. Vəkilov da bəyanat verərək, Nazirliyin fəhlələrin öz iqtisadi və hüquqi vəziyyətini yaxşılaşdırmaq uğrunda mübarizəsinə qarışmayacağını bildirmiş, eyni zamanda qeyd etmişdi ki, dövlətə qarşı yönələn bütün çıxışları yatırmaq üçün hər vasitədən istifadə ediləcəkdir.

Bütün yuxarıda söylənilən fikirlər onu göstərir ki, böyük öndər Rəsulzadə geniş ictimai-siyasi fəaliyyəti ilə bərabər Azərbaybaycanda həmkarlar sisteminin təşəkkülü işində də əhəmiyyətli rol oynamağı bacarmışdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I c. B., 2004
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005
3. Həsənov V.S., Mehdiyev Ə.B. Azərbaycan həmkarlar ittifaqlarının tarixi. B., 2005
4. Qaraşov H. Həmkarlar ittifaqı hərəkatının əsasları. Bakı, 2015
5. Байрамов К.М. Массовые рабочие организации Азербайджана в борьбе за победу советской власти. Баку, 1983
6. Гусейнов К.А., Найдель А. Очерки истории профдвижения в Азербайджане. Баку, 1966
7. История профсоюзов СССР. ч.1., Москва, 1977

## M.Ə. RƏSULZADƏ VƏ AXC DÖVRÜNDƏ İLK DEMOKRATİK HƏMKARLAR İTTİFAQLARI

***Hüseyn Qaraşov***
***Zeynəddin Şabanov***

**Xülasə**

Məqalədə AXC-nin lideri Məhəmməd Əmin Rəsulzadənin ictimai-siyasi fəaliyyətinə nəzər salınır, yeni yaranmış müstəqil dövlətdə onun rəhbərliyi altında aparılan islahatların əhəmiyyəti ətraflı təhlil edilir. Bildirilir ki, həmin dövrdə yeni yaranmış bütün dövlət strukturları kimi, güclü ictimai təşkilat olan Həmkarlar ittifaqları da demokratik əsaslara söykənməklə idarə olunurdu. Məqalədə M.Ə.Rəsulzadənin yaxın silahdaşı Cavad bəy Rza bəy oğlu Məlikyeqanovun həmkarlar ittifaqlarına rəhbərliyi, onun işçilərin problemlərinə diqqətlə yanaşması, onların sosial rifah halının yaxşılaşması üçün parlament iclaslarında alovlu çıxışlar etməsi və müvafiq qanun və qərarların verilməsinə nail olması geniş şəkildə araşdırılmışdır. C.Məlikyeqanov neft sahibkarlarının, bank, zavod və fabrik nümayəndələrinin iştirakı ilə çağrılmış müşavirə və iclaslarda fəhlə və qulluqçuların maaşının artırılması məsələsini diqqətə catdırmış və təklifinin qəbul olunmasına nail olmuşdur.

## M.A.RASULZADEH AND THE FIRST DEMOCRATIC TRADE UNIONS IN THE ADR

***Huseyn Qarashov***
***Zeynaddin Shabanov***

**Summary**

The article examines the socio-political activities of the ADR leader Mammad Amin Rasulzadeh, analyzes in detail the importance of the reforms carried out under his leadership in an independent state. It is also noted that all the new state institutions and trade unions, which were a powerful public organization, were governed on a democratic basis. The article examines the attentive approach of Javad bej Rza bej oglu Melikyeganov, Rasulzade's close associate and the head of trade unions to the problems of the workers, his fiery speeches at parliamentary meetings on improving their social welfare, raising wages and achieving relevant laws and decisions.

# M.Ə.RƏSULZADƏ VƏ GÜRCÜSTAN

***Vahid Ömərov***
***f.ü.f.d., dosent***
***AMEA Qafqazsünaslıq İnstitutu***
***Şimali Qafqaz şöbəsinin müdiri***
*vahid-o@mail.ru*

***Açar sözlər:*** M.Ə.Rəsulzadə, Gürcüstan, AXC, GDR, Azad Qafqaz Evi, demokratiya, repressiya
***Keywords:*** M.A.Rasulzade, Georgia, APC, GDR, Free Caucasus House, democracy, repression

Azərbaycanın görkəmli siyasi xadimi, böyük ideoloqu M.Ə.Rəsulzadə gürcü xalqına, onun tarixinə, mədəniyyətinə, ədəbi və siyasi xadimlərinə saygılı münasibət bəsləmişdir. 1915-ci ildə görkəmli gürcü şairi Akaki Seretelinin dəfnində iştirak edib və onun dəfn mərasimindəki çıxışı “İqbal” qəzetinin 1915-ci ildəki 862-ci sayında çap olunmuşdur. 1918-ci ilin əvvəllərində o, AXC yaranana qədər Tiflisdə siyasi fəaliyyət göstərmişdir. Bu barədə istedadlı tədqiqatçı mərhum A.Balayev “M.Ə.Rəsulzadə (1884-1955)” monoqrafiyasında geniş məlumat vermişdir. 1931-ci ildə Parisdə qətlə yetirilən, mühacirətdə yaşayan Gürcüstanın siyasi xadimi N.Ramişvilinin dəfn mərasimndə M.Ə.Rəsulzadə sovet rejimini kəskin tənqid edən çox təsirli çıxış etmişdir.

M.Ə.Rəsulzadə tanınmış gürcü siyasi xadimi GDR-in yaradıcılarından N.Jordaniya ilə dostluq etmiş və “Prometey” jurnalının Baş redaktoru Qvazava ilə xoş münasibətdə olmuşdur. Türkiyə tədqiqatçısı tarixçi-alim, Britaniya Akademiyasının müxbir üzvü və Queen Mary Universitetinin üzvü Dr. Harun Yılmaz “ADR və Qazaxdan Qarsadək müsəlman dəhlizi ideyası” əsərində M.Ə.Rəsulzadənin Borçalıya böyük önəm verdiyini göstərmişdir. Tarix elmləri doktoru Nəsiman Yaqublu M.Ə.Rəsulzadənin Gürcüstanla bağlılığından “M.Ə.Rəsul-zadə ensiklopediyası”nda bəhs etmiş, eləcə də Gürcüstanın keçmiş prezidenti M.Saakaşvilinin M.Ə.Rəsulzadənin o vaxtkı gürcü liderlərilə dostluq münasibətlərinə dair fikirlərini diqqətə çatdırmışdır.

M.Ə.Rəsulzadənin Gürcüstanda olması haqqında ilk məlumat 1915-ci ilə təsadüf edir. 1915-ci ilin fevralın 8-də o, Tiflisə gəlir və böyük gürcü şairi Akaki Seretelinin dəfn mərasimində iştirak və çıxış edir [8, s.76-77]. Məhəmməd Əmin Rəsulzadə “Gürcüstanın böyük şairi” məqaləsində ( *«İqbal»ın, 28 yanvar 1915 tarixli 850-ci sayında çap olunmuşdur)* göstərir ki, Gürcüstan böyük oğlu, böyük şairi Akaki Seretelinin matəmindədir.

O, Seretelini “gürcü cəmiyyətinin Zaqafqasiya şairiyyətinin gözəl bir nümayəndəsi” hesab edir və qeyd edir ki, böyük gürcü şairi 75 yaşında ikən vəfat eləmiş, bütün Gürcüstan bu gün bu böyük şairinə ağlamaqdadır. O, gürcü xalqının dərdinə şərik olaraq yazır: *”Nəcib gürcü milləti nəcib bir müəllimini itirərkən duyduğu qəm və qüssələrdə özünü yalnız görməsin. Bütün qafqasiyalılarla bərabər ümumi vətənin böyük bir ünsürünü va gürcü millətinin səmimi bir qonşusunu təşkil edən müsəlmanlan da özləri ilə həmdərd ədd edə bilərlər. Şad olsun böyük gürcü şairinin böyük ruhu. Var olsun onun insani xitablarına bilavasitə müxatəb olan gürcü milləti! Yaşasın şairin nəşr etdigi insani duyğular!.”[8,s.77].*

“İqbal”ın 11 fevral 1915 tarixli 862-ci sayında nəşr olunan “Müsəlman mətbuati nümayəndəsi Məhəmməd Əmin Rəsulzadənin nitqi”ndə göstərilir: *“Müsəlman mətbuatı nəcib gürcü millətinə gələn müsibətinə iştirak etmək və müsəlman əfkari-ümumiyyəsinin təsəllisini müsibətzədə qonşularımıza yetirmək üçün birləşdi. Birləşmiş müsəlman mətbuatının böylə qardaşca hissiyyatını sizə yetirmək üçün vasitə olmaq şərəfi mənim öhdəmə düşmüşdür. BunUNLA həqiqətən iftixar edərim. Nədir müsəlman mətbuatını böylə bir iqdamə vadar edən?*

*Nədir səbəb ki, gürcü milləti ilə bərabər müsəlmanlar da bu böyük şairi təqdir ediyorlar. Məlum olduğu üzrə Akaki amaliyyə və insaniyyə şairidir. Onun istədigi odur ki, hər millət öz dili ilə danışsın, öz yazısı ilə yazsın, özi bildigi kibi Allahına ibadət etsin. Bittəbii böyümək, tərəqqi etmək və dəgərli bir həyat keçirmək istəyən hər millət üçün nəcib gürcü millətinin şairi tərəfindən gözəl surətdə təsvir olunan bu əsas mənidardır, əzizdir. Fəqət Akaki yalnız bununla qalmıyor idi, o öz millətini xoşbəxt və mütərəqqi görmək istərkən, bu həqqi başqa millətlər üçün də istiyor, başqa millətləri də öz arzu və amalları mövcibincə böyümək, artmağa həqli görüyordu. İştə, onu yalnız gürcülərin olmaqdan çıxarıb da ümumiləşdirən cəhət də budur." [8,s.80-81].*

Çıxışının sonunda M.Ə.Rəsulzadə demişdir: "*Ey böyük şair, ey nəcib bir millətin yetirdigi ali düha, sən sağlığında birlik və məhəbbət tərvic ediyordun. Öldün: Fəqət əmin ola bilərsən ki, sənin ruhun ölməmiş, o hala diridir. Bu nə idi, iştə buraya kəmali-diqqətlə toplanmış on minlərlə əhali burada, sevdigin gürcülərlə də birləşmiş, mədəniyyətlərinə ehtiram etdigin qövmlər, dostlar da hazır!... Bugünki bu münir lövhəyi-ittihadın baisi, ruhu sənsən, sənin ilhamındır. Binaənileyh sənə, ey dahi, minlərcə ehtiram!" [8.s.81].*

1931-ci ilin noyabrında sovet agentləri məşhur siyasi xadim, Fransanın Paris şəhərində sürgündə yaşayan Gürcüstanın liderlərindən biri Noa Ramişvilini qətlə yetirdilər. Resul-zade M. Emin Beyfendinin Gürcüstan ricalinden Pariste öldürülen N. Ramişvili'nin mezarı başında söylediği nutukunda deyilir: *"Düşman gülləsi böyük bir adamı, hörmətli bir azadlıq mücahidini öldürdü. N. Ramişvilinin – hayatna son qoydu. Bu kədərli hadise münasibətilə qonşularımıza üz verən müsibətin ağırlığını hakkilə dərk edirik. Bu onlar için milli bir matəmdir.Fakat bu matem sade gürcüleri değil, ayni zamanda biz Azerbaycanlıları ve bütün Kafkasya vatanseverlerini dahi müteessir etmektedir"* [6].

M.Ə.Rəsulzadənin Gürcüstanda əsas fəaliyyəti 1918-ci ilin əvvəllərindən başlayır. 1918-ci il yanvarın 6-da Petroqradda Müəssislər Məclisinin buraxılması haqqında fərman verildikdən sonra həmin il yanvarın 22-23-də Tiflisdə keçmiş Müəssislər Məclisinin Zaqafqaziyadan seçilmiş üzvlərinin iclası keçirildi. Üç Zaqafqaziya respublikasının nümayəndələri burada hökm sürən xaos və anarxiya vəziyyətini nəzərə alaraq öz qanunverici orqanı - Zaqafqaziya Seymini yaratmaq qərarına gəldilər. Rusiyada milli məsələnin həllində xüsusi ümidlər bəslənilən Müəssislər Məclisinin dağıdılması ölkədə yalnız mərkəzdənqaçma meyllərini gücləndirdi, milli ucqarların, o cümlədən Zaqafqaziyanın mərkəzdən ayrılması prosesini qızışdırdı.

1918-ci il yanvarın 22-23-də Tiflisdə keçmiş Müəssislər Məclisinin Zaqafqaziyadan seçilmiş üzvlərinin iclası oldu. Rusiyanın mərkəzindəki vəziyyəti anarxiya və xaos kimi səciyyələndirən üç Zaqafqaziya xalqının siyasi nümayəndələri regional qanunverici orqanı – Zaqafqaziya Seymini çağırmaqla "yerli təşkilatlanma" qərarına gəldilər [12,c.72]. Bütün dəvət olunan tərəflərdən yalnız Bolşeviklər ilk iclası 1918-ci il fevralın 23-də Tiflisdə keçirilən Seymin fəaliyyətində iştirakdan imtina etdilər. Azərbaycanın siyasi partiyaları Seymdə 44 yer (30 - Müsavat) alıb.

Seymin ilk iclası 1918-ci il fevralın 23-də keçirildi və bu iclasda M.Ə.Rəsulzadə Müsavat fraksiyasının rəhbəri, onun müavinləri N.Yusifbəyli və M.Yu.Cəfərov təsdiq olundu.Müsavat hakimiyyət məsələsini Transqafqaz miqyasında həll edərkən Petroqradda yeni bolşevik hökumətini tanımaqdan imtina edən o siyasi qüvvələri dəstəklədi. Üstəlik, Zaqafqaziya Seymində təmsil olunan siyasi qüvvələr arasında məhz M.Ə Rəsulzadənin başçılıq etdiyi Müsavat fraksiyası əsas yer tuturdu. Fraksiya Seymin səlahiyyətlərinin, məqsəd və vəzifələrinin müəyyən edilməsi məsələlərində ən radikal mövqelərdən çıxış edirdi.

Belə ki, 1918-ci il martın 5-də Seymin plenar iclasında çıxış edən M.Ə. Rəsulzadə bildirirdi ki, "onun fikrincə, Zaqafqaziya Seymi Müəssislər Məclisidir və Müəssislər Məclisi kimi Zaqafqaziyanın konstitusiyasını hazırlamaqla, ayrı-ayrı ərazi vahidlərinin funksiyalarını müəyyən etməklə məşğul olmalıdır". Mərkəzi regional hökumət federal hakimiyyətdir və bu

o deməkdir ki, biz mahiyyət etibarilə bütün Zaqafqaziya millətlərinin federasiyasının əsaslarını nəzərə almalıyıq. Hakimiyyət koalisiya olmalıdır, qalan elementlər isə Zaqafqaziyanın bütün millətlərinin federasiyasını və koordinasiyasını təmin edəcək bu koalisiyaya yatırılmalıdır".

M.Ə. Rəsulzadə əmin idi ki, yalnız Müəssislər Məclisi tərəfindən Seymin tanınması Zaqafqaziya xalqlarını mehriban federal həmrəylik həyatına apara bilər. Aydındır ki, M.Ə. Rəsulzadə ölkənin qeyri-mərkəzləşdirilməsi prosesini sürətləndirmək və nəticədə Zaqafqaziyanı Rusiya ilə birləşdirən əlaqələri zəiflətmək məqsədi daşıyırdı. Bu baxımdan təəccüblü deyil ki, Zaqafqaziya Seyminin deputatları arasında M.Ə. Rəsulzadə Zaqafqaziyanın müstəqilliyinin elan edilməsinin ən ardıcıl tərəfdarlarından biri idi. Lakin 1918-ci il fevralın 14-dən etibarən bütün tarixlər yeni üsluba uyğun olaraq göstərilir.

Seym üzvlərinin böyük əksəriyyəti o vaxt Zaqafqaziyanın Rusiyadan qəti şəkildə ayrılması barədə qərar qəbul etməyə hələ hazır deyildi. Nəinki Seymin gürcü və erməni deputatları, hətta digər Azərbaycan partiyalarının nümayəndələri də vəziyyətin belə inkişafında maraqlı deyildilər. Onlar Zaqafqaziya Seymini "bəzi təcili məsələlərin aradan qaldırılması üçün müvəqqəti orqan" hesab edirdilər [11, c.27-28]. Bu səbəbdən onlar Müəssislər Məclisinin çağırılmasını və Zaqafqaziya konstitusiyasının işlənib hazırlanmasını qeyri-müəyyən müddətə təxirə salmağı təklif etdilər. Bu arada Müsavat fraksiyasının Seymdə dərc olunmuş bəyannaməsində "hakimiyyətin qeyri-mərkəzləşdirilməsini gecikdirməmək, dövlət həyatının bəzi sahələrinin milliləşdirilməsindən xəcalət çəkməmək" təklif edilirdi.

Eyni zamanda fraksiya qarşısına "Azərbaycanda milli-ərazi muxtariyyətinin əməli surətdə həyata keçirilməsi" kimi yaxın vəzifə qoymuşdu. Partiyanın siyasi kredosunu ifadə edən M.Ə. Rəsulzadə 1918-ci il martın 1-də Zaqafqaziya Seymi-nin tribunasından birmənalı olaraq deyirdi: "Biz xalq olaraq özümüzə təmsil olunmağı tələb edirik." [11,c.28]. Bu məqsəd Müsavatın və onun liderinin bütün fəaliyyətinin mahiyyəti idi. Zaqafqaziya Seymi. M.Ə. Rəsulzadənin sonradan qeyd etdiyi kimi., "Zaqafqaziya Seyminin birinci iclasında partiya bəyannamələrinin dərci zamanı Azərbaycan adından nə ittihadçılar, nə də sosialistlər (Müsəlman Sosialist Bloku və menşevik Hümmətin nümayəndələri nəzərdə tutulur – A.B.) çıxış etmədilər.

Yalnız Müsavat Partiyasının bəyannaməsində Azərbaycan, Gürcüstan və Ermənistan hökumətlərinin səlahiyyətlərinin bir hissəsini ona həvalə etməklə regional federal hökumətin yaradılması və səlahiyyətlərinin müəyyənləşdirilməsinin zəruriliyi vurğulanırdı" [7]. M.Ə. Rəsulzadənin belə prinsipial mövqeyi və Zaqafqaziya Seymindəki Müsavat fraksiyasının üzvlərinin Azərbaycanın müstəqil Zaqafqaziya dövlətinin tərkibində milli-ərazi muxtariyyəti ideyasını müdafiə etməsi bolşeviklərin strateji planlarına zidd idi.

1918-ci il martın 5-də Seymin plenar iclasında çıxış edən M.Ə.Rəsulzadə Konstitusiyanın yaradılması ideyasını irəli sürdü [10] . 1918-ci il martın 14-də M.Ə.Rəsulzadə Trabzonda keçirilən Sülh Konfransında iştirak edir və burada Türkiyə nümayəndələri Zaqafqaziya ölkələrinin siyasi vəziyyəti haqqında bəyannamə tələb edirlər. 1918-ci ilin mart hadisələri ilə bağlı aprelin 1-də M.Ə.Rəsulzadə demişdi: *"Əgər Zaqafqaziya hökuməti qəti tədbirlər görməsə, bizim burada oturub bir yerdə işləməyimizin mənası yoxdur". 1918-ci il aprelin 9-da o, Zaqafqaziyanın müstəqilliyinin zəruriliyini xüsusilə qeyd etdi. Onun təşəbbüsü ilə 1918-ci il mayın 3-də fraksiyaların iclasında Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz Konfederasiyasının yaradılması ideyasının dəstəklənməsi barədə qərar qəbul edildi. 1918-ci il mayın 11-15-də M.Ə.Rəsulzadə Zaqafqaziya nümayəndə heyətinin tərkibində Batumiyə getdi, burada Almaniya və Türkiyə nümayəndələri ilə çətin danışıqlar apardı. 1918-ci il mayın 26-da Seym buraxıldı və elə ertəsi gün Azərbaycandan olan Seymin üzvləri Azərbaycan Milli Şurasını yaratdılar. Gizli səsvermə yolu ilə M.Ə.Rəsulzadə Şuranın sədri seçilir. Həmin il iyulun 4-də Batumidə Osmanlı Türkiyəsi ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında ilk*

*dostluq müqaviləsi bağlandı. Müqavilənin IV bəndinə əsasən, Osmanlı hökuməti lazım gələrsə, Azərbaycana hərbi yardım göstərəcək. Azərbaycan tərəfdən müqaviləni M.Ə.Rəsulzadə və M.Hacinski imzaladılar" [13].*

M.Ə.Rəsulzadə 1926-cı ildə gürcü Dumbadzeinin ABŞ Konqresinin mətbəəsində nəşr etdiyi "Milli Gürcüstan Cümhuriyyəti" kitabında Azərbaycan ərazilərini Gürcüstana aid torpaqlar olaraq Amerika ictimaiyyətinə təqdim etməsindən narazı qalmış və etiraz məqaləsini "Yeni Qafqasiya" jurnalında çap etdirmişdi. M.Ə. Rəsulzadə yazır: *"Gürcü qonşularımızın davalarını müdafiə yolunda ibraz (təzahür etdirmə) etdikləri qeyrət bizdə məmnuniyyəti mizimucib olmaqdan başqa bir hiss oyatmaz. Çünki qonşumuz və həmdərdimiz gürcü millətinin iadəyi (geriqaytarma,təkrar) istiqlalı yolundakı müvəffəqiyyətini biz kəndi müvəffəqiyyətimiz kibi tələqqi edəriz. Fəqət yalnız gürcü mümməssili deyil, kəndisinə (özünə) Azərbaycan və Şimali Qafqasiya mümməssili ünvanı verən bir adamın Qafqasiyayı Gürcüstandan ibarət olaraq göstərməsini, şübhəsiz, hüsni qəbul edəməyiz. Dumbadzenin başdan ayağa gürcü davasına həsr olunan bu kitabı isə, məattəəssüf, qəbul edəməyəcəyimiz böylə bir üsul ilə tərtib edilmişdir." [3]*

Harun Yilmaz göstərir ki, *biz 1918-ci ildə Azərbaycanla Gürcüstan arasında ərazi mübahisəsi mövzusu olmuş Zaqatala və Borçalıdan bəhs etdik. Bu məqalədə isə biz həmin ərazi mübahisəsinin arxasında duran iqtisadi və strateji motivləri müzakirə edəcəyik [2].* Zaqatala və Borçalı məsələlərində Gürcüstan tərəfi köhnə inzibati bölgüyə istinad edirdi. Borçalı qəzası (uyezd) Tbilisi quberniyasının tərkibində olub. Rusiya İmperiyasının inzibati bölgü sisteminə uyğun olaraq, Zaqatala dairəsi (okruq) öz növbəsində eyni adlı quberniyanın tərkibində olub.

Borçalı və Zaqatala bölgələrində torpaq bərəkətli idi və kəndli dəstəyini təmin etmək nöqteyi-nəzərindən Tbilisidəki Menşevik hökuməti üçün qiymətli idi. Digət tərəfdən isə Gürcüstan Azərbaycan kimi neft yataqlarına malik deyildi. Odur ki, Gürcüstan iqtisadiyyatının durumu kənd təsərrüffatı məhsullarından asılı idi. Borçalı və Zaqatala düzənlikləri iqtisadiyyata daha bol kənd təsərrüffatı məhsulu vəd edirdi. Azərbaycan isə həmin ərazilərə iddia irəli sürərkən demoqrafik amilləri önə çəkib. Bakı həmin hər iki bölgədə əhalinin əksəriyyətinin müsəlman olduğunu vurğulayaraq iddiasını irəli sürürdü. Etnik və dini mənsubluq əraziyə iddia irəli sürmək üçün qanuni səbəb idi.

*"1918-ci ildə M.Ə.Rəsulzadənin düşündüyü kimi Borçalı Azərbaycana verilsəydi, bu, yeni respublikada müsəlman əhalisinin faiz çəkisini də artıracaqdı. Qeyd olunmuş demoqrafik arqumentlərlə yanaşı, Borçalı və Zaqatalanı istəmək üçün Azərbaycanın digər əsasları da var idi." [2]*

İndi isə Rəsulzadə nəslinin gürcülərlə qohumluq əlaqələrinə diqqət yetirmək istərdik. Gülnarə Rəsulzadə-Kvançaxadze Mirzə Davud qızı - Gürcüstanda yaşamışdır və Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) banisi Məhəmməd Əmin Rəsulzadənin nəslindən olan mərhum həkim və alimdir. Amma indiyədək Azərbaycan mətbuatında bu qadın haqqında demək olar ki, heç nə yazılmayıb. Araşdırmada G.Rəsulzadənin sağlığında rus dilində nəşr etdirdiyi "Hər şey dəyişir, lakin itmir" adlı kitabdan istifadə edilib.

G.Rəsulzadə xatırlayırdı ki, atası Mirzə Davud Rəsulzadənin M.Ə.Rəsulzadənin əmisi oğlu olduğunu ona Gəncədə olarkən adını xatırlamadağı bir tarixçi deyib. Gülnarə xanım hesab edirdi ki, atası və M.Ə.Rəsulzadə siyasi baxışları arasında çox ciddi fərqə görə bir-biriləri ilə münasibət saxlamırdılar.

Mirzə Davud Rəsulzadə 1900-cü ildə Gəncədə zəngin və əsil-nəcabətli Məsum bəy Rəsulzadənin ailəsində anadan olub. Məsum bəy çox savadlı olub, Məkkədə dini seminariyanı bitirib, ərəb dilini mükəmməl bilib. M.D.Rəsulzadə Gəncədə rus gimnaziyasında təhsil alıb. Təhsilini başa vurandan sonra o, Tiflisə köçüb və mühəndis olmaq məqsədilə hidromexanika fakültəsinə daxil olur.[5] M.D.Rəsulzadə əmək fəaliyyətinə də Tiflisdə başlayıb. Onun ilk iş

yeri su idarəsi olub, daha sonra ictimai fəaliyyətə başlayıb. Öncə onu AzərbaycanınGürcüstandakı nümayəndəliyində katib, daha sonra isə Azərbaycan SSR-nin Batumidəki konsulu vəzifəsinə təyin ediblər. Növbəti illərdə isə o, Azərbaycan SSR-nin Tbilisidə səlahiyyətli nümayəndəsinin müavini kimi çalışıb.M.D.Rəsulzadə Gürcüstanda Azərbaycan dilində nəşr olunan "Sovet Gürcüstanı", hazırkı "Gürcüstan" qəzetinin sələfi olan "Kommunist" qəzetinin təsisçisi və redaktoru olub.

1921-ci ildə M.D.Rəsulzadə Türkiyəyə Azərbaycan nümayəndəliyinin katibi vəzifəsinə təyinat alıb. Ankaraya yola düşməzdən əvvəl o, Y.Semyonova ilə evlənib.

1933-cü ildə İqtisadiyyat İnstitutunun direktor müavini və "Zaqafqaziyanın sosialist təsərrüfatı" jurnalının redaksiya kollegiyasnın üzvü kimi çalışıb. Lakin qısa bir zamanda Azərbaycan Kommunist Partiyasının (AKP) Mərkəzi Komitəsinin xahişi əsasında iş üçün Bakıya göndərilib. O, 1933-1934-cü illərdə AKP-nin Salyan rayon komitəsinin məsul katibi vəzifəsinə təyin olunub. Daha sonra İncəsənət məsələləri üzrə Komitəsinə rəhbərlik edib və "Azərbaycan incəsənəti" jurnalının baş redaktoru olub.[5]

M.D.Rəsulzadə 1936-1937-ci illərdə keçmiş Azərbaycan Pedaqoji İnstitutu, hazırkıAzərbaycan Dövlət Pedaqoji Universitetinin direktoru vəzifəsində çalışıb. O,1937-ci ildə Xalq Komissarları Şurası (Sovnarkom) rəhbərinin səlahiyyətlərini müvəqqəti icra edib və bu vəzifəyə təsdiqlənməsini gözləyirdi. YoldaşıYevgeniya xanım bunu biləndə yaxın rəfiqəsinə "bu vəzifə Davudu məhvedəcək" demişdi. Belə də oldu. Mirzə Davud həmin ilin dekabrın 22-də gecəsaat 2-də Bakıda yaşadığı evdə həbs olunub və 37 yaşında 8 il müddətinəMaqadansk vilayətinə yazışmaq hüququ ilə sürgün olunub.[5]

Xoşbəxtlikdən M.D.Rəsulzadənin ailəsinə toxunulmur. Ailə başçısız qalan Rəsulzadələr ağır həyat sürürlər. Yevgeniya xanım qızının kasıblıq hiss etməməsi üçün çox işləyirdi və bütün əziyyətlərə qatlaşırdı. Anası məktəb yaşlı qızından Rəsulzadə soyadını onun soyadına – Semyonovaya dəyişməsini xahiş edir. M.D.Rəsulzadənin repressiyaya məruz qalmasından sonra Gülnarə və anası Azərbaycanla əlaqə saxlamaqdan qorxurdular. Bir neçə ildən sonra Gülnarə xanım Bakıya səfər edir və özünün qeyd etdiyi kimi damarlarında Azərbaycan qanının axdığını hiss edir. Azərbaycan dilini bilməməsi onda hər zaman böyük təəssüf hissi doğururdu.

O, bunu acı taleyi ucbatından mənsub olduğu Azərbaycan milləti ilə əlaqələrinin kəsilməsi ilə izah edirdi. Özünün qeyd etdiyi kimi bilməli olduğu dildə oxuya və danışa bilməsə də, ev kitabxanasında Azərbaycan tarixi, mədəniyyəti və ədəbiyyatına aid rus dilində çoxsaylı kitablar xüsusi yer tuturdu. Gülnarə xanım özünü Gürcüstan cəmiyyətində təsdiqləsə də,əmin idi ki, Azərbaycanda, öz doğma xalqı arasında daha çox və böyük uğurlara nail ola bilərdi. Onun fikrincə, Bakıda, öz xalqı içində özünü daha əmin hiss edərdi.

G.Rəsulzadənin QULAQ düşərgəsi idarəsindən əldə etdiyi arayışda qeyd olunurki, atası 1943-cü ilin iyunun 22-də ürək iflicindən vəfat edib. Bir neçə ildən sonra M.D.Rəsulzadə ilə sürgündə olan və sağ-salamat geri dönən naməlum şəxs Gülnarə Rəsulzadəgilə gəlir və deyir ki, sürgündə olanların çoxu cərimə batalyonlarına göndərilirdi və Mirzə Davudun da onların arasında olması ehtimal edilir.

G.Rəsulzadə 1956-cı il 22 oktyabr tarixli digər arayışı da uzun illər saxlayır. Sənəddə bildirilir ki, M.D.Rəsulzadənin məhkəmə işinə ölümündən sonra 1956-cıilin oktyabrın 3-də baxılıb. Qərara əsasən, ona qarşı 1939-cu il 9 iyul tarixli məhkəmə qərarı cinayət tərkibinin olmaması səbəbindən ləğv olunur.

"Hər şey dəyişir, lakin itmir" kitabın son abzasını G.Rəsulzadə bu cümlələrlə bitirir: "Yazdıqlarım ürəyimin, qan və əcdadlarımın harayıdır, hər şey səmimi və gerçəkdir.... Yaşadığım həyat və həyati fəlsəfə məni inandırdı ki, dünyada baş verən bütün yaxşılıqlar xeyirxahlıq, dərrakə və sevgi sayəsində baş verir. Buna görə də bütün yaxınlarıma bunu unutmamağı arzu edirəm. Bir-birinizi sevin, yaxşılıq etmək üçün gücünüzü əsirgəməyin, əcdadlarınızı unutmayın və inanın ki, hər şey dəyişsə də, heç nə izsiz itmir".

Gülnarə Rəsulzadə adına Gürcüstan-Azərbaycan Dostluq Fondu bu gün də iki xalq arasında mədəni və dostluq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində yeni təşəbbüslər və layihələr hazırlayır. Rusudan xanım anasının missiyasını böyük həvəs və əzmlə davam etdirir. Əminliklə demək olar ki, babasının vətəni ilə əlaqələri kəsməmək, daha da gücləndirmək və tarixi köklərlə bağlılığı qoruyub saxlamaq Gülnarə xanımın qızına vəsiyyətlərindən biri olub.



**ƏDƏBİYYAT**


1. Gürcüstanda Məhəmməd Əmin Rəsulzadənin unikal fotosu qorunur /31.01.18 / https://kaspi.az/az/gurcustanda-mehemmed-emin-resulza-denin-unikal-fotosu qoru-nur
2. Harun Yılmaz. ADR və Qazaxdan Qarsadək müsəlman dəhlizi ideyası - BBC News Azərbaycanca/29.02.2024 https://www.bbc.com /azeri/ azer-baijan- 44124647 2/11
3. M.Ə.Rəsulzadənin ABŞ-da gürcülərin nəşr etdiyi kitaba etirazı... //21.02.2024 https:// www.moderator. az/news/ 325226.html 3/5
4. Məhəmməd Əmin Rəsulzadə - Gürcüstan | Facebook https://www Facebook .com/permalink. php?id= 107662911012452 &story_fbid=136003301511746&paipv=0&eav=AfZE4-4qlLgNi_Qkfa7LwdzjHbvg… 1/2
5. Məhəmməd Əmin Rəsulzadənin Gürcüstandakı qohumları - Azərbaycanla qırılmayan bağlar - ARAŞDIRMA | 28 May, 2021 https://report.az/region-xeberleri/mehemmed-emin-resulzadenin-gurcustandaki-qohumlari-azerbaycanla-qirilmayan-baglar-arasdirma/ 2/7
6. Resul-zade M. Emin Beyfendinin Gürcüstan ricalinden Pariste öldürülen N. Ramişvili'nin mezarı başında söylediği nutuku//Odlar Yurdu jurnalı №:24(2), 1931 г
7. Rəsulzadə M.Ə. İstiqlal məfkurəsi və gənclik // Azadlıq. 1990. 31 dekabr.
8. Rəsulzadə M.Ə.Əsərləri.III cild (1915-1916).İkinci nəşr, Bakı: Təhsil, 2014, s.
9. Yaqublu N.Saakaşvili Rəsulzadənin adını niyə çəkdi.// 12.11.2012/ https://musavat.com/news/saakasvili-niye-resulzadenin-adini-cekdi_119557.html
10. Балаев А. Мамед Эмин Расулзаде (1884-1955). Политический портрет. Баку: Kitab Klubu, 2014 г.,-504 с.
11. Закавказский сейм. Стенографический отчет, 20 февраля 1918 года. Тбилиси, -136 с.
12. Ментешашвили А.М. Октябрьская революция и национально-освободительное движение в Грузии. 1917-1921. Тбилиси, 1987. / А. Ментешашвили. - Тбилиси : Ганатлеба, 1987 (Тип. N4 Госкомиздата ГССР). - 296, [1] с.
13. Ягублу Н. Освобождение Баку. 2010 г.-134 с.

# M.Ə.RƏSULZADƏ VƏ GÜRCÜSTAN

***Vahid Ömərov***

**Xülasə**

Məqalədə Azərbaycanın görkəmli siyasi xadimi, böyük ideoloqu M.Ə.Rəsulzadənin gürcü xalqına, onun tarixinə, mədəniyyətinə, ədəbi və siyasi xadimlərinə sayğılı münasibətindən, Tiflisdə gürcü şairi Akaki Seretelinin, Parisdə qətlə yetirilən mühacirətdə yaşayan Gürcüstanın siyasi xadimi N.Ramişvilinin dəfn mərasimndəki çıxışından, gürcü siyasi xadimi GDR-in yaradıcılarından N.Jordaniya ilə dostluğundan, "Prometey" jurnalının Baş redaktoru Qvazava ilə xoş münasibətdən, Borçalıya böyük önəm verdiyindən bəhs edilir. M.Ə.Rəsulzadə gürcü Dumbadzenin "Milli Gürcüstan Cümhuriyyəti" kitabında Azərbaycan ərazilərinin bir qisminin Gürcüstana aid torpaqlar kimi təqdim etməsini tənqid etmişdir. Bundan başqa burada M.Ə.Rəsulzadənin Gürcüstanda qohumlarının yaşaması, Gürcüstanın Milli Parlament Kitabxanasında onun unikal fotosunun qorunması, Gürcüstanın keçmiş prezidenti M.Saakaşvilinin M.Ə.Rəsulzadə haqqındakı dəyərli fikirləri də diqqətə çatdırılmışdır.

# M.A.RESULZADE AND GEORGIA

***Vahid Omarov***

**Summary**

In the article, the prominent political figure of Azerbaijan, the great ideologist M.A. Rasulzade's respectful attitude towards the Georgian people, its history, culture, literary and political figures, the speech of the Georgian poet Akaki Sereteli in Tbilisi, the speech of the Georgian political figure in exile who was killed in Paris, N. Ramishvili , it is mentioned about his friendship with Georgian politician N. Jordan, one of the founders of the GDR, his good relationship with Gvazawa, the editor-in-chief of "Prometheus" magazine, and the fact that he attached great importance to Borchali. M.A. Rasulzade criticized Georgian Dumbadzei's book "National Republic of Georgia" for presenting some of the territories of Azerbaijan as lands belonging to Georgia. In addition, M.A. Rasulzade's relatives live in Georgia, the preservation of his unique photo in the National Parliamentary Library of Georgia, the former president of Georgia. The valuable opinions of M. Saakashvili about M. A. Rasulzade were also brought to attention.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ETİK VƏ ESTETİK GÖRÜŞLƏRİ

***Müstəqil Ağayev***
***f.ü.f.d., dosent***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***Azərbaycan fəlsəfə tarixi şöbəsinin***
***aparıcı elmi işçisi,***
***Qabaqcıl Maarif Xadimi***
*mustaqil.agayev@mail.ru*

***Açar sözlər:*** etika, estetika, əyalət, ziraət, vicdan, ətfal, əfyun
***Key words:*** ethics, aesthetics, province, agriculture, conscience, children, opium

XX əsr Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində özünəməxsus yer tutan, görkəmli şəxsiyyət kimi tanınan Məhəmməd Əmin Rəsulzadə etika və estetikaya aid xüsusi bir əsər və ya məqalə yazmamışdır. Lakin onun yaradıcılığında etika və estetikaya aid bəzi mülahizələrə və fikirlərə rast gəlmək mümkündür.

Estetika həm təbiət, həm də cəmiyyətdə olan gözəlliklər haqqında elmdirsə, etika yalnız cəmiyyətlə, insanla bağlı olan bir elmdir. İnsan isə həm estetika, həm də etika tərəfindən öyrənilir. İnsanın zahiri gözəlliyi haqqında mülahizə yürütmək estetikanın, daxili aləmi, mənəvi zənginliyi və ya yoxsulluğu barədə fikir söyləmək etikanın mövzusudr.

Bütün millətsevərlər, xalqsevərlər insanı həm zahirən, həm də daxilən gözəl görmək istəmişlər. Bu isə bütövlükdə cəmiyyətin etik və estetik cəhətdən inkişafı, tərəqqisi deməkdir. Əlbəttə, bu, arzudur...

Məhəmməd Əmin Rəsulzadə də insanları həmişə gözəl, yaraşıqlı, ağıllı, zəkalı, tərbiyəli, bütün hərəkətlərini ölçüb- biçməyi bacaran, öz davranışı, səliqə və sahmanı, danışığı, mehribanlığı, səmimiliyi ilə hamıya xoş təsir bağışlayan bir varlıq kimi görmək istəmişdir.

O, "Çin müsəlmanları" adlı məqaləsində bu məsələlərə toxunmuş, bəzi arzularını və mülahizələrini insanlara çatdırmaq istəmişdir. Məqalədə göstərilir ki, bir həkim-səyyah vaxtilə Çin müsəlmanlarının hökmündə olmuş Yunan əyalətinə səyahət etmək və burada yaşayan insanların vicdanlılıq dərəcəsini, əxlaqi gözəlliklərini öyrənmək istəyir. Lakin ilk görüşdə budda məzhəblilər ilə müsəlmanlar arasında əxlaq və adətlərin bir-birinə zidd olduğunu görür. O yazır: "Yunan müsəlmanları çoxu ziraətə (əkinçiliyə) məşğul olub kəmali-şövq və vəcdi-diqqəti təmamilə ömürlərini ziraət sənətinə həsr edib, bu fənndə xeyli tərəqqi etmişlər. Müsəlmanlar çox mehriban olub, mehmannəvaz və həlimdirlər. Bu kəndləri seyr etdiyim halda müsəlman üləmaları tərəfindən hüsn qəbula nail oldum. Bu kəndlərdə müsəlmanların ətfal tərbiyəsinə olan himmətləri yenə nəzər diqqətimi cəlb etdi və halonki, onların buddaməzhəb qonşuları tamamən cəhalət dəryasına qərqdirlər.

Bundan əlavə, əfyun (tiryək) işlətməklə öz xanimanlarını viran ediyorlar. Nəzafət və paklıq ki, müsəlmanların xanələrində gördüm, məni heyrətə saldı və bərəks, buddaların mənzillərində napaklıq və ədəmi-taharət hökmfərma idi.

Məhəllikar və dəstikahları görüb müsəlmanların qənaət və nəzafətlərini rayül-eyn gördüm, amma sair çinli əmələlər napak tənpərvərlikləri ilə tez tanınırlar. Xülasə, Yunan islamları arasında... hüsni-əxlaq və istirahəti-rüh tam bərqərardır"[1].

Bu məqalədə Məhəmməd Əmin Rəsulzadə həkim-səyyahın dili ilə etika və estetikanın bir sıra mühüm cəhətlərinə toxunmuşdur. Çalışqanlıq, zəhmətsevərlik, qonaqpərvərlik, təmizlik, həlimlik, mehribanlıq kimi keyfiyyətlər insanın daxili aləminin zənginliyini, mənəvi ucalığını, kamilliyə doğru irəlilədiyini göstərən vacib şərtlərdir. Bu gözəl cəhətlərə görə həkim-səyyah müsəlmanları tərifləyir, onlara yüksək qiymət verir.

Məqalənin sonunda Rəsulzadə öz fikrini belə yekunlaşdırır: "Bu vaxta kimi bizə görə, aləmi-qeybətdə qalmış çinli qardaşlarımızdan ibrət almalıyız" [1].

Zəhmət çəkib tər tökmək insanı həmişə ucaltmışdır, ona şərəf, şan, hörmət və şöhrət gətirmişdir. Əmək bir tərəfdən, insanın daxili aləmini saflaşdırır, insanı mətinləşdirir, fiziki cəhətdən möhkəmləndirir, sağlamlığını artırır, başqa tərəfdən, təbiətə gözəllik bəxş edir, onu dəyişir, bu dəyişmə, bu gözəllik insana ruh verir, onu ilhama gətirir, daha əzmlə, daha həvəslə işləməyə, yaşamağa sövq edir.

Bu məqalədə də müəllif etik və estetik gözəlliyin verə biləcəyi nəticənin əhəmiyyətini nəzəri şəkildə deyil, inandırıcı həkayə yolu ilə vermişdir ki, bu, daha təsirlidir.

Məhəmməd Əmin Rəsulzadə sənətə, ədəbiyyata, incəsənətə hörmətlə yanaşır, bunların cəmiyyətə təsir qüvvəsinə bələd olduğu üçün sənət əsərlərinin qarşısına çox mühüm və məsul vəzifələr qoyur.

Ədəbiyyat, sənət xalqın, əksəriyyət təşkil edən kütlənin həyatından yazmalı, mövzu müasir həyatla, zamanla, şəraitlə uzlaşmalı, dərin məzmuna, yüksək ideyaya malik olmalı, sadə danışıq dilində yazılmalı, böyük bir məqsədi izləməlidir.

İnsanlarda estetik zövqün formalaşmasında ədəbiyyat və incəsənət əsərlərinin müstəsna rolu vardır. Mütərəqqi məzmunlu, yüksək ideyalı sənət əsərləri insanlara böyük zövq verir, onları riqqətə gətirir, işləməyə, yaratmağa, yaşamağa həvəsləndirir, paklığa, mehribanlığa, dostluğa, sədaqətə çağırır, azadlıq, xoşbəxtlik uğrunda zülmə, əsarətə, haqsızlığa qarşı mübariz olmağa səsləyir, vətənini, xalqını sevməyi öyrədir.

Vətənin çətin vəziyyətə düşdüyü anlarda həqiqi sənət əsərləri silahdan daha kəsərli, daha güclü olur. Xalqın, vətənin mənafeyindən uzaq olan "sənət əsərləri" yalnız yanmağa layiqdir.

Məhəmməd Əmin Rəsulzadə "Fəhləyə dair" məqaləsinin beşinci hissəsində belə məsələlərə toxunaraq yazır: "Bizim böyük üdəba, şüəra, ürəfa və müvərrixlərin asarını kim oxuyur? Kim onlardan bəhrəyab olur?

Hər halda onlardan nəfibərdar olan cəmaət deyil. Sənət və mədəniyyətin ixtiraati-fövqəladəsindən kim ləzzətyab olur? Cəmaətdən başqaları. Ədəbiyyatın bisəmərəliliyi bu cəhətdən naşidir. Bizlərdə ədəbiyyat yoxdur-demək olmaz. Var, lakin cümləsinin vaxtı ötmüş. Nuh əyyamından qalmış, kif atmış ədəbbiyatdır... Onlarda kasibənin könlünü açacaq, onların dərdinə çarə edəcək bir yol göstərilməmişdir" [2].

İctimai şüur formalarından biri olan ədəbiyyatı, xüsusən bədii ədəbiyyatı müdriklər insanşünaslıq adlandırmışlar. İncəsənət əsərləri içərisində bədii ədəbiyyata verilən bu ad elə belə, təsadüfi deyildir. Bədii ədəbiyyat qədər insanla bağlı olan ikinci bir sənət əsəri, demək olar ki, yoxdur. Çünki ədəbiyyat öz nəslinə, kökünə, onun adət-ənənəsinə, əsrlər boyu qazandığı mənəvi dəyərlərinə, şərəfli tarixi keçmişinə sadiq qalan gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur.

Hər bir sənət əsəri öz dinləyicilərinə, oxucularına, tamaşaçılarına yeni bir fikir, yüksək səviyyəli emosiya, təbiətə, cəmiyyətə məhəbbət hissi aşılamalıdır. Müəllifinin məqsədi aydın olmalı, əsərinin ictimai fikrə necə təsir edəcəyini, oxucularının kimlər olacağını, cəmiyyətə necə və hansı faydanı verə biləcəyini, irəli sürülən, təlqin edilən əsas ideyanın necə qarşılanacağını müəllif qabaqcadan bilməli, qarşıya çıxacaq çətinliklərə tam hazır olmalıdır.

M.Ə.Rəsulzadə özü də bədii yaradıcılıqla məşğul olduğu üçün ədəbiyyat və incəsənətlə bağlı olan bu məsələləri çox yaxşı bilirdi. O, təzə nəşr olunan hər bir əsəri diqqətlə oxuyur, teatr tamaşalarına baxır, mədəni-kütləvi tədbirlərdə iştirak edir, həmin əsərlər və tamaşalar haqqında rəylər yazır və yazılmış rəyləri oxuyurdu.

Ancaq oxuduğu əsərlər, baxdığı tamaşalar onu qane etmir. Çünki nə həmin əsərlər əsl sənət əsəri deyil, nə də onların müəllifləri əsl sənətkar deyil. Belə olduğu halda, hansı estetik zövqdən, estetik hissdən danışmaq olar?

Dediklərimizi təsdiq üçün M.Ə.Rəsulzadənin "Təzə kitablar" məqaləsinə müraciət edək: "Az bir zamandan dəri bir çox gənclərimizin və ürəfamızın həmiyyətlə vücuda gələn əsərləri-ni görüb də şad olmamaq qabil deyildir. Məəmafih, bu əsərlər mütaliə edildiyi zaman insanı bir çox nöqtələr düşünməyə məcbur edir. Məsələn, bir əsərin mütaliəsində, əcəba bunu yazan nə məqsədlə yazmış və yazdığı zaman kəndi iqtidarını (savadını, biliyini, bacarığını) düşünmüşmü? Əgər bunu yapdısa, yazdığı əsərin əfkari-ümumiyyə üzərində nasıl bir təsir buraxacağını aramış və anlamışmı? Yazdıqlarını kimlər oxuyacaq və nasıl bir iqtidara (bacarığı) malik olan kimsələr mütaliə edəcək? Mütaliə edənlərə nə surətlə fayda verə biliyo ram, - deyə təsirlənmişmi?" [3].

Məhəmməd Əmin Rəsulzadənin bu dedikləri onun estetik düşüncələrinə bariz misaldır. Onun fikrincə, sənət əsərinin estetik dəyəri, qüdrəti, gözəlliyi onun millətin ruhunu əks etdirə bilməsində, tamaşaçıya, oxucuya, dinləyiciyə öz gücünə, qüvvəsinə, özünə inam hissini artıra bilməsindədir. Lakin bir əsəri mütaliə edən şəxs onu anlamırsa, onda həmin əsər haqqında hansı xoş sözləri söyləmək olar?

Fikrimizi M.Ə.Rəsulzadənin həmin məqalədə Bakı ticarət məktəbinin şagirdi Əliəjdər Seyidzadənin yazdığı "Məhəbbəti-madəranə" əsəri haqqında söylədiyi fikirlə tamamlayaq: "Binaən əleyh məzkur kitabı oxuyan zaman şagird əfəndinin türk, fars, ya ərəb- hankısından olduğunu anlamaq mümkün deyildir. Düşündükcə bunların heç birindən olmadığına hökm etmək lazım gəliyor" [3]. Gərgin ictimai-siyasi fəaliyyətlə məşğul olmasına baxmayaraq, M.Ə.Rəsulzadə vaxt tapıb bədii ədəbiyyatı da mütaliə edir. Şərqin və Qərbin məşhur yazarlarının əsərləri ilə yanaşı, gənc yazarların da əsərlərini oxuyurdu. Mənasız, məzmunsuz, heç kəsə faydası olmayan, hissə, qəlbə təsir etməyən, sadəcə olaraq vaxtı öldürmək üçün yazılmış cızma-qaraları əsər hesab etmir, bunlara çəkilən xərclərə təəssüflənir.

Yazılarında irəli sürdüyü məsələlərə, şərtlərə özü əməl etməyib başqalarını buna dəvət edən yazarları ciddi tənqid atəşinə tutur. M.Ə.Rəsulzadə bu münasibətlə yazır: "Bu günlərdə nəzəri-təsadüfüm olan iki kitabçanı nümunə olaraq göstərmək istəyirəm. Bunlardan biri Ağakərim Kərimov cənablarının "Nələr lazım", yaxud "Üç vacibi şeylər" nam əsəridir. Bu əfəndi şu vacibli kitabında əvvəla elmi, saniyən məhəbbəti, salisən tərbiyəni kəndi millətinə təlqin etmək istəmiş və bunları şerlə hüsula gətirmiş... Kitabın başında diyorlar:

*Ey olan bərrü bəhrin sahibi tək olan pərvərdigar,*
*Et nəzər milləti-müsəlmanə, eylə rəhmət möcizani-izhar.*
*Biz müsəlmanın işi*
*ahu fəğan, dərd çəkməkdir.*
*Çıxardıb xoş günün yaddan*
*eyləyib fələyə vagüzar...*

İştə şairimizin şerini hər kəs özü mülahizə buyursa gərək.
Və yaxud:

*Məhəbbə meyvəsi bir zəhralud almadır*
*Şirin olar o vaxt içində olmaya kim üsyanı...*

İştə şairimiz nə demək istədiyini kəndisindən başqa bilən olmayacaqdır, zənn edirəm. Mən ki, bir şey anlamadım, ancaq acı bir təəssüf deyə bildim" [3].

Məhəmməd Əmin Rəsulzadə insanın hissinə, ruhuna, zövqünə daha yaxın olan və daha çox təsir edən sənət əsərləri içərisində bədii ədəbiyyata üstünlük verir. İctimai şüur formalarından biri olan ədəbiyyat əks etdirdiyi mühit və şəraitin dəyişməsi ilə bərabər dəyişir, yeniləşiryeni məzmun və yeni ideyalarla zənginləşir. Ədəbiyyat inkişaf etməkdə olan həyatla ayaqlaşmalı, ondan geri qalmamalıdır. M.Ə.Rəsulzadəyə görə, ədəbiyyat

cəmiyyətdə baş verən hər cür hadisələrə öz münasibətini bildirməli, yaxşını, mütərəqqi olanı təqdir, pisi, yaşamağa layiq olmayanı tənqid etməli, bu yolla cəmiyyətin inkişafına, yüksəlişinə yardımçı olmalıdır

M.Ə.Rəsulzadə ədəbiyyatın, sənətin xalqa daha yaxın olmasında, ideya, məzmun və formaca təkmilləşməsində, ictimai-siyasi hadisələri bütün reallığı ilə əks etdirməsində, cəmiyyətin estetik tərbiyəsində ədəbi tənqidin roluna böyük əhəmiyyət verir. Əlbəttə, tənqid o zaman daha təsirli, daha güclü olur ki, o, qərəzsiz olsun, gərçəkliyə istinad etsin, faktlara və dəlillərə söykənsin, təhrif və əsassız tərifdən uzaq olsun. Cəmiyyətin inkişafına, mənəvi cəhətdən zənginləşməsinə, mədəniyyətin yüksəlməsinə kömək etsin.

O yazır: "Madam ki, qarelər oxuyur və madam ki, yazıçılar yazıyor, tənqidə istər-istəməz lüzum hasil oluyor. Ədəbiyyat bir millətin rüşd və büluğunu göstərir və həyati-ictimaiyyəsini təsvir qılar bir ayinə olduğu kimi, eyni zamanda o millətin tərəqqisinə də xidmət etməklə müvəzzəfdir. Yoxsa ədəbiyyat deyildir. Ədəbiyyat ictimai bir amil və həyati bir müəssirdir. Müəssir məyub olursa, əsər də naqis olur. Ədəbiyyat rəhbərdir. Rəhbərin nöqsanı rəhrovların xüsraninə mövcib olur. Buna görə də mütəməddin millətlərdə ədəbiyyat həyatın bütün vəqələrini tənqid etdiyi kimi, özünü də tənqid edər. Çünki özü də həyatın bir vəqəsidir. İnsanlara tənqidi-nəfs öyrədən ədəbiyyat özünü tənqid etməsə idi, alimi-biəməl məqamında qalar idi.

Ədəbiyyat əfkari-ümumiyyədə və həyati-noviyyədə vaqe olan təbəddülatdan geri qalmamalıdır. Əqəllən onların üzərinə icrai-təsir etməlidir" [4].

Bu ağıllı və müdrik insan göstərir ki, hər dövrün, hər bir tarixi mərhələnin öz ədəbiyyatı olur. Vaxtilə millətin hisslərinə, duyğularına təsir edən sentimental ədəbiyyat daha çox dəbdə idi. Layla çalan bu ədəbiyyat insanları daha çox yatmağa, xəyali, ruhi ləzzət almağa sövq edirdi. İndi zaman dəyişmişdir, xəyala dalmaq, laylalara qulaq asmaq vaxtı deyil. Yeni dövr başlanır. Reallıqla, gerçəkliklə hesablaşmaq, ayaqlaşmaq vaxtıdır.

Bizə xəyallardan uzaqlaşmağı, reallığı təbliğ edən realist ədəbiyyat lazımdır. Bu ədəbiyyat xalqı, milləti oyatmalı, onun ağlına, şüuruna təsir göstərməlidir. Ona yol göstərən rəhbər olmalıdır. M.Ə.Rəsulzadə bu barədə yazır: "Nə kimi bir lisan və biliklə olsa, məqsəd yatmışı oyatmaqdır. Yatmış oyandıqdan sonra məsələ tamamilə dəyişiyor. İndi artıq yuxudan gec qalxıb da özünü karvandan geridə görən adama yol göstərmək, qabaqda gedənlərə nə surətlə çatmaq mümkün olduğunu bildirmək dövrəsi gəlir ki, bu dövrəyə realizm /həqiqət/ dövrəsi deyilir.

Artıq layla çalan ədəbiyyat,., hissiyyat ədəbiyyatı gözləri açılmaqda olan adamları düz yol ilə aparıb sərmənzilə çıxarmaq üçün kafi deyildir. Bunun üçün ədəbiyatı-həqiqə lazımdır"[4].

Deməli, ədəbiyyatın, sənətin gözəlliyi, böyüklüyü onun xalqın həyatı, məişəti, arzu və istəkləri ilə bağlılığında, onları əks etdirmə qabiliyyətində, nöqsanların, çətinliklərin aradan qaldırılması işində oynadığı rolda və bütün bu kimi problemlərin həllində əldə etdiyi nailiyyətdədir.

Ədəbiyyat cəmiyyətdəki eybəcərliyi, çatışmayan cəhətləri: haqsızlığı, ədalətsizliyi, inkişafa mane olan, vaxtı keçmiş məsələləri tənqid etməklə yanaşı, milləti yeniliyə, inkişafa səsləyir. İnsanlarda xeyirxahlıq, mübarizlik, qorxmazlıq, haqq işi uğrunda fədakarlıq kimi nəcib sifətlərin yaranmasında ədəbiyyatın müstəsna rolu vardır. Xalqın həyatı, məişəti, adət-ənənəsi öz əksini ədəbiyyatda tapır.

Hər xalqın özünəməxsus milli ədəbiyyatı olmalıdır. O, millətin əksəriyyət təşkil edən əmək adamlarına xidmət etməlidir. Ədəbiyyat başqalarını təqlid etməməli, yabançı təsirlərdən uzaq olmalıdır. Ədəbiyyat ictimai mənafeyi qorumalı, sadə, təmiz və anlaşıqlı dildə olmalıdır. O, "xalqa yaxın olmalıdır.

Məhəmməd Əmin Rəsulzadə Türkiyə ədəbiyyatının dahiləri Namiq Kamal, Əbdülhəq Hamid və Tofiq Fikrət kimi sənətkarların yaradıcılığında olan bütün müsbət cəhətləri sadaladıqdan sonra təəssüflə qeyd edir ki, bu görkəmli şəxsiyyətlər xalqdan çox uzaq idilər.

Bu məqsədlə yeni lisançılar və türkçülərin həmin sənətkarlar haqqındakı mülahizələrini belə verir: "Onlarca (yeni lisançılar və türkçülər nəzərdə tutulur - M.A.) əgər osmanlı lisanı qeyri-təbiiliklərdən azad olsa və xalqdan bu qədər uzaq qalmamış olsaydı, mütləq namiqlər, hamidlər, fikrətlər indi daha ziyadə qarelər bulur, onları hər kəs oxuyur, heç olmazsa, indikindən daha böyük bir kütleyi-nas anlardı.

Halbuki, indiki halda daha onlar ancaq xassa məxsus olaraq qalıyor və onları ancaq xass oxuyur. Yüksək bir dil ilə yazı yazan ədiblərimizdən birisinə müraciətlə anlaşılmaz dilindən şikayət etmişlərdi. O da "Biz Quba meydanı üçün yazmıyoruz", - demişdi. Tıbqı bunun kimi əski lisan əsatizeyi-şüərası da: "şer və ədəbiyyat xalq üçün deyildir və heç bir zaman xalqa getməz, xalq ona gəlməlidir diyordular...,".

Ədəbiyyat, heç şübhə yoxdur ki, millətlərin həyatında mühüm bir amildir. Fəqət yenə hər bir şəkk və şübhədən aridir ki, ədəbiyat da həyat və həyatdakı təbəddülata mərbutdur və onunla bərabər tərəqqi edir, şəkildən-şəklə girir" [5].

Məhəmməd Əmin Rəsulzadənin söylədiyi bu fikirlər onun sənətə, ədəbiyyata nə qədər ciddi münasibət bəslədiyini çox aydın göstərir. O, gözəlliyə bir sıra komponentlərin, amillərin məcmusu kimi baxır. M.Ə.Rəsulzadəyə görə, həmin amillərdən biri və ya bir neçəsi çatışmasa, onda gözəllik haqqında danışmağa dəyməz. Çünki gözəlliyi şərtləndirən bu amillər vəhdət təşkil edir, bir-birini tamamlayır. "Yezid ibn Müaviyə", "Əhdə vəfa", "Əsli və Kərəm", "Şah Abbas və Xurşudbanu", "Qaçaq Kərəm", "Rüstəm və Söhrab", "Nadir şah" və s. əsərlər haqqında M.Ə.Rəsulzadə ədəbi ictimaiyyətə geniş məlumat verməklə, xalq kütlələrinin yeni şəraitdə artan mənəvi tələbatını, zövqünü, marağını təmin edə bilən realist əsərlərin yaranması işinə təkan vermişdir.

Qadın gözəlliyindən danışarkən, onun zahiri cəhətinə: geyiminə, qiyafəsinə, geyimdə rənglərin uyarlığına, əndamın mütənasibliyinə, incəliyinə xüsusi diqqət yetirir.

"Türkiyədə qadınlar" məqaləsinin bir yerində beəl yazır: "...Qiyafəyə gəlincə, türk qadınları, məncə, aləmi-islam qadınlarına nümuneyi-imtisal ola bilərlər... Qadınların qiyafəsi İstanbul bərzəxiyyətinin vücuda gətirdiyi dilruba şəkillərindən birini təşkil edər.. İstanbul qadını üzünə alnından çənənin altına qədər asılan "picə" deyilən nazik bir örtük örtüyor. İncə picələr simayə daha başqa bir anıt bəxş ediyor, qollar tamamilə azaddır, dirsəyə qədər açıqdır. Əllər ağ əlcəklərlə örtülür... Xülasə, İstanbul xanımının geyimi tamamilə bir Avropa qiyafəsidir. Ancaq yuxarıda tərif etdiyiniz bir "çarşabı" artıqdır. Bu çarşab da ona daha ziyadə bir gözəllik və tənasüb bəxş ediyor" [6].

Məhəmməd Əmin uşağa qulluq etməyi, uşağın tərbiyəsi, təlimi ilə məşğul olmağı, təmiz, səliqəli və zövqlə geyindirəmyi də qadın gözəlliyinin tərkib hissəsi sayır:

"İstanbul xanımları... zövqi-nəfisə malikdirlər. Bu zövqlərini də hər şeydən ziyadə, çocuqlarında nişan verərlər. İstanbulda çocuqlar olduqca pakizə saxlamlıyor, olduqca gözəl geyindiriliyorlar. Küçədən keçən xırda qızlar, xırda oğlanlar o qədər gözəl, o qədər zərif'və o qədər şairanə geyindirilmişlər ki, məftun olmamaq əldə deyildir.

Öz zinət və gözəlliyini təşhid edə bilməyən türk xanımı bütün zövq və sənətini istəkli uşağına göstərir və onu İstanbulun təbii gözəlliyi ilə mütənasib bir tövr vəziyyətində saxlıyor" [6].

Göründüyü kimi, Məhəmməd Əmin Rəsulzadə türk qadınlaırnın yüksək zövq və böyük həvəslə öz körpələrini geyindirməsini, özlərindən daha çox uşaqlarına qayğı göstərməsini yüksək qiymətləndirir və bundan məmnun qaldığını hiss etdirir.

İstanbul qadınlarının səliqə-sahmanı, yaraşıqlı, təmiz, zövqlə geyinmələri Rəsulzadəni nə qədər sevindirirsə, ona ilham verirsə, evdarlıqda nöqsanlı olmaları onu daha çox kədərləndirir. Təəssüflə qeyd edir ki. "İstanbul xanımları zərif və zövqi-səlim sahibi olduğu

qədər evdar deyildir. Türk ailəsi hər şeyi bazardan alır, hətta qadın əlbəsələri də bazardan gəlir. Çox vaxt ev xanımı bir həftəlik xörəyi birdən hazırlar, əti qovurar qoyar, sonra bəy əfəndi evə gələndə bir az qovurma alar, qızdırar, üzərinə də bir az lobiyədən-mobiyədən tökər, xörək hazır olar" [6].

Məhəmməd Əmin Rəsulzadənin bir sıra səhnə əsərləri – tamaşalar haqqında yazdığı tənqid və təhlil xarakterli məqalələri müəllifin estetik görüş dairəsinin nə qədər geniş diapazona malik olduğunu bir daha sübut edir. Həmin yazılarda o, hər bir əsərin ideyası, məzmunu, mövzunun aktuallığı, məqsədi və buna nail olma dərəcəsi, dili, quruluşu və s. barəsində qısaca məlumat verdikdən sonra tamaşa haqqında öz mülahizələrini söyləyir.

Xüsusən aktyorluq sənəti və onun məsuliyyəti, rejissor işi, səhnə mədəniyyəti, tamaşaya qoyulan əsərlərin tamaşaçılara verdiyi yüksək estetik zövq və s. haqqında peşəkar teatr tənqidçisi kimi söhbət açır. İnsanların təlim-tərbiyəsində, maraq və zövqlərinin, mənəvi tələbatının təmin olunmasında səhnə üçün yazılan əsərlərin daha çox dəyərli olduğunu deyir.

## ƏDƏBİYYAT


1. "İrşad"qəzeti № 59, 3 mart 1906
2. "İrşad" qəzeti №133, 7 iyun 1906
3. "İqbal" qəzeti № 344, 28 aprel 1913
4. "İqbal" qəzeti № 476, 10 oktyabr 1913
5. "Şəlalə" jurnalı № 24, 20 iyul 1913
6. "İqbal" qəzeti № 397, 28 iyun 1913


## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ETİK VƏ ESTETİK GÖRÜŞLƏRİ

***Müstəqil Ağayev***

**Xülasə**

Məqalədə Azərbaycan mütəfəkkiri, ictimai-siyasi xadim M.Ə. Rəsulzadənin etika və estetikaya aid fikir və mülahizələrindən bəhs olunur. Müəllif göstərir ki, M.Ə.Rəsulzadə etika və estetika haqqında ayrıca bir məqalə və ya əsər yazmamışdır. Lakin onun yaradıcılığını izləyərkən, etika və estetika haqqında çoxlu deyimlərə rast gəlirik. Rəsulzadə insanları ağıllı, tərbiyəli, zəkalı, insanpərvər, vətənpərvər, səliqəli, təmiz, vicdanlı, ədalətli, paxıllıq və xainlik kimi murdar hisslərdən uzaq görmək arzusunda olmuşdur. Bu məqalədə də, əsasən, bu barədə söhbət gedir.

## ETHICAL AND AESTHETIC VIEWS OF MAHAMMAD AMIN RASULZADE

***Mustagil Agayev***

**Summary**

The article talks about the ideas and considerations related to ethics and aesthetics of the Azerbaijany thinker, public and political figure Mahammad Amin Rasulzade. The author shows that Mahammad Amin Rasulzade did not write a separate book of article on this matter. But following his work, we come across many statements about ethics and aesthetics, Rasulzade wanted to see people smart, edukated, intelligent, humane,patriotic, neat, clean, honest,fair, and free from dirty feelings such as envy and betrayal. This article is mainly about that.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN DÜNYAGÖRÜŞÜNDƏ HƏMRƏYLİK İDEYALARI

**Ağasəlim Həsənov, f.ü.f.d.,dosent**
***AMEA Fəlsəfə və Sosiologiya***
***İnstitutunun aparıcı elmi işçisi***
*aghasihasanli@gmail.com*
*https://orcid.org/0009-0009-3321-8894*

***Açar sözlər:*** *Rəsulzadə, Solidarizm, Millət, Dövlət, Liberalizm, Demokratiya*
***Keywords:*** *Rasulzadeh, Solidarity, Nation, State, Liberalism, Democracy*

Böyük öndər M.Ə.Rəsulzadənin həmrəylik ideyalarına dair baxışlarını təhlil etdikdə onun geniş məzmunlu olduğunu görə bilərik. Belə ki, Rəsulzadə milli həmrəyliyə əsaslanan milli sosial dövlət ideyasını irəli sürərək, milli və sosial məsələlərə bərabər şəkildə yanaşmışdır. Yəni, Rəsulzadə cəmiyyətdə həmrəylik yaradan ideyaların təkcə milli, etnik, dini amillərlə bağlı olmadığna inanır, həmrəyləşmə prosesində sosial məsələlərin də böyük əhəmiyyət daşıdığını vurğulayırdı. Məsələn, sosial ədalət, sosial bərabərlik və sosial rifahın cəmiyyətdaxili həmrəylik yaradan əsas amillərdən olması təkzibolunmazdır.

Lakin, Rəsulzadə ilk öncə milli məsələlərin (məsələn: milli istiqlal, milli mədəniyyət, dil və s.) həll olunmasını vacib sayır, daha sonra isə sosial məsələlərin önə çəkilməsini doğru hesab edirdi. Məntiq baxımdan bu cür yanaşmanın doğruluğu şübhəsizdir. Çünki, bir toplum üçün milli məsəllər həll olunmadan, sosial məsələlərin önə çəkilməsi milli həmrəyliyə, milli müstəqilliyin əldə olunması uğurunda aparılacaq mübarizəyə zərər vermiş olardı. Deməli milli və sosial məsələlərə münasibətdə orta mövqe tutan Rəsulzadə milli sosial dövlət prinsipini önə çəkir və bu cür yanaşma ilə özünün yeni milli həmrəylik təlmini ortaya qoymuş oldu.

M.Ə.Rəsulzadə irsinin araşdırmaçısı, tədqiqatçı-alim F.Ələkbərli böyük öndərin həmrəylik ideyalarına dair fikillərini belə təhlil edir: "Milli təsanüd, ya da milli həmrəylik (solidarizm) fikirləri ilə ortaya atılan Rəsulzdə artıq cəmiyyətin problemlərinin həllində əsas nöqtəni tapmışdır. O, bütün varlığı ilə milli bir insan olsa da, sosial bərabərlik məsələsinə də xüsusi önəm vermişdir. Uzunmüddətli siyasi-ideoloji axtarışlardan sonra Rəsulzadə sosial məsələnin milli məsələ ilə necə uzlaşa bilməsini tapa bilmişdir....M.Ə.Rəsulzadənin milli təsanüd ideyası milli məsələ ilə sosial məsələnin kəsişdiyi bir nöqtə idi. O, bu ideyanı irəli sürməklə sübut etmək istəyirdi ki, sosial məsələləri milli məsələlərə qarşı qoymağın hüç bir mənası yoxdur. Rəsulzadə sosial məsələlərin milli məsələlərə zidd olmadığını, əksinə, onunla bağlı olduğuna inanırdı. Beləliklə, milli ideoloq əsas fikirlərini milli məsələ ilə sosial məsələnin təsanüdünə, yəni onların həmrəyliyinə yönəltmişdir" *[1,s.255].*

M.Ə.Rəsulzadənin dünyagörüşünün ümumi istiqaməti onu deməyə əsas verir ki, I Dünya Müharibəsi ərəfəsində və müharibə dövründə o, Azərbaycan türklərinin müstəqil bir xalq kimi tanınmasına tədricən, addım-addım yaxınlaşdı. Məlum olduğu kimi, Azərbaycan ictimai-fəlsəfi fikrində ilk dəfə olaraq Ə.Hüseynzadə ondan əvvəl çox qeyri-müəyyən və mücərrəd mənada bütün dünya müsəlmanlarını ifadə etmək üçün işlədilən "ümmət" anlayışının sinonimi kimi "millət" terminini elmi cəhətdən konkretləşdirmiş və aydınlaşdırmışdır. M.Ə. Rəsulzadə Ə.Hüseynzadənin ideyalarını XX əsrin əvvəllərindəki konkret Azərbaycan reallıqları kontekstində yaradıcılıqla mahiyyət etibarı ilə yenidən işləmişdir. M.Ə. Rəsulzadə dini və milli icmaların, "ümmət" və "millət" terminlərinin eyniləşdirilməsini rədd edərək, bu anlayışlar arasında aydın sərhəd çəkmişdir. M.Ə. Rəsulzadə vurğulamışdır ki, "ümmət" sırf dini məzmun daşıyır. Çünki bu, etnik və mədəni mənsubiyyətindən asılı olmayaraq bütün dünya müsəlmanlarının birləşməsi, yəni konfessiya icması deməkdir.

Eyni zamanda, "millət" anlayışı ortaq dil, mədəniyyət, ərazi və tarixə, eləcə də dinə əsaslanan etnik birlikləri nəzərdə tutur. Lakin M.Ə. Rəsulzadə dini heç bir halda xalqın ən əsas xüsusiyyəti hesab etmir, ona ikinci dərəcəli rol verirdi. M.Ə. Rəsulzadə etnik icmaların üç səviyyəli- xalq, milliyyət və millət iyerarxiyası ideyasını irəli sürdü. Bundan əlavə, o, onların delimitasiyası üçün konkret keyfiyyət parametrlərini müəyyən etmişdir. Belə ki, M.Ə. Rəsulzadənin dediyi kimi, milliyyət müəyyən bir ərazidə formalaşmış, yalnız ümumi mənşə və dil birliyi ilə bağlı olan insanların məcmusudur. "Milliyyət" termini ilə müəyyən olunan daha yüksək səviyyəli etnik icma onu təşkil edən insanların dil və mədəni birliyi ilə xarakterizə olunur.

Millətə gəlincə, M.Ə. Rəsulzadə göstərir ki, o, millətin nümayəndələrinin əksəriyyətinin öz mədəni-milli birliyini dərk etdiyi anda yaranır. Başqa sözlə desək, milləti milliyyətdən fərqləndirən əsas cəhət millətin nümayəndələri arasında milli kimliyin olmasıdır. Göründüyü kimi, M.Ə. Rəsulzadə bu etnik birlikləri zaman və məkanda müxtəlif dərəcəli dəyişikliklərə məruz qalan, çox vaxt onun transformasiyası ilə müşayiət olunan dinamik hadisələr kimi qəbul edirdi. M.Ə. Rəsulzadə yazır: *"..milli birliyi dərk etmək və ona can atmaq tarixi əsasda insanların milliyyətdən millətə çevrilməsinə xidmət edir"* [7,c.38]. Rəsulzadənin dediyi kimi, xalq dilin, adət-ənənənin, mədəniyyətin, tarixi ənənələrin, eləcə də dinin vəhdətini nəzərdə tutur. Milləti yaradan bu elementlərin birləşməsidir. Milləti milliyyətdən fərqləndirən ən mühüm xüsusiyyət kimi M.Ə. Rəsulzadə milli özünüdərkin mövcudluğuna inanırdı: *"Milli həyat ancaq milli özünüdərkin inkişafı nəticəsində mümkündür, onun təsiri altında milli ideologiya yaranır. Öz növbəsində milli ideallar millətin ləyaqətli varlığını təmin edir*"[3, s.468].

M.Ə. Rəsulzadə azərbaycanlıları ikinci qrupa - milliyyətə aid etdi. Beləliklə, o, həmin dövrdə Azərbaycan türkləri arasında dəqiq müəyyən edilmiş milli kimliyin olmamasını etiraf etdi. O, Azərbaycan türklərini nəzərdə tutaraq yazırdı ki, "*biz də digər Rusiya müsəlmanları kimi indiyə qədər milli deyil, dini faktora önəm vermişik. Türkcə qəzet çıxarırdılar, amma müsəlman deyirdilər. Türk dilində teatrlar və operalar yaradıb, onlara müsəlman teatrı, müsəlman operası deyirdilər. Məktəblər açdılar, onlara rus-müsəlman adını verdilər*"[3, s.469]. O, daha sonra vurğulayır: *"baxmayaraq ki, biz bütün bunları türk dilində və türk mədəniyyətini dirçəltmək naminə etmişik, lakin İslam amilinin təsiri altında özümüzü müsəlman saymışıq, əslində özümüzün türk millətinin nümayəndələri olduğumuza əhəmiyyət verməmişik. Və biz hələ də bu reallığa məhəl qoymuruq. Üstəlik, bizə "tatar", "fars" deyəndə etiraz belə etmədik. Bütün bunların səbəbi millət olaraq özümüzü dərk etməməyimizdir*" [6, s.18].

Bu səbəbdən M.Ə. Rəsulzadə belə qənaətə gəlir ki, bu vəziyyəti düzəltmək üçün milli özünüdərk və milli məfkurəni inkişaf etdirmək lazımdır. Bununla bağlı M.Ə. Rəsulzadə milli ideologiyanın formalaşdırılmasının yolları və vasitələrinin axtarışına böyük əhəmiyyət verirdi. O, sonrakı əsərlərindən birində qeyd etdiyi kimi, *"milliyyət halından millətə keçid ümumi şüurun və kollektiv iradənin məhsuludur"* ki, bu da xalqın məhvi ilə tarix səhnəsinə çıxan ziyalıların yaratdığı və təbliğ etdiyi bir fenomendir. M.Ə.Rəsulzadənin fikrincə, məhz ziyalıların fəaliyyəti nəticəsində ümumi şüur və kollektiv iradə təkmilləşərək inkişaf edir və vətənin, xalqın azadlığı uğrunda mübarizə səviyyəsinə çatır, etnik icmanın hər bir üzvünün mənəvi tələbatına çevrilir. Nəhayət, *"milliyyət millətə çevrilmək əzmi qazanır"* [6, s.18]. M.Ə.Rəsulzadə "Milli varlıq" əsərində bu haqda yazır: *"Ayrı-ayrı şəxslər tərəfindən təsvir edilən və formalaşdırılan, sonra isə ictimaiyyətin mühakiməsinə təqdim edilən milli hərəkətlər layihəsi. xalqın həqiqi hiss və istəklərinə uyğunlaşma halı geniş vüsət alır və çoxsaylı tərəfdarlar qazanır. Əks təqdirdə, yalnız məhdud bir dairənin dəstəyini aldıqdan sonra o, sonda unudulacaqdir.*" [3, s.471]. M.Ə. Rəsulzadə milli kimliyin formalaşmasına xalqın tarixi yaddaşının bərpasından başlamağı təklif edirdi. Onun fikrincə, *"xalqlar böyüklük və güc qazanmaq üçün öz tarixlərinə müraciət edirlər. Xalqlar zəifləmə və zülm dövrlərində yox olmaq təhlükəsi ilə üzləşdikdə belə keçmişin şanlı səhifələrini xatırlayaraq özlərində gələcəyə ümidlər canlandırırlar." [3, s. 483]* Onun fikrincə, *"xalqlar öz tarixlərini araşdıraraq,*

*nümunə götürür, keçmişin qəhrəmanlarının ideal modelini yaradaraq, onu indiki və gələcək nəsillərə ötürüb örnək kimi formalaşdırırlar"[3, s.483]* Əminik ki, xalqın birliyi və mədəni inkişafı üçün onun öz tarixini bilməkdən güclü amil yoxdur. M.Ə. Rəsulzadə eyni zamanda milli tarixin öyrənilməsi sahəsində vəziyyətin acınacaqlı olduğunu da yaxşı bilirdi. Təsadüfi deyil ki, *o, türk gənclərinin öz zəngin tarixlərindən faktiki olaraq xəbərsiz olduğunu ürək ağrısı ilə qeyd edirdi. Ona görə də milli ruhun dirçəldilməsi prosesində milli tarixin hərtərəfli və diqqətlə öyrənilməsinə, sonra onu ana dilində kütlələrə çatdırmağa böyük əhəmiyyət verirdi. O, əmin olduğunu bildirdi ki, əsl milli tarixin yenidən qurulması səyləri, şübhəsiz ki, milli özünüdərkin formalaşmasına gətirib çıxaracaqdır. Bu da öz növbəsində, kütlələri yeni böyük milli amallara sövq edəcəkdir* [7, s.42].

Azərbaycanda həmrəylik təliminin banisi M.Ə.Rəsulzadə olmuşdur. M.Ə.Rəsulzadə həmrəliyə daha çox XX əsrin əvvəllərində müraciət etmişdir. M.Ə.Rəsulzadənin fikrincə, azərbaycanlılarda milli həmrəylik duyğusu gücludur. Həmrəliyin təsanüd kimi səciyyələndirən müəllif özünün "Milli təsanüd" məqaləsində göstərir ki, həmrəylik, azadlıq və mülkiyyət məsələləri qarşısına qoyulmuş təbii təşəbbüslərdən fərqli olaraq kapitalizmin liberal sistemi ümumi mənfəətə zərər vuran ifratçıların qarşısını almaq vəzifəsini dövlətə verir. M.Ə.Rəsulzadə alman sosial-demokrat Ferdinad Lassalın dövləti bir sinfin digər sinif üzərində hökmranlığı deyil, cəmiyyəti idarə edən və siniflər fövqündə duran bir təsisat olduğunu bildirir:

*"O, liberalizmin dövləti iqtisadi münasibətə müdaxilədən mən edən nəzəriyyəsini şərh ediyor, böylə bir müdaxilə demokratik dövlətin vəzifəsindən olduğunu iddia ediyordu. Lassala görə əsaslı qanunlar cəmiyyət içindəki ictimai siniflərin bilfeil haiz olduqları qüvvət və iqtidarın həqiqi təvazinini təsbit edən vəsiqələrdir*"[2,s.345].

Lassalın dövlətin missiyası ilə bağlı irəli sürdüyü mülahizələri qəbul edən Rəsulzadənin də fikrincə, dövlətin əsas vəzifəsi bir tərəfdən insanların azadlıqlarını təmin etmək, digər tərəfdən isə fərdlərin birləşdirilməsi, onların müsbət xassələrinin aşkar edilməsidir.

F.Ələkbərlinin fikrincə *"ən əsası da odur kı, dövlətləri yıxmaq deyil, onları təkamül əsasında inkişaf etdirmək və sosial ədalətli cəmiyyətlər təşkil etməkdir. Rəsulzadə hesab edirdi ki, marksizmin irəli sürdüyü sosial inqilabın (marksist iniqlabçılar) baş verməsi gününü gözləmək, bunun üçün də fəhlələrin qulaq-başını doldurmaq əvəzinə, ən yaxşısı dövlətin sosial islahatlar həyata keçirməsinə (Russoya, Hegelə əsaslanan Lassalyanizm - təkamülçülər) təkan vermək idi*" [1, s.228].

Rəsulzadə yazırdı: *"Lassal ruhunu idealizə edən alman sosialistləri, mövcud inqilab günü uzaqlaşdıqca "Manifest"in firqə proqramında tarixə və keçmişə hörmətən sadə bir bəyannamə rolu oynadığına qane olmuş "Manifest" ilə bərabər "Kapital"ın belə ortaya qoyduğu qəti üqnumları tədqiqi və təhqiqinə lüzum görmüşlərdir. Bernşteyn tərəfindən təmsil olunan bu təqlidçiliyə Almaniya sosializm tarixində "reviziyonizm" deyilir. Reviziyonizm sinif mücadiləsinin əhəmiyyətini idrak etməklə bərabər, bunun Marksda olduğu kimi qəti və mütləq bir qiyməti haiz olmadığını iddia eləmiş, sinfi mənfəətlərini müdafiə etməklə bərabər əmələnin milli mənafe naminə dövlət daxilində digər siniflərlə təşriki-məsai edə biləcəyi ilə, sinif təsanüdünə dəxi mənfi bir nəzərlə baxmamaq lazım gəldiyini irəli sürmüş; eyni zamanda kapitalizm inkişafının Marksın iddia etdiyi vəchlə mütləqa sosializm ingilabına aid olacağı qəziyyəsini dəxi şübhə altına almışdır".* [2, s.353]

Beləliklə, alman sosialistlərin (Lassal, Bernşteyn, Bebel və b.) zamanla sinfi həmrəyliklə yanaşı milli həmrəylikdən bəhs etmələri marksizm üçün ciddi zərbə olmuşdur. Xüsusilə də, Lassaldan sonra Bernşteyn, Bebel və Libknextin Almaniya vətənpərvərliyindən, alman milli hisslərindən bəhs etmələri sosial-patriotizmi və milli həmrəylik təlimini ortaya qoymağa başlamışdır. Rəsulzadə hesab edirdi ki, onlar Marksın hər növ xüsusiyyətləri məhv edən internasionalizminə müqabil reformizm və sosial-patrotizmdə insanın öz vətəninin istiqlalını müdafiə etmək lüzumundan bəhs edirdilər. Rəsulzadə yazırdı:

*"Vətən nədir? Üzərində yaşadığımız torpaqmı? Bu, yalnız yaşadığımız torpaq deyil, Bebelin üsulətlə işarət etdiyi kimi bu, ana-babalarımızdan bizə keçən mənəvi qiymətlərin yekunudur. Bu, həm din, həm dil, həm ədəbiyyat, həm gözəl sənətlər, xülasə bir millətin həqiqi siyasi və mənəvi şəxsiyyətini təşkil edən bütün qiymətlərin məcmuidir!*"[2, s.357-358]

M.Ə.Rəsulzadə sinifləri əsas hesab edən kommunizm kimi fərdləri nəzəri etibara alan liberalizmi də kosmopolit və beynəlmiləl, həmrəyliyi isə milli fenomen kimi səciyyələndirir. Çünki həmrəylik:*"sadə şəxslərin və siniflərin maddi mənfəətə bağlı xüsusiyyətlərinə deyil, siniflər və fərdləri bir cəmiyyət halına gətirən mənəvi qüvvələrə böyük qiymət verir. Bu mənəvi qüvvələr isə, millət və dövlətlərin gerçəkləşməsində birləşdirici amil olaraq təsir edən dil, din, tarix, ümumiyyətlə kültür və ortaq ideal kimi mənəvi və ruhi qüvvələrdir.*"[2, s.357]

M.Ə.Rəsulzadə göstərir ki, liberalizm mədəniyyətin ruhunu fərdin yaradıcı eqoizmində görür. Kommunizm isə bunu sinif eqoizmilə təbdil edər (dəyişdirir); solidarizm isə, mədəniyyəti fərd eqoizmilə cəmiyyət mənfəətləri arasındakı ahəngdən ibarət bilir. Liberal cəmiyyətdə qeyri düşünmək [altruizm] qəhrəmanlıqdır. Solidarizmdə isə bu bir vəzifədir. Kültür və tarix bağları ilə mənəvi birlik təşkil edən bir millətin fərdləri, topluluğun ortaq mənfəətlərini qorumaq üçün öz şəxsi hırs (sonsuz arzu) və mənfəətlərini hüdudlandırmaq məcburiyyətindədirlər. Topluluğun mənfəətlərini təmsil edən müəssisə dövlətdir.

*"Fərdin mənəvi mənliyini təşkil edən ortaqlı bütün qiymətlərin qaynağı milli cəmiyyət, onu təmsil edən də dövlətdir. Fərd, digər fərdlərlə ortaq olduğu bu mənəvi mənliklə özünə məxsus mənfəətlərdən ibarət maddi mənlik arasında ixtilaf çıxınca, maddiliyini mənəviliyinə fəda etmək məcburiyyətindədir. Hürr və kamil insan olmaq fəzilətinin hökmü bundan başqa ola bilməz. Dövlətlər, millətlər və cəmiyyətlər ancaq "canlarını cananlarına fəda edə bilən" bu kimi əzaya (üzvlərə) malik olduqları zaman paydar (uzunömürlü, davamlı) ola bilirlər.*

*Madam ki, milliyyətçiyik deyirik; madam ki, milli dövlət istiqlalını müdafiə edirik, o halda bizim üçün nə kosmopolit liberalizmə və nə də kommunizmə təhəmmül (yönəlmə) caiz (düzgün, uyğun) ola bilməz. Bizcə, müdafiə ediləcək yeganə sosial sistem milli təsanüd sistemidir"* [5, s.27-28].

Milli həmrəyliklə bağlı Rusiyanın təcrübəsini tənqid edən M.Ə.Rəsulzadə milli həmrəyliyin əsil mahiyyətini aydınlaşdırmışdır. O, "Demokrasinin gələcəyi" məqaləsində bərabərliyi və həmrəylik fəlsəfəsini müqayisəli təhlil etmişdir. O, musavatçılıq ideyasını sosial-demokratizmlə üzlaşdırır. F.Ələkbərli M.Ə.Rəsulza-dənin musavatçılığının bəzi qusurlarına baxmayaraq "Milli sosial dövlətçilik təlimin olduğunu göstərir. *"Rəsulzadənin 1920-ci illərin ortalarından etibarən müdafiə və təbliğ etdiyi Milli təsanüdçülüyün (solidarizm-həmrəylik təlimi) kökü müsavatçılqla (milli sosial bərabərliklə) bağlıdır*" [1, s.230-231].

Böyük öndər Rəsulzadə hesab edir ki, müsavat prinsipinin mütləq və mücərrəd surətdə tətbiqi də bizi əsil məqsədə çatdırmır. Belə ki, müsavatın mütləq surətdə tətbiqi hürriyyət məhfumu ilə təzad təşkil edir. O, yazırdı: *"Siyasi hüquqda müsavat mümkün, iqtisadi fəaliyyət xüsusunda müsavat qabili-təsəvvür olsa da, şəxsiyyətlərdəki xüsusiyyətlərin mənən eyni dərəceyi-təsavidə görülməsi caiz deyildir. bütün xüsusiyyətləri eyni təzyiq altında əzən "müsavat" həqiqi hürriyyət və fərdi zəkayı əzən bir afət olur".* [2,s.373]

Rəsulzadəyə görə, fərdi hürriyyətin mütləq şəkli ilə ictimai hakimiyyətin mütləqiyyəti arasında təsanüdüçülk-həmrəylik ən doğru yoldur, çünki solidarizmdə həm fərdin azadlıqları, həm də siniflərin istəkləri demokratiya, hüquq çərçivəsində nəzərə alınır.*" Bu baxımdan da, təsanüdçülük yalnız demokratik quruluşda, hüquqi dövlətdə gerçəkləşə bilər. Başqa sözlə, qeyri-demokratik, yəni avtoritar, totalitar, hərbi diktatura, teokratik kimi quruluşlarda həmrəylik-solidarizm mümkün deyildir"[1,s.234].* Bununla əlaqədar o, yazırdı: *"Siyasi relatizm"ə təhəmmül etməyən hər hansı sistemdə təsanüdçülüyün bu xüsusiyyətləri bütün qüvvəsilə inkişaf etməkdən məhrumdur*"[2,s.380].

Rəsulzadənin fikrincə, demokratiya ilə yanaşı hüquq da solidarizm üçün çox önəmlidir. Çünki millətə, cəmiyyətə aid hüquqla fərdin hüququ arasında uzlaşdırmanın olması təsanüdçülüyün əsas prinsiplərindən biridir. *"Onun fikrincə, hazırda nəinki zor gücünə qurulmuş sosialist cəmiyyətlərdə, heç liberal-demokratik toplumlarda da hüququn bu iki xüsusiyyəti arasında uzlaşdırmanı istənilən şəkildə reallaşdırmaq mümkün olmamışdı*"[1,s.235].

M.Ə.Rəsulzadə belə nəticəyə gəlirdi ki, indivudalizm (fərdiyyətçilik) və universalizm (külliyyət) arasındakı məsələdə ən doğru yol təsanüdçülüklə bağlıdır. Çünki yalnız solidarizmdə həm fərdin, həm də ümuminin maraqlarına cavab vermək mümkün olur*." Eyni zamanda, milli təsanüdüçülkdə sosial məsələ ilə milli məsələ arasında uzlaşdırma da mümkündür. Rəsulzadəyə görə məmləkəti əcnəbi düşmənin qanlı istilası altında inləyən millətin fərdi heç bir zaman inqilabi sosializmin arxasınca getməz*"[1,s.236].

Böyük öndər yazırdı: *"Bizcə hər cür islahatı rədd edən əski qafalı mürtəcelər milli vəhdət, milli inkişaf və milli istiqlal üçün müzürr olduqları kimi, milli vəhdət və bu vəhdəti təşkil edən siniflər arasında təsanüd və müsahiləyi inkar ilə sinif mücadiləsini atəşləyən kommunistlər də eyni dərəcədə müzürrdürlər. Biz hər cür sinif diktatorluğunun əleyhindəyiz. Hədəfimiz millətin vəhdəti, istiqlalı və hürriyyətidir. Bizi bu hədəfə doğru götürən vasıtə isə gələcəyi heç də şübhə doğurmayan təsanüdçü demokrasi məfkurəsidir!"* [2,s.404]

Rəsulzadənin fikrincə, hökumət demək, Leninin təbrincə, həddi zatında bir sinfin digər sinifləri əzmək və özünə tabe etmək üçün qurmuş olduğu cəbr makinasından başqa bir şey deyildir. Bunun üçün də Marksa görə, əmələnin nə vətəni, nə də milləti var. Vətən və millət hissindən məhrum olan bu insanlar zümrəsi - proletariat burjua "diktatorluqlarını" devirərək, öz hakimiyyətini quracaq və tədricən bütün sinifləri ortadan qaldıraraq sinifsiz və təzadsız bir cəmiyyət yaradacaqmış." *Hürriyyət və mülkiyyət prinsipləri üzərində qurulan mədəniyyəti bütün əsərləri ilə inkara qalxışan bu müfrit cərəyan, yeni bir mütləqiyyət idealı doğuryor ki, onun ən kamil və ən amansız müməssili kommunizm və Rusiyadakı misalı isə bolşevizmdir… Nə fərdi hürriyyətlə şəxsi mülkiyyətin mütləqiyyətindən doğan kapitalist anarxiya ilə sərmayə istibdadı, nə də insanları mənliyindən çıxararaq, bir kölə və makina halına gətirən kommunizm əsarəti! Nə mütləq liberalizm, nə də mütləq kollektivizm! O halda: İkisini təlif edən solidarizm = təsanüd*".[4,s.25]

M.Ə.Rəsulzadə "Millət olmaq əzmi" məqaləsində yazır: *"Millət anlamını ifadə üçün dilimizdə iki söz vardır: milliyyət və millət. Bunlardan birincisi lisani (dil), dini, irqi, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsiri ilə meydana gələn etnik bir topluluğu ifadə edər. İkincisi isə bu topluluqda doğan ümumi bir iradəni anladır.*

*Lisanları, adətləri, tarıxləri, dinləri, vətənləri və s. bir olan insanlar bir milliyyət təşkil edərlər, fəqət, bir milliyyətin millət halına keçməsi ümumi şüur və kollektiv [məşəri] iradənin təəssüsünə bağlıdır: Bu isə yalnız "ictima hafizə" vəzifəsini görən orqanın təşəkkülü ilə vücuda gəlir. Bu orqan müxtəlif zamanlara görə dəyişir*"[4,s.29].

M.Ə.Rəsulzadə göstərir ki, burjuaziyanın yaranması feodal sistemini dağıtdı. Ziyalı təbəqəsi yetişdi ki, bu da millətin şüurunu və iradəsini təmsil etdi. Bu sinif ən böyük vasitə ilə - mətbuat yolu ilə milliyyətdəki kollektiv iradəni formalaşdırdı. Beləliklə, milliyyət topluluğu bir millət olmaq əzminə gəldi. O, 28 mayda demokratik Azərbaycan topluluğunda milli həmrəyliyə əsaslanan millət olmaq iradəsi yaratdı.

M.Ə,Rəsulzadə milliyyəti etnik anlam, milləti isə siyasi anlam hesab edir: *"Statik bir keyfiyyət ərz edən milliyyət baxımından vətən coğrafi bir anlamdır. Halbuki şüur və iradəyə malik olan millət baxımından vətən, siyasi bir məna ifadə edər.Etnik bir özəllik ərz edən milliyyət mənsublarının yaşadığı bir yerdən ibarət olan coğrafi vətən dinamizmdən məhrum, passiv bir sevginin mövzusudur. Halbuki, siyasi şüur və dövlət olmaq əzminə malik olan bir millət üçün vətən eşqi aktiv bir hərəkət amilidir*"[4, s.31].

Rəsulzadə qeyd edir ki, millətçilik fikrinə inananların ilk vəzifəsi "Milli birlik"i mühafizə etməkdir. Bu, millətçilik fikrinin əsası və təməlidir. İnternasionalist və kosmopolit nəzəriyyələrlə ortaya atılan marksizm, kommunizm və anarxizm kimi doktrinlərin əsil qayəsi milli birlik və bütünlüyü sarsıtmaq, parçalamaq və pozmaqdır. *"İctimai sinif və zümrələr arasında ixtilaf və ziddiyyət təhriki və hüsumət ihdası (düşmənçilik) bu məqsədlə edilir. Halbuki həqiqi millətçilərin üzərinə tərəddüb (düşən) edən qutsal qayə uzun sürəkli tarixin məhsulu olan milli varlığı bütün fəzilətləri, gələnək və görənəkləri, kültür və ədəbiyyatı ilə qorumaq, yaşatmaq və gəlişdirməkdir*" [4,s.33].

*"Bəşər kültürünün bu qədər çeşidli, zəngin və feyzli mənzərələr ərz etməsi, onun bir çox əski və yeni millətlərin davamlı və məzbuhanə (durmadan) çalışmaları nəticəsində doğulmuş olmasındadır. Dünyada internasional, kosmopolit və ya qeyri-milli kültür deyə bir şey yoxdur. Müxtəlif millətlərin əməyi sayəsində hüsula gələn (yaranan) və hələ hər millətin damğasını üzərində daşıyan bir dünya kültür mənzuməsi və ya məcmuəsi vardır.*

*Bu kültür mənzuməsində əski türklərin çox böyük və ən mühüm bir rolu olmuşdur. Bu rol istiqbalda (gələcəkdə) heç şübhəsiz daha böyük olacaqdır".*[4,s.33]

Beləliklə, böyük öndər M.Ə.Rəsulzadə XX əsrin əvvəllərində Azərbaycan türklərinin milli həmrəylik konsepsiyasının formalaşmasına mühüm töhfə vermişdir. Məhz bu konsepsiya Azərbaycan türklərinin siyasi oyanışında, milli özünüdərkinin artmasında, milli dirçəliş ideologiyasının formalaşmasında və inkişafında həlledici rol oynamış, son nəticədə Azərbaycanın istiqlaliyyətinin elan edilməsinə səbəb olmuşdur. XX əsr Azərbaycan ictimai-siyasi fikir tarixinin ən parlaq simalarından biri olan M.Ə. Rəsulzadə Azərbaycan türklərinin milli kimliyinin və dövlətçiliyinin əsasını təşkil edən milli həmrəylik konsepsiyasını yaratmişdir. Rəsulzadə və ADR-in digər rəhbərləri mühacirətdə də milli həmrəylik konsepsiyası və Azərbaycan idealı uğrunda mübarizəni davam etdirmişlər.

## ƏDƏBİYYAT


1. Ələkbərli, F. M.Ə.Rəsulzadənin sosial-fəlsəfi görüşləri: milli həmrəylik və azərbaycançılıq.- Bakı: Elm və təhsil. 2022, -494 s.
2. Rəsulzadə, M.Ə. Əsərləri (mühacirət dövrü: Türkiyə 1922-1929). I cild. -Bakı: "OL" npkt, 2016, - 480 s.
3. Rəsulzadə, M.Ə. Əsərləri. C. 2.(1909-1914). İkinci nəşri.-Bakı: Təhsil, 2014, - 528 s.
4. Rəsulzadə, M.Ə. Milli birlik. -Bakı: "Çıraq" nəşriyyatı, 2009. - 176 s.
5. Rəsulzadə, M.Ə.. Milli təsanüd //Rəsulzadə M.Ə. Milli birlik. Bakı Çıraq nəşriyyatı, 2009, -s.24-28
6. Resulzade, M.Ə. Milli tesanüd.- Ankara: Kardeş matbaası, 1978,- 143 s.
7. Балаев, А. Мамед Эмин Расулзаде (1884-1955). Политический портрет. Баку: Kitab Klubu.org, 2014, -504 с.


## M.Ə.RƏSULZADƏNİN DÜNYAGÖRÜŞÜNDƏ HƏMRƏYLİK İDEYALARI

***Ağasəlim Həsənov***

### Xülasə

Məqalədə M.Ə.Rəsulzadənin həmrəylik ideyalarına dair olan baxışları sosial-fəlsəfi aspektdən araşdırılmışdır. Belə ki, məqalədə Rəsulzadənin həmrəylik təliminin mahiyyəti açıqlanır, onun inkişaf istiqamətləri və mövcud prinsipləri təhlil olunur. Məqalədə qeyd olunur ki, Rəsulzadənin sosial-fəlsəfi dünyagöründə demokratizm, liberalizm, solidarizm, milli təsanüdçülük təlimlərinin təfsiri xüsusi yer tutmuşdur. Milli həmrəylik təliminin banisi kimi Rəsulzadə ifrat solçuluğa və radikal millətçiliyə qarşı çıxaraq onlar arasında ən doğru

yolun milli həmrəyliyin olduğunu göstərmişdir. M.Ə.Rəsulzadə milli həmrəyliyi milli dövlətçilik uzlaşdıraraq onu ümumbəşəri fenomen kimi təqdim etmişdir.

## SOLIDARITY IDEAS IN M.A. RASULZADE'S WORLDVIEW

**Aghasalim Hasanov**

**Summary**

The paper studies M.A. Rasulzade's views on solidarity ideas from a socio-philosophical aspect. Thus, it explains the essence of Rasulzade's solidarity doctrine and analyzes its development areas and existing principles. The paper notes that in Rasulzade's socio-philosophical worldview, the interpretation of the doctrines of democracy, liberalism, solidarity, and national solidarity takes a special place. As the author of the national solidarity doctrine, Rasulzade opposed extreme leftism and radical nationalism and showed that national solidarity is the most proper middle ground between them. M.A. Rasulzade reconciled national solidarity with national statehood and presented it as a universal phenomenon.

# MEHMET EMİN RESULZADE'NİN "MİLLİ TESANÜTÇÜLÜK" SİSTEMİ ÜZERİNE DÜŞÜNCELER

***Dr. Gülara Yenisey***
***Kırklareli Üniversitesi, İktisadi ve İdari Bilimler Fakültesi Öğretim Üyesi***
*yenisey_az@yahoo.com*

***Anahtar kelimeler:*** siyasal demokrasi, sosyal demokrasi, milli tesanütçülük, musavat, Resulzade
***Key words:*** Political democracy, Social democracy, national solidarity, musavat, Resulzade

20 yüzyıl marksizmle liberalizm arasındaki çok şiddetli mücadeleye sahne olmuş bir yüzyıl olmuştur. Geçen yüzyılın başlarında dünyada iki siyasal model ortaya çıkmıştır. Bunlardan bir tanesi Amerika'nın eski cumhurbaşkanlarından Woodrow Wilson'un ilk kez uygulamaya koyduğu **siyasal demokrasi modeli** olmuştur. Felsefi temeli "Manchester Ekolüne" uzanan ve iktisadi liberalizmi temel alan söz konusu model, iktidarın serbest seçimlerle işbaşına gelmesini ve fertlerin sınırsız özgürlüğünü öne sürüyordu.

İkinci modelin kurucusu Lenin'dir. Bu model, felsefi temelini marksizm teşkil eden **sosyal demokrasi modelidir**. Sosyal demokrasi modeli insanların sosyal açıdan eşit olması, toplum içinde her bireyin eşit fırsatlara, olanaklara sahip olması gerektiğini savunmaktadır. **Siyasal demokraside** sadece siyasal hak ve özgürlükler önemli addedilerek, fertlerin her türlü serbestliği önde gelmektedir. Bireyselciliği temel aldığı için bu rejim, devlet aygıtını mümkün olduğunca küçültmeğe çalışmaktadır. Liberalizm adı altında orman kanunları ile yönetilen iktisadiyat toplumda sosyal dengenin şiddetli şekilde bozulmasına, insanlar arasında maddi uçurumların oluşmasına ve sonuçta sosyal demokrasinin tamamen yok olmasına neden olmaktadır. **Sosyal demokrasi modelinde** ise iktisadiyat tamamen devlet kontrolü altında olduğu için insanlar sosyal açıdan göreceli eşitliye sahip olsalar da siyasal bakımdan baskılara maruz kalmaktalar.

Proletaryanın diktatörlüğü altında ezilen bu toplumda her türlü siyasal hak ve özgürlüklerden mahrum kalan insanlar, her şeyi kontrolü altında tutan, bireysel özgürlük ve özel mülkiyet kavramını kökünden reddeden devletin ağırlığı altında köleye çevrilirler. Oysa, tanınmış Fransız sosyal bilimci **Moris Douverge** 1952 yılında yazmış olduğu **"Siyasal Rejimler"** kitabında [1, s.27] "**gerçek demokrasinin yalnızca siyasal demokrasi ile sosyal demokrasinin birlikte var olduğu bir rejimde mevcut olduğunu"** öne sürmekteydi. Buradan anlaşılacağı üzere, 20. yüzyılın birinci çeyreğinde ortaya çıkmış her iki devlet modeli gerçek demokrasiye uygun değildi. Ne Wilson'un uygulamış olduğu liberalizm temelli siyasal demokrasi modeli, ne de Lenin'in Rus ve gayri Ruslara zorla kabullendirdiği marksizm temelli sosyal demokrasi modeli ideal model olmaktan çok uzak olup, yarım, eksik ve noksanlı idi.

Ne yazık ki, insan oğlu 20. yüzyılda güç ve enerjisini bu iki siyasal model arasındaki rekabete ve şiddetli çatışmaya harcadı. 1. Dünya Savaşından sonra biçimlenmeğe başlayan **iki kutuplu dünya** 2. Dünya savaşından sonra dünyamızı iki rakip sisteme, iki düşman bloğa böldü. Bu durum 20. yüzyılın sonuna kadar, yani 1991 yılında Sovyet bloğunun dağılmasına değin devam etti. Artık insan oğlu, her türlü baskı ve kısıtlamalarla insanları köle eden **Sovyet sistemini ve dolayısıyla bu sistemin dayandığı sosyal demokrasi modelini denemiş, yanlış ve eksik olduğunu anlayarak bu modelden vaz geçmişti**. Sovyet modelinden yüz çeviren ülkeler ve bu ülkelerin bireysel hak ve özgürlüklere aç insanları bu defa da liberalizmin cazibesine kapılarak yüzlerini öbür modele, yani siyasal demokrasi modeline çevirdiler.

**Marksizm mağlup olmuş, liberalizm ise zahirde galebe çalmıştı.** İşin gerçek mahiyeti ise bambaşkaydı. Bir modelden vaz geçmek, toplum içinde sosyal güvenlik meselelerini göz ardı ederek öbür modele tamamen körü körüne yönelmeyi gerektirmez. **G**erçek, M. Douverge'nin ifade ettiği ana fikirde yatmaktadır. Meşhur Fransız sosyologunun geçen asrın ortalarında dile getirmiş olduğu bu düşüncelerin daha asrın başlarında Azerbaycanlı büyük düşünür ve görkemli devlet adamı Mehmet Emin Resulzade tarafından teorik temelleri atılmış ve hatta kısa süreliğine devlet kuruculuğunda uygulanmıştı**.** Bilindiği üzere, Resulzade [2, s.56], Doğu'da kurulmuş ilk cumhuriyet olan Azerbaycan Demokratik Cumhuriyetinin [3, s.94] kurucularından olup, bir yıl devlet başkanlığı yapmıştır. **Resulzade, dehası ve büyük uzak görenliği sayesinde hele asrın başlarında - 20. yüzyılı meşgul edecek bu iki meşhur modelin ortaya çıkmaya başladığı dönemde gerçekleri anlamış, yanlış yollara sapmamış ve en doğru yolu tutarak orijinal bir devlet modeli yaratmıştır.**

O dönemde ilk olarak, liberalizm bir tez olarak ortaya çıktı. Daha sonra ona karşı bir antitez olarak marksizm doğdu. **Bu iki tezatlı fikrin, yani klasik liberalizmle kolektivist marksizmin sentezinden üçüncü bir sistem – Solidarizm teşekkül etti.** Yaşamının büyük bir kısmını Türkiye'de yaşamış olan Azerbaycanlı içtimai ve fikir adamı **Kerim Oder** konuyla ilgili düşüncelerini şöyle ifade etmektedir : "Bu sistemde fertler ne toplumun kölesi haline getirilmiş, ne de sınırsızz bir kapitalist istismara imkan verilmiştir ve iddia edilmiştir ki, hürriyet ile güvenliğin birlikte yürümesi mümkündür... **Mehmet Emin Resulzade'nin kurucusu olduğu "Musavat"** [4; 7] **partisinin temel ideolojisi "Tesanütçülük" adı altında toplanabilen fikriyat üzerinde kurulmuştur.**

Musavatçılar bu yeni ideolojiyi kurarken Fransız solidaristlerden faydalanmışlar. Özellikle, "tesanütçülük" teriminin yaygın olarak bir iktisadi dünya görüşü şeklinde kullanılması 1889 yılında Fransa'da "Yeni Mektep" mensuplarında görülmüştür. Bu mektebin **t**eorik görüşü "cemiyette yaşayan her insanın diğer insanlara borçlu olduğu" fikrine dayanmaktaydı. Bu görüşe göre "Bir insanın bedeninde organların birinde hastalık ortaya çıktığı zaman bu hastalığa karşı bütün bedenin seferber olup savaştığı gibi, cemiyet içinde de sağlam üyeler hasta organlara yardim etmelidir ve bu bir önemli görev olmalıdır". Fikirleri Fransız solidaristlerinkine benzeyen Mehmet Emin Resulzade ise kendi düşüncesini bu şekilde dile getirmiştir: "**Liberal cemiyette başkalarını düşünmek kahramanlık sayılır. Solidarizmde ise bu bir vazifedir"** [5, s.56]**.**

Solidarizmi savunan Musavatçılıkta "Fert, kanun önünde her cihetten musavi (eşit) ve tam hukuklu bir vatandaş olup medeni, siyasal, akidevi ve fikri özgürlüklerden istifade etmektedir. (Yeni Program Es. Bölüm 2 madde 5). İktisadi özgürlüğe gelince: "Ticaret ve mübadile serbesttir. Mülkiyet hakkı esastır. (Madde 9)", "Köylü sürüp ektiği toprağa tamamen sahip olup topraktan aldığı mahsulden istediği gibi yararlanarak, serbest pazarda serbest şekilde satabilir" (madde C) [6, s.24].

Yukarıda adı geçen maddeler, liberal özellikler taşımaktalar ve Musavat Programında iktisadi özgürlük tamamen garanti altına alınmıştır. Fakat **iktisadi özgürlüğün iktisadi başıboşluk ve istismara çevrilmesini engellemek için** Programda diğer dengeleyici maddelere de yer verilmiştir. Bunlardan bazıları: toprak mülkiyeti hududunun belirleneceği; umumi fayda namına bazı toprak sahalarının özel mülkiyetten tecrit edileceği; büyük mülkiyet ve müesseselerin devlet ve ya içtimai müesseseler tarafından idare olunacağı; yeraltı zenginliklerin devlete ait olacağı; bir çok hallerde devletin ve mahalli idarelerin nezaret ve himaye etme fonksiyonlarının yer aldığı vb. hükümlerdir.

Solidarizm cemiyet ve sınıflaşma gerçeğini kabul etmekle birlikte "**fert eqoizmi ile cemiyet menfaatleri arasında ahenk** kurmaya çalişir ve bunu uygarlığın önemli şartı sayar". **Musavatçı Solidarizmde cemiyet ile ferdin haklarına saygı gösterilir, sosyal sınıflar milli bir ahengin zaruri ve korunmaya değer bölümleri olarak görülür ve**

**nihayet cemiyetin kendisi hürriyet ve güvenlik içindeki fertlerin mütesanit topluluğu olarak tarif edilir** [6, s.26]**.**

Musavatçi sosyal tesanütçülerin Fransız meslektaşları ile içtimai siyaset meselelerinde tamamen hemfikir olduğunu görüyoruz. “Musavat” partisinin Programını incelediğimiz zaman Azerbaycanlı tesanütçülerin sosyal güvenlik konularında Fransız solidaristlere oranla daha da ileri gittiklerine ve cemiyet içinde sosyal demokrasini daha da genişlettiklerine tanık oluyoruz.

Böylece, Mehmet Emin Resulzade [8, s.24-37; 11] yuz yıl önce Azerbaycan devletçiliyi [9] tarihinde yeni bir dönemi başlatarak, Azerbaycan Demokratik Cumhuriyetini [10, s.23] kurmuş, büyük sağduyu ve uzak görenlikle yeni devletin siyasal rejim ve idare etme sistemini o devrin çalkantılı, karışık günlerinde en doğru şekilde belirlemiştir:”

**Madem ki biz milliçiyiz, madem ki biz millet istiklalini müdafaa ediyoruz, bizim için kozmopolit liberalizme ve beynelmilelci sosyalizm veya komünizme tahammül caiz ola bilmez. Müdafaa ettiğimiz ve edeceğimiz yegane sosyal sistem Milli Tesanüt Sistemidir".** Göründüğü gibi, o devirde yeni Azerbaycan devletinin teorik ve pratik temelleri çok sağlam bir şekilde atılmış ve eğer bu genç devlet Sovyet istilasına uğramasaydı, belki de bugün dünyanın en gelişmiş, sosyal düzeni en adaletli devletlerinden birisi olabilirdi.

Bugün Batı’da uygulanmakta olan siyasal demokrasiye dayalı liberal sistem, neo-liberal modeliyle doruğa ulaşmış durumdadır. Fukuyama vb. Batılı filozoflar bu dönemi liberal modelin son durağı olarak “tarihin sonu” şeklinde nitelendirmekteler.

Çoğu Batılı filozoflar sonraki dönem için sosyal içerikli politikaların ağırlık kazanacağını ve kaçınılmaz olarak toplum içinde bireyler arasında sosyal adaletin sağlanmasına yönelik reformların yapılacağını öngörmekteler. Sonuç olarak, neo-liberal modelden sonraki dönem sosyal demokrasi ile siyasal demokrasi modellerinin bir nevi “karışımının”, “karmasının” yer alacağı yeni bir model olacaktır. İşte bu model, M.E Resulzadenin yüz yıl önce önermiş olduğu “Milli Tesanütçülük” modelinden başkası değildir.

Günümüzde Türkiye’nin ve diğer Türk Cumhuriyetlerinin istikrarlı büyümesi ve kalkınması için Milli Tesanütçülük sisteminden öğrenecek çok şey vardır. Demokratik geleneklere sadık kalınarak, Milli Tesanütçülük anlayışı daha da genişletilmelidir. Bu amaçla, çağdaş Avrupa ülkelerinin, özellikle de İskandinav devletlerinin sosyal demokrasi deneyimlerinden faydalanarak bütün ülke vatandaşlarının eşit hak ve özgürlüklerinin yanı sıra yaşam koşullarının maddi alanda da eşitlik prensibine göre düzenlenmesine özen gösterilmelidir. Maddi uçurumların, yaşam koşullarındaki korkunç eşitsizliklerin yaşandığı hiçbir ülkede istikrar ve refahın sağlandığı görülmemiştir.

## Kaynakça


1. Douverge Moris, *Siyasal Rejimler,* 1952
2. Resulzade Mehmet Emin, *Kafkasya Türkleri*, Türk Dünyası Araştırmaları Vakfı Yayınları, İstanbul 1993
3. Şerif Mehmet, (haz. Faris Şaşan). “Azerbaycan ve İnkılabı”, *Tarih Dergisi,* Türk Dünyası Araştırmaları Vakfı, sy.94, Şubat 1995, s.69-91
4. Resulzade Mehmet Emin, *Azerbaycan Cumhuriyeti*, İstanbul, 1990.
5. Mehmetzade Mirza Bala*, Millî Azerbaycan Hareketi-Millî Azerbaycan ‘‘Müsavat’’ Halk Fırkası Tarihi,* Berlin, 1938
6. Oder Kerim, *Milli Azerbaycan Musavat Halk Partisinin 50. yıl özel sayısı* Azerbaycan Kültür Derneği Yayınları, Ankara 1968
7. Yakublu Nesiman*, Musavat Partiyasının Sorgu Kitabı*, Bakı, 1998

8. Şimşir Sebahattin, ‘‘Maverayı Kafkasya’nın İstiklali ve Azerbaycan Cumhuriyeti’’,*Tarih Dergisi,* Türk Dünyası Araştırmaları Vakfı, sy.92, Ekim 1994, s.24-37.4
9. Swietochowski Tadeusz*, Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı 1905-1920* (çev. Nuray Mert), İstanbul, Bağlam, 1988.

10. Resulzade Mehmet Emin, "On Senelik Azim ve Cihat", Azeri Türk, cilt 1, no 9, 1928

11. Hüseyin Baykara, “Azerbaycan İstiklal Mücadelesi tarihi”İstanbul, Gençlik Basımevi, 1975

## MEHMET EMİN RESULZADE’NİN “MİLLİ TESANÜTÇÜLÜK” SİSTEMİ ÜZERİNE DÜŞÜNCELER

***Gülara Yenisey***

**Xülasə**

Azerbaycan’ın büyük devlet adamı ve bilim insanı Mehmet Emin Resulzade bundan tam 100 yıl once o dönemde dünya sahnesine yeni çıkmakta olan iki sistemi: siyasal demokrasi ve sosyal demokrasi modellerini doğru analiz etmiş, içlerindeki mevcut hata ve eksiklikler yüzünden bu sistemlerin çökeceyi uyarısında bulunmuştu. İnsanoğlu deneme yanılma yöntemiyle bu sistemleri test etti ve Resulzade’nin öngörgüğü sonuca vardı: “her iki sistem hatalıydı”. Resulzade’nin doğru bir sistemin nasıl olması gerektiği ile ilgili yorum ve düşüncelerini toparladığı “Milli Tesanütçülük” sistemini yeniden tanıtmanın, özellikle Türk Dünyası için faydalı olacağı inancındayız.

## THOUGHTS ON “NATIONAL SOLIDARITY” SYSTEM OF M.A.RASULZADEH

***Gulara Yenisey***

**Summary**

The great statesman and scientist of Azerbaijan Mehmed Emin Resulzade 100 years ago has in right way analysed newly constructed systems: political democracy and social democracy models and made warning about the collapse because of defectiveness and faults in both systems. The mankind using the practice of experiment method have tested both systems and came to the result, which was farsighted by Resulzade : “both systems were faulted”. We believe that to introduce the system of “Milli Tesanütçülük (National Solidarity)” in which thoughts and comments of Resulzade about the true way of system were collected, will be useful especially for Turkic World.

# M.Ə.RƏSULZADƏ YARADICILIĞINDA AİLƏ VƏ QADIN PROBLEMİ

***Lalə Məcidova***
***AMEA-nın Fəlsəfə və Sosiologiya***
***İnstitutunun fəlsəfə üzrə doktorantı***
*majidlala604@gmail.com*

***Açar sözlər:*** Rəsulzadə, qadın azdlığı, ailə modeli, gender bərabərliyi, Şərq, Qərb, seçki hüququ
***Key words:*** Rasulzadeh, female minority, family model, gender equality, East, West, suffrage

M.Ə.Rəsulzadənin əsərlərində ailə modelinin əsasını qadın azadlığı təşkil edir. Məlum olduğu kimi, XX əsrin əvvəllərində Azərbaycan qadınları savadsızlıq və fanatik ənənələr səbəbindən ictimai-siyasi həyatdan təcrid olunmuş şəkildə yaşayıdılar. Bu dövrdə qadın azadlığının xalqın problemlərinin həllilə əlaqəli olması ideyasını irəli sürən Azərbaycanın ziyalı elitası xalqı maariflənməyə səsləyir, onlara hüquq və vəzifələrini çatdırmağa çalışirdılar. Bu mövzuya daha çox bağlı olmuş M.Ə.Rəsulzadə xalqın diqqətini ailə və qadın problemlərinə yönəldərək erkən nikaha və qadın zorakılığına qarşı çıxırdı.

M.Ə.Rəsulzadə “İqbal” qəzetinin 1913-cü il 28, 30 iyun, 5, 25, 28 iyul tarixli saylarında çap olunmuş “Türkiyədə qadınlar” məqaləsində Türkiyə, Avropa, İran və Qafqaz qadınlarının və ailələrinin vəziyyətini müqayisəli təhlil etmişdir:

*“Osmanlı həyati-ictimaiyyə və siyasiyyəsinə fövqəladə maraq edən əhalimizdən təsa elədiyim bir çoxlarının mənə verdikləri yuxarıdakı suala, mövzui-ümumi olduğu "İqbal" stunlarında cavab veriyoram: Türkiyə qadınları da əsas etibarı ilə bütün qadınların giriftar olduqları əsarət halındadırlar. Türkiyədə hakim ictimai nəzəri bütün Şərq məmləkətlərində olduğu kimi qadını aşağı cinsdən bir məxluq təl edər. Məəmafih İstanbul qadınlarının vəziyyəti-ictimaiyyələri İran qadınlarından Qafqasiya qadınlarından da müsaid bir haldadır. İranda bir kişi arvadilə bəra bayıra çıxmaz, arvadilə bərabər arabaya, faytona oturub da şəhər içində dolanmaz. Qafqasiyada isə biliriz ki, xanımların bazara çıxması, dükanlara gedib də alış-veriş eləməsi əfv olunmaz bir günahdır. Bunların heç birisi İstanbulda yoxdur. İstanbulda qadın hər yerə gedər, bazara da, meydana da, məsirə də, hər yanda görünür. Əri, qardaşı ilə, yaxınları ilə, arabaya, faytona da minər. Ancaq vəsaili — nəqliyyə barkas, konka, avtobus kimi ümumi olanlarda, yaxınlarilə də olsa kişilərlə bərabər olmaz. Bunlarda qadınlara məxsus bölmələr vardır ki, mütləq orada oturmalıdırlar. Yalnız bu cəhətdən İran və Qafqasiyaya nisbətlə sərbəstcə görünən İstanbul xanımının oturduğu ev əsarətin timsalı-müşəxxis bir "qəfəsə" ilə ayrılır. Müsəlman evlə bilaistisna pəncərələri taxtadan qayrılma bir reşotka ilə örtülür ki, buna "qəfəsə" deyilir. Bu nöqteyi-nəzərdən bizim xanımlar özlərini bir az azad hesab edə bilər, deyərlər: "biz quş kimi qəfəsdə deyiliz*". [6,s.234]Göründüyü kimi, müəllif müsəlman qadınların adı çəkilən Şərq ölkələrində əsarət altında yaşadıqlarını göstərir.

M.Ə.Rəsulzadə türk qadınlarını geyiminə görə bütün islam aləmi qadınlarına nümunə hesab edir.O, qeyd edir ki, İstanbulun coğrafi mövqeyi kimi hər şeydə Asiya ilə Avropanın vəhdəti gözə çarpar. Xülasə, İstanbul xanımının geyimi tamamilə bir Avropa qiyafəsinə bənzəyir. Belə geyim İstanbul xanımlarina Avropa qadınından daha çox gözəllik bəxş edir Bir az yaşa dolanlar üzü açıq gəzirlər. Cavan xanımlar piyada gedirkən üzü açıq, faytonda və digər nəqliyyat vasitələrində olduqları zaman üzlərini örtməzlər. Bu, şəhər içərisində geyilən rəsmi bir moda hesab edilirdi. Bundan əlavə şəhər xaricində geyilən və frenç deyilən bir libas da vardır ki, bu əbaya bənzər bir manto ilə ağ baş şərfindən ibarət sadə və sadə olduğu

qədər də ciddi bir paltardır. İstanbul xanımlarından modapərəst olanları da az deyildirlər. Bəziləri vardır ki, "açıq-saçıq" gəzərlər.

Məqalənin ikinci hissəsində Türkiyə qadınlarının aldığı tərbiyə və qadınlar arasında mövcud olan mənəvi və ictimai hərəkətlərdən bəhs edən M.Ə.Rəsulzadə göstərir ki, oxumaq və yazmaq bilən islam qadınları haqqında bir statistik təhlili aparılsa Türkiyə qadınları üstün bir mövqe qazanarlar: *"Avropa məktəbi kimi müntəzəm olmasa da, Türkiyədə mövcud digər məktəblər qeydindən Osmanlıda çox ibtidai ünas məktəblərilə bərabər ünasa məxsus rüşdi və edadi dərəcəsməktəblər də vardır. Xüsusi məktəblər də çoxdur: xalis qızlara məxsus olanları da qız və oğlan uşaqları ilə müştərək olanları da. Bunlardan əlavə İstanbul kübar ailələri qızlarını xüsusi surətdə oxutdururlar. Avropatərəfindən təsis olan ünas məktəblərinə də türklərdən nisbətən az da olsa gedəvardır. Məsələn, türk mühərrirlərindən məşhur Xalidə Ədib xanım əfəndi Amerika ünas mədrəsəsindən nəşət etmiş bir faziləttir"[6,s.234].*

M.Ə.Rəsulzadə göstərir ki, yoxsul ailələr qızlarına ancaq ibtidai təlim verməklə kifayətləndikləri halda, yüksək təbəqədən olanlar övladlarının türk dilində təhsillə almaları ilə bərabər, fransız dilini də öyrənməsinə çalışırdılar. Bunlardan əlavə qadınlar musiqini, rəsmini də öyrənir, ədəbiyyatla məşğul olurdular.Poeziya, şeir öyrənmək istanbullu kubar xanımların istəkli məşğələsi idi. Əcnəbidillərdən fransızcadan başqa qadınlar arasinda ingiliscə də təhsil alanlar var idi.

Bu da ingilis və Amerika məktəblərində təhsil alan qızlara nəsib olardı.Türk xanımları yalnız oxumaqla qalmazlar. Onların bir çox kişilərə belə müyəssər olmadıqları mühərrirələri də vardır. Binnət Osman, Fatimə Aliyə xanımları Qafqaz oxucuları da tanıyırdılar. Onlar haqqında Bakı qəzetlərində bəzi məlumat verilmişdir. Xalidə Ədib xanım türklərin ən fəal və həssas ədiblərindəndir. Gözəl üslubu ilə olduqca sadə dildə yazardı. Xalidə xanım romançıdır. O, gözəl ingiliscə bilir, ingiliscə oxuyur və fransızca da mükəmməl bilirdi. Bir zamanlar Avropaya səyahət etmiş, Avropalılar arasmda böyük şöhrəti və hörməti vardır. Bəzi ingilis və fransız jurnallarında da məqalələrlə çıxış edirdi.

*"Təbii aralarında bu qədər alimləri və ədibləri olan İstanbul xanımlarından özləməxsus mətbuat ilə yenə özlərinə məxsus blr həyati-ictimai gözləmək haqqları var. Bu xüsusda da müşahidətimiz azadəlikdir. Daha məşrutiyyətdən əvvəl Əbdülhəmtəxsisiyyətiiə də olsa "Qadınlara məxsus qəzetə" namilə bir qəzetə nəşr olunuyor.Məşrutiyyət elan olunduqdan sonra məzkur qəzetə bağlandı. Ondan sonra müxünvanlarla bir neçə qadin qəzetəsi təsis olunmuşsa da, bir növ payidar olmayaraq olunmuşdur. Qadın qəzetələrinin bu surətiə ayaq tutması bir baxışda gostəriyor. İstanbul qadınları arasında hənuz lazım olduğu qədər maarif təlim edilmədiyi qadınlıq hiss və əfkarı da hənuz təsis etməmısdr. Halbuki, İstanbul qadınlığı tamahəyati-ümumiyyə və ictimaiyyədən məhrum deyildir. Bəlkə bir nəzərdən aləmi-islam İstanbul qadınlıq hərəkəti nöqteyi-nəzərindən ən birinci nöqtədir. Burada əbədilik bularaq "Qadınlar dünyası" namində bir qəzetə nəşr olunuyor. Bu qəzetə əvvçıxmaqda olan qadın qəzetələrinə nisbətən, maddətən aşağı bir dərəcədə isə də məonlardan yüksəkdir." .[6,s.238]*

Çünki, bu vaxta qədər qadınlar üçün nəşr olunan qəzetlər əksəriyyət tərəfindən təhrir olunurdu. Halbuki "Qadınlar dünyası"nı ancaq qadınlar nəşr edir, müdiri — məsul mühərrirləri də, idarə edənləri də qadınlardır. Qadınların özlərinə məxsus "Təali nisvan" adlı cəmiyyətləri də vardır.Cəmiyyətin məqsədi qadınları inkişaf etdirmək, yüksəltmək, onları ruhən qüvvətli etmək və özlərinin insan kimi yaşamalı olduqlarını onlara bildirməkdir.Müəllif qeyd edir ki, cəmiyyətlər qadınlar üçün ümumi mühazirələr tərtib edirdi. Mühazirələri xətibələr oxuyurdular. Əksər hallarda cəmiyyətin idarəsi məşhur kişi xətiblərini də qadınlara mühazirə oxumaq üçün dəvət edərdi. İstanbulda buna irad etməzdilər. Ərlər arvadları üçün üçün xütbə də oxuyarlar, möizə də edərdilər. Mühazirə oxuduqdan sonra, onları teatra da gətirirdilər.Teatrlar məxsusən iki tərəflidir. Həmişə hansı bir pyes tamaşaya qoyulardusa onlara gündüzlər qadınlar, axşamlar isə kişilər baxardılar.

Məqaləsinin üçüncü hissəsini görkəmli şəxsiyyət Türkiyə qadınlarının azadlıqları uğrunda göstərdikləri bəzi təşəbbüslərə və Türkiyədə qadın məsələsi haqqındakı nəzəriyyələrə həsr etmişdir. Burada göstərilir ki, Türkiyədə qadın heyəti hökumətə müraciətlə qadınların azadlıqları və tərəqqilərini təmin edəcək qannların qəbul edilməsini istəmişdirlər. Türkiyədə müsəlmanların da qadın haqqındakı nəzərləri əsas etibarı ilə Qafqazdakının eynidir.

Türkiyədə hansı bir hökumət iş başına gəlirsə, özünü əhaliyə bəyəndirmək üçün əvvəlcə qadınlar haqqında bir qərar nəşr etdirərdi.Lakin qadıniarın azadlığı məqsədini şərh edən mətbuata Türkiyədə yer yoxdur. Məsələn, "Təhrir-əlmərrat"nın bundan əvvəl türkcəyə tərcümə olunan nüsxələri müsadirə edilmişdir. Türkiyə hökuməti Avropaya təhsil almağa göndərdiyi bir neçə qız tələbənin də geri qaytarılmasını qərara almışdir.Buna səbəb kimi Avropaya göndəriləcək tələbələrin xristiyan olacağı göstərilmişdirir.Lakin məsələnin bu cür həllinə müsəlman qızları etiraz etmişdilər. Qəzetlərə göndərilən məktublarda türk xanımları bu qərarın əsassız olduğunu isbat etmişdilər. Cavanlar arasında qadınların azadlığının tərəfdarı olanlar get-gedə çoxalırdı.

*"İndi türklər özlərində dəxi bu kimi xüsusı surətdə təfrid etmiş və yaxın ailələr arasında kişilərdən gizlənməyən xanımlar vardır və bunlar getdikcə çoxalır. Əlbəttə hər yerdə olduğu kimi Türkıyədə də qələbə gəncliyindir. Yalnız hümmət istər ki; gənclərin qələbələrini sıyasi mövqelər ehrazından ziyadə bu kimi əsasların müzəffəris görsünlər və onun üçün çalışsınlar. Bütün müsəlman aləminə bərabər Türkiyə də bilməlidır ki, ailə əsarəti və ailə istibdadı (zülmü) üzərinə təşkil edilən millətlər heç bir vaxt ailə hürriyyəti və ailə səadəti məbna-ları (özülləri) üstündə qurulan millətlərlə mübarizə edə bilməzlər. Qadın bir millətin nisfi-mühümmünü (mühüm yarısını) təşkil edir. O, aciz isə, hüquqsuz və mərifətsiz olursa, millətin yarısı xəstə və məflucdur (iflicdir) – deməkdir. Qasım bəy Əmin mərdümşikə məfluc bir adamla səhih üləza bir ad bərabər olamaz və xəstə adam bəlildir ki, sağ və salim bir adamla döyüşə də bilməz." [6,s.246]*

M.Ə.Rəsulzadə millətin inkişafı üçün ailələrdə qadınlara zülm etməkdən xilas olmağın zəruriliyini göstərirdı.O bildirirdi ki, millətimiz gələcəkdə bir fəlakətə uğrayarsa, bunun səbəbi qadınlardır, qadınlardakı maarifsizlikdir. Türk övladı gələcəkdə sürətlə, fəal addımlarla tərəqqiyə və mədəniyyətə doğru irəliləyərsə, yenə bunun səbəbi də qadınlardır. Onlardakı maarifpərvərlikdir. Milli və mədəni işlərimizdə hər hansi məsələyə nəzər yetirsək – əmin olmalıyiq ki, – ilk baxışda, ilk addımda analarımızı görəcəgik. *"Onunçun hər şeydən əvvəl qadın məsələsinə, tərbiyəsinə, qadın məarifinə baxmalı, xanım qızlarımızı ciddi, sabit, sarsılmaz bir fəaliyyətlə məarif və tərəqqi üfüqlərinə doğru sövq etməli, yüksəltməli və hürriyyət günəşindən kəcbi-nur etmələrinə daima səy və qeyrət etməli-dir (çalışmalıdır)"[4,s.165].*

1917-ci il mayın 1-dən 11-dək Moskvada keçirilmiş Ümumrusiya Müsəlmanları qurultayında Məhəmməd Əmin Rəsulzadə müsəlman qadınının azad edilməsini müsəlman xalqlarının milli-azadlıq mübarizəsinin ən mühüm məsələlərindən biri kimi qiymətləndirirdi.Qurultayın onuncu məclisində "Qadın və qız " məsələsi müzakirə edilərkən ailə məsələsinə xüsusi önəm verən M.Ə.Rəsul-zadə bildirdi ki, seçmək və seçilmək işləri müsəlman qadınları üçün yeni bir işdir. Qadınlar bu vaxta qədər ictimai işlərdə iştirak etmədiyindən ailədə ərlər qadınların seçki yerlərinə getmələrinə qarşı durduqlarına görə xalqın yarısı olan qadınların səsini qazanmaq üçün qurultaya seçkilər vaxtı hər bir qadının seçkidə iştirak etməsi borc olsun.Səs vermək üçün qadınlara kişilərdən ayrı yer verilsin.Rusiya müsəlmanları arasında erkən nikaha son qoyulsun.Erkən nikahlar, xüsusən qızların 11-12 yaşlarında ərə verilməsi ailədə qadınların zəifləməsinə, xəstələnməsinə, zəif övladların dünyaya gəlməsinə, gənc nəslin gücsüzlüyünə səbəb olur.Buna görə də o, 16 yaşdan aşağı qızların nikaha girməsinin qadağan olunmasını təklif edir. O, tövsiyə edir ki,

millətin sağlamlığı üçün nikah vaxtı oğlanın da qızın da yoluxma xəstəliklərinin olmadığına dair şəhadətlərinin olması tələb olunsun.M.Ə.Rəsulzadə deyirdi:

*"Çox vaxt ailədə ər ilə arvad arasınada uyuşmazlıq olduğundan qadın ərindən ayrılıb gediyor.Bu surətdə ər arvadına talaq verməyincə bu iş qadın üçün cəbr və ailədəki balaların tərbiyəsi üçün zərərli olduğundan nikiah vəqtində dəfələrlə qeyd etməlidir ki, əgər ər ilə arvad arasında uyuşmazlıq olsa, qadının ərindən ayrılma haqqı vardır."[7,s.213]*

O, ailədə ərin səbəbsiz olaraq arvadının üstünə ikinci arvad alması adətinə qarşı çıxaraq yazır: " *bu oyun-oyuncaq kibi işlərin sui-nəticəyə səbəb olduğunu nəzərə alıb nikah vəqtində kişinin dilindən bir kağız alınmalıdır ki. Arvadının üstünə ikinci bir arvad almasın.Əgər başqa bir səbəb ilə ikinci bir qadın alsa əvvəlinci arvadının nəfəqəsinin versin" [7,s.214]*

M.Ə.Rəsulzadə müsəlman qadınların bütün siyasi və mülki hüquqda ərlərilə bərabər olmasının tərəfdarı idi:

*"Bütün digər xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadın dustaqlıqda qala bilməz və qalmamalıdır" [7,s.214]*

Bu fikirlər 1918-ci il mayın 28-də AXC-nin qəbul etdiyi İstiqlal Bəyannaməsinin IV bəndində bərabərhüquqluluq prinsipinin, seçmək və seçilmək hüququnun təsbit edilməsi ilə öz qanuni təsdiqini tapmış oldu: *"Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir"*.[1,s.6]

Hüquqi və siyasi baxımdan Azərbaycan qadınını tam hürriyyətə və insan haqlarına qovuşduran bu qərarın türk və müsəlman aləmində qüvvətli bir inqilabi əhəmiyyəti oldu. İstiqlal Bəyannaməsinin digər maddələri kimi bu maddə də Azərbaycan xalqının tarixi təkamülünün məntiqi nəticəsi idi. M.Ə.Rəsulzadə gender bərabərliyini önə çəkirdi*:" Arkadaşlar! Arvad məsələsində cahilanə təəssüf etməyiniz. Çünki, bu təəssüf nəinki müsəlmançılığımıza və millətimizə xidmət etməz, bəlkə bizi seçkidə əgəliyyət-də (azlıqda) buraxmaq ilə ixtiyarımızı əlimizdən alar ki, bu da ki, nə şəriətə və nə də millətə müavinət (kömək) degil, zərər yetirər və bu da bizi şəriət və milliyyətimiz qarşısında məsul və xəcil edər. Biz də böylə məsuliyyətli və tarixi zamanda bu məsuliyyəti və bu xəcaləti öz öhdəmizə götürməməliyiz. Arvadlı – kişili seçkilərdə iştirak etməli və öz işlərimizin ixtiyarını öz əlimizə almalıyız. [8,s.78]*

Bununla da Azərbaycan Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkə oldu. Müsəlman dünyasında ilk dəfə olaraq kişilərlə bərabər, qadınlara seçki hüququnun verilməsi tarixi nailiyyət hesab olunurdu. Çünki həmin dövrdə seçki sistemində gender bərabərliyi prinsipi nəinki müsəlman Şərqində, hətta Avropa dövlətlərinin böyük əksəriyyətində öz həllini tapmamışdır. Hələ XVIII əsrin sonlarında seçki hüququ uğrunda mübarizəyə başlamış ABŞ qadınları bu hüquqlarına yalnız 1920-ci ildə senat tərəfindən Konstitusiyaya edilmiş qadınlara səs hüququ verən 19-cu düzəlişlə qovuşdular. "*Bundan əlavə, 1919-cu ildə Avstriyada, Almaniyada, Niderlandda, Polşada, İsveçdə, Lüksemburqda, 1918-ci ildə İngiltərədə yalnız ərli qadınlar üçün (tam şəkildə isə 1928-ci ildə), 1931-ci ildə İspaniya və Portuqaliyada, 1946-cı ildə Fransada, 1970-ci ildə İsveçrədə qadınlara seçki hüququ verilmişdir* "[2,s.11]. Göründüyü kimi, nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ- dan əvvəl qadınlara siyasi proseslərə qoşulmaq hüququ Azərbaycanda verilmişdir.

1918-ci il dekabrın 7-də fəaliyyətə başlayan Azərbaycan Parlamentinə keçirilmiş seçkilərdə qadınlar da iştirak etdi. Qadın problemi Parlamentin diqqətdə saxladığı əsas məsələlərdən idi. "*AXC Parlamentinin 10 dekabr 1918-ci il tarixində keçirilmiş II iclasında Azərbaycan qadınlarına İslam aləmində ilk dəfə olaraq seçilmək hüququ rəsmi dövlət səviyyəsində verildi."* [5,s.91]

Azərbaycanlı qadınların seçki hüquqlarının möhkəmləndirilməsi istiqa-mətində atılan növbəti addım bu hüquqların AXC-nin "Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə"də öz əksini tapdı. AXC-nin Müəssislər Məclisinə seçkilər çox vaxt və ciddi hazırlıq tələb edirdi, mürəkkəb siyasi vəziyyət isə hər gün yeni məsələlərin həllini irəli sürürdü. Mövcud çətinliklərə rəğmən Parlament bir sıra hüquqi aktlar, o cümlədən "Müəssislər Məclisinə seçkilər haqqında" Qanun qəbul etdi. 1919-cu il iyulun 21 -də qəbul edilən qanunda dövlətin hakimiyyət orqanlarına qadınların seçmək və seçilmək hüquqları bir daha öz təsdiqini tapdı. Cümhuriyyət hökumətinin qadınlara seçki hüququ vermək niyyətini bir daha əyani şəkildə sübut edən, 4 fəsildən və 116 bənddən ibarət olan həmin əsasnamədə deyilirdi:

- I fəsil: *"Müəssislər Məclisi əhali tərəfindən cinsindən asılı olmayaraq və bərabər seçki hüququ əsasında, birbaşa və gizli səsvermə vasitəsi ilə, mütənasib nümayəndəlik əsasları təmin edilərək seçilən üzvlərdən ibarətdir".*

- *II fəsil: "Müəssislər Məclisinə seçkilərdə səsvermə gününədək 20 yaşı tamam olmuş hər iki cinsdən olan respublika vətəndaşları iştirak hüququna malikdirlər".* [1,s.7]

Cümhuriyyətin ictimai xadimlərindən olmuş Mirzə Bala Məmmədzadə bu barədə yazmışdı: *"Qadınlar sair vətəndaşlarla bərabər vətəni və siyasi hüquq kəsb edirdilər ki, bu hal bütün Şərqdə deyil, Avropada belə tamamilə tətbiq edilmiş deyildi. Azərbaycan milli xartiyası bu qərar ilə nə qədər ülvi, bəşəri və mədəni qayələrlə doymuş olduğunu isbat etməkdədir*" [3,s.142]

Beləliklə, M.Ə.Rəsulzadə qadınların azadlığına, hüquq bərəbərlinə, maariflənməsinə əsaslanan müasir, modern Şərq və Qərb ənənələrinin vəhdətini özündə ehtiva edən ailə modeli irəli sürmüşdür.

Məhz bu ideyalar əsasında Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra qadın hüquqlarının, o cümlədən ictimai həyatda fəaliyyətinin artırılması istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, Avropa və Amerika ölkələrindən xeyli əvvəl qadınlara seçki hüququnun verilməsi, qadınların təhsil və mədəni səviyyələrinin inkişafına xüsusi diqqət göstərilməsi və s. AXC- nin yürütdüyü dövlət siyasətinin mahiyyətini əyani şəkildə səciyyələndirirdi. Ölkə Parlamenti tərəfindən qəbul edilmiş qanunlar, xüsusilə 16 yaşmadək uşaqların işləməsinə qadağa qoyulması, qadınların səhhətinə və fiziki imkanlarına uyğun olmayan işlərə götürülməməsi, hamilə qadınlara güzəştlər edilməsi, müəssisələrdə işləyən qadınların südəmər uşaqları üçün xüsusi yerlərin ayrılması, uşaq bağçalarının açılması, məktəblərin sayının artırılması və bu kimi qərarlar Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlar üçün yaradılan imkanların parlaq nümunəsidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Cümhuriyyəti Hökumət qanun və binagüzarlıqları məcmuəsi //1919, № 1.s.5-7
2. Qadın hüquqlarının müdafiəsi: beynəlxalq və milli aspektlər. Bakı: 2018..s.
3. Məmmədzadə M.B. // Azərbaycan Milli Xartiyası (28 mayis, İstiqlal Bəyannaməsi) // "Azərbaycan" jurnalı. Bakı: 1991, № 4, s 132-149.
4. Nerəyə gediyoruz ?//"Açıq söz", 19 may 1917, № 487/ Məhəmməd Əmin Rəsulzadə Əsərləri IV cild (1909–1914) . İkinci nəşr, Bakı: Təhsil, 2014, s.160-165
5. Nəsirova Turan. Azərbaycan Xalq Cümhuriyyətinin qadin siyasəti// Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı Dövlət və Din - № 01 (60) 2019, s.90-98
6. Rəsulzadə M.Ə. Türkiyədə qadınlar// Məhəmməd Əmin Rəsulzadə Əsərləri II cild (1909–1914) . İkinci nəşr, Bakı: Təhsil, 2014, s.234-246

7. Ümumrusiya müsəlmanlarının syezdi.//"Açıq söz" qəzeti 24 may 1917,№480// Məhəmməd Əmin Rəsulzadə. Əsərləri IV cild (1909–1914) . İkinci nəşr, Bakı:Təhsil, 2014, s.169-222

8. Yaqublu N.Məhəmməd Əmin Rəsulzadənin Ensiklopediyası. Bakı: Kitab Yükü, 2013,- 506 s.

## M.Ə.RƏSULZADƏ YARADICILIĞINDA AİLƏ VƏ QADIN PROBLEMİ

***Lalə Məcidova***

**Xülasə**

Məqalədə M.Ə.Rəsulzadənin yaradıcılığında ailə və qadın problemləri, o cümlədən istibdadı, azadlığı, erkən nikah məsələləri, Türkiyə, Avropa, İran və Qafqaz qadınlarının və ailələrinin vəziyyətini müqayisəli təhlili araşdırılmışdır. Araşdırmada qeyd edilir ki, M.Ə.Rəsulzadənin qadınların azadlığına, hüquq bərəbərlinə, maariflənməsinə əsaslanan müasir, modern Şərq və Qərb ənənələrinin vəhdətini özündə ehtiva edən ailə modeli səviyyəsində Azərbaycan Müsəlman şərqində qadınlara seçmək və seçilmək hüququ verən ilk demokratik ölkə olmuşdur. Bu mənada müsəlman dünyasında ilk dəfə olaraq kişilərlə bərabər, qadınlara seçki hüququnun verilməsi tarixi nailiyyət hesab olunur. Yazıda maraq doğuran məqamlardan biri də həmin dövrdə seçki sistemində gender bərabərliyi prinsipi məhz müsəlman Şərqində deyil, hətta Avropa ölkələrinin böyük əksəriyyətində öz hüquqi həllini tapmamışdır.

## THE İSSUE OF FAMİLY AND WOMEN İN THE WORKS OF M.A.RASULZADE

***Lala Majidova***

**Summary**

In the article, the family and women's problems in M.A. Rasulzade's work, including tyranny, freedom, issues of early marriage, comparative analysis of the situation of Turkish, European, Iranian and Caucasian women and their families are examined. It is noted in the study that Azerbaijan was the first democratic country in the Muslim East to give women the right to vote and be elected at the level of the family model of M.A. Rasulzadeh, which includes the unity of modern, modern Eastern and Western traditions based on women's freedom, equal rights, and education. In this sense, for the first time in the Muslim world, giving women the right to vote, equal to men, is considered a historical achievement. One of the points of interest in the article is that the principle of gender equality in the electoral system at that time did not find its legal solution not only in the Muslim East, but even in the vast majority of European countries.

# MÜNDƏRİCAT

Nəsib Nəsibli. M.Ə.RƏSULZADƏNİN TÜRKLÜYÜ VƏ TÜRKÇÜLÜYÜ ................ 6

Nəsiman Yaqublu. MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN MƏTBUAT YAZILARI ................................................................................................ 14

Firdovsiyyə Əhmədova. M.Ə.RƏSULZADƏ AZƏRBAYCAN MİLLİ HƏRƏKATININ İDEOLOQU KİMİ ............................................................ 25

Faiq Ələkbərli. MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN DÜNYAGÖRÜŞÜNDƏ AZƏRBAYCANÇILIQ İDEYASININ FƏLSƏFİ MAHİYYƏTİ .................. 34

Abbasova Qızılgül. MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN SİYASİ LEKSİKASI ................................................................................................ 49

Məmməd Rzayev. MİLLİ ŞÜURUN FORMALAŞMASINDA MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ İDEYALARININ ROLU ........................................................... 57

Azər Mustafayev. M.Ə.RƏSULZADƏ VƏ "MOLLANƏSRƏDDİN"ÇİLƏR............... 66

Rafail Əhmədli. MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN DİNİ BAXIŞLARI .......... 72

Sebahattin Şimşir. MEHMET EMİN RESULZADE VE MUHACİRLERİN TÜRKİYE'DEN SÜRGÜN EDİLMESİNDE SOVYETLER BİRLİĞİ İLE TÜRKİYE ARASINDAKİ PARİS ANLAŞMASININ ROLÜ ...................................... 76

Hüseyn Qaraşov, Zeynəddin Şabanov. MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ VƏ AXC DÖVRÜNDƏ İLK DEMOKRATİK HƏMKARLAR İTTİFAQLARI .............. 81

Vahid Ömərov. M.Ə.RƏSULZADƏ VƏ GÜRCÜSTAN ............................................. 86

Müstəqil Ağayev. MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ETİK VƏ ESTETİK GÖRÜŞLƏRİ....................................................................................... 93

Ağasəlim Həsənov. MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN DÜNYAGÖRÜŞÜNDƏ HƏMRƏYLİK İDEYALARI ............................................. 99

Gülara Yenisey. MEHMET EMİN RESULZADE'NİN "MİLLİ TESANÜTÇÜLÜK" SİSTEMİ ÜZERİNE DÜŞÜNCELER.................................................................. 106

Lalə Məcidova. M.Ə.RƏSULZADƏ YARADICILIĞINDA AİLƏ VƏ QADIN PROBLEMİ............................................................................................................ 110

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR
PROBLEMLƏRİ
MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ – 140

# ELMİ ƏSƏRLƏR TOPLUSU

**XÜSUSİ BURAXILIŞ**

Kompüter dizaynı: **Vüsalə Musayeva**

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Leyla Məmmədli, Ömər Qasımlı

Çapa imzalanmışdır: 26.12.2024
Format: 60×84 1/8
Şərti çap vərəqi – 14,75
Sifariş № 1107
Tiraj – 100 nüsxə

“Füyuzat” nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850 98 69
e-mail: fuyuzat2020@gmail.com